**ASİF ATA**

# ON QUTSAL BİTİQ

## VII. YETMƏLİ OLDUĞUNUZ

**ASİF ATA (İNAM ATA)**

# ON QUTSAL BİTİQ

**(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)**

***Yeddinci Bitiq:***

# YETMƏLİ OLDUĞUNUZ

Atakənd
30-il
**Türkün (İlk) Ruhaniyyat Ocağı –**

**Asif Atanın (İnam Atanın)**
**Mütləqə İnam Ocağı**

**ASİF ATA**
On Qutsal Bitiq (On Müqəddəs Kitab). Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı. Yeddinci Bitiq: Yetməli olduğunuz. Atakənd. 30-il.

Asif Atanın "Onluğu" Türk xalqından başlayan Yeni Bəşər İnamının nəzəri əsaslarını və fəlsəfəsini özündə daşıyır. Ona görə də dünyabaxış özüllü bu kitabı təkcə yurdumuzun oxucularına deyil, bütövlükdə İnsanlığa təqdim edirik.

Yeddinci Bitiq – "Yetməli Olduğunuz" – on Müqəddəs Kitabı özündə birləşdirir: Adamlıq – İnsanlıq; Adamdan İnsana; İnsana Yaramaq; Özümlük – Özgəlik; Dünənçilik – Sabahçılıq; İnsanilikdən Yaranan; Müqəddəslik; İnsanilik İmkanı; Həqiqət İnsaniliyi; İnsanilik.

## *İNSANLAŞMAQ*

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.

Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

# ADAMLIQ – İNSANLIQ

(On İkinci Müqəddəs Kitab)

## 1. ÖLƏN – ÖLMƏYƏN

Diş düşür.
Sifət qırışır.
Bədən çürüyür.

Ruh düşmür.
Ruh qırışmır.
Ruh çürümür.

***Adam ölür.***
***İnsan ölmür.***

## 2. HƏYAT XİDMƏTİ

Adam ölümə layiqdir.
Ancaq Adamın İnsan olmaq imkanı var.
***Ölüm İnsana yaraşmır.***
***Bu səbəbdən də Həyat Adamdakı İnsanı öldürməyə çalışır.***
***Həyat ölümə xidmət göstərir.***

## 3. HEYVANLIQ – İNSANLIQ

Cinsi münasibət vasitəsilə Adam cismani Ata olur.
Cinsi münasibət vasitəsilə Adam cismani Ana olur.

Cismani Ata olmaq üçün Adam əvvəlcə heyvan olur.
Cismani Ana olmaq üçün Adam əvvəlcə heyvan olur.

***Ruhani Atada heyvan ölür.***
***Ruhani Anada heyvan ölür.***

## 4. FƏRQ

**I**

Həyat Adamı olur – həyat İnsanı olmur.
Amal İnsanı olur – amal Adamı olmur.

**II**

Adam – heyvan təzadı olmur,
İnsan – heyvan təzadı olur.

**III**

Adam heyvandan fərqlənir,
İnsan heyvana qarşı durur.

**IV**

Ömrün çox hissəsində – Adam Heyvana yaxın olur, az hissəsində – İnsana.

**V**

Adam Heyvana bənzəyir, İnsan özünə.

**VI**

Həyat Heyvana Yarayır, adamı Yarıdır, İnsana Yaramır.

## 5. AZLIQ

Hər Adamda bir az İnsanlıq var!
Ancaq bu "bir az" o qədər azdır ki!

## 6. SƏCİYYƏLƏR

Adam – Heyvandan üstün.
İnsan – Adamdan Üstün.
Adam – törəyir.
İnsan – yetişir.

## 7. TƏRİF

***İnsan – Adamdar.***

## 8. BİÇİM

***Həyat Adamın boyuna biçilib, bu səbəbdən də İnsanın boyuna çatmır.***

## 9. TƏHLÜKƏ

***Adamlıqda Səhlləşmək təhlükəsi var.***

## 10. İKİSİNDƏN BİRİ

Yuxudaydım: Adamı İnsan sanırdım.
Ayıldım: gördüm ki, Adam heyvan olub.
***Adam İnsan olmayanda heyvan olur.***

## 11. ADAMLAR

Quldur da Adamdır.
Cəllad da Adamdır.
Qatil də Adamdır.
Əyyaş da Adamdır...
***İnsandan başqa hər kəs Adamdır.***

## 12. ADAM YÜKÜ

“Niyə belə yavaş addımlayırsan, Adam?”
“Yüküm ağırdır. Daxilimdə bir bölük heyvan daşıyıram!”

## 13. ADAMDA YAŞAYANLAR

Adamda Yırtıcı yaşayır, Xudbin yaşayır, Xain yaşayır, Həris yaşayır, Erkək yaşayır, Dişi yaşayır.

***Adamda Antiinsan yaşayır!***

## 14. ADAM MƏĞRURLUĞU

Mənəmlik.

## 15. İNSAN MƏĞRURLUĞU

Mənlik.

## 16. ADAM ƏZƏMƏTİ

İmtiyaz.

## 17. İNSAN ƏZƏMƏTİ

İnam.

## 18. MƏRHƏLƏLƏR

Heyvanlıq – sürülük.
Adamlıq – ictimailik.
İnsanlıq – ruhanilik.

## 19. ƏSRİMİZ

Adam çoxluğu – insan qıtlığı.

## 20. TƏZADLAR

Adam – zorlu.
İnsan – nurlu.

Adam – həvəsli.
İnsan – eşqli.

## 21. DÖVRLƏR

Adamın canavar dövrü olur, ilan dövrü olur, tülkü dövrü olur, qoyun dövrü olur...

***İnsanın təkcə İnsan dövrü olur.***

## 22. MƏNŞƏ

Adam Doğulur – İnsan Yaranır.

## 23. TƏRİF

Həyat – Adamın Bağçası, İnsanın Səhrası.

## 24. EVLADLAR

Heyvan – Təbiətin Evladı,
Adam – Həyatın Evladı.
İnsan – Ruhun Evladı.

## 25. FƏRQ

Zəmanə Adamı olur, Zəmanə İnsanı olmur.

## 26. DÖYƏN – DÖYÜLƏN

Şər Adamın əliylə Döyür, İnsanın əliylə Döyülür.

## 27. CƏMİYYƏT

İnsan – dustaq.
Adam – gözətçi.

## 28. İNSAN DAĞI

Sinəyə çəkilən Dağdan möhtəşəm Dağ varmı?

## 29. SAYILMAYAN

Adamın dərisini soymurlar,
Adamı çarmıxa çəkmirlər,
Adamı tonqalda yandırmırlar...
***Adamı İnsan saymırlar.***

## 30. GEN DÜNYA – DAR DÜNYA

Adam üçün Dünya gendir!
İnsan üçün Dünya dardır!

## 31. BÖYÜMƏ

Bəşər Məxluq kimi sürünür,
Adam kimi iməkləyir,
İnsan kimi yeriyir.

## 32. ADAM LƏYAQƏTİ

Elə Adam görmüsənmi ki, üzdə bir cür, arxada başqa cür danışmasın?!
Elə Adam görmüsənmi ki, bəd ayaqda qaçmasın?!
Elə Adam görmüsənmi ki, varidata alçalmasın?!
Elə Adam görmüsənmi ki, mənsəbə uymasın?!
Elə Adam görmüsənmi ki, şəhvətə şirnikməsin?!
***Elə Adam görmüsənmi ki, İnsan olsun?!***

## 33. ZƏMANƏ ÇAYI

Adamın başından yuxarı, İnsanın dizindən aşağı.

## 34. YAŞAYIŞ

Adam Həyatda yaşayır, İnsan Həyatın əhatəsində.

## 35. FƏRQ

Adam – maddiyyatçı.
İnsan – İdealçı.

## 36. BİÇİM – MƏZMUN

Doğuluş, Həyat, Ölüm – Biçimdir.
Amallaşma, Sabahlaşma, Mütləqləşmə – Məzmundur.

Adam Məzmuna çatmır, Biçimdə qalır.
İnsan Məzmuna çatır.

## 37. İQTİDARSIZLIQ

Təbiət Yer yaratdı, Göy yaratdı, İnsan yarada bilmədi.

## 38. XOŞBƏXTLİK – İNSANLIQ

Xoşbəxt olmaq üçün İnsan olmaq lazımdır.
Adamlar xoşbəxtliyin nə olduğunu bilmirlər.
***İnsan olmadan xoşbəxt olmaq istəyirlər.***

## 39. FƏRQ

İnsan Dünyadadır, ancaq Dünyanın deyil.
Adam Dünyadadır və Dünyanındır.

## 40. MƏNŞƏ

Adam – heyvanın davamıdır.
İnsan – heyvanın ölümü.

## 41. FƏLAKƏT

Adam daşlarından cəmiyyət Binası tikirlər və Bina uçub tökülür.

## 42. ADAMLAŞMAQ AQİBƏTİ

Hamı Adamdır və buna görə də heç kəs İnsan deyil!

## 43. ÇEVRİLMƏ

Adam heyvanlıqdan imtina edəndə Adam olmur, İnsan olur.

## 44. BƏŞƏR HEKAYƏTİ

Məxluq oldu,
Adam ola bildi,
İnsan ola bilmədi.

## 45. MÜQƏDDƏS İMKAN

Bəşərin bəşər olması.

## 46. TƏZAHÜRLƏR

Adam – gizli, İnsan – aşkar.
Adam – zahiri, İnsan – daxili.

## 47. HAL

Ətrafımda Adam dənizi gurlayır.
Daxilimdə İnsan bulağı qaynayır.

## 48. HƏYATLA TƏMAS

Adam Həyata yüksəlir, İnsan Həyata enir.

## 49. FƏRQLƏR

### *I. Adam Fərqi*

Meymun kimi təqlidçi.
Canavar kimi amansız.
Tülkü kimi bic.
Bir az da İnsan.
***Bu bir az İnsanlıq Adamı Heyvandan fərqləndirir.***

### *II. İnsan Fərqi*

Meymundan azad.
Canavardan azad.
Tülküdən azad.
***Adamdan uca.***

## 50. TƏHLÜKƏ

İtdən, pişikdən, canavardan, ilandan, tülküdən seçilməmək təhlükəsi var İnsan Həyatında.

## 51. CƏNNƏT – CƏHƏNNƏM

Adam üçün cənnət sayılan nə varsa – İnsan üçün cəhənnəmdir!

## 52. ADAM MƏHKƏMƏSİ

Zahiri çirkinlik bağışlanmır,
Daxili çirkinlik bağışlanır.

## 53. NATAMLIQ – TAMLIQ

Adam İnamında İnamsızlıq var.
Adam İdrakında İdraksızlıq var.
Adam Mənəviyyatında Mənəviyyatsızlıq var.
Adam İradəsində İradəsizlik var.
***Adamlıq – natamlıqdır.***
İnamlı olmaq üçün İnsan olmaq gərəkdir!
İdraklı olmaq üçün İnsan olmaq gərəkdir!
Mənəviyyatlı olmaq üçün İnsan olmaq gərəkdir!
İradəli olmaq üçün İnsan olmaq gərəkdir!
***İnsanlıq – tamlıqdır!***

## 54. FƏRQ

Adamda Ayıblı nə varsa, Adam ondan Törəyir.
Adamda Abırlı nə varsa, İnsan ondan Törəyir.

## 55. QAYĞI

Bir İnsani Qayğı var – İnsanlaşmaq!

## 56. TƏRİF

Adam – nəşədən törəyən.
İnsan – əzabdan yaranan.

## 57. CƏMİYYƏT

Cəmləşən Adamlar – Təkləşən İnsanlar.

## 58. NAŞILIQ

Adamı İnsan sayıb sevirlər.
İnsanı Adam sayıb sevmirlər.

## 59. FƏRQ

Adam yüz cür yaşayır, İnsan bir cür.

## 60. AQİBƏT

Faciədə adam məğlub olur, İnsan qələbə çalır.

## 61. SƏCİYYƏLƏR

Həyat – Adam istehsal eləyən Fabrik.
Amal – İnsan yaradan Emalatxana.

## 62. ADAM – XALQ

Adamların daxilində İnsani nə varsa – Birləşir və Xalq yaranır.

Adamların daxilində heyvani nə varsa – Birləşir və Antixalq törəyir.

***Adam – həm Xalqdır, həm də antixalq.***

## 63. XOŞBƏXTLİK – BƏDBƏXTLİK

Xoşbəxt Adam olmur.
Bədbəxt İnsan olmur.

# ADAMDAN İNSANA

## (Otuz Səkkizinci Müqəddəs Kitab)

**1**

Özündəki ***Canavarı*** öldürmək – Cəmiyyətdəki ***Canavarlığı*** öldürməkdir.

Özündəki Canavarlığı öldürmürsən – Cəmiyyətdəki Canavarlığı yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***Canavarı*** öldürmək – Ölkələrarası ***Canavarlığı*** öldürməkdir.

Özündəki Canavarı öldürmürsən – Ölkələrarası Canavarlığı yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

◆ ◆ ◆

Özündəki ***Tülkünü*** öldürmək – Cəmiyyətdəki ***Tülkülüyü*** öldürməkdir.

Özündəki Tülkünü öldürmürsən – Cəmiyyətdəki Tülkülüyü yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***Tülkünü*** öldürmək – Ölkələrarası ***Tülkülüyü*** öldürməkdir.

Özündəki Tülkünü öldürmürsən – Ölkələrarası Tülkülüyü yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

◆ ◆ ◆

Özündəki ***İlanı*** öldürmək – Cəmiyyətdəki ***İlanlığı*** öldürməkdir.

Özündəki İlanı öldürmürsən – Cəmiyyətdəki İlanlığı yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***İlanı*** öldürmək – Ölkələrarası ***İlanlığı*** öldürməkdir.

Özündəki İlanı öldürmürsən – Ölkələrarası İlanlığı yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

◆ ◆ ◆

Özündəki ***Ağanı*** öldürmək – Cəmiyyətdəki ***Ağalığı*** öldürməkdir.

Özündəki Ağanı öldürmürsən – Cəmiyyətdəki Ağalığı yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***Ağanı*** öldürmək – Ölkələrarası ***Ağalığı*** öldürməkdir.

Özündəki Ağanı öldürmürsən – Ölkələrarası Ağalığı yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

◆ ◆ ◆

Özündəki ***Nökəri*** öldürmək – Cəmiyyətdəki ***Nökərliyi*** öldürməkdir.

Özündəki Nökəri öldürmürsən – Cəmiyyətdəki Nökərliyi yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***Nökəri*** öldürmək – Ölkələrarası ***Nökərliyi*** öldürməkdir.

Özündəki Nökəri öldürmürsən – Ölkələrarası Nökərliyi yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

◆ ◆ ◆

Özündəki ***Təbəqəni*** öldürmək – Cəmiyyətdəki ***Təbəqəliyi*** öldürməkdir.

Özündəki Təbəqəni öldürmürsən – Cəmiyyətdəki Təbəqəliyi yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***Təbəqəni*** öldürmək – Ölkələrarası ***Təbəqəliyi*** öldürməkdir.

Özündəki Təbəqəni öldürmürsən – Ölkələrarası Təbəqəliyi yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

◆ ◆ ◆

Özündəki ***Yağını*** öldürmək – Cəmiyyətdəki ***Yağılığı*** öldürməkdir.

Özündəki Yağını öldürmürsən – Cəmiyyətdəki Yağılığı yaşadırsan.

***Cəmiyyət Adamdan başlayır – onu İnsandan başlamaq gərək.***

Özündəki ***Yağını*** öldürmək – Ölkələrarası ***Yağılığı*** öldürməkdir.

Özündəki Yağını öldürmürsən – Ölkələrarası Yağılığı yaşadırsan.

***Ölkələrarası münasibətlər Adamdan başlayır, onları İnsandan başlamaq gərək.***

## 2. AZADLIQ  QAYDASI

Adamdakı Canavardan Azad olmaq.
Adamdakı Tülküdən Azad olmaq.
Adamdakı İlandan Azad olmaq.

◆ ◆ ◆

Cəmiyyətdəki Ağalıqdan Azad olmaq.
Cəmiyyətdəki Nökərlikdən Azad olmaq.
Cəmiyyətdəki Təbəqəlikdən Azad olmaq.
Cəmiyyətdəki Yağılıqdan Azad olmaq.

◆ ◆ ◆

Ölkələrarası Ağalıqdan Azad olmaq.
Ölkələrarası Nökərlikdən Azad olmaq.
Ölkələrarası Təbəqəlikdən Azad olmaq.
Ölkələrarası Yağılıqdan Azad olmaq.

◆ ◆ ◆

***Dindən*** Azad olub – ***İnama*** Yetmək.
***Cəfəngiyyatdan*** Azad olub – ***Həqiqətə*** yetmək.
***Həqarətdən*** Azad olub – ***Mənəviyyata*** Yetmək.
***Heysizlikdən*** Azad olub – ***İradəyə*** Yetmək.

◆ ◆ ◆

Qaydasız Azadlıq – Əsarətdir.
Azadlıqsız Qayda – Qaydasızlıqdır.
***Azadlıq Qaydası gərək Dünyaya.***
***İnam Qaydası***
***İdrak Qaydası***
***Mənəviyyat Qaydası***
***İradə Qaydası***

## 3. ÖZÜMLƏŞMƏ DÜNYALIĞI

Dünyaya qatılmaq –Özümlüyünü itirməkdir.
Dünyadan təcrid olmaq–Dünyanı itirməkdir.

Hər ikisi bir bəladır.
***Özümləşməlisən ki, Dünyaya gərək olasan.***

## 4. AĞIL – DUYĞU

"Qızğın Ürək – Soyuq Ağıl" – anlayışı Siyasi Psixoloji Səthilikdir əslində.

Ağıl Duyğulu olur, Duyğu Ağıllı;
***Soyuq Ağıl isitmir, üşüdür. Üşüdən Ağıl – Həqiqətə yetmir.***
***Duyğulu Ağıl – Səthi Ağıl deyil – Qanadlı Ağıldır.***
***Duyğusuz Ağıl – Dərin Ağıl deyil – Qanadsız Ağıldır.***
***Duyğusuzluq – haradasa Ağılsızlıqdır.***
***Ağılsızlıq – haradasa Duyğusuzluqdur.***
***Ağıl – Dünyanı isidir.***
***Ağıl olmasaydı, Dünya İnsanı Dondurardı.***

## 5. VƏTƏNSEVƏRLİK – HAKİMİYYƏTSEVƏRLİK

Hakimiyyətsevərlik – əslində Vətənsevərliyə Ziddir.
***Hakimiyyətsevərlikdə Vətən – Məqsəd olmur, Vasitə olur.***
***Hakimiyyət  Məqsəd olur – Vasitə olmur.***

## 6

***Millət – əvəzsizdir, bənzərsizdir.***
Milləti – millətlə əvəz etməzsən.
Quruluşu – quruluşla əvəz edərsən – etməlisən.
Siyasi Yönü Siyasi Yönlə əvəz edərsən – etməlisən.
Millət Etnos Birliyi, Aqibət Birliyi  və Mədəniyyət Birliyidir.
Xalq – Millət deməkdir.
Millətdən kənarda xalq yoxdur.

◆ ◆ ◆

"Vətən – mənafe ifadəsidir" – demək səhvdir.
Vətən – özü ən böyük mənafedir.
Vətən – vasitə deyil, məqsəddir.

**7**

Başqasından aldığını özündə Əritməlisən ki, Başqasında Ərimәyəsən.

Milli Təməli möhkəmləndirməlisən ki, Başqasında ərimə-yəsən.

Milli Təməli Zəiflətmə Yoluyla irəliləmək – ərimәyə doğru irəliləməkdir.

**8**

Dünya Birliyi – yalnız ölkələr müxtəlifliyi, özünəməxsusluğu əsasında yarana bilər.

***Müxtəlifliyin, özünəməxsusluğun məhvi bahasına yaranan Dünya Birliyi əslində Zəbtçilikdir.***

Dünya ölkələrini sürətlə, inadlı, ardıcıl surətdə eyniləşdirirlər – Təzə Zəbtçilik imkanı genişlənir.

## 9. MÜƏSSİSƏLƏŞMƏ – İNSANLAŞMA

***Din*** – Məscidlərdə, Kilsələrdə – Müəssisələşir.

***İnam*** – Müəssisələrə sığmır – Ömürlərdə, Aqibətlərdə Yaşayır.

***Rəsmi Elm*** – Akademiyalarda, İnstitutlarda Müəssisələşir.

***İdrak*** – Müəssisələrə sığmır – Ömürlərdə, Aqibətlərdə Yaşayır.

***Rəsmi Əxlaq*** – Siyasi İdarələrdə, Qurumlarda Müəssisələşir.

***Mənəviyyat*** – Müəssisələrə sığmır – Ömürlərdə, Aqibətlərdə yaşayır.

***Rəsmi Fəallıq*** – Hakimiyyət Təşkilatlarında Müəssisələşir.

***İradə*** – Müəssisələrə sığmır – Ömürlərdə, Aqibətlərdə Yaşayır.

***Rəsmilik*** – Cəmiyyətlə Müəssisələşir.

***İnsanilik*** – Cəmiyyətə sığmır – Ömürlərdə, Aqibətlərdə Yaşayır.

**10**

Cəmiyyəti Meyar saymaq – Ağalığı meyar saymaqdır, Nökərliyi meyar saymaqdır, Təbəqəliyi meyar saymaqdır, Yağılığı meyar saymaqdır.

***Cəmiyyəti meyar saymaq – Meyarsızlıqdır əslində.***

## 11. XEYİRLİK – ŞƏRLİK

"Xeyirdən Şər törəyir" – deyirlər.

"***Xeyir Biçimində Şərdən*** – Şər törəyir" – demək gərək.

"Şərdən Xeyir törəyir" – deyirlər.

"***Şər sayılan Xeyirdən*** Xeyir törəyir" – demək gərək.

***Şər Xeyir Biçimində görünə bilir.***

***Xeyir Şər sayıla bilir.***

***Xeyir – Xeyirdir, Şər Şərdir.***

**12**

Həyat Ağacı – Xeyir kökündən yaranıb.

Şər Həyat Ağacına sarılıb – açılmır.

Adamlar Şəri Həyat Ağacından aça bilmirlər, qopara bilmirlər.

Bu səbəbdən də Həyat Ağacı İnsaniliyə Yetmir.

**13**

Şəri Əbədi bilirlər – Şərsiz həyata inanmırlar Dualistlər (İkilikçilər).

Əslində isə Həyatın Mahiyyətində Şər Yoxdur.

Bu səbəbdən də Həyatın Şərsizlik İmkanı var – Gerçəkləşməmiş.

***Adamın İnsanlıq İmkanı gerçəkləşdikcə, Həyatın Şərsizlik İmkanı gerçəkləşəcək.***

**14**

Xeyirə xidmət eləyən görünürlər – mənsəbə xidmət eləyirlər – Xeyiri mənsəbləşdirirlər.

Xeyirə xidmət eləyən görünürlər – Varidata xidmət eləyirlər – Xeyiri Varidat Alətinə çevirirlər.

Xeyirə xidmət eləyib Vəzifələnirlər, Təltiflənirlər, Vəsiqələnirlər.

Xeyirə xidmət eləyən görünürlər – Xudbinliyə xidmət eləyirlər.

***Xeyirdən Qazananlar artdıqca – Xeyirçilik azalır.***

Xeyirin Xeyirdən Böyük mükafatı Yoxdur.

***Xeyiri Mükafatlandırmaq – onu Əksiltməkdir.***

**15**

Əksliklər heç bir zaman Bir olmurlar.

***Onlar bir yerdə olurlar – Bir olmurlar.***

Xeyiri Xeyir eləyən – Şərsizlikdir.

Əksliklərin Vəhdəti – Dialektik Uydurmadır.

**16**

"Bir dövrdə Həqiqət olan – başqa dövrdə Yalan olur" – deyirlər.

Yalan olan Həqiqət – Həqiqət deyil, Yalandır; başqa dövr onun Yalanlığını aşkara çıxarır.

"Bir dövrdə Yalan olan – başqa dövrdə Həqiqət olur" – deyirlər.

Həqiqət olan Yalan – Yalan deyil, Həqiqətdir; başqa dövr onun həqiqətliyini aşkara çıxarır.

**17**

"Həyat Dəyişir, bu səbəbdən də Düşüncə dəyişir" – deyirlər.

Düşüncənin Həyatı Dəyişdirməsini bilmirlər.

"Düşüncə Həyatı dəyişir və Həyatı dəyişdirdikcə özü də dəyişir" – demək gərək.

**18**

Gerçəklikdə Təsdiq Nisbiliyi var.

Gerçəkliyin Mahiyyətində, Mənasında Təsdiq Mütləqliyi var.

Gerçəklikdə İnkar Nisbiliyi var.

Gerçəkliyiin Mahiyyətində, Mənasında İnkar Mütləqliyi var.

Bu səbəbdən də Gerçəklik Həqiqətin meyarı ola bilməz.

Həqiqətin Meyarı – Gerçəkliyin Mahiyyəti, Mənasıdır.

**19**

Gerçəklik səviyyəsində İnkişaf olmur.

***İnkişaf – gerçəkliyi ötməkdir.***

***Avantürist*** – Gerçəkliyi görmür, bu səbəbdən də onu ötmür.

Gerçəkliyi ötmək üçün onu görmək gərək.

***Opportunist*** – gerçəkliyin arxasında qalır.

***Müdrik – Gerçəkliyi görür ki, onu ötsün.***

**20**

***Hadisənin Səbəbi – Mahiyyətdir.***

Hadisə Mahiyyətdən yaranır.

Mahiyyət Hadisənin Özümlüyüdür.

Bu səbəbdən də hadisə ***Yaranır, Yaradılmır,*** yəni Hadisəni Özgə yaratmır, hadisə özündən Yaranır.

**21**

Ziddiyyətçilərə (Dialektiklərə) görə, həyatı Ziddiyyətlər irəli aparır.

Ziddiyyətlər olmasa, həyat irəliləməz.

Əslində isə Həyatı Ziddiyyətlərin aradan qaldırılması irəli aparır.

Həyat Ziddiyyətsizlik Yönü əsasında irəliləyir.

◆ ◆ ◆

Ziddiyyətsizlikdən Qorxmaq, Qaçmaq Xurafatı yaşayır Ziddiyyətçi (Dialektik) Şüurunda.

“Ziddiyyət olmasa, Dünya Dayanar, Donar” – deyirlər.

Əslində isə Dünya Axarını Ziddiyyət yaratsaydı, Ziddiyyətin aradan qaldırılması belə Zəruri, belə Təbii, belə Qaçılmaz olmazdı.

Bəşərin Ziddiyyətlərlə Döyüşməmək Məqamı olmayıb.

Ziddiyyətlə Döyüş gərəkliyini – Ziddiyyət gərəkliyiylə Eyniləşdirirlər; Yağını Yağıyla Döyüşlə Eyniləşdirirlər, Doğmalaşdırırlar.

◆ ◆ ◆

Kamilliyi, Nöqsansızlığı, Ziddiyyətsizliyi hərarətlə inkar edənlər var.

"Ziddiyyətsizlikdə İnsan İnkişafdan qalar, dayanar, donar" – deyirlər.

***Əslində isə Ziddiyyətsizlik Tam, Qəti, Bütöv İnkişafdır.***

Kamillikdə İnkişaf qurtarmır, başlayır; Burada İnsan Bütövlük üstə İnkişaf edir, Bütöv İnkişaf edir.

**22**

Dünyanın ən Mənasız, Mahiyyətsiz vəziyyətində belə – Dünyanın Mənasına, Mahiyyətinə inanmaq gərək.

Ən Amansız, ən Hökmlü, ən Zəhmli Şəraitdə, Mühitdə, Zamanda, Cəmiyyətdə belə – Şəraitləşməmək, Mühitləşməmək, Zamanlaşmamaq, Cəmiyyətləşməmək – Özümləşmək gərək.

Daxili Hakimə – Vicdana tapınmaq, Xarici Hakim tanımamaq gərək.

Təmənnaçılığı Yaşatmamaq – Təmənnasız yaşamaq gərək.

Gedişata qarşı dayanmaq – onda axmamaq, onu Nizamlamaq gərək.

**23**

Ruhunu İblisə verirsən ki, Cavanlığını Qaytarsın, Güclənəsən, Zənginlənəsən, əslində isə Ölürsən; Ruhsuzluq Ölümdür. Ölürsən ki, Diriləsən – Ruhunu İblisə verirsən ki, İblisdən can alasan.

İblis sənə gərək olur – Ruhsuz yaşayırsan; – Ölürsən – Yaşayan görünürsən.

***Avropa Faustluğunda Ucalmır – Enir; Artmır – Əksilir.***

Mefistofel Fausta gərək olursa, Faust Mefistofelə əl açırsa, Qüdrət Ruhsuzluqdan yaranırsa, deməli, İnsan dəhşət qarşısındadır.

Göte bu dəhşəti görmədi – Faşizm onu göstərdi.

◆ ◆ ◆

Don Juan qadınları aldadır və bununla da ad qazanır, alqışlanır, vəsf olunur, operalaşır, poemalaşır.

Qadınlığa qarşı iyrənc həqarətdən vəcdə gəlirlər.

Don Juan Məharətinə, Fərasətinə heyran olurlar.

Qadınlığı alçaldanı ucaldırlar.

***Ruhsuzluğu Güc sayırlar.***

◆ ◆ ◆

***Don Kixotda İdealçılığa güldülər.***

Əslində İdealçılıq heyrətə layiqdir.

Yel dəyirmanıyla döyüşən Don Kixot – Gülüncdür.

Amma Şər Azmanlarıyla Döyüşmək – Ləyaqətdir.

Şərin Azmanlığını bilə-bilə onunla Döyüşmək Əzmi, Cəsarəti, İnamı, İnadı – Gözəldir.

Servantes Don Kixota təkcə gülmür, həm də ona heyran olur.

Servantesin Don Kixota heyran olmağa İdrakı çatır.

***"İdealçılıq Bəsit Dünyada Gülünc olub" – bu dəhşətli Faciə Servantesi ayıldır.***

◆ ◆ ◆

Bodler Şər çiçəklərini tərənnüm elədi.

Ona qədər Xeyir çiçəkləri tərənnüm olunurdu.

***Bodler çiçəkləri Şərləşdirdi.***

Sonralar "Şər estetikası" Avropaya yayılmağa başladı, amma Şər çiçəklərində gözəllik açılmadı, ən nəfis bədiiyyat belə Şəri gözəlləşdirmədi.

Ən gözəl libasda belə Şər eybəcər bilindi.

◆ ◆ ◆

Freyd İnsan üzərində hərtərəfli Şəhvət Ağalığını uydurdu – İnsan Şəhvət əlində Oyuncağa çevrildi.

Ruhanilik – Cismaniliyə qurban verildi.

Heyvanilik – İnsani Mahiyyət əvəzi oldu.

Ruh – bədəndə itirildi.

◆ ◆ ◆

Nitşe Adamdakı Amansızlığı, Mərhəmətsizliyi, Hakimiyyət Ehtirasını vəcdlə vəsf etdi.

"Mərhəmət İnsanı kiçiltdi" – deyə çığırdı.

Guya mərhəmət Dünyada aşıb-daşırmış.

Guya Amansız Fövqəlinsan Qatilliyi Dünyanın xilasıymış.

Guya İnsaniliyin əksilməsi – İnsanın Artmasıymış.

◆ ◆ ◆

Avropa Üstünlüyü – Dillər əzbəridir.

Avropa Əskikliyi – Sükuta qərq olub.

***Əslində Avropa Əskikliyi yaşayır Dünyada – Ruhsuzluq Təhlükəsi.***

**24**

İnsanı Göründüyündən, Bilindiyindən, Olduğundan Artıq Saymaq gərək.

İnsanı Göründüyündən, Bilindiyindən, Olduğundan Artığa Çağırmaq gərək.

İnsanın Göründüyündən, Bilindiyindən, Olduğundan Artıq ola bilməsinə İnanmaq gərək.

*Köçəri Ayı, 18-ci il. Bakı*
*(Fevral 1997-ci il).*

# İNSANA   YARAMAQ
## (Otuz Altıncı Müqəddəs Kitab)

## 1. CƏMİYYƏTİ QORUYAN

Cəmiyyət Qanunları İnsanı qoruyan görünür, – əslində o, cəmiyyəti qoruyur – ***cəmiyyət – cəmiyyət qanunları vasitəsiylə özünü qoruyur.***

***Cəmiyyət Qanunları Ağalığı qoruyur əslində.***

Cəmiyyəti Xalq üçün yaranan bilirlər, görürlər, – əslində isə cəmiyyət əsas etibarilə Ağalıqdan yaranıb, Ağalıq üçün yaranıb.

Ağalıq meylindən, ehtirasından yaranıb.

Cəmiyyətin Ağalıqdan yaranması o qədər də bilinmir, görünmür, gizlədilir, pərdələnir, ancaq əslində cəmiyyəti yaradan ağalıq olub.

***Cəmiyyət ən çox Ağalıqdan yaranıb – cəmiyyət Ağalıq hökmündən, Tələbindən yaranıb, – Adamların bir qismi Ağa olmaq istəyiblər və cəmiyyət yaranıb – xalq üzərində hakimiyyət yaranıb – sonralar onu xalq hakimiyyəti adlandırıblar.***

Cəmiyyət ***Nökərlik*** üçün yaranıb – adamların çox qisminin rəiyyətləşməsi – ağalara xidmət etməsi üçün yaranıb – ancaq xalq üçün yaranan bilinib, görünüb.

Cəmiyyətin Nökərlik üçün yaranması gizlənilib, pərdələnib, – nökər nökər çağrılmayıb – Xalq çağrılıb, Vətəndaş çağrılıb.

Cəmiyyət Qanunları – Nökərliyi qoruyub, nökərliyi yaradıb; – xalqı qoruyan görünüb, bilinib.

Cəmiyyət – ***Təbəqəçilik*** üçün yaranıb – Yüksək Təbəqənin Aşağı Təbəqə üzərində Hakimiyyəti üçün – ancaq xalq üçün yaranan görünüb, bilinib; Cəmiyyət Qanunları Təbəqəçiliyi qorumaq üçün yaranıb, – Təbəqəçilik Qanunları olublar əslində.

***Cəmiyyət yaşadıqca Təbəqəçilik yaşayıb – cəmiyyət Təbəqəçiliyi yaşadıb.***

Xalqı Qoruyan bilinən, görünən Cəmiyyət Qanunları insanlar arasında ***Yadlığı*** qoruyub əslində.

Cəmiyyət yaşadıqca Yadlıq yaşayıb, – cəmiyyət, Yadlığı yaşadıb.

Cəmiyyət Azadlıq Qanunu elan edib – ***Ağalıq Azadlığını, Nökərlik Azadlığını, Təbəqəlik Azadlığını, Yadlıq Azadlığını Təsdiq edib.***

***Azadlıq Qanunu Əsarəti qoruyub.***

Cəmiyyət, ***Bərabərlik Qanunu*** elan edib – Ağalıq Bərabərsizliyini, Nökərlik Bərabərsizliyini, Təbəqəlik Bərabərsizliyini, Yadlıq Bərabərsizliyini Təsdiq edib.

***Bərabərlik Qanunu Bərabərsizliyi qoruyub.***

Cəmiyyət, Ədalət Qanunu icad edib – Ədalətsizliyi Təsdiq edib. Ədalətsizlik Ədalət adıyla Təsdiq olunub.

Ədalət Qanunları yaşadıqca, Ədalətsizlik yaşayıb.

***Cəmiyyət Qanunları Cəmiyyətə yarayıb – İnsana yaramayıb.***

## 2. İNSANİLİK ƏVƏZSİZLİYİ

Cəmiyyət – İnsan yaratmır, yarada bilmir, yaratmaq istəmir. İnsaniliyi Qanunlarla əvəz eləmək istəyir. Cəza – Ləyaqət əvəzi olur; qəbahət ölmür, yaşayır və cinayət yaradır; adamlıq, nisbilik dəyişməz qalır, cəza adamları cinayətdən çəkindirir, ancaq cinayəti öldürmür, cinayət yaşayır və təzə cinayətkarlıq peyda olur.

***Adam İnsan olmur – bu səbəbdən də Həyat dəyişmir.***

Adam İnsan olmayınca cinayət ölmür, yaşayır; – ***Cəmiyyət, Adamı İnsandan eləyir; bu səbəbdən də cinayəti yaşadır.***

***Cinayətin Qəbahət mənbəyi yaşadıqca özü də yaşayır.***

Cinayətin cəzasından qorxursan, Qatilliyindən, Haramlığından, Vəhşiliyindən, Namussuzluğundan çəkinirsən, Qorxu İnsaniliyini əvəz edir; –

***Daxildən dəyişmirsən,*** İdrakın, Mənəviyyatın dəyişmir, vicdana qovuşmursan, cəza səni cinayətdən çəkindirir, səndəki qəbahəti daxilindən silmirsən, daxilində yaşadırsan.

***Cəmiyyət Qanunları İnsaniliyi əvəz edə bilmir.***

***Qadağa Kamilliyi əvəz edə bilmir.***

***Cinayətkar cəzalanır, cinayət yaşayır.***

Qatil olmursan, çünki qorxursan, Qatilliyin isə daxilində yaşayır, Qorxu səni Qatillikdən çəkindirir – ancaq Qatilliyi daxilindən silmir, Qanunlar səni cəzalandırır; – sən özünü dəyişmirsən.

***Nə qədər Adam İnsan olmayıb, o, baş kəsəcək.***

***İnsaniliyin əvəzi yoxdur.***

***Cəza İnsaniliyi əvəz etmir.***

***Haramçı*** olmursan, çünki qorxursan, qorxu səni haramçılıqdan çəkindirir, ancaq haramçılığı daxilindən silmirsən, Qanunlar səni cəzalandırır – sən özünü dəyişdirmirsən.

***Nə qədər Adam İnsan olmayıb, o, harama qatılacaq. Cəza İnsaniliyi əvəz eləmir.***

***Vəhşiliyini buxovlayırsan;*** çünki cəzadan qorxursan. Vəhşiliyin daxilində yaşayır – Qorxu səni Vəhşilikdən çəkindirir; sən özünü daxildən dəyişdirmirsən.

***Nə qədər Adam İnsan olmayıb, o, vəhşilikdən xilas olmayacaq.***

***Cəza İnsaniliyi əvəz eləmir.***

***Namussuzluğunu*** cilovlayırsan, çünki Cəzadan qorxursan: namussuzluq isə daxilində yaşayır. Qorxu səni namussuzluqdan çəkindirir; – sən özünü daxildən dəyişdirmirsən.

Nə qədər Adam İnsan olmayıb, o, namussuzluq çirkabından çıxmayacaq.

***Cəza İnsaniliyi əvəz eləmir.***

***İnsana İnsanilik Qanunları gərəkdir.***

## 3. XƏSTƏLİK – SAĞLAMLIQ

Cəmiyyət, İnsanı cismən və ruhən xəstələndirir; orqanizmi sarsıdır, ruhu pozur.

***Xəstəliklərin əsas səbəbi – cəmiyyətdir.***

***Ağalıq*** – Adamı xəstələndirir.

***Nökərlik*** – Adamı xəstələndirir.

***Təbəqəlik*** – Adamı xəstələndirir.

***Yadlıq*** – Adamı xəstələndirir.

***Ağalıq*** – Bədəni sarsıdır, Ruhu əzir.

***Nökərlik*** – Bədəni sarsıdır, Ruhu əzir.

***Təbəqəlik*** – Bədəni sarsıdır, Ruhu əzir.

***Yadlıq*** – Bədəni sarsıdır, Ruhu əzir.

***Ağalıq*** – İnsani Münasibətlər Ahəngini pozur; Münasibətlər Ahəngsizliyi İnsanın ömrünə ağır Yük kimi düşür, onu cismən, ruhən əzir.

***Nökərlik*** – İnsani Münasibətlər Ahəngini pozur; Münasibətlər Ahəngsizliyi İnsanın ömrünə ağır Yük kimi düşür, onu cismən, ruhən əzir.

***Təbəqəçilik*** – İnsani Münasibətlər Ahəngini pozur; Münasibətlər Ahəngsizliyi İnsanın ömrünə ağır Yük kimi düşür, onu cismən, ruhən əzir.

***Yadlıq*** – İnsani Münasibətlər Ahəngini pozur; Münasibətlər Ahəngsizliyi İnsanın ömrünə ağır Yük kimi düşür, onu cismən, ruhən əzir.

***Xəstəliklərin əsil Dərmanı İnsanilikdir.***

Sağlam Həyat ***Ağalıqdan*** Təmizlənmək Tələb edir.

***Nökərlikdən*** Təmizlənmək Tələb edir.

***Təbəqəçilikdən*** Təmizlənmək Tələb edir.

***Yadlıqdan*** Təmizlənmək Tələb edir.

Cəmiyyət, Adamı – rəiyyətləşdirir; – Rəiyyətləşmə – xəstəlik mənbəyidir, xəstəliklərin çoxu ondan yaranır.

Cəmiyyət, Adamı – bəndələşdirir; – Bəndələşmə – xəstəlik mənbəyidir, xəstəliklərin çoxu ondan yaranır.

Cəmiyyət, Adamı Əşyalaşdırır; – Əşyalaşma – xəstəliklərin mənbəyidir, xəstəliklərin çoxu ondan yaranır.

Cəmiyyət, Adamı qorxuzur; Qorxu – xəstəlik mənbəyidir, xəstəliklərin çoxu ondan yaranır.

Xəstəliklər – İnsansızlıqdan yaranır – İnamsızlıqdan, İdraksızlıqdan, Mənəviyyatsızlıqdan, İradəsizlikdən.

***Cəmiyyətdə Adam İnsansızlıqla əhatə olunur – İnsansızlıq, Adamı – xəstələndirir.***

***Xəstə İnsansızlığa qarşı – sağlam İnsanilik gərəkdir.***

## 4. İNSANİ QANUNLAR

Cəmiyyət Qanunları İnsani Qanunlarla əvəz olunmalıdır.

Cəmiyyət Qanunları ***İnam Qanunuyla*** əvəz olunmalıdır – Dünyanın, Həyatın, İnsanın Mütləq Mahiyyətinə İnam Qanunuyla.

Cəmiyyət Qanunları ***İdrak Qanunuyla*** əvəz olunmalıdır – İnsanın Əzəli, Əbədi, Sonsuz, Kamil Ruhaniliyi Qanunuyla.

Cəmiyyət Qanunları ***Mənəviyyat Qanunuyla*** əvəz olunmalıdır. Vicdan Hakimliyi – Təmənnasızlıq və Fədakarlıq Qanunuyla.

Cəmiyyət Qanunları ***İradə Qanunuyla*** əvəz olunmalıdır.

İnsanın Zamandan, Mühitdən, Şəraitdən, Cəmiyyətdən Üstünlüyü Qanunuyla.

***İnsanilik Qanunu – İnsana Yarayır – İnsanı Yaradır.***

*17 Ümid günü, Sərt Ayı, 18-ci il. Bakı.*
*(Dekabr, 1996-cı il).*

# ÖZÜMLÜK – ÖZGƏLİK

## (İyirmi Dördüncü Müqəddəs Kitab)

İnsanları bir-birinə bərabər saymadan onların bir-birindən fərqini dərk etmək olmaz.

***Fərqlilik Bərabərlıq üzərində bilinir.***

***

***Bürokratiya – çoxrəislik, çoxkağızlıq, Ruhsuzluq deməkdir.***

Nə qədər Dövlət Var – Bürokratiya yaşayacaq.

Çünki ***Ağalıq*** – Bürokratiya Tələb eləyir.

***Nökərlik*** – Bürokratiya Tələb eləyir.

***Təbəqəlik*** – Bürokratiya Tələb eləyir.

***Özgələşmə*** – Bürokratiya Tələb eləyir.

***Bürokratiya aradan qalxsa – Dövlət məhv olar.***

*20 Ümid günü, Şölə Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

Təbiətdəkiləri Təbiət idarə eləyir – İnsanı özü.

Bu, İnsanın ilkin Azadlığıdır ki, cəmiyyət onu İnsanın əlindən alır.

***

İdrak Ağalığı – əslində Ağa İdrakıdır.

İdrak Nökərliyi – əslində Nökər İdrakıdır.

İdrak Təbəqəliyi – əslində Təbəqə İdrakıdır.

İdrak Özgəliyi – əslində Özgə İdrakıdır.

***

İnsan Təbiətin Təzyiqindən çıxa bildi – cəmiyyətin Təzyiqindən çıxa bilmir.

Təbiətin Təzyiqindən çıxmaq üçün – Adam olmaq kifayət idi; cəmiyyətin Təzyiqindən çıxmaq üçün İnsan olmaq gərəkdir.

***

***İnsan öz İnsaniliyiylə – Təbiətdən Fərqlənir.***

Təbiət İnam tanımır, İdrak tanımır, Mənəviyyat tanımır, İradə tanımır.

İnsan öz İctimailiyiylə Təbiəti Davam etdirir...

***Ağalıq*** – Təbiətdəki Yırtıcılığın Davamıdır.

***Nökərlik*** – Təbiətdəki Zalımlığın Davamıdır.

***Təbəqəlik*** – Təbiətdəki Yadlığın Davamıdır.

***Özgələşmə*** – Təbiətdəki Yağılığın Davamıdır.

***İnsan – cəmiyyətdə Özündən Aşağıdır.***

***Cəmiyyət – İnsanın əksilməsidir...***

***

Xalq Kimisə – Hakimiyyətə seçirsə – bunun nəyi Hakimiyyətdir?

Seçilmək – Hakimiyyətdir, Seçmənin nəyi Hakimiyyətdir?

***

Qoy cəmiyyət qalsın – ancaq Ağalıq olmasın, Nökərlik olmasın, Təbəqəlik olmasın, Özgəlik olmasın – onda əslində cəmiyyət də qalmaz.

***

Başları bu qədər Boş olanların – Yerişləri niyə belə Ağır olsun?

***

***İctimai Portret.*** Sifətində Təkəbbürdən başqa Ağırlıq Yoxdur.

***

İnsanın Təbiət tərəfindən İdarə edilməsi Fikri – İnsanı əksildir.

Təbiətin İnsan tərəfindən İdarə edilməsi Fikri – Təbiəti əksildir.

***

Dağıdıcı nə varsa o gec-tez dağılmalıdır.

Şopenhauerə görə Dağıdıcı və Şər güc olan Dünya niyə özünü dağıtmır?

***

İdraksız və Şər İradənin İşi Dağıtmaqdır.

Belə olduqda O, Dünyanı niyə Dağıtmır və onu necə yaradıb; və ümumən İdraksız və Şər İradə nə yarada bilər?

***

Kantda – İnsanı Təbiət İdarə eləyir; Dövlət Təbiətin iradəsini ifadə eləyir: beləliklə də ***Kantda Dövlət – Təbiətləşir və Əbədiləşir.***

***

İnsan Təbiətdən Adamlıq səviyyəsi aldı, həmin səviyyə onu cəmiyyətləşdirdi; həmin səviyyədən çıxmaq istəyir – İnsan ola bilmir. ***Özünə sahib ola bilmir – Cəmiyyət ona sahib olur.***

***

İnsanı cəmiyyət İdarə etdiyindən – İnsan İnsaniliyə çata bilmir.

İnsan özünü İdarə eləyəndə – İnsaniliyə çatacaq.

***

***Bütün canlılar Həyatda özlərini Aşkarlayır; İnsan özünə çatır.***

***

***Hər istədiyini eləyən Adam – Azad deyil – İnsaniliyin istədiyini eləyən Adam – Azaddır.***

Naqis istəyə Yetən Adam – Əsarətə Yetir əslində.

***Kamil istəyə Yetən – Azadlığa Yetir.***

***İnsaniləşməyən – Azad olmur.***

Bu səbəbdən də Dünyada Azad Adam çox azdır.

***

***Hal.*** Ləyaqəti özünə sığışdırmır.

***

***Şopenhauerdə*** Dünya İdraksız və Şər İradəni ifadə edir.

***Kantda*** və ***Hegeldə*** Dünya nə qədər İdraksız görünsə də – əslində İdrakidir.

***Materializmdə*** Dünya cismaniliyi ifadə edir.

Bu iddiaların heç birində Dünyanın Mütləqiliyi Təsdiq olunmur...

İdraki olmaq – hələ Mütləq olmaq deyil.

Mütləqi ***dərk etmək – ifadə etmək, əks etdirmək*** – hələ Mütləqin özü olmaq deyil.

Köhnə filosofların bir çoxu Dünyada Allah üçün Yer qoyurlar.

"Dünya özü Mütləqdir!" Həqiqətinə gəlib çıxan Filosoflar Yox dərəcəsindədir.

***

***Adamda İnsandakılar da Var – Heyvandakılar da...***

Adamda İnsandakılarla Heyvandakılar Döyüşür.

***Həmin Döyüşdə İnsan Qələbə çalanda Adam İnsan olur; Heyvan Qələbə çalanda – Adam Heyvan olur.***

***

Cəmiyyət – Mədəniyyətə sahib olsa – Mədəniyyət Ağalaşar, Nökərləşər, Təbəqələşər, Özgələşər.

Xoşbaxtlıqdan Cəmiyyət Mədəniyyətə tam Sahib ola bilmir.

***Mədəniyyət – İnsaniliyə xidmətini davam etdirir...***

***

***İnsan ömrünün bir Mənası Var – Mənaya çatmaq.***

Cəmiyyət İnsanı bu Mənadan Ayırır – ömrü Mənasızlaşdırır.

Ağalıqda – Məna Yoxdur.
Nökərlikdə Məna Yoxdur.
Təbəqəlikdə Məna Yoxdur.
Özgəlikdə Məna Yoxdur.

***

***Demokratiya – nəhəng Aldanışdır.***
Pulçuluq əsasında Xalq hakimiyyəti nə deməkdir?
Siyasətçilik əsasında Xalq hakimiyyəti nə deməkdir?
Dinçilik əsasında Xalq hakimiyyəti nə deməkdir?

***

Heyvan – bəsit və yeknəsəqdir.

İnsan – Mürəkkəb və qarışıqdır.

Heyvan – Heyvandan ibarətdir;

İnsan – Adamlıq səviyyəsində İnsandan və Heyvandan ibarətdir.

Bu səbəbdən də o, İnsaniliyə çata bilmir.

İnsan Adamlıq səviyyəsini ötə bilmədən İnsaniliyə çata bilməz.

***Özündəki Heyvandan Ayrılmadan – İnsan ola bilməz.***

*21 Dözüm günü, Şölə Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

İnsan Həyatının Mahiyyəti – Cəfəng deyil.

İnsaniliklə Cəmiyyət arasında Təzad – cəfəngdir.

İnsanın İnsaniliyindən Ayrılmış surətdə Cəmiyyətdə əsrlər boyu Yaşaması – cəfəngdir.

Cəmiyyət – özü cəfəngdir.

***

Berdyayev Şəxsiyyəti cəmiyyətə qarşı qoyur ki, onu Dinə bağlasın.

Cəmiyyət Əsarətindən çıxan Şəxsiyyət Din əsarətinə düşür.

Filosofun Şəxsiyyət Özümlüyü haqqında Fikri havadan asılı qalır.

***Cəmiyyət tərəfindən İnkar edilən Özümlük – indi Din tərəfindən inkar edilir...***

***

Hegelə görə Tarixin Mahiyyəti – Azadlıqdır.
Əslində Tarix – ən çox Əsarət Azadlığıdır.

*26 Arzu günü, Şölə Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

İnsanın Ağaya çevrilməsi – onun İnsanilik qarşısında günahıdır.

İnsanın Nökərə çevrilməsi – Onun İnsanilik qarşısında günahıdır.

Ağa–Nökər münasibətləri – Günahdır.

***Cəmiyyət*** – həmin münasibətlər əsasında qurulub; ***o, İnsanın günahıdır.***

***

Berdyayevdə İnsaniliyi İlahilik müəyyən eləyir... və beləliklə də Şəxsiyyətin əsas xassəsi olan özümlük rədd olunur.

Cəmiyyətin sərəncamından çıxarılan Şəxsiyyət Dinin sərəncamına verilir.

Özümlüyü şəxsiyyətin əsası sayan filosof şəxsiyyəti özümlükdən məhrum eləyir.

***

Dövlətin Rəiyyət üçün Yarandığı – Yalandır.

Dövlət – Rəiyyət Yaradandır – Dövlət olmasaydı – Rəiyyət olmazdı.

Dövlət – İnsanı Rəiyyətləşdirir, Rəiyyəti – İnsanlaşdırmır.

***Dövlət – Rəiyyət Yaradır ki, Yaşasın.***

***Dövlət – Rəiyyət Yaratmasa – Yaşamaz.***

***

İnsan İnsan üzərində Ağalıq eləmir, – Ağa nökər üzərində Ağalıq eləyir; – yəni İnsan Ağalıq üçün İnsaniliyindən keçib – Ağaya çevrilir; həm də başqasını İnsaniliyindən keçdirib – Nökərə çevirir.

***Beləliklə də Ağalıqda İnsan Yüksəlmir – Alçalır; çünki İnsaniliyindən Ayrılır.***

*27 Ümid günü, Şölə Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

Freyd İnsanda ən güclü İnstinkti – Şəhvət (Libido) sayır.

***Əslində isə İnsanda ən güclü və ən dağıdıcı İnstinkt – Ağalıqdır...***

Cəmiyyəti Ağalıq instinkti yaradıb – ***həmin instinktdə yaşadır.***

***İnsanlaşma – Ağalıq instinktinə qarşıdır, onun nəticəsində cəmiyyət aradan qalxacaq – Xəlqi Birliklə əvəz olunacaq.***

***

Özüylədöyüşdə ən çətin Əməl – Mənfi instinktlərlə döyüşdür.

Mənfi instinktlərlə döyüşə bilməyən – özüylə döyüşdə qələbə çala bilməz.

***

Dövlət  Ruhanіləşdikcə – aradan qalxacaq.

***

Dövlətin yaratdığı nizamda insanilik yoxdur, – bu səbəbdən də o, Mahiyyətcə nizamsızlıqdır.

İnsanilik olmasaydı – Dövlət nizamına ehtiyac olmazdı.

İnsanilik olmadığından Dövlət nizamına ehtiyac yaranır.

***Dövlət Nizamını İnsanilik əksikliyi yaradır.***

***

Dövlət Ağalıq Ehtirasından yaranıb – Ağalığı yaşadır.
***Dövlət Ağalıq Qaydası yaradıb.***
Ağalıq – Nökərlik yaradıb – Nökərliyi yaşadır.
***Dövlət Nökərlik Qaydası yaradıb.***
Ağalıq – Təbəqəlik yaradıb – Təbəqəliyi yaşadır.
***Dövlət Təbəqə Qaydası yaradıb.***
Ağalıq – Özgəlik yaradıb – Özgəliyi yaşadır.
***Dövlət Özgəlik Qaydası yaradıb.***

***

***Dövləti – Xidmət saymaq – Yalandır.***
***Ağalıq xidməti olmur.***
***Nökərlik xidməti olmur.***
***Təbəqəlik xidməti olmur.***
***Özgəlik xidməti olmur.***
***Dövlət – Adamlara xidmət eləmir;***
***Adamlardan özünə xidmətçi yaradır.***

***

Dövlət – Xalqı Təmsil eləmir; –
Xalq üzərində öz Ağalığını Təmsil eləyir.

***

Marksistlər Dövləti – Bir sinfin başqa sinif üzərində Ağalığı sayırlar.
***Əslində isə Dövlət – Bütün Siniflərin Ağasıdır.***
Ağalıq – Dövlətin əsasıdır.
***Bu səbəbdən də İnsanilik baxımından Dövlət – əsassızdır.***

***

Dövlət – Ümumi Xeyiri ifadə eləmir;
Ümumilik üzərində Ağalıq Faydasını ifadə eləyir.

***

Aristotelə görə Dövlət Xeyirxah və xoşbaxt Həyata xidmət eləyir.

Deməli – ***Ağalıq*** adlanan Şər – Xeyirə xidmət eləyir.

***Təbəqəlik*** adlanan Şər – Xeyirə xidmət eləyir.

***Nökərlik*** adlanan Şər – Xeyirə xidmət eləyir.

***Özgəlik*** adlanan Şər – Xeyirə xidmət eləyir...

***Dövləti Xeyirləşdirməklə – Aristotel Şəri Xeyirləşdirir əslində.***

*29 Mərhəm günü, Şölə Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

Şopenhauerdə Dahilik – İnsanın özünü – Dərk etdiyində Unutması, İtirməsidir.

Əslində isə Dahilik – İnsanın Dərk etmə vasitəsiylə özünün Mahiyyətinə Yetməsidir.

Bu səbəbdən də Dahilik – Obyektivlik olduğu dərəcədə – Siubyektivlikdir.

***Burada özünüitirmə – özünütapmaqdır əslində.***

***

Hegel – gerçəklikdə baş verən nə varsa – Zəruri sayır; Quldarlığı bəşər tarixinin Zəruri mərhələsi hesab edir.

***Bu Zərurətçilik – əslində Qismətçilikdir.***

Hegel Rasionalizmi – Dinə xidmət eləyir və sonradan marksizm dininin Təməlinə çevrilir.

***

Mədəniyyət cəmiyyəti pozmur – cəmiyyət mədəniyyəti pozur.

***

***Ümumi*** Xüsusini məhdudlaşdırmır – Zənginləşdirir, – onu Mahiyyətə, Mənaya Yüksəldir.

***Mücərrəd*** – Xüsusini məhdudlaşdırır; onu Bütövlükdən Ayırır.

***Ruhanilik – Ümumilikdir.***

***İctimailik – Mücərrədlikdir.***

***Ruhanilik – Zənginlikdir.***

***İctimailik – Yoxsulluqdur.***

***

Dövləti yaşadan – İnsani naqislikdir.
Adam İnsan olmayınca – Dövlət yaşayacaq.

***

***Təbii Həyat*** – Ruhani Həyat.
***Süni Həyat*** – İctimai Həyat.

***

Hobbsda Dövlət "Hamının Hamıyla Davasından" xilas olmaq üçün yaranıb.

Əslində Dövlətin yaranmasıyla "Hamının Hamıyla Davası" aradan qalxmadı, o, yalnız Biçimini dəyişdi.

***Onu – yalnız İnsanlaşma aradan qaldıra bilər.***

***İnsanın Dövlətə Ehtiyacı olmayanda, "Hamının Hamıyla Davası" aradan qalxacaq.***

***

İnsanların Təhlükəsizliyini qorumaq üçün yaranan Dövlətdən İnsan – öz Təhlükəsizliyini qorumalı olur.

İnsanlar öz Təhlükəsizliyini Adamlardan qoruyurlar.

İnsanların Təhlükəsizliyini İnsanlar qoruyurlar.

***Dövlət İnsanlardan öz Təhlükəsizliyini qoruyur.***

***

Hobbsda Dövlət – Adamların ***özlərinə sahib olmaq haqqından keçmələri*** sayəsində yaranır.

Özünə sahib olmaq haqqından keçmək – İnsaniliyə ziddir.

***Beləliklə Dövlət – əslində İnsaniliyə zidd qurumdur.***

***İnsanlaşma – Dövləti aradan qaldırmaqdır; insanın özünə sahib olmaq haqqı bərqərar olmalıdır; insan – İnsaniliyə çatmalıdır.***

***

Dövlətin Elmə Yiyələnməsi – Elmi Yiyəsiz qoydu...

***

***Kantda*** – Predmet İnsandan kənarda olduğu dərəcədə Həqiqidir.

***Berdyayevdə*** – Predmet İnsanla əlaqədar olduğu dərəcədə Həqiqidir.

Əslində isə – İdrak Həqiqəti Dərk etdiyi dərəcədə İnsanidir; – ***Həqiqət – Mahiyyətcə İnsanidir.***

*30 Qismət günü, Şölə Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

Cəza Qorxusunun yaratdığı Yaxşı Adam – Pis Adamdır əslində.

***Çünki Qorxaqlıq – Pislikdir.***

Mükafat Həvəsinin yaratdığı Yaxşı Adam – Pis Adamdır əslində.

***Çünki Yaxşılıq – özü Mükafatdır.***

***Cəmiyyət Pis Adam yaradır əslində.***

***

***Fransız maarifçiləri*** Zəkaya inanırdılar, amma Zəka Daşıyıcısı İnsana o qədər də İnanmırdılar; – Allah Uydurmasını Zəruri sayırdılar.

***İnsanı Zəkadan Ayırırdılar.***

Zəka Fəlsəfəsi yaradan Kant – İnsanı Əyri Ağac adlandırırdı.

***Zəkaçılar Pis İnsançıydılar əslində.***

***

***Maraqsızlıq Fəlsəfəsi – Yalandır.***

İdrakın – Mənaya çatmaq marağı var.

***Həqiqət*** – İdrakın Mənaya çatmaq marağını ifadə edir.

İnsanın İnsaniliyə çatmaq marağı var.

***Kamillik*** – İnsanın İnsaniliyə çatmaq marağını ifadə edir.

*1 Od Ayı, Murad günü, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Siyasi İnteqrasiyaçıların (Birləşdiricilərin) açıq demədiyini Nəzəri İnteqrasiyaçılar deyirlər.

"Roma klubu" nümayəndələri İnteqrasiyanı milli suverenliyə qarşı qoyurlar; Dünyəvi Birliyi milli müstəqilliyin ləğviylə bağlayırlar; millətlər Birliyi əvəzinə – millətsizlik Birliyi arzulayırlar; bununla da İnteqrasiya Həşirinin əsil üzünü açıb göstərirlər.

***

Dində İnsan Dünyaya Əzəli Günahkar kimi gəlir.

Onun Borcu – Əzəli Günahkarlığından Xilas olmaqdır.

Əslində – İnsanın ən Böyük günahı – özünü Əzəli günahkar saymasıdır.

***İnsanın ən Böyük günahı – Dindir əslində.***

***

***Milli Şüur – Milli Özümlüyün Dərki.***

***

Kapitalizmə İnam – İnsaniliyə İnamsızlıqdır...
***Pulçuluqda İnsanilik yoxdur.***

***

Şopenhauer adi adamları – təbiət fabrikinin məhsulları adlandırırdı.

Əslində o, adamlara cəmiyyətin gözüylə baxırdı: cəmiyyət insanı əşyadan ayırmır...

***İfrat fərdiyyətçi olan filosof – insana münasibətdə əsil cəmiyyətçi kimi çıxış eləyirdi...***

***

İngilis siyasətini – Şekspir Yazmayıb.
Amerika siyasətini – Uitmen Yazmayıb.
Rusiya siyasətini – Tolstoy Yazmayıb.
Şekspiri sevən – İngilis Siyasətini sevməli deyil.
Uitmeni sevən – Amerika Siyasətini sevməli deyil.
Tolstoyu sevən – Rusiya siyasətini sevməli deyil.

***

Böyüklər kiçiklərlə Birləşirlər ki, kiçiklər Böyüməsinlər; – yaxud Böyüklərin kölgəsində Böyüsünlər.

***

Millətçilik – Milli Yağılıq deyil, Milli Özümlükdür...
Milli Özümlük – İnsaniliklə bağlıdır.
***İnsani Yağılıq olmur.***
Yağı İnam olmur.
Yağı İdrak olmur.
Yağı Mənəviyyat olmur.

Yağı İradə olmur.
Zəbtçilik, Qəsbçilik – Millətçilik deyil.
***Yırtıcılıqda – İnsanilik yoxdur.***

***

***Dində*** İnsan Dünyaya gözü kölgəli gəlir ki, Allahın kölgəsində dolansın.
***İnamda*** İnsan Dünyaya gözü açıq gəlir ki, özünü görsün.

***

Xalqlar – Bəşər Fərdləri.

***

Böyük ölkələr – Beynəlxalq Siyasətin Ağaları.
Kiçik ölkələr – Beynəlxalq Siyasətin Rəiyyəti.

***

Əxlaq Üç əsas Ümumbəşəri Sərvət tanıyır:
***Xeyir, Ədalət, Həqiqət.***
Bu sərvətlərin heç birinə Siyasət vasitəsiylə nail olmaq olmaz.
***Siyasətin Xeyiri Faydadır:***
***Ədaləti – Mənfəətdir.***
***Həqiqəti – Yalandır.***
***Ümumbəşəri Sərvətlərə əsaslanan Siyasət – siyasətin ölümü olardı.***
Belə siyasət yoxdur.
Onu – Uydururlar.
***Ümumbəşəri Sərvətlərə əsaslanan Siyasət Yalanı – özü Siyasətdir.***
Əslində Siyasət Mənəviyyata qarşıdır, ***onda öz ölümünü görür;*** özünü ondan qoruyur – həm də öz əzəli Yalançılığından əl çəkmir; mənəvi görünmək istəyir.

***

***Dünyəvi liderlik.*** Öz milli mənafeyini Dünyəvi mənafe kimi təqdim etmək imtiyazı.

***

Şopenhauer Dahilərdən xüsusi Təbəqə yaradır, əslində Dahilik – Təbəqəliyin inkarıdır.

***

Həqiqət üçün Həqiqət – əslində Mahiyyət üçün Həqiqət deməkdir.

***Çünki Həqiqət – Mahiyyətin ifadəsidir.***
– Mənanın ifadəsidir.
– Əzəlinin ifadəsidir.
– Əbədinin ifadəsidir.
– Sonsuzluğun ifadəsidir.
– Kamilliyin ifadəsidir.

***

***Özümlük olmayan yerdə – Birlik yoxdur.***
***Əşyaların Birliyi yoxdur – cəmi Var.***

Cəmiyyət İnsanları Əşyalaşdırır; bu səbəbdən də ictimai Birlik uydurmadır; ***cəmiyyət – cəmlik yaradır, Birlik yaratmır.***

***

***Fərdilik – Xudbinlik deyil – Özümlükdür.***
Özümlük – İnsaniliklə bağlıdır.
***Xudbin İnsanilik olmur.***
Xudbin İnam olmur.
Xudbin Mənəviyyat olmur.
Xudbin İradə olmur.
***Xudbinlik – Mahiyyətcə Fərdsizlikdir.***

***

Sokratın "Özünü Dərk et" çağırışı əslində "özünün bilməzliyini dərk et" demək idi.

***"Özünün Bilməzliyini bil!" – deyirdi Sokrat.***

***Bil ki, bilmirsən!***

Bu səbəbdən də Sokratın çağırışında "özünü dərk etmə"nin özü yox idi: onun vasitələrindən biri – bilməzliyin dərki var idi.

***Əslində özünü dərk etmək – İnsaniliyə Yetməkdir; – Yəni İnama, İdraka, Mənəviyyata, İradəyə çatmaqdır.***

***Özünü dərk etmək – özünü bilməkdir, bildirməkdir.***

***

Xalqlar, ölkələr bir-biriylə İnsanilik Səviyyəsində, Həddində, Səddində siyasət aparmalıdırlar.

***Ancaq İnsanilik səviyyəsində, Həddində, Səddində Siyasət olmur; Siyasət – İnsanilik tanımır əslində.***

***Bu səbəbdən də bəşərin Siyasətdən asılı olması – onun faciələrindən biridir; bu Asılılıqda Bəşər öz Mahiyyətiylə Yadlaşır.***

Siyasətin Mənəviyyatla əvəz olunması – Bəşərin əsas Vəzifələrindən biridir; onun öz Mahiyyətinə, Mənasına çatması Əməlidir.

***

Siyasətdə Bir Xeyir Var – Udmaq.
Bir Şər Var – Uduzmaq.

***

Elita – Hökumətaltı Ağa.
Rəiyyətüstü Nökər.

*2 İnam günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Dində İnsan Dünyaya Fəlakət Timsalı kimi gəlir və Allahın Mərhəmətiylə ondan çıxa bilir.

***Əslində isə İnsanın ən böyük Fəlakəti – özünü Fəlakət Timsalı saymaqdır.***

***Bundan sonra o, Din Fəlakətinə düşdü və ondan çıxa bilmir.***

***

***Bodler Əhvalatı.*** Şəri Poeziyada Vəsf elədilər: – ***Şəri Xeyir Biçimində Vəsf elədilər.***

***

***İdraksız Əxlaq olmur; Əxlaqsız İdrak olur.***

Əxlaqsız İdrak – Şərdir. ***İdrak Əxlaqa çatır; həm də Əxlaqdan Ayrıla bilir.***

***İdrakın Əxlaqa çatması – Xeyirdir, İdrakın Əxlaqdan Ayrılması – Şərdir.***

***İdraksız İnam olmur – İnamsız İdrak olur.***

***İnamsız İdrak – Şərdir***. İdrak İnama çatır, həm də İnamdan Ayrıla bilir.

İdrakın İnama çatması Xeyirdir, İdrakın İnamdan Ayrılması – Şərdir.

***İdraksız Mənəviyyat olmur – Mənəviyyatsız İdrak olur.***

***Mənəviyyatsız İdrak – Şərdir.***

İdrak Mənəviyyata çatır, həm də ondan Ayrıla bilir. İdrakın Mənəviyyata çatması – Xeyirdir; İdrakın Mənəviyyatdan Ayrılması – Şərdir.

***İdraksız İradə olmur; İradəsiz İdrak olur.***

***İradəsiz İdrak – Şərdir.***

İdrak İradəyə çatır, həm də ondan Ayrıla bilir...

İdrakın İradəyə çatması – Xeyirdir; İdrakın İradədən Ayrılması – Şərdir.

***

Nitşeçilər üçün İnsanın İnsanilikdən böyük Düşməni yoxdur və Məqsəd İnsanı İnsanilikdən Azad etməkdir.

Həmin Əməli Nitşe “Həddən Artıq İnsani” adlandırır.

İnsanilikdən Azad olmuş İnsan – Fövqəlinsana çevrilir.

İnsanilikdən Azad olmuş İnsan – Gələcəyin insanı sayılır.

***Əslində isə İnsanın İnsanilikdən Böyük Yüksəkliyi Yoxdur; və Yırtıcılıqdan, Vicdansızlıqdan Böyük Düşməni yoxdur; və bu səbəbdən də Fövqəlinsan – İnsanın həddən artıq İnsansızlaşmasıdır.***

***

***Nitşeçilik – Fəlsəfənin Xəstələnməsidir.***

Xəstəlik vasitəsiylə Həkimlik – Bəşəri sağaltmadı, Həkimləri xəstələndirdi.

***

Nitşe Xristianlıqda İnsanilik görür və bununla da Onu İdealizə eləyir.

Əslində Nitşe xristianlıqla döyüşmür – İnsaniliklə döyüşür və bu səbəbdən də Xristianlığa Ziyan vura bilmir.

***

İnsanın Əxlaqla Döyüşü – Vəhşilikdir.

Bu Vəhşilik Siyasətdə başladı, Fəlsəfədə davam etdi.

***

Nitşeçilər – Əxlaqsız möhtəşəmlik diləyirdilər.

***Əxlaqsız Möhtəşəmliyin Zəlillik olduğunu bilmirdilər.***

***

Nitşe özünün Zamanla döyüşünü dəfələrlə elan edir. Əslində isə o, Zamanla döyüşmür; Zamanın Döyüşdüyüylə – Əxlaqla döyüşür. Zamanın istəyi üçün – Əxlaqsızlıq üçün Döyüşür.

***

Makkiavellidə, Nitşedə – Əxlaq – Əmələ mane olur.
Əslində Əxlaq – Bədəmələ mane olur.
Əxlaqın mane olduğu Əməl – Bədəməldir.

***

Albert Şveyser İnsanın Təbiət üzərində Zərurətdən kənar olan Zorunu cinayət adlandırır.

***İnsanın Təbiət üzərində Zor Zərurəti əslində Təbiətin və İnsanın Faciəsidir; Təbiətin ölüm təhlükəsidir; İnsanın Təbiətin ölümü nəticəsində Yox olması Təhlükəsidir.***

***Texniki Tərəqqi – Zəruri Zor Tərəqqisidir əslində. O gec-tez Səngiməlidir ki, Təbiət məhv olmasın.***

***Mənəvi Tərəqqi – Maddi Tərəqqini Ram eləməlidir.***

***

Dinə görə İnsan öz gücüylə günahdan xilas ola bilməz.
Ona Allahın mərhəməti gərəkdir.

***Din – Taleyi özündən asılı olmayan İnsan uydurur ki, onu xilas eləsin.***

***Dində Xilaskarlıq İddiası Talesizlik üstə qurulur.***

***

İnsanın Mahiyyətində Şər yoxdur – Təzahüründə Şər var.
Şər İnam olmur – Din Şəri olur.
Şər İdrak olmur – Elm Şəri olur.
Şər Mənəviyyat olmur – Mənəviyyatsızlıq Şəri olur.
Şər İradə olmur – Şər İradəsi olur.

***

"İnsan İnsanın canavarıdır!" deyiblər Filosoflar.
"İnsan İnsanın Allahıdır" deyiblər.
***İnsan özünün Allahı olmayınca – İnsanın canavarı olacaq.***

***

Şəraiti Adam yaradır – Şərait Adamlığı yaşadır; İnsan Şəraiti ötür – İnsaniliyə çatır.

***

***Mütləqçilik üstə Tərbiyə gərək.***<br>
***İnsançılıq üstə Tərbiyə gərək.***<br>
***Vicdançılıq üstə Tərbiyə gərək.***<br>
***İradəçilik üstə Tərbiyə gərək.***

***

İnsanın Yaxşılığı ən çox Pis Şəraitdə bilinir.<br>
Pis Şəraiti Ötməsində Bilinir.<br>
Pis Şəraiti Ötüb, İnsaniliyə çatmasında Bilinir.<br>
***İnsanı Şərait yaratmır – Şəraiti İnsan yaradır.***

***

İnsan – cəmiyyətin məhsulu deyil – Alətidir.<br>
***İnsan – İnsaniliyin məhsuludur.***

***

Pis Şəraitdə Yaxşı olmayan Yaxşılıq – Pis Yaxşılıqdır.

Yaxşı olmaq üçün Yaxşı Şərait gözləyən Yaxşılıq – Pis Yaxşılıqdır.

Pis Şəraiti ötə bilməyən Yaxşılıq – Pis Yaxşılıqdır.

Pis Şəraitdə Pisləşən Yaxşılığın nəyi Yaxşılıqdır?

***

İnsan Təbiəti və İnsan Mahiyyəti İnsaniliyin eyni Səviyyəsi deyil.

İnsan Təbiətində Mahiyyət də Var, Təzahür də, Xeyir də Var, Şər də; Mütləq də Var, Nisbi də; Ötəri də Var, Əzəli də; Keçici də Var, Əbədi də; Sonsuz da Var, Sonlu da; Kamil də Var, Qeyri-kamil də.

İnsan Mahiyyətində Xeyir Var – Şər Yoxdur; Mütləq Var – Nisbi Yoxdur; Əzəli Var – Ötəri Yoxdur; Əbədi Var – Keçici Yoxdur; Sonsuz Var – Sonlu Yoxdur; Kamil Var – Qeyri-kamil Yoxdur.

***İnsan Kamilliyində Təbiətini ötüb – Mahiyyətinə çatır.***

***

***Əxlaq – İnsanı İnsaniliyə Yüksəldən Qanad.***

*3 Arzu günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

İnsan Təbiətlə münasibətində İmtina Müdrikliyinə nail olmalıdır – Təbiətdən gen-bol istifadə Zorundan əl çəkməlidir; Təbiət üzərində Ağalığına son qoymalıdır – Təbiətlə Doğmalaşmalıdır ki, Təbiətsiz qalmasın.

***

Hindlilər Heyvanları Boğazlaya bilmirlər.
Bəşər Heyvanları Boğazlamadan Yaşaya bilmir.
İslamçılar Qurban Bayramlarında Həşəmətli güc göstərirlər: ***Kütləvi şəkildə Heyvan Boğazlayırlar.***

***

***İnsan – İnsanilik naminə Özündən keçməlidir.***
İnam naminə.
İdrak naminə.
Mənəviyyat naminə.
İradə naminə.
***İnsan – cəmiyyət naminə özündən keçməməlidir.***
Ağalıq naminə özündən keçməzlər.
Nökərlik naminə özündən keçməzlər.
Təbəqəlik naminə özündən keçməzlər.
Özgəlik naminə özündən keçməzlər.

***

İnsan – cəmiyyətin Rəiyyəti.

Təbiət – İnsanın Rəiyyəti.

***Bu Fəlakətli Dairədən Bəşər çıxa bilmir; çünki İnsan ola bilmir.***

***

Gərək Təbiətə Mənfəət baxımından yanaşmayasan – Mahiyyət baxımından yanaşasan.

Gərək Biləsən ki, Təbiət Müstəqil Mahiyyətə malikdir və onun Məqsədi – İnsana xidmət eləmək deyil; – özümlüyünü ifadə eləməkdir.

***Gərək Biləsən ki, Təbiətin İnsan adlanan Allahı yoxdur!***

***

İnsanın Təbiət üzərində Ağalığında – ***Adamlıq*** Qələbə çaldı.

İnsanın Təbiətlə Doğmalaşmasında – ***İnsanilik*** Qələbə çalacaq.

***

Şveyser – İnsanı Təbiət qarşısında Günahkar sayır.

Eyni zamanda Təbiət də İnsan qarşısında günahkardır; – İnsan Təbiətə Zülm eləmədən yaşaya bilmir – ***bu Aqibəti ona Təbiət özü verib.***

Təbiətin İdrakı yoxdur ki, öz Günahını dərk etsin, İnsanın İdrakı Var, bu səbəbdən də öz günahını dərk edir.

***

***İdealizm*** – gerçəklikdən Qaçır.
***Materializm*** – gerçəkliyə Qapılıb Qalır.
***Elmçilik*** – gerçəklikdən Gizlənir.
***Mütləqçilik*** – gerçəkliyi Mahiyyətə Yüksəldir.

*4 Ümid günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

İnsanın ən böyük Haqqı – İnsaniliyə çatmaqdır.
İnsanın ən böyük Borcu – İnsaniliyə çatmaqdır.
***İnsanın ən böyük Haqqı – onun ən böyük Borcudur.***

***

Şveyserə görə, İnsan gerçəkliklə mübahisə etməlidir.
Bu azdır. ***İnsan gerçəkliyi ötməlidir.***

***

***Əxlaq – Mahiyyət əsasında Yaşamaq Tələbidir.***

***

Həyatdakılara Qıymaq – Həyata Qıymaqdır.

İnsan daim Həyatdakılara Qıyır; ancaq Həyat daim Yaşayır; ***Həyat Həyatdakılardan Güclü çıxır.***

***

Şveyserə görə, İnsanın Həyata Qıyması Əxlaqsızlıqdır.

***Bu baxımdan, İnsan Həyatı Əxlaqsızlıqdır.***

***Əslində isə Əxlaq – İnsan Həyatının Mahiyyətidir, Mənasıdır; Əxlaq – Həyatdan Üstündür; Məqsəd – Həyatı Əxlaqa Yüksəltməkdir; Əxlaqlı Həyat Yaratmaqdır.***

***Əxlaq – İnsanın Həyata Qıymadan Yaşamaq Tələbidir, Həyatdan Üstün Yaşamaq Tələbidir.***

***

İnsani Münasibətlər mənfəət münasibətlərindən Üstündür.

Cəmiyyət Mənfəət münasibətlərindən başqa münasibət tanımır.

Bu səbəbdən də İnsani münasibətlər ictimai münasibətlərdən üstündür.

***

Şveyser İnsanın Yaşamaq Zərurətindən doğan Zoru inkar edə bilmir.

Beləliklə də Zor Zərurəti Təsdiq olunur...

Zor Zəruriyyəti Həyat üstündə əsmək Tələbinə uyğun gəlmir.

Beləliklə də Şveyser Natam, Ziddiyyətli Etika Yaradır; – ***müəyyən Hədd, Sədd çərçivəsində həyat üstündə əsmək olmaz – Həyat üstündə əsmək – Hədsizlik, Sədsizlik Tələb edir.***

***

İnsan ***özü*** üçün Yaşamır – ***Özümlüyü*** üçün Yaşayır; – bu səbəbdən də Fədakardır.

***

İnsanın Allah qarşısında Günahı yoxdur – çünki Allah yoxdur.

İnsanın İnsanilik qarşısında Günahı var: –

***İnam qarşısında, İdrak qarşısında, Mənəviyyat qarşısında, İradə qarşısında.***

***

Şveyser İnsanın Təbiətə qarşı Zorunu rədd etmir, – Məhdudlaşdırır...

***Beləliklə də Əxlaqla Həyat arasında Fərq qalır.***

Əslində isə bu Fərq Mahiyyətlə Təzahür arasında; Mənayla Hadisə arasında Fərqi ifadə edir.

***Əxlaq Mahiyyətə bərabərdır; Təzahürdən Fərqlidir.***

***

İnsan Həyatı – İnsaniliyə Uyğun gəlmir...

İnsan Heyvanı öldürür, İnsanı öldürür...

İnsanilik – ölümə qarşıdır...

Ölüm İnamı olmur.
Ölüm İdrakı olmur.
Ölüm Mənəviyyatı olmur.
Ölüm İradəsi olmur.

***İnsanilik – ölümü rədd edir; İnsan – ölümsüz yaşaya bilmir.***

***

Əxlaqı Əxlaq eləyən – Mütləqilikdir.
***Nisbi Əxlaq olmur.***
Bu səbəbdən də Həyat səviyyəsində Əxlaq olmur.
***Əxlaq – İnsandan Həyatını Dəyişdirmək Tələb edir.***

***

Əxlaqlı Yaşamaq – Yaşamamaqdır – deyirlər.
***Əxlaqlı yaşamaq – Yaşamaqdan Üstün Yaşamaqdır – demək gərək.***

***

Dində Məsuliyyət – Günahdan Yaranır.
İnamda Məsuliyyət – Günahsızlıq Yaradır.

***

İnsan Özümlüyü – İnsanilik.
İnsan Özgəliyi – İctimailik.

***

Cəmiyyət əsasında İnsanilik yaranmır.
İnsanilik əsasında Cəmiyyət Yaranmalıdır.
Cəmiyyət İnsaniliyə yaramır – İnsanilik cəmiyyətə Yaramalıdır.
***Cəmiyyət İnsan yaratmır – İnsan Cəmiyyət Yaratmalıdır.***

***

İnsanı sevmək üçün – İnsaniliyi sevmək gərək.
***İnamsız – Sevgi olmur.***
***İdraksız – Sevgi olmur.***
***Mənəviyyatsız Sevgi olmur.***
***İradəsiz Sevgi olmur.***

***

***Şveyser Cəmiyyəti etibarsız və kor At sayır.***

Ancaq həmin At Adamları minir; Adamlar çiyinlərində etibarsız və kor At gəzdirirlər; həmin Yükün altında inildəyirlər; ancaq Təlqin nəticəsində həmin Yükü Qanad sayırlar və ondan ötrü özlərini qurban verirlər.

***At Atlı əvəzi olur, Atlı At əvəzi.***

***

Albert Şveyser İnsanı Təbiətin Üstündə əsməyə çağırır.

Bunun üçün gərək Təbiəti özünə Doğma sayasan, Alət saymayasan.

***Doğma Alət olmur.***

***

Özümlük üçün Özündən keçmək – Özünütəsdiqdir.

*5 Dözüm günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Xristianlığa görə İnsan Bilik meyvəsini yediyi üçün Günaha batıb.

Çoxbilmiş Adam özünü Allaha tay saya bilərdi.

Bu səbəbdən də Allah Adamı cənnətdən qovdu.

Beləliklə, İdrakilik Xristianlıqda günah sayılır.

Həm də İnsan Amansız və Qısqanc Allaha İdraksızcasına Sevgi bəsləyir.

***Xristianlıq İnsanı Yerə vurur, heç eləyir və sonra da İnsanlara deyir ki, bir-birinizi sevin.***

***

Feyerbaxda Dövlət Dinlə Təzad Təşkil edir.

Dində İnsan Allahdan Asılı olur, Dövlətdə İnsandan.

***Əslində isə İnsan Dövlətdə – İnsandan – Allahdan asılı olduğu dərəcədə – Asılı olur.***

***Allah Dövlətdə itmir – Biçimini Dəyişir.***

***Dövlət İnsaniliklə Təzad Təşkil edir, Dinlə Birləşir.***

***

Feyerbax İnsanın Allahın Yerində dayanmasını istəyir.

Əslində İnsan Allahın Yerində yox, İnsaniliyin Yerində Dayanmalıdır.

Allahın Yerində dayanmaq – Yalanın Yerində dayanmaqdır.

***Feyerbax – Allahı tanımır, amma Allahın İnsan üzərində Allahlığını tanıyır.***

***

Feyerbax Fəlsəfənin Dinə çevrilməsini istəyir.

Bu, Həqiqətin Cəfəngiyyata çevrilməsi olardı.

Dinə çevrilmiş Fəlsəfə – cəfəng Fəlsəfə olardı.

***Fəlsəfə İnama Yaramalıdır, İnam Fəlsəfə üstə Qurulmalıdır.***

***

Din Müqəddəsliyi – Cəfəngiyyatçılıq.
İnam Müqəddəsliyi – Həqiqətçilik.

***

Feyerbax Dini Siyasətlə əvəz etmək istəyir – Siyasətdən Din yaratmaq istəyir; əslində isə Siyasət Dinə əsaslanır: İnsan üzərində İnsan Ağalığı – İnsan üzərində Allah Ağalığından Doğur.

***

Cəmiyyət Qanunları, İdealları – Ağalıq Həddində Qanunlardır, İdeallardır; Ağa Qanunları, İdeallarıdır əslində.

Cəmiyyət Qanunları, İdealları – Nökərlik Həddində Qanunlardır, İdeallardır; Nökər Qanunlarıdır, İdeallarıdır əslində.

Cəmiyyət Qanunları, İdealları – Təbəqəlik Həddində Qanunlardır, İdeallardır; Təbəqə Qanunlarıdır, İdeallarıdır əslində.

Cəmiyyət Qanunları, İdealları – Özgəlik Həddində Qanunlardır, İdeallardır; özgə Qanunlarıdır, İdeallarıdır əslində.

***

Cəmiyyətçilərdə İnsanı Cəmiyyət yaradıb.

Bəs cəmiyyəti kim yaradıb?

İnsansız Cəmiyyət yarana bilərdimi?

Əgər cəmiyyəti insan yaradıbsa, İnsanı cəmiyyət necə yarada bilərdi?

Deyirlər ki, Cəmiyyət olmasaydı – İnsan Heyvanat səviyyəsində qalardı.

Əgər insan heyvan olsaydı, o, cəmiyyəti necə yaradardı?

Niyə başqa heyvanlar cəmiyyət yaratmırlar?

Deyirlər ki, İnsanı istehsal Aləti Yaradıb.

Bəs İstehsal Alətini kim Yaradıb?

İnsansız İstehsal Aləti yarana bilərdimi?

Əgər İstehsal Alətini İnsan yaradıbsa, İstehsal Aləti İnsanı necə Yarada bilərdi?

Deyirlər ki, istehsal alətləri olmasaydı, İnsan Heyvanat səviyyəsində qalardı.

Əgər İnsan heyvan olsaydı, o, istehsal alətini necə yaradardı?

Niyə başqa heyvanlar istehsal aləti yaratmırlar?

***Harda imkanları var – insanları özgələşdirirlər özgəçilər – Bəndələşdirirlər, Heyvanlaşdırırlar, cəmiyyətləşdirirlər, istehsalatlaşdırırlar; – Özümlüyündən – İnsaniliyindən ayırırlar.***

***

Zamandan Büt Düzəldirlər. Zamanla Ayaqlaşmağa çağırırlar. Zamanın Hökmündən danışırlar.

Unudurlar ki, Zamanı Adam Yaradıb.

Adam Hökmündə, əməlində Mütləqilik Yoxdur, nisbilik Var.

***Zamanın arxasınca sürünmək yox, – Zamanı ötmək gərək.***

***

Təkamülçülərə görə İnsan başqa canlıların inkişaf etmiş növüdür; davamıdır; – onlardan Biridir.

Belə olduqda İnsani naqisliklər, heyvaniliklər – təbii sayılmalıdır, İnsandan xüsusi heç nə gözləmək lazım deyil; İnsanilik inkar edilməlidir.

Təkamülçülərdə İnsani Dünya yoxdur, Ümumcanlılar Dünyası var ki, İnsan bu Dünyanın üzvi hissəsidir... ***İnsan mürəkkəb xassəli heyvandır...***

Təkamülçülər İnsan tanımırlar əslində – çünki canlılardan Üstün olan İnsanilik tanımırlar.

*6 Mərhəm günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyun. 1995-ci il.*

***

İnsanın Gözəlliyə münasibətində onun Mənaya münasibəti Aşkarlanır.

Gözəllik – Mənalı Biçimdir əslində; – həm də Gözəllik vasitəsiylə İnsan Mənanı dərk edir.

***

Heyvan Həyatı Həyat üstə qurulur.
İnsan Həyatını Məna üstə qurur.

***

***Hal.*** İnsan Var olmaq istəyir – Yoxa çıxmaq istəmir.

Bu səbəbdən də o ən Pis Həyatda belə – Yaşamaq istəyir, ölmək istəmir.

***

İnsan öz Naqisliyindən Azad olmayınca, onun Azadlıqları Əsarət olacaq.

***

***Xudbin*** – Özündən başqa heç kimi Görmür, tanımır.
***Özümlü*** – Özündə İnsaniliyi görür, tanıyır.

***

***İnsanın bir Ölməzliyi Var – İnsanilik.***
İnsan ölür – İnam qalır.
İdrak qalır.
Mənəviyyat qalır.
İradə qalır.
Fərd ölür – Fərdilik qalır.
“Mən” ölür – Özümlük qalır.
***Ölənləri Qalanlar əvəz etmirlər – ancaq İnsanilik qalır.***

***

***Deyirlər ki, dinsizlik – Vicdansızlıqdır.***
Əslində Dinsizlik – Vicdanlıqdır, çünki Vicdan – İnsanın Bəndəliyini qəbul etməz.
***Deyirlər ki, Dinsizlik – Əxlaqsızlıqdır.***
Əslində Dinsizlik – Əxlaqlıqdır, çünki Əxlaq – Mənəvi Dilənçiliyi Qəbul etməz.

***

Duyğuları cismaniliklə Eyniləşdirmək – Fəlsəfənin ən Böyük səhvlərindən Biridir.
***İnsani Duyğuların hamısı – İdrakidir;***
İdrak Duyğuları İdrakiləşdirir; onun bir xassəsi də bundan ibarətdir.
***İnsan Duyğuları Mahiyyətcə Ruhanidir.***
***Mənfi fikirlər olduğu kimi – Mənfi Duyğular da Var.***
***Ancaq sırf cismani Duyğular yoxdur.***
***Sırf Sensualizm – Sırf Rasilnalizm kimi – Yalandır.***

***

Mənfi Duyğuları İdraksız Duyğular saymaq – düz deyil.
***Adamlıq səviyyəsində İdrak – Mənfilikdən xali deyil.***
***Həmçinin Duyğulardan xali olan Xalis Zəka – Əfsanədir.***
***Materialist Monizm*** (Birlik) – Həyatı İdraksızlaşdırır.

***İdealist Dualizm*** (İkilik): Zəkayla Duyğunu qarşı-qarşıya qoyur;

***Mütləqçilik*** – Zəka–Duyğu Birliyini İfadə edir.

*8 Murad günü, Od Ayı, 17-ci il. Bakı.*
*İyul. 1995-ci il.*

***

Dində Ruh Bədən öləndən sonra yaşayan cismanilikdir əslində. Çünki İnsan Allah deyil; o, cisimsiz yaşaya bilməz.
***Təsadüfi deyil Ki, Ruhun Hərfi mənası "nəfəs"dir...***

***

Allahlıq Anlayışı – Dünyalıq, Həyatlıq, İnsanilik Anlayışlarıyla əvəz olunmayınca – İnsan özü haqda, Dünya haqda, Həyat haqda Həqiqəti dərk etməyəcək.

***

"İnsanın həyatdan başqa heç nəyi yoxdur" – deyənlər Yanılırlar.

İnsanın Həyatdan Üstün Mənası Var – İnsaniliyi Var.

"İnsanın Ömürdən başqa heç nəyi yoxdur" – deyənlər Yanılırlar.

İnsanın Ömürdən Üstün Mənası Var – İnsaniliyi Var.

***İnsan Həyatdan Üstün Yaşamalıdır ki, Özümlüyünə çatsın.***

***

İnsan Mövcudluğu ötməlidir ki, Özümlüyünə çatsın.

Ekzistensializm İnsanı Mövcudluğa Pərçimləyir; onu Özümlüyündən Ayırır və ona Yas saxlayır.

***

Ölümsüzlük Duyğusu – Ölümə qarşıdır, İnsanın – ölümü Daxilən rədd etməsidir – ölümə Yad olmasıdır.

***

Feyerbaxda Ölüm İnsanı Əzabdan qurtarır.

Əslində Ölüm İnsanı Həyatdan qurtarır; – Belə ***Qurtarmanı*** İnsan istəmir – ***o, Əzablı Həyatı – Əzabsız Ölümdən Üstün tutur.***

***

Xristianlıq Ölümü – Həyatın Göyü sayır.

Ancaq həmin Göyü sevən Yoxdur, həmin Göyə can atan yoxdur.

***Xristianlıq ölümü sevdirə bilmədi, – çünki İnsanilik Ölümə qarşıdır.***

***

Hətta İntiharda belə, İnsan Ölümə qovuşmur; – İntihar edən üçün – Ölüm əlacsızlıqdan Doğan Yad köməyidir, Yağı köməyidir.

***Ürəksiz ölümə ürək verən olmur.***

***

Din Allahı sevdirə bildi; – çünki onu Yaradan kimi Təqdim edə bildi, Din Ölümü sevdirə bilmədi, – ***çünki Öldürəni sevmək olmaz.***

***

Ölüm – İnsanı öldürür, ancaq İnkar edə bilmir, çünki İnsaniliyi öldürə bilmir.

***

Ruhun ölməzliyi – əslində Cismin ölməzliyidir.

Din bu cəfəngiyyatı pərdələmək istəyir, ancaq bacarmır; – cəfəngiyyat aşkara çıxır.

***Krişnaistlərdə Ruh – maddi enerjidir.***

***

İnsan ölməzliyi bu Dünyada yaranır və bu Dünyada qalır.

***Dində Ruh – əslində Cisim – o dünyada yaşayır.***

Dinə görə əsil Dünya – O Dünyadır; yəni əsil Həqiqət – Cəfəngiyyatdır.

***

Din İnsanı tam aldada bilmir.

Heç kəs ölmək – ***o əsil Dünyaya*** getmək istəmir.

Bu Dünyada yaşamaq istəyir, o dünyada yaşamağa can atmır.

***Ölmək istəmir; deməli, o Dünyada Yaşayacağına inanmır.***

***

İnsanın İnsanilik adlı Ölməzliyi var, Din onu görmür.

Din Bədən öləndən sonra yaşayan Ruhu – əslində Cismi – görür.

***Din Həqiqəti görmür, çünki Cəfəngiyyata inanır.***

***

Bütün canlılar üçün həyat – məzmundur.
İnsan üçün Həyat – Biçimdir.
***İnsan onu İnsaniliklə doldurmalıdır.***

*9 İnam günü, Od Ayı, 17-ci il. Bakı.*
*İyul. 1995-ci il.*

***

Yaxşı Adam – hər vaxt pis ola biləcək Adam.
Yaxşı İnsan – Pis ola bilməyən İnsan.

***

İnsan Adamın Davamı deyil əslində – İnkarıdır.

***

Adamdan Heyvana əl boyda Yol Var, – Adamdan İnsana Göy boyda Yol...

***

***Azadlıq Zərurəti ötmək Zəruriliyidir.***

Azadlıq – Zərurətə bərabər olsaydı – Azadlıq olmazdı – Zərurət olardı.

"Azadlıq dərk olunmuş Zərurət" olsaydı – Əməl olmazdı, İdrak olardı...

***Azadlıq Zərurətdən Azad olmaqdır.***

Azadlıq – Zərurəti görür, bilir, ancaq Zərurətlə kifayətlənmir, ondan Üstün olur.

***Azadlıq Zəruridir; Zərurət Azad deyil.***

***Azadlıq Zərurəti geridə qoyur.***

Dində Azadlıq Yoxdur – çünki Qismətdə Azadlıq Yoxdur.

İnam Azadlıqdır, çünki Mütləq – Azadlıqdır.

***Zərurəti ötmək – Zəruridir.***

***Azadlıq Zəruridir.***

***

Azadlıq – Zərurəti ötür.
Təsadüf – Zərurətə çatmır.

***

***İstəkləri öldürmək yox – İnsaniliyə Yüksəltmək gərək.***

Yaxşı İstəkləri Naqis İstəklərdən Ayırmaq gərək.

***Kamillik İstəklisi olmaq gərək.***
***Kamillik İstəyinə çatmaq gərək.***

***

Budda ***İstəkləri*** öldürmək Vasitəsiylə Kamilliyə çağırırdı.

Əslində isə Kamillik ***İstəyi*** olmadan – Kamilliyə çatmaq olmaz.

***Budda Öldürdüyünə çağırırdı əslində.***

***

***İstək Əməlin – ilkin halıdır.***

İstək olmasa – Əməl olmaz, o cümlədən Ruhani əməl – Kamillik Əməli.

***

İnsan İnsaniliyini nə Cəmiyyətdə, nə Dövlətdə, nə Tarixdə tapır.

***İnsan İnsaniliyini özündə tapır...***

İnsaniliyini özündə tapan İnsan İnsani Cəmiyyət, İnsani Dövlət, İnsani Tarix Yaradır.

*10 Arzu günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

***Din*** – Dünyəviliyi – ***Zahiri*** sayır.

İlahiliyi – ***Daxili*** sayır.

Əslində isə İlahilik Zahiridir.

***Allah Dünyanın xaricində olan Bənnadır. Dünyanı Yaradan – Dünyanın xaricindədir.***

Materializm Dünyəviliyi – Zahiriləşdirir; maddiyyata bərabər sayır.

***Mütləqçilik – Dünyanın Mahiyyətinə çatır; Daxili Mənasına Yüksəlir; Mütləqçilikdə Dünyəvilik – Daxili Özümlük kəsb edir.***

***

Din – Dialektikanın ən ardıcıl və ən cəfəng biçimidir əslində.

Dəyişkən, Ziddiyyətli Dünya Fani (Puç) Dünyadır – Din bu Məntiqə əsaslanır.

Dəyişkən, Ziddiyyətli Dünyanın – Dəyişməz, Bütöv Mənası, Mahiyyəti olduğuna Din İnanmır. Buna inansaydı, o, Din olmazdı – O Dünyaya inanmazdı.

***Din – cəfəngləşmiş Dialektikadır.***

***

***Din*** Dünyanı gerçəkliklə Eyniləşdirir, bu səbəbdən də onu Mahiyyətdən Ayırır.

Əslində isə Dünya gerçəklikdən Artıqdır, çünki gerçəklik – Mahiyyətin Təzahürüdür, – Təzahür Mahiyyətdən əksikdir.

***Dünyanın Dünyalıq adlı Mahiyyəti Var, bu səbəbdən o, gerçəklikdən Artıqdır.***

***

***Dinin Ağlı Yoxdur.***

Dünyanı Puç saymaq – Dünyanı Yaradan Allahın Böyüklüyünə kölgə salır.

Böyük Allah niyə Puç Dünya yaratsın?

Bu necə Böyüklükdür və bunun nəyi Böyüklükdür?

***Din, Ağlının ucundan, Allaha şübhə yaradır.***

***

İnsanı Əzəli günahkar saymaq – Dinin İnsan qarşısında ən Böyük günahıdır; İnsanın əl-qolunu bağlamaqdır; onu kor eləməkdir, – Özündən gizlətməkdir.

***

Siyasətçini ikiüzlülükdə günahlandırmaq onu mükafatlandırmaqdır.

***İkiüzlülük – Siyasət üzüdür.***

*11 Ümid günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

***Ekzistensializmdə*** Qorxu – Həyat Gözətçisidir.
Əslində isə Qorxu – Həyat Oğrusudur.

***

***Cəmiyyəti*** – İnsanilik Həddi sayırlar – İnsaniliyi əksildirlər; İnsanilik – Cəmiyyətdən Üstündür.

***Tarixi*** – İnsanilik Həddi sayırlar – İnsaniliyi əksildirlər; İnsanilik – Tarixdən Üstündür.

***Zamanı*** – İnsanilik Həddi sayırlar – İnsaniliyi əksildirlər; İnsanilik – Zamandan Üstündür.

***İnsaniliyi əksildirlər və İnsanı Allaha möhtac eləyirlər.***

***

İnsan Yaradanın Qulu olduğu dərəcədə – Yaratdığının Qulu olur.

***

***Cəmiyyət adlanan Quyunu*** Adam Yaradıb – Quyuya düşüb; Adam olduğu üçün Quyudan çıxa bilmir – Gücü çatmır.

***Dövlət adlanan Quyunu*** Adam Yaradıb – Quyuya düşüb; Adam olduğu üçün Quyudan çıxa bilmir – Gücü çatmır.

***Tarix adlanan Quyunu*** Adam Yaradıb – Quyuya düşüb; Adam olduğu üçün Quyudan çıxa bilmir – Gücü çatmır.

***Adam – İnama çatmayıb*** – bu səbəbdən də Quyudan çıxa bilmir – Gücü çatmır.

***İdraka çatmayıb*** – bu səbəbdən də Quyudan çıxa bilmir – Gücü çatmır.

***Mənəviyyata çatmayıb*** – bu səbəbdən də Quyudan çıxa bilmir – Gücü çatmır.

***İradəyə çatmayıb*** – bu səbəbdən də Quyudan çıxa bilmir – Gücü çatmır.

***İnsaniliyə çatmayıb – bu səbəbdən də Quyudan çıxa bilmir – Gücü çatmır.***

*12 Dözüm günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Berdyayevdə Şəxsiyyət özü üçün Yaşayır.

Əslində isə Şəxsiyyət Özümlüyü üçün Yaşayır.

Berdyayev Şəxsiyyəti əksildir, çünki İnsanilik Tanımır, Allah tanıyır.

***Berdyayev Şəxsiyyəti əksildir ki, onu Allahdan asılı eləsin.***

***

İnsan İnsaniliyə gərək olduğu dərəcədə Özümlüyünə gərək olur.

İnama gərək olduğu dərəcədə Özümlüyünə gərək olur.

İdraka gərək olduğu dərəcədə Özümlüyünə gərək olur.

Mənəviyyata gərək olduğu dərəcədə Özümlüyünə gərək olur.

İradəyə gərək olduğu dərəcədə Özümlüyünə gərək olur.

İnamsızlıq – Özgəlikdir.
İdraksızlıq – Özgəlikdir.
Mənəviyyatsızlıq – Özgəlikdir.
İradəsizlik – Özgəlikdir.

*13 Mərhəm günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Din Mücərrədddir – İnsanı Özgələşdirir – Bəndələşdirir.

İnam – Ümumidir – İnsanı – Özümləşdirir – İnsaniləşdirir.

***

İnsandan kənarda Cəmiyyət var – İnsanı ***Özgələşdirən.***

İnsandan Yüksəkdə İnsanilik var – İnsanı ***Özümləşdirən.***

***

Həqiqət – Ümumidir, ancaq Mücərrəd deyil, çünki İnsanda yaşayır, İnsanı yaşadır.

***

Əgər Dəyişkən Dünyada Həqiqət də Dəyişsəydi – Dünya Yalan olardı.

***

Berdyayevdə Dəyişməyən Yaşamır.

Əslində isə Dəyişən Dəyişməyənə görə yaşayır.

***

Həyatın Daxili Ziddiyyətindən danışırlar.

Əslində Həyatın Daxili Ziddiyyəti Yoxdur; – Həyatın Daxili Mənasıyla Zahiri Təzahürü arasında Ziddiyyət Var.

***

Berdyayev bir çox başqa filosoflar kimi, Ümumiylə Mücərrədi eyniləşdirir, Ümumini özgələşmə sayır.

***Əslində isə Ümumi – Özümləşməyə xidmət eləyir.***

***İnam*** – Ümumidir; həm də Özümləşmə Yüksəkliyidir.

***İdrak*** – Ümumidir; həm də Özümləşmə Yüksəkliyidir.

***Mənəviyyat*** – Ümumidir; həm də Özümləşmə Yüksəkliyidir.

***İradə*** – Ümumidir; həm də Özümləşmə Yüksəkliyidir.

***

Berdyayev İnsanın Alətləşməsinə qarşı çıxır.

Ancaq İnsanı Mahiyyətdən ayırmaqla – onu əslində Alətləşdirir.

***Mahiyyətdən Ayrılmış İnsan – Alətdir...***

***

Berdyayevdə İnsan özünə qapılıb qalır – bu səbəbdən də özümlüyünə çatmır.

Özümlüyə çatmaq üçün – Özündən Yüksəyə çatmaq gərək, özündən Artıq olmaq gərək, özünü ötmək gərək.

İnsan Dünyasını genişləndirmək istəyən Filosof onu əslində Daraldır.

Berdyayev İnsanilik tanımır əslində – çünki İnsanı İnsaniliklə eyniləşdirir.

*14 Qismət günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Varidat – Məqsəd olanda – İnsan satın alınır.
Kapitalizmdə Varidat Məqsəd olur – İnsan satın alınır.

***

İnsanların cəmiyyətdə Yeri – Yersizliyi.
İnsanların İnsanilikdə Yeri – Göyü...

***

İctimai Qurum olur, İctimai Vəzifə olur, İctimai Vəziyyət olur – İctimai Şəxsiyyət olmur; ***çünki İctimai Özümlük olmur.***

***

Berdyayev cəmiyyəti İnsanın Göydən Yerə enməsiylə bağlayır...

Hansı Göydən enib İnsan?

Berdyayevə və ümumən xristianlığa görə, İnsan Allah Göyündən Yerə enib – Allah tərəfindən Yerə endirilib.

Təbiidir ki, İnsan İnsanilik Göyündən enib – Qalxa bilmir, Yüksələ bilmir, özümlüyünə Yetə bilmir; bu Əməldə ona Cəmiyyət də ciddi mane olur; ***İnsan cəmiyyət həddini aşa bilmir ki, İnsaniliyə çatsın.***

***

Cəmiyyət – Dostluq Yaratmır, Məhəbbət yaratmır; – Ağalıq yaradır, Rəiyyətlik yaradır.

***Məhəbbəti, Dostluğu İnsanilik Yaradır.***
İnam Yaradır.
İdrak Yaradır.

Mənəviyyat Yaradır.
İradə Yaradır.

***Məhəbbət, Dostluq cəmiyyət üzərində yaranır, mahiyyətcə cəmiyyətə qarşı yaranır.***

***

Praqmatik ***Cems*** Sürülüyü İnsanın əsas xassəsi sayır.

Əslində isə Sürülük – Adamda yaşayan Heyvanilikdir.

İnsanın əsas xassəsi – Sürülüyə yad olan Məhəbbət və Dostluqdur...

***Bu səbəbdən də Adamın İnsana Yetməsi – Adamın Sürülükdən ayrılmasını Tələb edir.***

***

Birləşmə – Sürüləşmə deyil, cəmiyyətləşmə deyil – Özümləşmədir.

***Dostluqda, Məhəbbətdə Özümlük – Ülviləşir.***

***

Azadlıq – Cəmiyyət adlı Zərurətdən Üstün olmaq.
– Zaman adlı Zərurətdən Üstün olmaq.
– Şərait adlı Zərurətdən Üstün olmaq.
– Mühit adlı Zərurətdən Üstün olmaq.

***

Praqmatizm Adamlıq Fəlsəfəsidir – İnsanlıq Fəlsəfəsi deyil; Gerçəklik Fəlsəfəsidir – Mahiyyət Fəlsəfəsi deyil; – bu səbəbdən də İnsanilikdən uzaqdır.

*15 Murad günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Müasir Elm İnsanlığa bağlı İki Həyat tanıyır. Fiziki həyat və İctimai Həyat.

***Əslində isə İnsanla Bağlı Həyat – Üçdür.***

Üçüncü – Ali Həyat – İnsani Həyatdır ki, İnsan ona doğru Yol gedir.

***İnsan Həyatın İkisinə çatıb – Üçüncüsünə çatmalıdır.***

***

Gerçəkliyə Uyğunlaşmaq – Zərurətdir.

Gerçəkliyi ötmək – Azadlıqdır...

***Adamlıq – Zərurətdir.***

***İnsanlıq – Azadlıqıdır.***

***Adam Zərurətdən Azad olmayınca – İnsan olmur.***

***İnsanilik – Zərurət Üstünlükdür, Zərurətdən Üstünlükdür.***

***

İnamı cəmiyyət yaradıb deyirlər – İnamsızlıqdan yaranan – İnamı necə yarada bilər?!

İdrakı cəmiyyət yaradıb deyirlər – İdraksızlıqdan yaranan – İdrakı necə yarada bilər?!

Mənəviyyatı cəmiyyət yaradıb deyirlər – Mənəviyyatsızlıqdan yaranan – Mənəviyyatı necə yarada bilər?!

İradəni cəmiyyət yaradıb deyirlər – İradəsizlikdən yaranan – İradəni necə yarada bilər?!

***

Cəmiyyət İradəsi Yoxdur – Ağalığın cəmiyyət üzərində İradəsi Var.

Təbəqəliyin cəmiyyət üzərində İradəsi Var.

Özgəliyin cəmiyyət üzərində İradəsi Var.

***

İnsanı cəmiyyət üçün tərbiyə etmək – onu ***Ağalıq*** üçün tərbiyə etməkdir.

***Nökərlik*** üçün tərbiyə etməkdir.

***Təbəqəlik*** üçün tərbiyə etməkdir.

***Özgəlik*** üçün tərbiyə etməkdir.
İnsanı İnsanilik üçün tərbiyə etmək lazımdır.
***İnam*** üçün tərbiyə etmək lazımdır.
***İdrak*** üçün tərbiyə etmək lazımdır.
***Mənəviyyat*** üçün tərbiyə etmək lazımdır.
***İradə*** üçün tərbiyə etmək lazımdır.
***İnsanı elə tərbiyə etmək lazımdır ki, o, cəmiyyəti ötsün.***

***

İnama Zidd olan nə varsa – Şərdir.
İdraka Zidd olan nə varsa – Şərdir.
Mənəviyyata Zidd olan nə varsa – Şərdir.
İradəyə Zidd olan nə varsa – Şərdir.
Cəmiyyət – İnama Ziddir, çünki Mütləqilik tanımır.
İdraka Ziddir – çünki İnsan tanımır.
Mənəviyyata Ziddir – çünki Vicdan tanımır.
İradəyə Ziddir – çünki Zəmanəyə tanımır.
***Cəmiyyət – Şərdir.***

*16 İnam günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Freyddə Mədəniyyət – Azadlığı Buxovlayır.
Əslində Mədəniyyət – Əsarəti Buxovlamaq istəyir – Bacarmır.

***

Freyddə Azad İnsan – Yırtıcı İnsandır.
Əslində isə Azad İnsan – Yırtıcılığını öldürən İnsandır...
***Yırtıcılıq – Azadlıq deyil, Əsarətdir.***

***

Freyddə İnsan – Fərdi Zorçudur və Dövlət İnsanı İnsandan Qoruyur.

Əslində isə Dövlət öz Təbiəti etibarilə Zorçudur və İnsanlar özlərini ondan Qoruyurlar...

***

Freydin, Yunqun "Dərinlik Psixologiyası" əslində – Səthi Psixologiyadır.

İnsaniliyi – Qeyri-Şüurilikdə görmək – hədsiz Səthilikdir.

***

Ən Böyük Qayda – Azadlıq.
Ən Böyük Qaydasızlıq – Əsarət.

***

Nə qədər ki, İnsan Kamil deyil, o, Azad deyil – yəni Naqislikdən Azad olmayan – Azad deyil...

Bəşər – Naqislikdən Azad deyil, bu səbəbdən də Dünyada Azadlıq yoxdur.

***

Cinayət Cəmiyyət havasından yaranır.

Bu səbəbdən də cinayətlə döyüşən cəmiyyət – həm də onu yaşadır...

***

Kapitalizm çərçivəsində Söz Azadlığı – əslində Var Azadlığıdır.
Sosializm çərçivəsində Söz Azadlığı – əslində Zor Azadlığıdır.
Kapitalizm çərçivəsində Azad seçkilər – Var Azadlığıdır.
Sosializm çərçivəsində Azad seçkilər – Zor Azadlığıdır.
Kapitalizm çərçivəsində Mülkiyyət Azadlığı – Var Azadlığıdır.
Sosializm çərçivəsində Mülkiyyət Azadlığı – Zor Azadlığıdır.
Kapitalizm çərçivəsində İnsan Haqqı – Var Haqqıdır.
Sosializm çərçivəsində İnsan Haqqı – Zor Haqqıdır.

*17 Arzu günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Freyddə Azadlıq – Kamilliklə bağlanmır.

Freyddə Azad İnsan – Qeyri-kamil İnsandır; hətta qeyri-şüuri İnsandır.

Bu səbəbdən Azad İnsan – Freydi qorxuzur və o, Mədəniyyətdən İnsana Buxov düzəldir – ***İnsanı Azadlıqdan qoruyur.***

***

Çoxları Azadlıq ilə Mədəniyyət arasında Ziddiyyət görürlər.

Əslində isə Mədəniyyət Azadlığın ifadəsidir...

Zorakılıq ilə Mədəniyyət arasında Təzad var, lakin Azadlıq – Zorkılığa qarşıdır.

***

Mədəniyyət Var – Azadlıq Yoxdur!

Deməli, əslində Mədəniyyət də Yoxdur – yəni Azadlığın Mədəniyyət vasitəsilə İfadəsi də Yoxdur...

***Azadlıqsız Mədəniyyət Varsa, deməli, Mədəniyyət hələ Yoxdur.***

***

Freyddə Azadlıq Mədəniyyətlə Təzad Təşkil eləyir...

Əslində isə Mədəniyyət Azadlıqdan yaranıb.

***

Freyddə Azadlıq – Təhlükədir, Mədəniyyət Həmin Təhlükəni səngidir.

Əslində isə Əsarət – Təhlükədir; Azadlıq onu aradan qaldırır.

***

Freyd Adamın Vəhşilik səviyyəsini Azadlıq sayır.

Əslində isə həmin səviyyə Zorakılıq səviyyəsidir ki, Azadlıq ona qarşı Mədəniyyəti yaratdı.

***

Freyddə Mədəniyyət – Azadlığı ram eləyən Gücdür.

Əslində isə Mədəniyyət – Azadlığı ifadə eləyən Gücdür.

***Mədəniyyət – Azadlıq İzharıdır əslində.***

***

Azadlıqla Zorakılığı eyniləşdirmək – Mədəniyyətlə Mədəniyyətsizliyi eyniləşdirmək deməkdir.

Azadlıq – Mədəniyyətsizliyə qarşıdır.

Mədəniyyət – Zorakılığa qarşıdır.

***

Qərb Fərdçiliyi əslində yoxdur – Dövlətçiliyi var; yəni Fərdçilik Dövlətçiliyə o qədər bağlanıb ki, ondan qopa bilmir.

Qərb Dövlətçiliyi Fərdçilik kimi Təqdim edə bildi; Təsdiq edə bildi; – bu onun böyük Məharətinə dəlalət edir.

***Onu yaşadan da elə budur.***

***

Azadlıq – Zorakılıqdan azad olmaqdan başlayır.

Daxilindəki Canavardan azad olmasan, Azadlığa çatmazsan.

Daxilindəki İlandan azad olmasan, Azadlığa çatmazsan.

Daxilindəki Tülküdən azad olmasan, Azadlığa çatmazsan.

***Kamilləşməsən – Azadlığa çatmazsan.***

*22 Murad günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

İnsan – İnsaniliyə doğru Yol gedir, İnsaniliyə çatanda İnsanilik Yolu gedəcək – Sonsuz.

***

Müasir dünyada maşınlaşdırılmış cəmiyyət İnsanı sürür; – ***yəni maşınlaşdırılmış İnsanı cəmiyyət maşını sürür.***

***

İnsanın Təbiət üzərində hökmü artdıqda – Cəmiyyətin İnsan üzərində hakimiyyəti də artır.

Nəticədə İnsan Güclənmir – Zəiflənir; Azadlığa çatmır – Əsarətə çatır...

İnsanın Təbiət üzərində Qələbəsi – İnsaniliyin Qələbəsi olmur, cəmiyyətin Qələbəsi olur, – yəni əslində İnsaniliyin Məğlubiyyəti olur.

***

Cəmiyyətin seçdiyi Adamlar cəmiyyətin əyninə biçdiyi Adamlardır.

***Özümlük – Biçilmir.***

Bu səbəbdən də Cəmiyyət – Özümlüyündən keçənləri seçir.

***

İnsanı, cəmiyyətlə bərabər fəlsəfə də özgələşdirib: onu Özümlüyündən ayırıb.

***

Cəmiyyət – özü Mədəniyyətdir – deyirlər.
***Cəmiyyət – mədəniyyət üzərində hakimiyyətdir.***

***

Aristoteldə İnsanı İnsan eləyən – cəmiyyətdir.
Marksda – istehsalatdır.
Freyddə – Seksual İnstinkt – "Libidodur".

Əslində İnsanı İnsan eləyən İnsanilikdir.

Filosofların çoxu İnsanı İnsandan kənarda axtarıblar; – əslində ***İnsanı Özümlüyündə*** axtarmaq gərək.

***

Mədəniyyət çox şeyi bacardı, ancaq Adamdakı ***Ağalığı*** öldürə bilmədi.

Adamdakı ***Nökərliyi*** öldürə bilmədi.

Adamdakı ***Təbəqəliyi*** öldürə bilmədi.

Adamdakı ***Özgəliyi*** öldürə bilmədi.

***Mədəniyyət – İnsaniliyə çağırdı – Ancaq Adamlığı ötə bilmədi.***

***

Zorakılığı buxovlamaq üçün yaranan Mədəniyyət cəmiyyət zorakılığına məruz qalır.

***Ağalıq Zorakılığına*** məruz qalır.

***Nökərlik Zorakılığına*** məruz qalır.

***Təbəqəlik Zorakılığına*** məruz qalır.

***Özgəlik Zorakılığına*** məruz qalır.

Cəmiyyət Mədəniyyətə yaramır. Mədəniyyətlə cəmiyyət arasında Ziddiyyət yaranır.

***

Mədəniyyət – cəmiyyətdən yaranıb deyirlər.

Mədəniyyət – Ruhaniyyatdan yaranıb, yəni İnamdan yaranıb, İdrakdan yaranıb, Mənəviyyatdan yaranıb, İradədən yaranıb; İnsanilik üstə yaranıb – Ağalıq üstə yaranmayıb, Nökərlik üstə yaranmayıb, Təbəqəlik üstə yaranmayıb, ***Cəmiyyət üstə yaranmayıb.***

***

Müasir İstehsalat İnsanı maşınlaşdırır; yəni əməyi İnsanilikdən ayırır; İnsanı İstehsalat alətinə çevirir, istehsalat getdikcə daha çox insansızlaşır;

***Möhtəşəm Sənayeləşmə – Möhtəşəm özgələşmə yaradır.***

***

Xristianlıqda Sabah – Ölümdən keçir– Bəşər ölməlidir ki, Dirilsin.

Əslində Sabah – Həyatdan keçir – Bəşər Dirilməlidir ki, ölməsin.

***

İqtisadi Tərəqqi – Tənəzzül Həddinə çatıb.
İctimai Tərəqqi – Tənəzzül Həddinə çatıb.
Siyasi Tərəqqi – Tənəzzül Həddinə çatıb.
***Başqa Dünya gərək.***
***İnsani Tərəqqiyə əsaslanan.***

***

Aristotelə görə – Dövlət – ***Üstünlüyün*** ləğvidir.

Aristotel bunu Dövlətin Üstünlüyü sayır.

***Əslində isə Üstünlüyün ləğvi – Əksiklikdir.***

Dövlət İnsani Üstünlüyü – Ağalıq Əksikliyiylə, Təbəqə əksikliyiylə, Özgələşmə əksikliyiylə əvəz eləyir; ***Dövlət – İnsanı əksildir.***

***

Aristotel bir Ölçü tanıyır: ***Orta*** ölçü.
Aristotel bir Ahəng tanıyır: ***Orta*** Ahəng.
***Ortalıq Filosofudur Aristotel.***
Əslində isə bir ölçü var: ***Üstünlük ölçüsü.***
Bir Ahəng var: ***Üstünlük Ahəngi.***
***Üstünlük Fəlsəfəsidir Mütləqçilik.***

*23 İnam günü, Od Ayı, 17-ci il. Bakı.*
*İyul. 1995-ci il.*

***

Demokratiya – hakimiyyəti Xalqla süni surətdə Doğmalaşdırmaq Oyunudur.

Hələlik bu Oyun baş tutur: Hamılıqla Hakimlik Yalanına uyurlar; Onu uydururlar ki, Təskinlik tapsınlar.

***

İnstinkt – cismanidir: Duyğu – ruhani.

İnstinktlə Duyğu arasındakı Fərq – Heyvanla İnsan arasındakı Fərqə bərabərdir.

***

İnsanın özündən yüksəyə qalxması – onun ***özümlüyə*** çatmasıdır əslində.

***Özümlük – İnsanilik Yüksəkliyidir – Kamillik Tələbidir...***

***

Təkamül nəzəriyyəsinə əsaslansaq – indiki Dünyanı – ***ölmüş Dünya saymalıyıq***, çünki əvvəlki Dünyada Heyvandan insan yaranırdı, indi – təkamül dayanıb – ***Dünya ölüb.***

***

Filosofların bir çoxu İnsanı siyasi xilqət sayır; əslində isə ***İnsanilik*** – siyasətə qarşıdır; çünki həqiqətçidir; – ***siyasət Yalançılığına qarşıdır.***

***

Filosofların bir çoxu (o cümlədən Aristotel) İnsani münasibətləri ictimai münasibətlərlə eyniləşdirir.

Əslində İctimai münasibətlər Ağalıq münasibətləridir; Nökərlik münasibətləridir; Təbəqə münasibətləridir; Özgəlik münasibətləridir; – ***yəni mahiyyətcə insaniliyə zidd münasibətlərdir.***

***

Filosofların bir çoxu (o cümlədən Aristotel) insanların birgə yaşamalarını ictimailiklə eyniləşdirir.

***Əslində İctimailik – birgə yaşayışın Ağalıq, Nökərlik, Təbəqəlik, Özgəlik halıdır; – yəni İnsaniliyə Zidd halıdır.***

Birgə Yaşayışın İnsanilik Halı – İnamda ifadə olunur, İdrakda ifadə olunur, Mənəviyyatda ifadə olunur, Ruhanilikdə ifadə olunur.

***

Cəmiyyət Adamdakı Ağalıq hissindən yarandı, Nökərlik hissindən yarandı, Təbəqəlik hissindən yarandı, Özgələşmə hissindən yarandı.

***Cəmiyyət – Adam əksikliyindən yarandı.***

***

Cəmiyyət Birlik yaratmadı – Cəmlik yaratdı.

***Cəmlikdə – Yadlıq yaşayır;***
***Birlikdə – Doğmalıq.***
***Cəmiyyət – Yadlığı yaşadır.***

***

Hegel “Tarixi Zəka idarə eləyir” – deyirdi.

Əslində Zəkalı Tarix olmayıb, Zorçu Tarix olub; Zəka Zora tabe olub – Zoru yaşadıb.

***

Texnikaçılıq – İnsanın Təbiət üzərində Ağalığına xidmət eləyir. Bu səbəbdən də o, özündə Ruhsuzluq gizlədib.

***

İnsan Təbiət əsarətindən qurtarandan sonra Təbiəti əsarətə saldı. Bu, insanın Əzəli günahıdır əslində.

***

“Dövlət Qayda Yaradır” – deyirlər.
Dövlət Ağalıq Qaydası Yaradır.
Təbəqə Qaydası Yaradır.
Nökərlik Qaydası Yaradır.
Özgələşmə Qaydası Yaradır.
***Qaydasızlıq Qaydası Yaradır.***

***

Əslində ***Ümumi Mülkiyyət*** – elə xüsusi mülkiyyətdir; yəni Dövlət mülkiyyətidir – ***hamının mülkiyyəti olmur.***

***Kapitalist mülkiyyəti*** – sahibkarlıq mülkiyyətidir; yəni Fəhlə Əməyinə Sahib olmaqdır.

***Əməkçi Mülkiyyəti*** – Əmək mülkiyyətidir; yəni Əməyin mülkiyyətə Sahib olmasıdır; yeganə ədalətli mülkiyyətdir.

***

Ümumiçilik Ağalığı rədd eləmir – Təsdiq edir; Fərdiliyin ləğvi ***Ağalıq*** imkanlarını artırır.

Ümumiçilik Nökərliyi rədd eləmir – Təsdiq edir; Fərdiliyin ləğvi ***Nökərlik*** imkanlarını artırır.

Ümumiçilik Təbəqəliyi rədd eləmir – Təsdiq edir; Fərdiliyin ləğvi ***Təbəqəlik*** imkanlarını artırır.

Ümumiçilik Özgəliyi rədd eləmir – Təsdiq edir; Fərdiliyin ləğvi ***Özgəlik*** imkanlarını artırır.

***Ümumiçilik Cəmiyyətçiliyi rədd etmir, onun imkanlarını artırır.***

***

***Hegel Tarixi – Azadlıq Yolu sayır.***

Əslində Tarix – Zərurət Yoludur; – Adamlıq Zərurətini ötə bilmir, bu səbəbdən də Azadlığa çata bilmir.

***

Aristoteldə Hakimiyyət – xidmətdir; əslində Hakimiyyət – "ləzzətdir".

Aristotel Hakimiyyətin Psixologiyasına varmır; bu səbəbdən də Hakimiyyəti az qala müqəddəsləşdirir.

***Bu, Ffəlakətli Yanlışlıqdır – Zəkanın Yalana uymasıdır.***

***

***İnsan – Tükənməzdir;*** bu səbəbdən də ***Tarix*** – tükənmir, İnsan özünə çatanda da Tarix tükənmir – Özündən Yüksəyə çatır...

***İnsan – Tükənməzdir;*** bu səbəbdən də ***Mədəniyyət*** – tükənmir, İnsan özünə çatanda da Mədəniyyət tükənmir – Özündən Yüksəyə çatır...

***İnsan – Tükənməzdir;*** bu səbəbdən də ***Aqibət*** – tükənmir, İnsan özünə çatanda da Aqibət tükənmir – Özündən Yüksəyə çatır.

***

Azadlıq – Sədsizlikdir. Zərurət Azadlığın qarşısına Sədd çəkir. Azadlıq – Zərurət Səddini aşır.

***Sədsizlik – Səddi Aşır.***

***

Azadlıq Qanun olmayınca – bütün başqa Qanunlar Əsarət olacaq.

***

İnsan – mahiyyətcə Tarixdən Üstündür; Gerçəklikdə Tarixdən özünə doğru Yol gedir – Özündən əksikdən özünə doğru.

İnsan – mahiyyətcə Mədəniyyətdən Üstündür; Gerçəklikdə Mədəniyyətdən özünə doğru Yol gedir – Özündən əksikdən özünə doğru.

İnsan – mahiyyətcə Aqibətdən Üstündür; Gerçəklikdə Aqibətdən özünə doğru Yol gedir – Özündən əksikdən özünə doğru.

İnsan gerçəklikdə Tarixdən Üstünlüyünə çatmalıdır – Tarixdən Üstün Yolla getməlidir.

İnsan gerçəklikdə Mədəniyyətdən Üstünlüyünə çatmalıdır – Mədəniyyətdən Üstün Yolla getməlidir.

İnsan gerçəklikdə Aqibətdən Üstünlüyünə çatmalıdır – Aqibətdən Üstün Yolla getməlidir.

İnsan Özümlüyünə çatmalıdır – Özümlük Yoluyla getməlidir...

***

İnsan Təbiəti İnsan Mahiyyətinə bərabər deyil, ancaq ondan ayrı da deyil.

Məqsəd – İnsan Təbiətini İnsan Mahiyyətinə Yüksəltməkdir..., bu, İnsanilik Tələbidir – İnsan Təbiətinə Yad olmayan...

***

Adam İnsan olmayınca Özgə Dünyada Yaşayacaq.

Adam İnsan olanda öz Dünyasında Yaşayacaq.

***Özgəlik – Adamlıq deməkdir əslində.***

***Özümlük – İnsanlıq deməkdir.***

***

İnsan özünə çatsa – Tükənməzmi?

İnsan özünə çatsa – Tükənməz – Özümləşər, – İnsan kimi yaşamağa başlar.

***

İnsan gerçəklikdə özünü yaratmır – aşkarlayır.

***İnsan özünü yaradanda – Gerçəklikdən Üstün olur.***

***

Din Adamdakı Heyvanı öldürə bilmir.

Çünki Heyvanı öldürmək üçün Cəsarət gərək.

***Din – Adamı Qorxudur.***

***Qorxu Adamı Heyvana Təslim eləyir.***

***

Sabah Yolu – Zərurəti ötmək Yolu.

***Adamlıq Zərurətindən İnsanlıq Azadlığına gedən Yol.***

***

Adamı – Təbiət yaradır, Cəmiyyət yaradır, Şərait yaradır, Mühit yaradır, Zaman yaradır; ***İnsanı – Özü Yaradır.***

***

Uşaq – Böyüyünün Ağlıyla yaşayır.

Din – Bəşəriyyətin Uşaqlığıdır.

***Dindar – Allahın Ağlıyla yaşayır.***

Əgər Din indiyə qədər yaşayırsa, deməli, Bəşər uşaqlıqdan çıxmayıb.

*25 Ümid günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

Dində – Müqəddəslik İnsandan Ayrılır – Özgələşir.
Xeyir – İnsandan Ayrılır – Özgələşir.
Ədalət – İnsandan Ayrılır – Özgələşir.
Həqiqət – İnsandan Ayrılır – Özgələşir.
***Dində Allah Müqəddəsliyi İnsanın əlindən alır.***

***

Şərlə dolu Dünyanın nəyinə inanasan?
Şərlə dolu Dünyanın Xeyrinə inanmalısan.
Ədalətsizliklə dolu Dünyanın nəyinə inanasan?
Ədalətsizliklə dolu Dünyanın Ədalətinə inanmalısan.
Yalanla dolu Dünyanın nəyinə inanasan?
Yalanla dolu Dünyanın Həqiqətinə inanmalısan.
Özgəliklə dolu Dünyanın nəyinə inanasan?
Özgəliklə dolu Dünyanın Özümlüyünə inanmalısan.

***

Dini Xilas – Özgələşmə – Bəndələşmə.
İnam Xilası – Özümləşmə – İnsanlaşma.

***

Elm Mahiyyətcə Dinə qarşıdır, ancaq Dinin təsirindən çıxmayıb: Elmi səbəbçilik (Determinizm) – Dini Qismətçiliyə (Fatalizmə) Yaxındır.

***Hər ikisində Zərurət Mütləqləşir.***
***Hər ikisində Özgəçilik Özümlüyə Hakim olur.***

***

Dünya Şərlə doludur – ancaq Şər deyil, çünki Xeyir üstə qurulub...

Dünya Ədalətsizliklə doludur – ancaq Ədalətsiz deyil, çünki Ədalət üstə qurulub.

Dünya Həqiqətsizliklə doludur – ancaq Həqiqətsiz deyil, çünki Həqiqət üstə qurulub.

Şərli Dünya Var – Şər Dünyası yoxdur; ***Şərin Dünyası Yoxdur.***

***

İnsanın özünə əli çatmayanda – Allaha əl uzadır.

***

Dində – Allah Əzəlidir; İnamda – Dünya.
Dində – Allah Əbədidir; İnamda – Dünya.
Dində – Allah Sonsuzdur; İnamda – Dünya.
Dində Allah Kamildir; İnamda – Dünyanın Mahiyyəti.
***Dinin Dünyası – Allahdır.***
***İnamın Allahı – Dünyadır.***

***

Din – Müqəddəsliyi – Allah Müqəddəsliyi.
Qismət Müqəddəsliyi.
Cənnət Müqəddəsliyi.
Cəhənnəm Müqəddəsliyi.
O Dünya Müqəddəsliyi.
***Yalan Müqəddəsliyi.***

***

Yalan – Şərdir.
Yalana tapınmaq – Şərə tapınmaqdır.
***Din – Şərə tapınmaqdır...***

***

Din Fəlsəfəsi – cəfəng Həqiqət deməkdir; yəni əslində cəfəngiyyat deməkdir.

***

Cəfəngiyyatdan Böyük Həqiqət tanımayan Bəşəriyyət – Həqiqi Bəşəriyyət deyil.

***

Din – Yalandan başqa Həqiqət tanımır – Qorxudan başqa cəsarət – Yalan Həqiqət Yaradır; Qorxaq Cəsarət...

***

Din – Yalanla Qorxudur; Qorxuyla Aldadır.

***

Din – Dünyada Məna görmür, bu səbəbdən də Dünyadan kənar Məna axtarır.

İnam – Dünyada Məna görür, bu səbəbdən də Dünyadan kənar Məna axtarmır...

Dində Dünya – Özgələşir, Mənasından Ayrılır.

İnamda Dünya Özümləşir, Mənasına çatır...

***

Saflıq – cəsarət tələb eləyir.

Din – Qorxuda-qorxuda Saflaşdırır – əslində Məzlumlaşdırır.

Qorxaq Saflığa bel bağlamaq olmaz – o, Qəbahətə əyilər, təslim olar.

Qorxaq Saflıqla Yola çıxmaq olmaz – o Azar, Azdırar.

***

Qorxunun qoruduğu Saflıq – əslində Qorxaqlıqdır.

Qorxaqlıq – Qəbahətdir.

Qorxunun qoruduğu Saflıq – Qəbahətdir.

***

Din – İnsanın Qamətini əyir ki, İnsan Allahın qarşısında əyilsin.

***

İnsan yaratdığı Cəmiyyətdə, Dində, Tarixdə Özgələşib.
***İnsan özünü Yaratmalıdır ki, Özümləşsin.***

***

Kant cəmiyyəti İnsanın özünüreallaşdırmaq meydanı adlandırır.

Əslində isə cəmiyyət İnsanın özgələşmə meydanıdır; yəni Ağalaşma meydanıdır; Nökərləşmə meydanıdır, Təbəqələşmə meydanıdır.

***

İdrakın Məqsədi – Həqiqətdir.
***Dində İdrak Yalana xidmət eləyir Özgələşir.***

***

***İnam*** – İdrakın əsası və nəticəsi.
***Din*** – İdraksızlığın əsası və nəticəsi.

***

Din – Fəlsəfəyə qarışa bilib, hətta Fəlsəfədən özünə xidmətçi yaratmaq istəyib, ancaq Dinə xidmət eləyən Fəlsəfə – Fəlsəfə olmayıb – Din olub.

***

Zəkalı Din olmur – çünki Zəkalı cəfəngiyyat olmur.
Zəkasız İnam olmur – çünki Zəkasız Həqiqət olmur.

***

Ekzistensialistlər Mövcudluqdan Üstün heç nə görmürlər, bu səbəbdən də Cəfəngiyyata qapılırlar.

Ekzistensialistlər Mövcudluqdan Yüksək olan İnsaniliyə inanmırlar, bu səbəbdən də ekzistensializmdə İnsan cəfəngiyyatdan kənara çıxa bilmir.

***

***Mövcudluq – İnsaniliyə çatmır.***
Bu səbəbdən də Mövcudluğu İnsanla Eyniləşdirmək – Yalandır.
Ekzistensializmdə İnsan mövcudluğa bərabərdır.
Bu səbəbdən də Ekzistensializmdə İnsan yoxdur əslində.

***

Şərdən alınan Xeyir – Birdir – Xeyirin Şəri məğlub etməsi.

***

Xeyir Şərdən Yerdən Göyə qədər Fərqlidir.
Bu səbəbdən də Şər Xeyir libasında görünür.
Adamlar Məzmunu Biçimlə Eyniləşdirirlər və Şəri Xeyir sayırlar.

***

Platon gerçəkliyi rədd edir; Aristotel gerçəkliyi doğruldur; materialistlər gerçəkliyi maddiləşdirirlər; Mütləqçilər gerçəkliyi Mənalandırırlar.

***

***Fərdilik – Özümləşən İnsanilikdir.***
– Özümləşən İnamdır.
– Özümləşən İdrakdır.
– Özümləşən Mənəviyyatdır.
– Özümləşən İradədir.

İctimailiyi Fərdilikdən Üstün saymaq – Özgəliyi Özümlükdən Üstün saymaqdır.

***

Platon İnsan Təbiətini Dövlət Təbiətiylə eyniləşdirir.
***Bu Özümlüyü Özgəliklə eyniləşdirməkdir əslində...***
Platon İnsani Dövlət uydurur, bu səbəbdən də Utopiyaya qapılır, Utopiyasız keçinə bilmir.

***

Bəşər Tarixi – İnsan Tarixi olmayıb – Adam Tarixi olub – bu səbəbdən də özümlük Tarixi olmayıb – Özgəlik Tarixi olub.

***

Tarixi Adamlar Yaradır. Tarix İnsan Yaratmır. Bu səbəbdən də Tarix özündən Yüksəyə qalxa bilmir, kənara çıxa bilmir; – özündə qapılıb qalır – Özgəlik olur İnsan üçün – Özümlük olmur.

***

Tarix – Azadlıq meydanı deyil – Zərurət Həddidir.

***Bəşər Tarix Həddini aşa bilmir – Azadlığa yetə bilmir.***

***

İnsanla Heyvan arasında Birlik yoxdur.

İnsanla Dünya arasında Məna Birliyi var.

***İnsandakı Heyvanilik – Özümlükdən gəlmir – Özgəlikdən gəlir.***

***

Adamda Özümlük də Var – Özgəlik də. Özümlük – İnsanilikdir; Özgəlik – Heyvanilik.

***

İnsanın ən böyük faciəsi – Özünə inanmamaq olub.

Bütün digər Faciələr – ondan yaranıb.

***

Din – İnsanı – Əzəli Günahkar sayır; əslində Din – özü Günahkarlıqdır; İnsanı əzəli günahkar saymaq günahkarlığıdır.

***

Freydizm – İnsanı – Əzəli Xəstə sayır; – əslində Freydizm özü xəstəlikdir; – İnsanı Əzəli xəstə saymaq xəstəliyidir.

***

Gərək İnam – İdrakdan Ayrılmasın.
İdrak – Mənəviyyatdan Ayrılmasın.
Mənəviyyat – İradədən Ayrılmasın.
***Gərək İnsanda Ruh Birliyi olsun.***
***Onda O, məğlubedilməzdir.***

***

İdealistlərin vəsf etdiyi Xalis Zəka – əslində Təhlükəli Zəkadır, onun Mənəviyyatdan Ayrılmaq Təhlükəsi var.

***

Zəka – Mənəviyyatla Birləşəndə – Qüdrət olur.
Zəka – Mənəviyyatdan Ayrılanda – Dəhşət olur.

***

Köhnə filosoflar Zəkanı bütün dərdlərin dərmanı sayırdılar.

Onlar bilmirdilər, görmürdülər ki, Zəkalı Canavarlıq – canavarlığın ən dəhşətlisidir.

Zəkalı İlanlıq – İlanlığın ən dəhşətlisidir.

Zəkalı Tülkülük – Tülkülüyün ən dəhşətlisidir.

Zəkanın Canavarlığa qalib gələcəyinə inanırdılar; ancaq Zəkanın Canavarlıqla birləşməsinə inanmırdılar.

Zəkanın İlanlığa qalib gələcəyinə inanırdılar; ancaq Zəkanın İlanlıqla birləşməsinə inanmırdılar.

Zəkanın Tülkülüyə qalib gələcəyinə inanırdılar; ancaq Zəkanın Tülkülüklə birləşməsinə inanmırdılar.

***Bu sadəlövhlük Bəşəriyyətə ağır başa gəldi.***

***

Şopenhauer İnsanı Əzəli Bədbəxt sayır.

Əslində Şopenhauer Təlimi – özü Bədbəxtlikdir; – İnsanı Əzəli Bədbəxt saymaq Bədbəxtliyidir.

***

Azadlığı – Dərk olunmuş Zərurət saymaq – onu ləğv eləməkdir əslində – onu Zərurətlə əvəz etməkdir.

Əgər Azadlıq özü də Zərurətdirsə – deməli o, Yoxdur.

Azadlıq Zərurəti həmişə var – ancaq Zərurətə bərabər Azadlıq Yoxdur; Azadlıq Zərurəti ötür.

***

Ekzistensializmdə İnsan Dünyaya Heçlik gətirir və Heçliyə düşür.

Əslində isə İnsan Dünyaya İnsanilik gətirir və İnsanilik Yoluna Düşür.

İnsan Dünyaya İnam gətirir və İnam Yoluna Düşür.

Dünyaya İdrak gətirir və İdrak Yoluna Düşür.

Dünyaya Mənəviyyat gətirir və Mənəviyyat Yoluna Düşür.

Dünyaya İradə gətirir və İradə Yoluna Düşür.

İnsan Dünyanı əksiltmir əslində – Artırır.

***

Dərk olunmuş Zərurət – Zərurətdən başqa bir şey deyil.

Zərurəti dərk edən – Zərurətdən başqa heç nəyi dərk eləmir.

Zərurətdə Azadlığı görmək – Azadlığı inkar eləməkdir.

***

Din – yoxsula əl uzatmağa çağırır – yoxsulluğu yox etməyə çağırmır.

Əslində Din yoxsula əl uzatmaq vasitəsilə yoxsulluğu yaşadır.

***

İnsan Dünyanın Mənasına çatmayanda – Yalançı Məna Uydurur.

İnsan Həyatın Mənasına çatmayanda – Yalançı Məna Uydurur.

İnsan İnsanın Mənasına çatmayanda – Yalançı Məna Uydurur.
İnsan Özümlüyə çatmayanda – Özgəliyə tapınır.

***

Ən dəhşətli özgələşmə – Bəndələşmədir.
Din İnsanı Bəndələşdirir – Özgələşdirir.

***

Vəhşiliyi Təbiilik saymaq – İnsanı Heyvanla eyniləşdirməkdir.
Əslində Vəhşilikdə İnsan Özgələşir.
Mədəniyyəti Sünilik saymaq – onu cəmiyyətlə eyniləşdirməkdir.
Süniliyi cəmiyyət Yaradır əslində.
Təbiiliyi – İnsanilik Yaradır, Süniliyi – İctimailik.

***

Özümlüyü İnsanın Təbiətində axtarırlar və Yanılırlar.
İnsanın Təbiətində Özümlük də var, Özgəlik də.
Özümlüyü İnsanın Mahiyyətində – İnsaniliyində axtarmaq gərək.

***

Allaha Qul ol ki, İnsana Ağa olasan.
Dinin ictimai mahiyyəti əslində budur...
Bu səbəbdən də Ağalar Dindən həmişə yarıyıblar.

***

Allaha möhtəşəm İnam – İnsana möhtəşəm Şübhənin ifadəsidir.
Din – Nəhəng Şübhəçilikdir əslində.

***

Məscidlər, Kilsələr – Mənəvi Dilənçilik Evləri.

***

Saflıq – İnsanilik Ucalığıdır.

Dini Saflıq – İnsanı alçaldır.
Bəndə Saflığı – əksiklikdir.

***

İnsan Təbiətini İnsan Mahiyyətindən Üstün sayırlar və İnsani Kamilliyə inanmırlar.

Əslində isə İnsan Mahiyyəti İnsan Təbiətindən Üstündür və bu səbəbdən də İnsan Kamilləşə bilər, Kamilləşməlidir.

***

Dində Mütləqilik – Dünyadan Kənardadır.
İnamda Mütləqilik Dünyanın Mənasındadır.
Dində Mütləqilik Həyatdan Kənardadır.
İnamda Mütləqilik Həyatın Mənasındadır.
Dində Mütləqilik İnsandan kənardadır.
İnamda Mütləqilik İnsanın Mənasındadır.
***Dində Mütləqilik – Özgəlik ifadə eləyir, İnamda Özümlük.***

***

Dində İnsan Haqqı – İtaət Haqqıdır əslində.
Kapitalizmdə İnsan Haqqı – Pulçuluq haqqıdır.
Sosializmdə İnsan Haqqı – Zorçuluq haqqıdır.
Hər üçündə İnsan Haqqı – İnsan Haqsızlığıdır əslində.

***

Dinin İlahi saydığı Mənəvi Tələblər – əslində İnsanidir.

Din İnsaniliyi İlahiliklə əvəz eləyir və İnsaniliyi İlahiliyə tabe edir.

Yəni əslində İnsaniliyi özgələşdirir və Özgəliyə tabe edir.

***

İnsan Özgə Göyündə – Allah Göyündə – xilas aradı – tapmadı.

İnsan Özümlük Göyündə – İnsanilik Göyündə xilas aramalıdır – tapmalıdır.

***Özgə Göyündə İnsanı alçaltdılar – Bəndələşdirdilər.***

***Özümlük Göyündə İnsan yüksələcək – İnsanilәşəcək.***

***

Din – Ümidsizlik İzharıdır.
İnsan Özünə Ümidini itirəndə – Dinə tapındı.
İnsan Özünə Ümid eləyəndə – Dindən ***Ayrılacaq.***
İnsan İnsanlaşdıqca Dinsizləşəcək.
***Özümləşdikcə – Allahsızlaşacaq; Özgəlikdən çıxacaq.***

***

Kant İctimai Ziddiyyətləri (Antoqonizmi) müsbət hal sayır; – onların İnsan Həyatında Zəruri Ahəng yaratmasını Təsdiq edir.

Əslində isə Antoqonizm İnsan Həyatının Zəruri Ahəngini pozur, çünki Ağalıq İnsanilik Ahənginə Ziddir; Nökərlik – İnsanilik Ahənginə Ziddir; Təbəqəlik – İnsanilik Ahənginə Ziddir; Özgəlik – İnsanilik Ahənginə Ziddir.

***

Kant İnsanı Ağaya möhtac olan məxluq sayır; Ağasız İnsan İnsana Qənim kəsilər deyir.

***Əslində isə Ağalıqdan böyük Qənimlik yoxdur.***

İnsana Ağa qənim olur; İnsan Ağalıq qənimliyinə düçar olur; ondan çıxmağa çalışır.

***Kant İdrak tanıyır, İnsan tanımır.***

İdrakı Yüksəldir, İnsanı alçaldır.

İnsanı İdrakdan Ayırır və cəmiyyətə tapşırır; özgələşdirir və bu səbəbdən də əksildir.

***

Kant cəmiyyəti ideallaşdırır və unudur ki, cəmiyyət onun Kateqorik İmperativinə – Əxlaq Qanununa Ziddir – cəmiyyətdə İnsan həmişə Vasitə olub, heç vaxt Məqsəd olmayıb.

***

Fərdilik – Fərdiyyətçilik deyil – İnsanilikdir.

Fərdilik – İnamçılıqdır; Fərdiyyətçi İnamçılıq olmur.

Fərdilik – İdrakçılıqdır; Fərdiyyətçi İdrakçılıq olmur.

Fərdilik – Mənəviyyatçılıqdır; Fərdiyyətçi Mənəviyyatçılıq olmur.

Fərdilik – İradəçilikdir; Fərdiyyətçi İradəçilik olmur.

Fərdilik – Özümləşən İnamçılıqdır.
– Özümləşən İdrakçılıqdır.
– Özümləşən Mənəviyyatçılıqdır.
– Özümləşən İradəçilikdir.

Fərdiyyətçilik Özgələşən Fərdilikdir.

***

“Təbiət İnsan üçündür!” – Hökmündə, Əməlində İnsan Təbiətlə Yadlaşır.

“Təbiət Təbiət üçündür!” – Hökmündə, Əməlində İnsan Təbiətlə Doğmalaşır.

Təbiət Özümləşdiyi dərəcədə İnsan Təbiətlə Doğmalaşır.

Təbiət Özgələşdiyi dərəcədə İnsan Təbiətlə Yadlaşır.

***İnsan Təbiətlə Yadlaşdığı dərəcədə – Təbiətsizləşir.***

***

Müasir Həyatda – Var Haqqı Var və Zor Haqqı Var əslində.

Hər iki Haqq – möhtəşəm Haqqsızlıqdır.

***Müasir Həyatda Haqsızlıq Haqqı Var əslində.***

***

İnsanın İnsan üzərində Ağalığı – İnsansızlıq Təhlükəsi Yaratdı. İnsanın Təbiət üzərində Ağalığı – Təbiətsizlik Təhlükəsi Yaratdı.

***

Nitşe Xeyirdən keçir – Şəri Göyə qaldırır, Şərdən Göy yaradır.

Nitşeçilik Şər Yalanıdır, Yalan Şəridir, Şiddətli Özgəlikdir, – Özümsüzlükdür.

***Yırtıcılaşan İnsan – Özgələşən İnsandır, Özümlüyünü itirən İnsandır.***

Yırtıcılığıyla döyüşən İnsan – Özümləşən İnsandır.

***

İdrakı Dinlə idarə eləmək – Həqiqəti cəfəngiyyatla idarə eləmək deməkdir; ancaq bu cəhd idrak tarixində olub və fəlsəfəni özünə təslim edə bilib.

***

Allahsız yaşaya bilməyən İnsana İnam – əslində İnamsızlıqdır.

Köməksiz yaşaya bilməyən İnsana İnam – Köməksizliyə İnamdır əslində.

***

Dində O Dünya Bu Dünyanı əvəz eləyir.
İnamda Dünya əvəzsizdir.

*26 Dözüm günü, Od Ayı, 17-ci il.Bakı.*
*İyul. 1995-ci il.*

***

J. Pol Sartr Ekzistensializmi humanizm adlandırır...

Əslində isə Ekzistensializm İnsanın İnsanilikdən Mövcudluğa endirilməsidir.

İnsanilik – mövcudluqdan Üstündür, İnsan olmaq üçün mövcudluğu ötməlisən.

***Ekzistensializmin Humanizmi Ağlamalı Humanizmdir; İnsanın Yüksəklikdən Düşməsidir.***

***

M. Haydeqqer Varlığın İşartısı saydığı İnsanı qaranlığa qərq edir: Qorxu Qaranlığına, Qayğı Qaranlığına, Heçliyi Dərk etmə Qaranlığına.

***

İnsan – İnsaniliyə çatmalıdır; – yəni İnama, İdraka, Mənəviyyata, İradəyə Yetməlidir.

***İnsan Həyatının Mənası və Məqsədi budur.***

Ekzistensializmdə İnsan Mənadan və Məqsəddən Ayrılır.

Mənadan və Məqsəddən ayrılmış İnsan Həyatı heçləşir: Ekzistensializm son nəticədə heçliyə gəlib çıxır; – Ekzistensializmdə İnsan heçlikdə yaşayır, heçlik əldə edir; ***beləliklə də Mövcudluq Fəlsəfəsi Heçlik Fəlsəfəsinə çevrilir.***

***

Ekzistensializmdə Mahiyyət mövcudluqdan yaranır; yəni İnsan dünyaya Mahiyyətsiz gəlir.

Təbiidir ki, Mahiyyətsizlik Cəfəngiyyat yaratmalıydı.

Yəni əslində cəfəngiyyatı ekzistensialistlər özləri yaradırlar. ***İnsanı mahiyyətsizləşdirmək – onu cəfəngiyyata düçar eləməkdir əslində.***

***

Ekzistensializm İnsan Həyatını mövcudluqla eyniləşdirir və mövcudluqda dəhşət görür; İnsan Həyatını dəhşət sayır; İnsan Həyatından dəhşətə gəlir – özünün yaratdığından dəhşətlənir.

***

Ekzistensializmdə İnsana əsl həyat dərsini Ölüm verir.
O Həyatın heçliyini sübut edir.
Əslində isə Həyat – Heçlik deyil, onun Həyatlıq adlı Mənası var.

***

Müasir Elm Fəlsəfəçiləri – İdrakı Dərk etmə əməlindən ayrı öyrənirlər.

Əslində isə İdrak – elə dərketmə əməlidir.

***Elm Fəlsəfəçiləri əslində İdrakı İdrakdan ayrı öyrənirlər.***

*10 Mərhəm günü, Qürub Ayı, 17-ci il.Bakı.*
*Avqust. 1995-ci il.*

***

Nitşenin Qəddar, Amansız, Əxlaqsız Fövqəl-İnsanı əslində İnsandan əksikdir – ***çünki Qəddarlıq, Amansızlıq, Əxlaqsızlıq – İnsani Əksiklikdir.***

***

Berdyayevə görə, İnsan – Allahdan kənarda İnsaniliyini itirir.
Əslində isə İnsan Allahda İnsaniliyini itirir – Bəndələşir.
Dində İnsan – Özümsüzləşir.

***

Ağalıqdan məhrum olan Cəmiyyət.
Nökərlikdən məhrum olan Cəmiyyət.
Təbəqəlikdən məhrum olan Cəmiyyət.
Özgəlikdən məhrum olan Cəmiyyət.
***Bu, artıq Cəmiyyət olmayacaq, Birlik olacaq.***
***Cəmiyyəti Birliklə əvəz etmək gərək.***

***

“İnsanın Yüksəlməsi üçün – İnsandan yüksək olan gərək” – deyir Berdyayev.

Həmin Yüksəkliyi o, Allahda görür.
Əslində İnsandan Yüksək olan İnsanilikdir; yəni İnsanın Mahiyyətidir, Mənasıdır.
İnsan öz Mahiyyətinə, Mənasına Yüksəlmәlidir –
***İnsani Yüksəliş – İnsaniliyə Yetməkdir.***

***

İnsanın özündən Yüksəyi – Özümlüyündədir.
İnsan Kamilləşəndə – Özümləşir.
***Özündən Yüksəyə Qalxmaq – Özümlüyə çatmaqdır.***

***

Adam İnsanlaşmayınca Özünə Yiyə durmayacaq; ona özgələri Yiyə duracaq: – ***Allah, Hakim, Cəmiyyət.***

***

***Özündən Özümlüyə – İnsanın Kamillik Yolu budur...***

*26 Murad günü, Qürub Ayı, 17-ci il.Bakı.*
*Avqust. 1995-ci il.*

***

Berdyayev Allahı İnsan Azadlığının və Müstəqilliyinin mənbəyi sayır.
Əslində isə Allah İnsan Əsarətinin və Asılılığının təsdiqidir.
Allah – Bəndə Ağasıdır; Azad və Müstəqil Bəndə olmur.

***

Berdyayevə görə Ruh – gerçəkləşəndə, "obyektivləşəndə" əksilir.
Əslində isə Adamlıq səviyyəsində Ruh tam gerçəkləşmir; yəni Gerçəklik Ruhdan əksik olur.
Tarix, Cəmiyyət, Dövlət – Ruhdan əksikdirlər, Ruhun natam gerçəkləşməsidirlər; bu səbəbdən də əslində Ruha qarşıdırlar...

***

Dünya Ağalığına qarşı Allah Ağalığını qoymaq – cəfəngiyyatdır, çünki Allah Ağalığı Dünya Ağalığının ifadəsidir əslində.

***

Ruhçuluğu Dinçiliklə eyniləşdirmək – İnsançılığı Bəndəçiliklə eyniləşdirməkdir.

***

Din İnsanla İnsaniliyin əlaqəsini İnsanla Allahın əlaqəsi kimi təqdim edir – son nəticədə bu, Rəiyyətlə Ağanın əlaqəsinə çevrilir.

***

"Allah Yoxsa – İnsan Dünyanın quludur!" – deyir Berdyayev.

Əslində "İnsanilik yoxsa – İnsan Dünyanın quludur!" – demək gərək.

Allahın Varlığı – İnsanı Dünyanın qulu olmaqdan azad etmir.

***Allahın qulu olmaq – Dünyanın qulu olmaqdır əslində.***

***

Dostoyevskiyə görə – İnsan bəzən Allaha məğrurluğundan inanır.

(Allaha inanır ki, Dünyaya baş əyməsin.)

Əslində isə Allah İnsanı Vüqardan salır; İtaətkar Bəndənin nəyi məğrurdur?! Məğrur – İtaətkar Bəndə olarmı?!

***

Berdyayevə görə, İnsan Allaha baş əyir ki, cəmiyyətə baş əyməsin...

***Əslində isə İnsan Allaha baş əydiyi dərəcədə cəmiyyətə baş əyir.***

***

Berdyayev həm Ruhu vəsf edir, həm də Allahı.

Əslində Allahı vəsf eləmək – Ruhu inkar eləməkdir.

Əgər Ruh – Azaddırsa, Müstəqildirsə, onda Allah kimdir, nədir?

Əgər Ruh Allahdan asılıdırsa, o necə Azaddır, necə Müstəqildir?

***

İnsanın Ruhu var.
Ruh – Nisbiylə barışmır, onu ötür; Mütləqə can atır.
***Ruh – İnsanın Əzəli Mütləqiliyidir.***

***

Mahiyyət – Mütləqdir; Təzahür – Nisbi.

Ancaq Mahiyyət Təzahürdə nisbiləşmir, yoxsa dünya dayanardı – inkişaf etməzdi.

Mahiyyət Təzahürdə Mütləqiliyini saxlayır; bu səbəbdən də bir yerdə dayanmır, inkişaf edir.

***

Allahı qəbul eləmək – Azadlığı rədd eləməkdir.

Allah – Qismət yaradandır – Qismətdə Azadlıq Yoxdur.

***

Ruh – Azaddır.
Din – İtaət Tələbidir.
Din – Ruha qarşıdır.

***

Tarix Müqəddəsliyi yoxdur, çünki Tarix İnsaniliyə çatmayıb.

Cəmiyyət Müqəddəsliyi yoxdur, çünki Cəmiyyət İnsaniliyə çatmayıb.

Dövlət Müqəddəsliyi yoxdur, çünki Dövlət İnsaniliyə çatmayıb.

***İnsanilik*** Müqəddəsliyi Var – Tarixdən Üstün, Cəmiyyətdən Üstün, Dövlətdən Üstün.

Berdyayev Ruhu Dünyadan ayırır.

Bu təbiidir; çünki Dindar Dünyanın Özümlüyünü inkar edir;

Dindar üçün Allahdan başqa Özümlük Yoxdur.

***Özümlük olmayan yerdə Ruh da Yoxdur.***

***Əslində isə Dünyanın Dünyalıq adlı Özümlüyü var, bu səbəbdən də Ruh Dünyanın Mahiyyətində, Mənasındadır.***

***

İnsaniliyi İctimailik yaradıb o deməkdir ki, İnamı İnamsızlıq yaradıb, İdrakı İdraksızlıq yaradıb, Mənəviyyatı Mənəviyyatsızlıq yaradıb, İradəni İradəsizlik yaradıb.

***

İnsanilik İnsanı cəmiyyət Ağalığından xilas etməyə qadirdir.

Ancaq İnsanilik Həyatda çətin bərqərar olur; Adam İnsaniliyə çətin çatır; bu səbəbdən də İnsan cəmiyyət Ağalığından xilas ola bilmir.

*27 İnam günü, Qürub Ayı, 17-ci il.Bakı.*
*Avqust. 1995-ci il.*

***

İnsan öz Dünyasını yarada bildi, ***Özümlü*** Dünyasını Yarada bilmədi.

İctimai Dünya – İnam Dünyası olmadı.
– İdrak Dünyası olmadı.
– Mənəviyyat Dünyası olmadı.
– İradə Dünyası olmadı.

***İctimai Dünya – İnsanilik Dünyası olmadı.***

***

Kasirer İnsanı Rəmzlər yaradan Canlı sayır.

Əslində İnsan Mənaya dalan, Mənaya çatan, Dünyanı Mənalandıran Ruhani Varlıqdır...

***Rəmzlər – Məna ifadələridir.***

***İnsan – Məna ifadə edən Varlıqdır.***

***

İnsanı İctimai Heyvan sayırlar; İstehsalat alətləri yaradan Heyvan sayırlar; Rəmzlər izhar edən Heyvan sayırlar və s.

Əslində isə İnsanın Heyvani ölçüsü yoxdur; yalnız İnsani ölçüsü var.

İnsan Heyvan deyil – İnsan tərifi bu həqiqətdən başlanmalıdır...

***

İdrakı Təbiətin Bəlası sayan filosoflar var.

***Əslində isə İdrak – Təbiətin Bəlası yox, Mənasıdır.***

***

İdraka qarşı şübhə – əslində Dünyanın Mənasına qarşı şübhədir.

Məna olan Yerdə – İdrak güclüdür. Məna olmayan Yerdə – İdrak Zəifdir.

***İdraksız Məna olmur.***

***İdraklı Mənasızlıq olmur.***

***

Canlıların arasında İnsan Yeganə Məna Yönlü Varlıqdır.

İdrak – Məna Yoludur, Mənalı Yoldur, Mənaya çatdıran Yoldur.

İnsan – Fitri Mənaçıdır; onu başqa canlılardan fərqləndirən əsas cəhətlərdən biri də budur.

***

Filosofların Zəkaya qarşı Döyüşü – əslində İntihardır...

Zəkanı İnkar eləmək – Fəlsəfəni inkar eləməkdir.

***

***İnsan Mənanı dərk edən, Mənalı yaşayan, Mənanı yaşadan Ruhani Varlıqdır.***

***

Freydçilər İnsanın Heyvandan Üstünlüyündə – (İnstinktlərin Duyğuyla, Qeyri-Şüurluğun Şüurla əvəz olunmasında) Əksiklik görürlər; – ***əslində İnsanı heyvan səviyyəsinə əksildirlər; Əksik İnsan təlimi yaradırlar – Əksik Təlim yaradırlar.***

***

İnsanın İnsanilikdən başqa Fövqəlinsanlığı yoxdur.

İnam, İdrak, Mənəviyyat, İradə Birliyindən başqa Fövqəlinsanlığı yoxdur.

Fövqəlinsan – İnsaniliyə yetən İnsandır.

Nitşenin Fövqəlinsanı – İnsanilikdən məhrum olan İnsandır – Antiinsandır.

***

İnsan Dünyadan Üstündür, çünki Mütləqi Təmsil eləyir.

İnsan Dünyanın Üstündədir, çünki Dünyanı ötə bilir, Mənaya çata bilir.

***

Dinçilərin Fövqəltəbiət saydıqları Allah deyil – Təbiətin Mənasıdır.

Təbiətin Mənası – Təbiətdən Artıqdır.

Həmin Məna – Təbiətin Özümlüyüdür.

Təbiət – Özümlüyündən asılıdır; – Allahdan asılı deyil; olandan asılıdır; – olmayandan asılı deyil.

***

Dünyadakı Mənasızlığı dərk etmək üçün Dünyaya Mənanın gözüylə baxmaq gərək.

Dünyaya Mənanın gözüylə baxmasan, Dünyadakı Mənasızlıq sənə Mənalı görünər.

***Adamlar Mənadan ayrıla-ayrıla Mənasızlığa alışırlar.***

***

Kant Xalis Zəka Həddində Din yarada bilmədi, çünki Zəka daxilində cəfəngiyyat olmur; Kant cəfəngiyyatı Zəkalaşdıra bilmədi.

***

Təzahür Mahiyyətdən Aşağıdır.
İnsan Mahiyyətlə Təzahürü Birləşdirir.
Hadisə Mənadan Aşağıdır.
İnsan Mənayla Hadisəni Birləşdirir.

İnsan Təzahürü Mahiyyətləşdirir, Hadisəni Mənalandırır.

*28 Arzu günü, Qürub Ayı, 17-ci il.Bakı.*
*Avqust. 1995-ci il.*

***

İnsanın Təbiəti – Qarışıqdır; Mahiyyəti Bütöv.
***İnsan – Təbiətindən Mahiyyətinə Yüksəlməlidir.***

***

İnsandakı Böyüklüyü kiçiltmək üçün, – İnsandakı Kiçikliyi Böyütmək gərək.

Freydçilər İnsandakı Kiçikliyi Böyüdürlər ki, İnsandakı Böyüklüyü kiçiltsinlər.

***

Freydçilər İnsandakı naqisliyi İnsaniliyin Təməli sayırlar, bu səbəbdən də İnsanın Naqislik üzərində Qələbəsinə inanmırlar.

Əslində isə İnsandakı Naqislik – İnsaniliyə qarşıdır; bu səbəbdən də İnsan naqislik üzərində qələbə çalmağa qadirdir.

***

Freydə görə, harada hüquq varsa, orada Təcavüz var.

***Əslində isə Hüquq Təcavüzə qarşıdır.***

Əgər Hüquq Təcavüzü ləğv etmirsə, onda o hüquq deyil...

***Freyd İctimai Hüququn qadirsizliyini görür; ancaq Ruhani Haqqın Qadirliyini görmür; bu səbəbdən də Təcavüzdən çıxış yolu tapmır, tanımır.***

***

"İnsanlar arasında Bacarıq bərabərliyi yoxdur; bu səbəbdən də maddi Bərabərsizlik labüddür" – deyirlər.

"İnsanlar arasında Təmənnasızlıq bərqərar olsa, maddi Bərabərlik labüd olar" – deyirik.

"İnsanlar Təmənnasızlıq Ədalətinə Yüksəlsələr – maddi Bərabərlik labüd olar" – deyirik.

"Maddi Bərabərsizliyi Yaradan Bacarıq Fərqi deyil; – Təmənnasızlıqdır" – deyirik.

***

Freydçilər Yırtıcı instinktlərin səngiməsini Səadətin itirilməsi sayırlar.

Əslində isə Yırtıcı instinktlərin yaratdığı Səadət – Fəlakətdir.

Freydçilərin sərbəst adamı əslində Bədbəxt adamdır, onu aradan qaldırmadan Səadətə çatmaq olmaz.

Burada Freyd – Nitşeylə Birləşir: – Yırtıcılıq Səadətini vəsf edir – əslində İnsan Fəlakətini vəsf edir.

*29 Ümid günü, Qürub Ayı, 17-ci il.Bakı.*
*Avqust. 1995-ci il.*

***

Din – Allaha xidmət.
Cəmiyyət – Ağaya xidmət.

Allah – Din Ağası.
Ağa – Cəmiyyət Allahı.

***

Xristianlıq üçün Dünya – ölməli Dünyadır.

Dünya ölməlidir ki, yenidən yaransın.

Əslində isə Dünya – Mənalı Dünyadır; Mənaya çatmalı Dünyadır.

***

Din Allahı Yüksəltdiyi dərəcədə – Dünyanı Alçaldır.

Dünyanı Alçaldır ki, Allahı Yüksəltsin...

*30 Dözüm günü, Qürub Ayı, 17-ci il.Bakı.*
*Avqust. 1995-ci il.*

***

***Dünya Qoçaqdır*** – İnsan onun başına nə oyunlar açır – ancaq Dünya Dağılmır.

***İnsan Qoçaqdır*** – Cəmiyyət onun başına nə oyunlar açır – ancaq İnsan məhv olmur.

***

İnsan – ölümlüdür, İnsanilik – ölümsüz...
***İnsandan İnsanilik qalır Dünyada.***

***

B. Rasselə görə Din Qorxunu Yüksəldir.
Qorxunu Yüksəltmək əslində İnsanı Alçaltmaqdır...
Din İnsanı Alçaltmağa Yüksəldir.

*1 Qismət günü, Ata Ayı, 17-ci il.Bakı.*
*Sentyabr. 1995-ci il.*

***

Mütləq – Ümumidir, Nisbi – Konkret.
Mütləq – Nisbidən Zəngindir.
Mahiyyət – Ümumidir, Təzahür – Konkret.
Mahiyyət – Təzahürdən Zəngindir.
Məna – Ümumidir, Hadisə – Konkret.
Məna – Hadisədən Zəngindir.
Əzəli – Ümumidir, Ötəri – Konkret.
Əzəli – Ötəridən Zəngindir.
Əbədi – Ümumidir, Keçici – Konkret.
Əbədi – Keçicidən Zəngindir.
Sonsuz – Ümumidir, Sonlu – Konkret.
Sonsuz – Sonludan Zəngindir.
Kamillik – Ümumidir, Qeyri-kamil – Konkret.
Kamillik – Qeyri-kamildən Zəngindir.

***

Hegelin Fəlsəfəsini Dialektik metafizika adlandırmaq olar. Mütləqilik Metafizikcəsinə elan olunur (Mütləq Ruh, Mütləq Zəka) və dialektikcəsinə nisbiləşir (gerçəkliklə bərabərləşdirilir).

Hegelin metafizikası dialektikasına, dialektikası metafizikasına mane olur.

***Bütöv Fəlsəfə deyil Hegelçilik – Qarışıq, Eklektik Fəlsəfədir.***

***

Hegeldə Mütləq həm də Nisbidir; Mahiyyət həm də Təzahürdür.

Hegelin uydurduğu Dünya – Qeyri-müəyyən Dünyadır.

Hegeldə Mütləq olan – Qeyri-müəyyənlikdir əslində.

***Hegelçilik – Qeyri-müəyyənçilikdir əslində.***

***

Kant Dünyanı əksildir; Hegel Dünyanı uydurur; əslində isə Dünyanı Mənalandırmaq gərək, Mənaya çatdırmaq gərək.

***

İdealizmi materializmlə əvəz eləmək – maddiyyatı mənasızlaşdırmaqdır; materialistlər maddiyyatı mənasızlaşdıra-mənasızlaşdıra İnsanı maddiyyat əsarətinə saldılar...

***Maddiyyat Mənasızlaşdıqca Ağalaşır.***

***

Mahiyyət Fəlsəfəsini Həyat Fəlsəfəsiylə əvəz eləmək – Həyatı mahiyyətsizləşdirməkdir əslində.

“Həyat Filosofları” Həyatı mahiyyətsizləşdirə-mahiyyətsizləşdirə İnsanla Heyvanın fərqini azaltdılar.

***

Konkreti Ümumidən Zəngin sayırlar; əslində isə Ümumi konkretdən Mənalıdır; ***Məna isə ən böyük Zənginlikdir.***

***

Fərdilik – Ümumiliyin İnkarı deyil – Özümlüyüdür.

***

İdrak Fəlsəfəsini Mövcudluq Fəlsəfəsiylə əvəz eləmək – mövcudluğu İdraksızlaşdırmaqdır əslində; ekzistensialistlər mövcudluğu idraksızlaşdıra-idraksızlaşdıra cəfəngiyyata gəlib çıxdılar.

***

***Gerçəkliyi*** Dünyanın əsası saymaq – Dünyanı məhv etməkdir, çünki Gerçəklikdə hər şey nisbidir, ötəridir, keçicidir, sonludur, qeyri–kamildir.

***Təzahürü*** Dünyanın əsası saymaq – Dünyanı məhv etməkdir, çünki Təzahürdə hər şey nisbidir, ötəridir, keçicidir, sonludur, qeyri-kamildir.

***Hadisəni*** Dünyanın əsası saymaq – Dünyanı məhv etməkdir, çünki Hadisədə hər şey nisbidir, ötəridir, keçicidir, sonludur, qeyri-kamildir.

***Maddiyyatı*** Dünyanın əsası saymaq – Dünyanı məhv etməkdir, çünki Maddiyyatda hər şey nisbidir, ötəridir, keçicidir, sonludur, qeyri-kamildir.

***

Konkret mövcudluğu Ümumi Varlıqdan ayırmaq – Mövcudluğu özümsüzləşdirməkdir; ***mövcudluğu özümsüzləşdirə-özümsüzləşdirə ekzistensialistlər heçliyə gəlib çıxdılar.***

***

Platon Fəlsəfəsində İki Dünya Var: İdeyalar Dünyası və Əşyalar Dünyası.

Əslində isə Dünya Birdir – Mahiyyət və Təzahür Birliyidir.

***

Mütləq – Azaddır; Nisbi – Zəruri.
Mahiyyət – Azaddır; Təzahür – Zəruri.
Məna – Azaddır; Hadisə – Zəruri.
Əzəli – Azaddır; Ötəri – Zəruri.
Əbədi – Azaddır; Keçici – Zəruri.
Sonsuz – Azaddır; Sonlu – Zəruri.
Kamil – Azaddır; Qeyri-Kamil – Zəruri.
Azadlıq – Zərurətdən Böyükdür, Üstündür, Artıqdır.

***

Azad gerçəklik olmur.
Bu səbəbdən də gerçəkliyi ötmədən Azadlığa çatmaq olmaz.
Gerçəklik həddində, səddində Azadlıq yoxdur.
Azadlıq – gerçəklik həddini, səddini ötməkdir.

***

Pozitivistlər Dünyanı Mahiyyətdən Azad edirlər əslində.
Mahiyyətdən Azad olmaq isə – Əsarətdir.

***

Azadlıq – Mahiyyət Üstünlüyüdür.
Mahiyyət – Təzahürdən Üstün olmasaydı, Azadlıq olmazdı.
Azadlıq – Məna Üstünlüyüdür; Məna Hadisədən Üstün olmasaydı, Azadlıq olmazdı.

***

***Fəlsəfə Ümuminin Dərkidir.***
Əgər Dünyada Ümumi olmasaydı, Fəlsəfə də olmazdı.
***Fəlsəfə Mütləqiliyin Dərkidir; Mütləqilik – Ümumidir.***
Fəlsəfə Mahiyyətin Dərkidir; Mahiyyət – Ümumidir.
Fəlsəfə Mənanın Dərkidir; Məna – Ümumidir.
“Konkretçilərin Ümumiçilərlə vuruşu əsassızdır: ***Dünya Təzahürlərin, Hadisələrin Ümumiliyidir;***
Ümumilik olmasaydı, Dünya olmazdı; ***yəni Təzahürlər, Hadisələr Birliyi olmazdı.***

***

Cəmiyyətdə Ümumilik hökm sürmür – Mücərrədlik hökm sürür – Birlik hökm sürmür, Cəmlik hökm sürür.

***

İnsan Təbiətlə tam Yadlaşa bilmir, buna İnsandakı İnsanilik mane olur.
İnsan Təbiətlə tam Doğmalaşa bilmir, buna İnsandakı Heyvanilik mane olur.
İnsanın Təbiətə münasibətində Yadlıq–Doğmalıq Birliyi yaranır – İnsanı İnsaniliyə qərq edən.

***

“Konkretçilərə” görə, konkret predmetlərdən başqa Dünyada heç nə yoxdur.

Belə olduğu halda, Dünya yoxdur, çünki konkret predmetlər özləri-özlüyündə Dünya yaratmırlar, ***Dünya – Predmetlərin Ümumi Birliyindən yaranır.***

***

Kapitalizmdə Şəxsi Mülkiyyət – Şəxsiyyət üzərində Şəxsi Hakimiyyətdir.

Sosializmdə Dövlət Mülkiyyəti – Şəxsiyyət üzərində Dövlət Hakimiyyətidir.

***

Siyasətdə Bic olmayan Gic olur.
Ruhaniyyatda Bic olan Gic olur.

*2 Murad günü, Ata Ayı, 17-ci il. Bakı.*
*Sentyabr. 1995-ci il.*

***

Naqis Adam naqis Cəmiyyət yaradır və naqis cəmiyyət Adamı daha da naqisləşdirir.

***

Naqis cəmiyyəti naqis İnsan yaradır; – ancaq ona elə gəlir ki, naqisliyini cəmiyyət yaradır.

Adam İnsan olmayınca – Azad olmayacaq.

Özündəki naqislikdən Azad olmayınca – naqis cəmiyyətdən Azad olmayacaq.

***

Bəşərin indiyə qədər olan Dövrü – özgəlik Dövrü olub əslində.

Bəşərin özümlük Dövrü – İnsanlaşmadan Başlanmalıdır.

***

Azadlıq – Mütləqilik Tələbidir.
Zərurəti ötmək Tələbi – Mütləqilik Tələbidir.
Şəraiti ötmək Tələbi – Mütləqilik Tələbidir.
Mühiti ötmək Tələbi – Mütləqilik Tələbidir.
***Mütləqilik olmasaydı – Azadlıq olmazdı....***
***Azadlıq olmasaydı – Dünya Zərurətə ilişib qalardı – Tükənərdi...***

***

Cəmiyyətləşmə – Mahiyyətsizləşmədir.
Ağalaşma – Mahiyyətsizləşmədir.
Nökərləşmə – Mahiyyətsizləşmədir.
Təbəqələşmə – Mahiyyətsizləşmədir.
Özgələşmə – Mahiyyətsizləşmədir.

***

Dünya Qanunları – Dünya Qaydalarıdır.
Qaydalar Dünyanı yaşadır – Məna yaradır.
Məna yaratdığını Qaydalar yaşadır.

***

Metafizikanı rədd etmək yox – Anlayışlar metafizikasını – Mənalar metafizikasına çevirmək gərək.
Metafizikasız Fəlsəfə yoxdur.
Fəlsəfə Dünyaya Metafizik baxış deməkdir əslində.

***

Dialektik Nisbi Var, Dialektik Mütləq Yoxdur.
Dialektik Təzahür Var, Dialektik Mahiyyət Yoxdur.
Dialektik Hadisə Var, Dialektik Məna Yoxdur.
***Bu səbəbdən də Dialektik Elm Var, Dialektik Fəlsəfə yoxdur.***

***

***Həyatın sirri – Məna.***

***

İdeya – Mənanın ifadəsi; Rəmz – Mənanın Nişanəsi; Obraz – Mənayla Hadisənin Birliyi.

***

Həqiqət – Həyatdır deyirlər.

Əgər Həyat özü Həqiqətdirsə, onda Həqiqət nə üçündür?

Həqiqət Həyat deyil; Həyat Mahiyyətin Dərkidir.

Həqiqət – Şəxsiyyətdir deyirlər.

Əgər Şəxsiyyət özü Həqiqətdirsə, – onda Həqiqət nə üçündür?

Həqiqət Şəxsiyyət deyil; – Şəxsiyyət Mahiyyətinin Dərkidir.

Həqiqət – Yoldur deyirlər.

Əgər Yol özü Həqiqətdirsə, onda Həqiqət nə üçündür?

Hər kəsin öz Həqiqət Yolu Var; – ancaq Həqiqət – Birdir.

Həqiqət heç vaxt Həyatçı, Şəxsiyyətçi, Yolçu olmur, – həmişə Mahiyyətçi, Mənaçı olur.

***

Həqiqət – Ehkam deyil, çünki tükənmir.

Ehkam – Tükənmiş Fikir deməkdir əslində...

***

***Mücərrəd Həqiqət yoxdur,*** çünki Gerçəklikdən Təcrid olunmuş Həqiqət yoxdur.

***Konkret Həqiqət Yoxdur,*** çünki Gerçəkliyə Pərçimlənmiş Həqiqət yoxdur.

***Ümumi Həqiqət Var,*** – Gerçəkliyin Mənasını dərk edən.

***

***Platonizmə qarşı.***

Dünya Dünyalığın Kölgəsi deyil – İşığıdır.

Həyat – Həyatlığın Kölgəsi deyil – İşığıdır.
İnsan – İnsanlığın Kölgəsi deyil – İşığıdır.
Təzahür – Mahiyyətin Kölgəsi deyil – İşığıdır.
Hadisə – Mənanın Kölgəsi deyil – İşığıdır.

***

İctimai Birlik – Şəxsi Birliklə əvəz olunmalıdır; ***yəni Birlik Özümləşməlidir, – Şəxsləşməlidir.***

*3 İnam günü, Ata Ayı, 17-ci il.Bakı.*
*Sentyabr. 1995-ci il.*

# DÜNƏNÇİLİK – SABAHÇILIQ

## (Qırx İkinci Müqəddəs Kitab)

## 1. Dünənçilik – Qədimlik

Bəşər Dünəndən çıxa bilmir – Üstün ola bilmir – ***O, Dünənçidir əslində.***

***Dünənçilik – Qədimlik deyil.***

Qədimlik – Üstünlükdür, Dünənçilik – Əskiklik.

Qədimlik – Məziyyətdir, Dünənçilik – Nöqsan.

***Qədimlik – Bugünə çevrilən Keçmişdir, Dünənçilik – Keçmişə çevrilən Bugün.***

***Qədimlik – Təməldir, Dünənçilik – Maneə.***

***Qədimliyi Möhkəmləndirmək, Dünənçiliyi aradan qaldırmaq gərək.***

## 2. Adam Dünənçiliyi

***Bəşər Adamlıqdan çıxa bilmir – İnsaniliyə çata bilmir.***

Zaman Dəyişir – Adam Mahiyyətcə Dəyişmir, – bu səbəbdən də Zaman da Sabahda qalır əslində.

Bəşər Adamlıq Dairəsini ötə bilmir.

***Bugün Dünəni təkrar eləyir.***

Adamlıq – Nisbi İnam deməkdir.

***Nisbi İnam – İnam Əskikliyidir.***

Bəşər Nisbi İnamdan çıxa bilmir.

Zaman Dəyişir – ancaq İnam Nisbiliyi – Əskikliyi Dəyişmir, – bu səbəbdən də Zamanın mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman – Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Adamlıq – Nisbi İdrak deməkdir.***

Nisbi İdrak – İdrak Əskikliyidir.

Bəşər Nisbi İdrakdan çıxa bilmir.

Zaman Dəyişir – ancaq İdrak Nisbiliyi – Əskikliyi Dəyişmir, bu səbəbdən də Zamanın mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman – Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Adamlıq – Nisbi Mənəviyyat deməkdir.***

Nisbi Mənəviyyat – Mənəviyyat Əskikliyidir.

Bəşər Nisbi Mənəviyyatdan çıxa bilmir.

Zaman Dəyişir – ancaq Mənəviyyat Nisbiliyi – Əskikliyi Dəyişmir, bu səbəbdən də Zamanın mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman – Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Adamlıq – Nisbi İradə deməkdir.***

Nisbi İradə – İradə Əskikliyidir.

Bəşər Nisbi İradədən çıxa bilmir.

Zaman Dəyişir – ancaq İradə Nisbiliyi – Əskikliyi Dəyişmir, bu səbəbdən də Zamanın mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman – Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Adamlıq – Dünənçilikdir, Adam – Dünənçidir.***

Bəşər İnkişafı hələlik Adamlıq Əməlidir – bu səbəbdən də Mahiyyətcə Dünənçidir.

***Daim İnkişaf edən Bəşəriyyət əslində Dünəndə qalır.***

### 3. Cəmiyyət Dünənçiliyi

***Cəmiyyət – Ağaçılıq deməkdir.***

Zaman Dəyişir – Ağaçılıq Qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Cəmiyyət – Nökərçilik deməkdir.***

Zaman Dəyişir – Nökərçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Cəmiyyət – Təbəqəçilik deməkdir.***

Zaman dəyişir –Təbəqəçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Cəmiyyət – Yağılıq deməkdir.***

Zaman dəyişir – Yağılıq qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Daim İnkişaf edən Bəşər – Dünəndən çıxa bilmir – Mahiyyətcə Dünəndə qalır.***

## 4. Din Dünənçiliyi

***Din – Allahçılıqdır.***

Bəşər Allahçılıqdan çıxa bilmir.

Zaman Dəyişir – Allahçılıq qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – Bəndəçilikdir.***

Bəşər Bəndəçilikdən çıxa bilmir.

Zaman Dəyişir – Bəndəçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – İtaətçilikdir.***

Bəşər İtaətçilikdən çıxa bilmir.

Zaman Dəyişir – İtaətçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir, Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – Qismətçilikdir.***

Bəşər Qismətçilikdən çıxa bilmir.

Zaman Dəyişir – Qismətçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – O Dünyaçılıqdır.***

Bəşər O Dünyaçılıqdan çıxa bilmir.

Zaman Dəyişilir – O Dünyaçılıq qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – Cənnətçilikdir.***

Bəşər Cənnətçilikdən çıxa bilmir.

Zaman Dəyişir – Cənnətçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – Cəhənnəmçilikdir.***

Bəşər Cəhənnəmçilikdən çıxa bilmir.

Zaman Dəyişir – Cəhənnəmçilik qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Din – Cəfəngiyyatçılıqdır.***

Bəşər Cəfəngiyyatçılıqdan çıxa bilmir.

Zaman Dəyişir – Cəfəngiyyatçılıq qalır, bu səbəbdən də Zamanın Mahiyyəti Dəyişmir – Zaman Dünəndə qalır əslində.

***Zaman Zahirən Dəyişir – Daxildən Dəyişmir.***

***Daim inkişaf edən Bəşər Dünəndən çıxa bilmir – Mahiyyətcə Dünəndə qalır.***

### 5. Sabahçılıq əməli

***Sabahçılıq – Dünənçiliyi Ötmək, ondan Ayrılmaq – Çıxmaq deməkdir.***

Adamlığı ötüb – İnsançılığa Yetmək, Cəmiyyətçiliyi ötüb – Xalqçılığa Yetmək, Dinçiliyi ötüb – İnamçılığa Yetməkdir.

### 6. İnsan Sabahçılığı

Mütləqilik Sabahçılığı:

Mütləq İnam Sabahçılığı,
Mütləq İdrak Sabahçılığı,
Mütləq Mənəviyyat Sabahçılığı,
Mütləq İradə Sabahçılığı.

### 7. Xalqçılıq Sabahçılığı

Ağasız Xəlqi Birlik.
Nökərsiz Xəlqi Birlik.
Təbəqəsiz Xəlqi Birlik.
Yağısız Xəlqi Birlik.
Fərdi Özünüidarə Sabahçılığı.

Əməkçi Mülkiyyəti Sabahçılığı.
Qoruyucu İdarəçilik Sabahçılığı.
İmtiyazsızlıq Sabahçılığı.

### 8. İnam Sabahçılığı

Mütləqə İnam.
Dünya Mütləqiliyinə – Dünyalığa İnam.
Həyat Mütləqiliyinə – Həyatlığa İnam.
İnsan Mütləqiliyinə – İnsaniliyə İnam.

### 9. İnsanlaşma gərəkliyi

Sabahlaşmaq üçün – İnsanlaşmaq gərək – Özünü tanımaq, Özüylə Döyüşmək, Özünü Dəyişmək, Özünü Yaratmaq gərək.

### 10. Sehr, Sirr, Müqəddəslik Özümlüyü

**I.** Dünyaüstü Sehr, Sirr, Müqəddəslik axtarırlar.
Əslində Sehr, Sirr, Müqəddəslik Dünyanın Özündədir, Özümlüyündədir.
***Dünyanın Sehri, Sirri, Müqəddəsliyi – Dünyalıqdır.***
Həyatüstü Sehr, Sirr, Müqəddəslik axtarırlar.
Əslində Sehr, Sirr, Müqəddəslik Həyatın Özündədir, Özümlüyündədir.
***Həyatın Sehri, Sirri, Müqəddəsliyi – Həyatlıqdır.***
İnsanüstü Sehr, Sirr, Müqəddəslik axtarırlar.
Əslində Sehr, Sirr, Müqəddəslik İnsanın Özündədir, Özümlüyündədir.
***İnsanın Sehri, Sirri, Müqəddəsliyi – İnsanilikdir.***
**II.** Din Sehri, Sirri, Müqəddəsliyi – Yadlıqdır.
İtaət Sehri, Sirri, Müqəddəsliyi – Yadlıqdır.
Qismət Sehri, Sirri, Müqəddəsliyi – Yadlıqdır.
O Dünya Sehri, Sirri, Müqəddəsliyi – Yadlıqdır.
Cənnət Sehri, Sirri, Müqəddəsliyi – Yadlıqdır.

Cəfəngiyyat Sehri, Sirri, Müqəddəsliyi – Yadlıqdır.
Dində Sehr, Sirr, Müqəddəslik Yadlaşır.
Sehri, Sirri, Müqəddəsliyi Özünə, Özümlüyünə çatdırmaq gərək.

## 11. Müdriklik Hünəri

### I. Hünərsizlik – Müdriksizlik

Hünərsizlik üstə Müdriklik qururlar – əslində Müdrikliyi Uçururlar.

Gerçəkliyə uyğunlaşmaq Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Nisbiliyə Uyğunlaşmaq Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

İtaətçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Qismətçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Cənnətçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Cəhənnəmçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Cəfəngiyyatçılıq Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Zamançılıq Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Şəraitçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Mühitçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Ağaçılıq Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Təbəqəçilik Müdrikliyi qururlar – əslində Müdrikliyi uçururlar.

Hünərsiz Müdriklik Yaradırlar – Müdriksizliyə çatırlar.

Müdriklik Hünərdir.

## II. Hünər – Müdriklik

Gerçəkliyi ötmək Hünəri.
Nisbiliyi ötmək Hünəri.
İtaətçiliyi rədd etmək Hünəri.
Qismətçiliyi rədd etmək Hünəri.
Cənnətçiliyi rədd etmək Hünəri.
Cəhənnəmçiliyi rədd etmək Hünəri.
Cəfəngiyyatçılığı rədd etmək Hünəri.
Zamançılığı rədd etmək Hünəri.
Şəraitçiliyi rədd etmək Hünəri.
Mühitçiliyi rədd etmək Hünəri.
Ağaçılığı rədd etmək Hünəri.
Təbəqəçiliyi rədd etmək Hünəri.
Yağıçılığı rədd etmək Hünəri.
Hünər Müdrikliyi.

## III. Həqiqət

***Hünərsiz Müdriklik yoxdur, Müdriklik – Hünərdir.***

## 12. Mənlik

Dinçilikdə Yaşamıram – İnsançılıqda Yaşayıram.
Pulçuluqda Yaşamıram – Ruhçuluqda Yaşayıram.
Özgəlikdə Yaşamıram – Özümlükdə Yaşayıram.
İtaətçiliyə qarşı – İşıqçıyam.
Qismətçiliyə qarşı – Yenilməzəm.
Cəfəngiyyatçılığa qarşı – Həqiqətçiyəm.
Dünyasızlığa qarşı – Dünyalıyam.
Həyatsızlığa qarşı – Həyatlıyam.
İnsansızlığa qarşı – İnsanlıyam.
Qədimlikdə Yaşayıram.
Sabahlıqda Yaşayıram.

## 13. Sabahsızlıqdan çıxmaq

Adamlığın Sabahı Yoxdur, çünki Adamlıq İnsana Yaramır – İnsan Yarananda Adamlıq İnsaniliklə əvəz olunmalıdır.

Nisbi İnamın Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Nisbi İnam Mütləq İnamla əvəz olunmalıdır.

Nisbi İdrakın Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Nisbi İdrak Mütləq İdrakla əvəz olunmalıdır.

Nisbi Mənəviyyatın Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Nisbi Mənəviyyat Mütləq Mənəviyyatla əvəz olunmalıdır.

Nisbi İradənin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Nisbi İradə Mütləq İradəylə əvəz olunmalıdır.

Cəmiyyətçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Cəmiyyətçilik aradan qalxmalıdır.

Ağaçılığın Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Ağaçılıq aradan qalxmalıdır.

Nökərçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Nökərçilik aradan qalxmalıdır.

Təbəqəçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Təbəqəçilik aradan qalxmalıdır.

Dinçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Dinçilik aradan qalxmalıdır.

İtaətçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda İtaətçilik aradan qalxmalıdır.

Qismətçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Qismətçilik aradan qalxmalıdır.

O Dünyaçılığın Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda O Dünyaçılıq aradan qalxmalıdır.

Cənnətçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Cənnətçilik aradan qalxmalıdır.

Cəhənnəmçiliyin Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Cəhənnəmçilik aradan qalxmalıdır.

Cəfəngiyyatçılığın Sabahı Yoxdur, çünki İnsana Yaramır – İnsan Yarananda Cəfəngiyyatçılıq aradan qalxmalıdır.

İnsan Yaranmasa, Bəşərin Sabahı Yaranmaz.
İnsan Yarananda Bəşərin Sabahı Yaranacaq.

## 14. Mənəviyyat Göylüyü

Mənəviyyat – Vicdan İdarəçiliyidir.
Dövlət İdarəçiliyi deyil.
Din İdarəçiliyi deyil.
Zaman İdarəçiliyi deyil.
Şərait İdarəçiliyi deyil.
Mühit İdarəçiliyi deyil.

Vicdan İnsanı Əyrilikdən, Zalımlıqdan, Harınlıqdan, Haramlıqdan Qoruyur.

***Əxlaq – Vicdan Hüququdur əslində.***

Mənəviyyat – Təmənnasızlıqdır.
Təmənnalı Mənfəət olur – Təmənnalı Mənəviyyat olmur.
İndikilər Təmənnalı Mənəviyyat uydururlar.
Təmənnalı Mənəviyyata söykənirlər, sığınırlar.
Təmənnasızlıq Göyə çəkilib – Yer Təmənnaya Bürünüb.
Mənəviyyat – Gerçəklikdən Ucadır, Gerçəkliyi Ucaltmalıdır.
Mənəviyyat – Fədakarlıqdır – Gerçəkliyi Ucaltmaq Fədakarlığıdır.

*İşıq Ayı, 19-cu il. Bakı.*

# İNSANİLİKDƏN YARANAN
## (Qırx Üçüncü Müqəddəs Kitab)

## 1. İMKANDAN ÜSTÜN

### I

***İnsanın Gerçək İmkandan Üstün olmaq İmkanı var.***

İnsanilik İnsana Gerçək İmkandan Üstün olmaq İmkanı verir.

***Pis cəmiyyətdə Yaxşı İnsan olmasa – Pis cəmiyyət Yaxşılaşmaz.***

***İnsanın Yaxşı olmaq İmkanı Özündədir əslində – Cəmiyyətdə deyil.***

Cəmiyyət Adama Yaxşı olmaq İmkanı Yaratmır.

***İnsan Yaxşı olmaq İmkanını özündə daşıyır.***

***Cəmiyyət Adamı İnsan eləmir – Adam Özü özünü İnsan eləyir.***

"Yaxşı cəmiyyət Yaradım ki, – Yaxşı İnsan Yaransın" – İddiası tarixən puça çıxdı.

***Özünü dəyişdirməyən, İnsaniliyə Yetməyən Adam Pis cəmiyyət yaratdı.***

Pis Adamın Yaxşı cəmiyyət qurmaq İmkanı Yoxdur.

Cəmiyyət İnsan yaratmır – İnsanı İnsan özü yaradır.

Pis cəmiyyətdə Yaxşı İnsan Yaranır – yəni pis cəmiyyətdə İnsan özü özünü Yaradır – İnsanilik İmkan verir ki, İnsan cəmiyyət imkanından Üstün olsun.

***Özündə Mütləqilik gəzdirənin cəmiyyət İmkanlarından artıq olmaq İmkanı var.***

***Şəraitdən, Mühitdən, Zamandan Üstün olanın*** Cəmiyyət İmkanından artıq olmaq İmkanı var.

***Kamilliyə çata bilənin*** Cəmiyyət İmkanından Üstün olmaq İmkanı var.

***Yaxşı cəmiyyət yalnız İnsanilik İmkanından Yarana bilər – cəmiyyət İmkanından Üstün olan İmkandan Yarana bilər.***

Gərək Adam İnsan olsun ki, İnsani cəmiyyət Yaransın.

***İnsanın İnsani cəmiyyət Yaratmaq İmkanı var,*** bu İmkanı ona İnsanilik verir: bu İmkanı İnsan özündə daşıyır.

## II

***Ağaçılıq*** Tüğyanında İnsan Ağaçılıqdan İmtina etmək İmkanına malikdir, – Ağaçılıq İmkanına qarşı Ağaçılıqdan İmtina İmkanını qoya bilər, Ağaçılığı rədd edə bilər, ona əyilməz və son nəticədə onu əyər və beləliklə də – Ağasızlıq Yaranar – Ağasızlığı İnsanilik Yaradar, İnsanın Ağasızlıq Yaratmaq İmkanı Təsdiq olunar.

***Nökərçilik*** İmkanına qarşı İnsan Nökərçilikdən İmtina İmkanını qoya bilər, Nökərçiliyi rədd edə bilər, ona əyilməz və son nəticədə onu əyər və beləliklə də Nökərsizlik Yaranar – İnsanın Nökərsizlik Yaratmaq İmkanı Təsdiq olunar.

***Təbəqəçilik*** İmkanına qarşı İnsan Təbəqəçilikdən İmtina İmkanını qoya bilər, Təbəqəçiliyi rədd edə bilər, ona əyilməz və son nəticədə onu əyər və beləliklə də Təbəqəsizlik Yaranar – İnsanın Təbəqəsizlik Yaratmaq İmkanı Təsdiq olunar.

***Yağılıq*** İmkanına qarşı İnsan Yağılıqdan İmtina İmkanını qoya bilər, Yağılığı rədd edə bilər, ona əyilməz və son nəticədə onu əyər və beləliklə də Yağısızlıq Yaranar – İnsanın Yağısızlıq Yaratmaq İmkanı Təsdiq olunar.

## III

***Yaxşı İnsan Yaranmayınca Yaxşı cəmiyyət Yaranmayacaq.***

Yaxşı cəmiyyəti Yaxşı İnsan Yaradacaq – ***Adam özündən Artıq olacaq, özünü ötəcək, keçəcək, özündəki İnsan olmaq İmkanını Təsdiq edəcək.***

Köhnə Hərəkatları Adamlar Yaratdılar, bu səbəbdən də onlar məğlub oldular.

Köhnə Hərəkatlar İnsan Yaratmadılar, Yarada bilməzdilər, onların Məqsədi bu deyildi;

***Məqsəd – İnsan Yaratmadan İnsani cəmiyyət Yaratmaq oldu*** – bu səbəbdən də İnsani cəmiyyət Yaranmadı.

“Əvvəl cəmiyyət – sonra İnsan” İddiası özünü Doğrultmadı.

Cəmiyyətlər Dəyişdi – Cəmiyyətdə İnsanilik Təsdiq olunmadı.

Qabaqcıl cəmiyyətlərin hamısı İnsanilikdən məhrum oldu.

**IV**

***İnsanilik – İnam İmkanıdır.***

Ən inamsız Zamanda, Dövrdə, Şəraitdə, Mühitdə İnsanın İnam İmkanı var; bu səbəbdən də son nəticədə İnamsızlığın İnamla əvəz olunması İmkanı var.

***İnsan gərək həmin İmkanı özündə axtarsın, özünü dərindən Bilsin, Tanısın, özündəki İnam İmkanını Zamandakı, Dövrdəki, Şəraitdəki, Mühitdəki İnamsızlıq İmkanına qarşı qoya bilsin.***

***İnsanilik – İdrak İmkanıdır.***

Ən İdraksız Zamanda, Dövrdə, Şəraitdə, Mühitdə İnsanın İdrak İmkanı var; bu səbəbdən də son nəticədə İdraksızlığın İdrakla əvəz olunması İmkanı var.

***İnsan gərək həmin İmkanı özündə axtarsın, özünü dərindən Bilsin, Tanısın, özündəki İdrak İmkanını Zamandakı, Dövrdəki, Şəraitdəki, Mühitdəki İdraksızlıq İmkanına qarşı qoya bilsin.***

***İnsanilik – Mənəviyyat İmkanıdır.***

Ən Mənəviyyatsız Zamanda, Dövrdə, Şəraitdə, Mühitdə İnsanın Mənəviyyat İmkanı var; bu səbəbdən də son nəticədə Mənəviyyatsızlığın Mənəviyyatla əvəz olunması İmkanı var.

***İnsan gərək həmin İmkanı özündə axtarsın, özünü dərindən Bilsin, Tanısın, özündəki Mənəviyyat İmkanını Zamandakı, Dövrdəki, Şəraitdəki, Mühitdəki Mənəviyyatsızlıq İmkanına qarşı qoya bilsin.***

***İnsanilik – İradə İmkanıdır.***

Ən İradəsiz Zamanda, Dövrdə, Şəraitdə, Mühitdə İnsanın İradə İmkanı var; bu səbəbdən də son nəticədə İradəsizliyin İradəylə əvəz olunması İmkanı var.

***İnsan gərək həmin İmkanı özündə axtarsın, özünü dərindən Bilsin, Tanısın, özündəki İradə İmkanını Zamandakı, Dövrdəki, Şəraitdəki, Mühitdəki İradəsizlik İmkanına qarşı qoya bilsin.***

## V

***Ən Xeyirsiz Dünyada*** – İnsanın Xeyir İmkanı var – Xeyirsizlik İmkanından Üstün olmaq İmkanı var – bu səbəbdən də Xeyirsizliyə qarşı Müqavimət həmişə var – həmin Müqaviməti İnsanilik Yaradır.

***Ən Ədalətsiz Dünyada*** – İnsanın Ədalət İmkanı var – Ədalətsizlik İmkanından Üstün olmaq İmkanı var – bu səbəbdən də Ədalətsizliyə qarşı Müqavimət həmişə var – həmin Müqaviməti İnsanilik Yaradır.

***Ən Həqiqətsiz Dünyada*** – İnsanın Həqiqət İmkanı var – Həqiqətsizlik İmkanından Üstün olmaq İmkanı var – bu səbəbdən də Həqiqətsizliyə qarşı Müqavimət həmişə var – həmin Müqaviməti İnsanilik Yaradır.

## VI

***İnsan Özündəkinə çatmalıdır – Özünü tam ifadə etməlidir.***

***Özünün Zamandan, Dövrdən, Şəraitdən, Mühitdən Üstün olmaq İmkanına Yiyələnməlidir – onda O, öz Dünyasını tapacaq.***

## 2. Xalq Yaratmaq

***Xalq – İnsanilikdən yaranır – Cəmiyyətlikdən Yaranmır.***

***Ağaçılıq*** olan Yerdə – Nisbi Xalq Yaranır – Nisbi Xalq – Xalq deyil əslində.

***Hələ Xalq Yoxdur – Xalqı Yaratmaq gərək.***

***Təbəqəçilik*** olan Yerdə – Nisbi Xalq Yaranır – Nisbi Xalq – Xalq deyil əslində.

***Hələ Xalq Yoxdur – Xalqı Yaratmaq gərək.***

***Yağıçılıq*** olan Yerdə – Nisbi Xalq Yaranır – Nisbi Xalq – Xalq deyil əslində.

***Hələ Xalq Yoxdur – Xalqı Yaratmaq gərək.***

***Nökərçilik*** olan Yerdə – Nisbi Xalq Yaranır – Nisbi Xalq – Xalq deyil əslində.

***Hələ Xalq Yoxdur – Xalqı Yaratmaq gərək.***

**2**

İnsanlar Ağaçılıqdan azad olanda – Azad İnsanlar Yarananda – Xalq Yaranacaq.

İnsanlar Nökərçilikdən azad olanda – Azad İnsanlar Yarananda – Xalq Yaranacaq.

İnsanlar Təbəqəçilikdən azad olanda – Azad İnsanlar Yarananda – Xalq Yaranacaq.

İnsanlar Yağılıqdan azad olanda – Azad İnsanlar Yarananda – Xalq Yaranacaq.

**3**

Adam İnsan olmayınca – Xalq Yaranmayacaq.

Adam Özündəki Canavarı öldürməyincə – Xalq Yaranmayacaq.

Adam Özündəki İlanı öldürməyincə – Xalq Yaranmayacaq.

Adam Özündəki Tülkünü öldürməyincə – Xalq Yaranmayacaq.

**4**

Adamlar ***İnama*** Yetməyincə – Xalq Yaranmayacaq.
Adamlar ***İdraka*** Yetməyincə – Xalq Yaranmayacaq.
Adamlar ***Mənəviyyata*** Yetməyincə – Xalq Yaranmayacaq.
Adamlar ***İradəyə*** Yetməyincə – Xalq Yaranmayacaq.

**5**

***İnsan Yaranmayınca – Xalq Yaranmayacaq.***
***Xalqı Yaratmaq – İnsanın Borcudur.***

*İşıq Ayı, 19 il. Bakı.*
*(May, 1997- i)l.*

# MÜQƏDDƏSLİK

(İyirmi Birinci Müqəddəs Kitab)

## 1. MAHİYYƏTƏ YETMƏK

***Müqəddəslik – Hadisənin Mahiyyətə Yetməsidir.***

Gerçəklik səviyyəsində Hadisə Mahiyyətə Yetmir – Mahiyyət Hadisədən Artıq olur, Böyük olur, Yüksək olur.

***Bu səbəbdən Müqəddəslik Gerçəkliyi ötür, Qeyri-Adiliyə yüksəlir.***

Qeyri-Adi Hadisə özünə Qeyri-Adi Münasibət Yaradır – ***İnsanlar Müqəddəsliyə tapınırlar.***

## 2. ALİ HƏYAT MÜQƏDDƏSLİYİ

***Həyat Müqəddəsliyə Yetmir.***

Həyatda hər şey Nisbidir – Nisbi Müqəddəslik olmur.

Həyatda hər şey Dəyişkəndir – Dəyişkən Müqəddəslik olmur.

Həyatda hər şey Ziddiyyətlidir – Ziddiyyətli Müqəddəslik olmur.

Həyatda hər şey Keçicidir – Keçici Müqəddəslik olmur.

Ali Həyat – Müqəddəsliyə Yetir, çünki Mütləqiliyə Yetir.

***Ali Həyat – Mütləq Xeyir deməkdir.***

Mütləq Xeyir Müqəddəsdir – Əbədidir, Sonsuzdur, Bütövdür.

***Həyatda Xeyir Şərə qarışır.***

***Mütləq Xeyir Şərin Mütləq İnkarı deməkdir.***

***Həyat Xeyrini Adam yaradır; Ali Həyatdakı Xeyri İnsan yaradır.***

Xeyirli Hadisələrin heç biri Xeyirin Mənasına Yetmir; yalnız Mütləq Xeyir Hadisəsi Xeyirin Mənasına Yetir, bu səbəbdən də Müqəddəsləşir.

***İnsanın Məqsədi – Həyatı Ali Həyata Yüksəltməkdir; bu Məqsəd özü Müqəddəsdir, – yəni Mənaya Yetməkdir.***

***Ali Həyat – Mütləq Ədalət deməkdir.***

Həyatda Mütləq Ədalət olmur – Nisbi Ədalət olur: – Dəyişkən, Natam, Keçici, Sonlu.

Həyatda Ədalət – Ədalətsizliyə qarışır; Ədalətli hadisələrin heç biri Ədalətin Mənasına Yetmir; ***Yalnız Mütləq Ədalət hadisəsi Ədalətin Mənasına Yetir, bu səbəbdən də Müqəddəsləşir.***

***Həyat Ədalətini Adam yaradır, Ali Həyatdakı Ədaləti İnsan yaradır.***

***İnsanın Məqsədi – Mütləq Ədalətə Yetən Ali Həyat yaratmaqdır; bu Məqsəd özü Müqəddəsdir, – yəni Mənaya yetməkdir.***

***Ali Həyat – Mütləq Həqiqət deməkdir.***

***Həyat – Mütləq Həqiqət tanımır; Nisbi Həqiqət tanıyır: – Dəyişkən, Keçici, Natam, Sonlu.***

***Həyatda Həqiqət Yalana qarışır; Mütləq Həqiqət – Yalanın Mütləq İnkarıdır.***

Həyatdakı Həqiqətlərin heç biri Həqiqətin Mənasına çatmır, yalnız Mütləq Həqiqət Hadisəsi Həqiqətin Mənasına çatır, bu səbəbdən də Müqəddəsləşir.

***Həyat Həqiqətini Adam yaradır, Mütləq Həqiqəti İnsan yaradır.***

***İnsanın Məqsədi – Mütləq Həqiqətə Yetən Ali Həyat yaratmaqdır; bu Məqsədin özü – Müqəddəsdir.***

***Ali Həyat – Mütləq Kamillik deməkdir.***

Həyat Mütləq Kamillik tanımır; Nisbi, Natam, Keçici, Dəyişkən, Sonlu Kamillik tanıyır.

***Həyatda Kamillik Naqisliyə qarışır; Mütləq Kamillik Naqisliyin Mütləq İnkarıdır.***

Həyatdakı Kamilliklərin heç biri Kamilliyin Mənasına çatmır, yalnız Mütləq Kamillik Hadisəsi Kamilliyin Mənasına çatır; bu səbəbdən də Müqəddəsləşir.

***Həyat Kamilliyini Adam yaradır, Mütləq Kamilliyi İnsan yaradır.***

***İnsanın Məqsədi – Kamilliyə Yetən Ali Həyat yaratmaqdır; bu Məqsədin özü – Müqəddəsdir.***

## 3. İNAM MÜQƏDDƏSLİYİ

***İnam – İnsanın Mənaya qovuşması, onu Aqibətə çevirməsidir.***

***İnsan – İnamda Mənayla birləşir.***

Gerçəklik səviyyəsində İnam olmur – İdrak olur. İdrak Mənanı dərk edir; Mənaya qovuşmaq üçün o, özündən Artıq olmalıdır – Mənəviyyatla Birləşməli, İradəylə Birləşməlidir.

***İnamda İdrak Mənəviləşir, İradələşir;***

İnam Dünyaya, Həyata, İnsana **Məna Baxışı** yaradır: Mütləqilik – Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik Baxışı.

İnam Ötəridə Əzəlini görür, Keçicidə Əbədini görür, Sonluda Sonsuzu görür, Qeyri-Kamildə Kamili görür; Həyatda Ali Həyatı görür; bu səbəbdən də Ötəriylə, Keçiciylə, Sonluyla, Qeyri-Kamillə, Həyatla barışmır.

***İnam Dünyaya, Həyata, İnsana Məna Qiyməti yaradır*** – Nisbini Mütləq ölçüsündə, Ötərini Əzəlilik ölçüsündə, Keçicini Əbədilik ölçüsündə, Sonlunu Sonsuzluq ölçüsündə, Qeyri-Kamili Kamillik ölçüsündə Qiymətləndirir.

***İnam Dünyaya, Həyata, İnsana Məna Hökmü izhar eləyir: Həyatı ötmək – Ali Həyata yetmək; Adamı ötmək – İnsana yetmək; Nisbini ötmək – Mütləqə Yetmək.***

***İnam İnsanda Mütləq İnsani Hal yaradır: Mütləqlə Bir olan Fikir, Duyğu, Əməl, Ömür – Mənayla Təmizlənən, Xalisləşən, Müqəddəsləşən Eşq.***

***İnam – Mütləq Nikbinlik yaradır.***

Dünyanın Mütləq Mənasına İnam – Dünyaya İnam demək olur.

İnsanın Mütləq Mənasına İnam – İnsanın Kamilləşmə Qüdrətinə İnam demək olur.

***İnam – Müqəddəsliyə Yetmək Zəruriliyi yaradır.***

***Müqəddəs – Müqəddəsliyə çağırır.***

***Müqəddəsliyə çatan – Müqəddəsliyə çatdırır.***

***Müqəddəslik cəzbində Adam İnsanlaşır.***

***İnamla Birləşən – təzədən Yaranır.***

***İnamda İnsan Yaranır.***
***Müqəddəslik İnsan yaradır.***

## 4. İNSAN MÜQƏDDƏSLİYİ

İnsan Mahiyyətcə Müqəddəsdir, çünki Özündə Mütləqilik gəzdirən və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır – Mənaya Yetməyə qadirdir.

Gerçəklik səviyyəsində İnsan Müqəddəsliyə Yetmir, çünki Adamlıq – Nisbiliyin, Keçiciliyin, Qeyri-Kamilliyin təsdiqi olur.

***İnsaniliyə çatan İnsan – Müqəddəsdir.***
***İnsan – özünə çatanda Müqəddəs olur.***

İnsan üçün Özünə çatmaq – əslində Mənaya çatmaqdır, Özünə çatmaq – İnama çatmaqdır, İdraka çatmaqdır, Mənəviyyata çatmaqdır, İradəyə çatmaqdır.

***İnam – İnsanın Mütləqiliklə Birliyidir.***
***Bu baxımdan yalnız Mütləq İnam – İnamdır;***
***Nisbi İnam – İnamsızlıqdır əslində.***
***İnsan Mütləq İnam əsasında özünə çatar, yəni Müqəddəsləşər.***
***İdrak – Mütləqiliyin Dərkidir.***
***Bu baxımdan yalnız Mütləq İdrak – İdrakdır;***
***Nisbi İdrak – İdraksızlıqdır əslində.***
***İnsan Mütləq İdrak əsasında özünə çatar, yəni Müqəddəsləşər.***
***Mənəviyyat – Mütləqilik halıdır.***
***Bu baxımdan yalnız Mütləq Mənəviyyat – Mənəviyyatdır;***
***Nisbi Mənəviyyat – Mənəviyyatsızlıqdır əslində.***
***İnsan Mütləq Mənəviyyat əsasında özünə çatar, yəni Müqəddəsləşər.***
***İradə – Mütləqilik Əməlidir.***
***Bu baxımdan yalnız Mütləq İradə – İradədir; Nisbi İradə – İradəsizlikdir əslində.***

***İnsan Mütləq İradə əsasında özünə çatar, yəni Müqəddəsləşər.***

İnsan Özündə Mütləq gəzdirir, bu səbəbdən də onun Təzahürü ötmək imkanı var.

***Təzahür İnsanı özündən eləyir əslində.***

***Özünə yetmək üçün Mənaya yetməlisən.***

***İnsan Müqəddəsliyi – İnsan özümlüyüdür əslində - Yetməli, Çatmalı.***

## 5. YURD MÜQƏDDƏSLİYİ

***Yurd – Məkan Mütləqiliyidir,*** yəni Məkanın Mənaya Yetməsidir; bu səbəbdən də Müqəddəsdir. Qeyri-Yurd səviyyəsində Məkan Mənadan Aşağıdır; Nisbidir, Keçicidir, Qeyri-Kamildir; ***Yurd səviyyəsində Məkan Mənayla birdir, bu səbəbdən də Müqəddəsdir.***

Qeyri-Yurd səviyyəsində Məkana münasibət də Nisbidir, Keçicidir; Yurd səviyyəsində Məkana münasibət Mütləqdir: ***Yurdda İnsanla Məkan Birləşir,*** İnsan – Məkanı, Məkan – İnsanı ifadə edir; ***İnsanın Məkana münasibəti Müqəddəsləşir.***

Yurdda Məkan Ruhani Mahiyyət kəsb edir – İnamlaşır, İdraklaşır, Mənəviyyatlaşır, İradələşir; ***Məkan – İnam Yurdu olur, İdrak Yurdu, Mənəviyyat Yurdu, İradə Yurdu olur – İnsanlaşır.***

Yurdda Məkan öz gerçək məzmunundan Artıq olur, Böyük olur, Yüksək olur; – ***Yurdda Məkan təzə Məzmun kəsb edir; Məzmun Mənaya Yetir – Müqəddəsləşir.***

***Yurd – Xalq Mütləqiliyidir; yəni Xəlqi Birliyin Mənaya çatması, Müqəddəsləşməsidir.***

Xəlqi Birlik – Mütləq Birlikdir; yəni Mənaya əsaslanan Birlikdir; İnama, İdraka, Mənəviyyata, İradəyə əsaslanan Birlikdir, ***Gerçəkliyi ötən Birlikdir*** – bu səbəbdən də Müqəddəsdir.

Qeyri-Xəlqi Birliklər – Gerçəklik əsasında yaranır, bu səbəbdən də Mənaya yetmir;

***Yalnız Mütləq Birlik Mənaya yetə bilər.***

***Yurd – Xəlqi Birlik Məkanıdır, yəni Müqəddəs Birlik Məkanıdır.***

Yurd Müqəddəsliyi Mahiyyətcə Cəmiyyətə qarşıdır; Cəmiyyət Yurd Müqəddəsliyinə Yaddır:

Ağalıq Yurd Müqəddəsliyinə Yaddır; Nökərlik Yurd Müqəddəsliyinə Yaddır; Təbəqələşmə Yurd Müqəddəsliyinə Yaddır; Özgələşmə Yurd Müqəddəsliyinə Yaddır, – ***Yurd Müqəddəsliyini Cəmiyyət Yadlığından, Yağılığından qorumaq gərək olur.***

Yurd Müqəddəsliyi Mahiyyətcə Dinə qarşıdır: Din – Yurd tanımır, çünki İnsan tanımır, Xalq tanımır – Bəndə tanıyır; Dində Məkan Allah Mülkiyyətidir; Din əslində Allahdan və Allaha qulluq eləyənlərdən başqa Müqəddəs tanımır; Məkanın Mütləq Mənası Dinə yaddır; Dində Mütləq Birdir – Allah; Allahdan başqa nə varsa – Nisbidir; yəni Müqəddəs deyil.

***Bu səbəbdən də Müqəddəsliyi Dindən qorumaq gərək olur.***

## 6. YALANÇI MÜQƏDDƏSLİKLƏR

***Hakimiyyətdə – Müqəddəslik yoxdur,*** çünki Ağalıq Mahiyyətsizlikdir əslində; – o, İnama qarşıdır: İnam – İnsaniliyin Təsdiqidir, Ağalıq – İnkarı; İdraka qarşıdır: İdrak – Həqiqətin Təsdiqidir, Ağalıq – İnkarı; Mənəviyyata qarşıdır: Mənəviyyat – Vicdanın Təsdiqidir, Ağalıq – İnkarı; İradəyə qarşıdır: İradə – Azadlığın Təsdiqidir, Ağalıq – İnkarı.

***Hakimiyyət*** Xeyirə qarşıdır – Xeyir Ağası olmur, Şər Ağası olur.

***Hakimiyyət*** – Ədalətə qarşıdır – Ədalət Ağası olmur, Ədalətsizlik Ağası olur.

***Hakimiyyət*** Həqiqətə qarşıdır – Həqiqət Ağası olmur, Yalan Ağası olur.

***Ağalıq Mənaya Yüksəlmir – Mənasızlığa Yüksəlir.***

Hakimiyyətə İnam – İnamsızlıqdır əslində.
Ağalığı İdraki saymaq – İdraksızlıqdır əslində.
Ağalıqla barışmaq – Mənəviyyatsızlıqdır əslində.
Ağalığa xidmət – İradəsizlikdir əslində.

***Hakimiyyəti Müqəddəs saymaq – Müqəddəslik üzərində Ağalıqdır, onu İnsaniliyə qarşı qoymaq, – yəni inkar etməkdir.***

***Dövlətdə*** Müqəddəslik yoxdur, çünki Zorda Müqəddəslik yoxdur; Zorakı İnsanilik olmur – İnam olmur, İdrak olmur, Mənəviyyat olmur, İradə olmur; Xeyir olmur, Ədalət olmur, Həqiqət olmur.

Zorakı İnam – İnamsızlıqdır.
Zorakı İdrak – İdraksızlıqdır.
Zorakı Mənəviyyat – Mənəviyyatsızlıqdır.
Zorakı İradə – İradəsizlikdir.
Zorakı Xeyir – Şərdir.
Zorakı Ədalət – Ədalətsizlikdir.
Zorakı Həqiqət – Yalandır.

***Dövləti*** Müqəddəs saymaq – Müqəddəsliyə qarşı Zorakılıqdır, onu özünə qarşı çevirmək, inkar etməkdir.

***Dində*** Müqəddəslik yoxdur, çünki ***Qismətçilikdə*** Müqəddəslik yoxdur; ***Qismətçilik*** – İnsaniliyə qarşıdır – yəni Xeyirə, Ədalətə, Həqiqətə, İnama, İdraka, Mənəviyyata, İradəyə qarşıdır; Qismətçilik İnsanı özündən ayırıb, özgəyə tapşırır.

***Dində*** Müqəddəslik yoxdur, çünki ***Cəfəngiyyatda*** Müqəddəslik yoxdur; cəfəng Xeyir olmur; – Həqiqət olmur, Ədalət olmur; Din Mənasızlıq Zirvəsidir – Cəfəng İnam olmur, İdrak olmur, Mənəviyyat olmur, İradə olmur.

***Dində*** Müqəddəslik yoxdur, çünki ***Qorxuda*** Müqəddəslik yoxdur; Mənalı Qorxu olmur, Qorxu İnamı olmur – Qorxu İdrakı, Mənəviyyatı, İradəsi, Ədaləti, Xeyiri, Həqiqəti olmur.

***Dində*** Müqəddəslik yoxdur, çünki ***İtaətdə*** Müqəddəslik yoxdur.

***İtaət İnamı olmur*** – İnamsızlığı olur.
***İtaət İdrakı olmur*** – İdraksızlığı olur.

***İtaət Mənəviyyatı olmur*** – Mənəviyyatsızlığı olur.
***İtaət İradəsi olmur*** – İradəsizliyi olur.
***İtaət Xeyiri olmur*** – Şəri olur.
***İtaət Ədaləti olmur*** – Ədalətsizliyi olur.
***İtaət Həqiqəti olmur*** – Yalanı olur.
***Hakimiyyət Müqəddəsliyini rədd etmək – Müqəddəslikdir.***
***Dövlət Müqəddəsliyini rədd etmək – Müqəddəslikdir.***
***Din Müqəddəsliyini rədd etmək – Müqəddəslikdir.***

*23 Qismət günü, Od Ayı, 15-ci il. Bakı.*
*(İyul, 1993-cü il).*

# İNSANİLİK İMKANI

(İyirmi Altıncı Müqəddəs Kitab)

## 1.İNSANİLİK – MÜTLƏQİLİK

***İnsanilik – Mütləqiliyin ifadəsidir.***
Ancaq Adam nisbi yaşayır.
Mütləq yaşayışı İmkansız sayır, Nisbiliklə barışır.
Əslində isə İnsanın Mütləq yaşamaq İmkanı var.
O bu imkanı görmür, bilmir, Bu imkana inanmır.

***Mütləq Yaşamaq üçün – Gərgin yaşamaq gərək.***
Adam – Asan Yaşamağa can atır.
***Mütləq Yaşamaq üçün – Dərin yaşamaq gərək.***
Adam – Səthi Yaşamağa can atır.
***Mütləq Yaşamaq üçün – Özünü tam ifadə etmək gərək.***
Adam özünü natam ifadə edir.
***Mütləq Yaşamaq üçün – Adam İnsan olmalıdır.***
***Mütləq Yaşamaq üçün – Adam İnsanilik İmkanına Yetməlidir.***
Adam İnsanilik İmkanına Yetmir; Mütləqilik ona İmkansız görünür, bilinir. O, nisbilik həddində qalır; həmin həddən, səddən Artıq İmkan görmür, bilmir.
***Mütləq Yaşamaq – Mütləq İnama Yetməkdir.***
Adam Mütləq İnama Yetmir; Nisbi İnamda qalır, onunla barışır – İnsanilik İmkanından əksik yaşayır.
***Mütləq Yaşamaq – Mütləq İdraka Yetməkdir.***
Adam Mütləq İdraka Yetmir; Nisbi İdrakda qalır, onunla barışır – İnsanilik İmkanından əksik yaşayır.
***Mütləq Yaşamaq – Mütləq Mənəviyyata Yetməkdir.***
Adam Mütləq Mənəviyyata Yetmir; Nisbi Mənəviyyatda qalır, onunla barışır – İnsanilik İmkanından əksik yaşayır.
***Mütləq Yaşamaq – Mütləq İradəyə Yetməkdir.***
Adam Mütləq İradəyə Yetmir; Nisbi İradədə qalır, onunla barışır – İnsanilik İmkanından əksik yaşayır.
***Mütləq Yaşamaq – Mütləq Xeyirə Yetməkdir.***

Adam Mütləq Xeyirə Yetmir; Nisbi Xeyirdə qalır, onunla barışır – İnsanilik İmkanından əksik yaşayır.

***Mütləq Yaşamaq – Mütləq Ədalətə Yetməkdir.***

Adam Mütləq Ədalətə Yetmir; Nisbi Ədalətdə qalır, onunla barışır – İnsanilik İmkanından əksik yaşayır.

***Mütləq Yaşamaq – Mütləq Həqiqətə Yetməkdir.***

Adam Mütləq Həqiqətə Yetmir; Nisbi Həqiqətdə qalır, onunla barışır; – İnsanilik İmkanından əksik yaşayır.

***Mütləq Yaşamaq – Əzəliyə Yetməkdir.***

Adam Əzəliyə Yetmir; Ötəridə qalır, onunla barışır – İnsanilik İmkanından əksik olur.

***Mütləq Yaşamaq – Əbədiyə Yetməkdir.***

Adam Əbədiyə Yetmir; Keçicidə qalır, onunla barışır – İnsanilik İmkanından əksik olur.

***Mütləq Yaşamaq – Sonsuzluğa Yetməkdir***.

Adam Sonsuzluğa Yetmir; Sonluda qalır, onunla barışır – İnsanilik İmkanından əksik olur.

***Mütləq Yaşamaq – Kamilliyə Yetməkdir.***

Adam Kamilliyə Yetmir; qeyri-kamillikdə qalır, onunla barışır – İnsanilik İmkanından əksik olur.

***İnsanilik İmkanına Yetmək üçün Adam İnsan olmalıdır, Adamlıq həddini ötməlidir – Adamlıqdan Artıq olmaq İmkanına Yetməlidir...***

Adamın Özümlüyü İnsanlıqdır.

***Özünə çatmaq üçün – Adam özündən Artıq olmalıdır, Adam həddindən İnsan İmkanına Yüksəlməlidir.***

## 2. İNSAN – ZAMAN

İnsanı Zamanın Məhsulu sayırlar.

Əslində isə Zamanı Adam yaradır – Zaman Adamın məhsuludur.

***İnsan Zamandan Artıqdır.***

İnsan öz naqisliyini Zamanın üzərinə yıxır; bunun özü elə naqislikdir; ***çünki İnsan heç bir Zamanda Zamana bərabər deyil, hər bir Zamanda onun Zamandan Artıq olmaq İmkanı var.***

Bu İmkan görünmür, bilinmir; İnsan Zamana bərabər sayılır; onun naqisliyi Zaman naqisliyi görünür, bilinir.

***Əslində isə İnsanın ən naqis Zamanda belə Kamil yaşamaq İmkanı var.***

Əslində Zaman naqisliyi – İnsan naqisliyidir; Zaman – İnsan naqisliyinin məhsuludur; İnsanda naqis olmamaq İmkanı var; İnsan naqis olmasa, Zaman naqisliyi olmaz – İnsan Zaman naqisliyinə qalib gələr.

***Naqis Zamandan çıxmağın bir Yolu var: İnsanın Zamanla eyniləşməməsi; onun Zamandan Artıq olmaq İmkanının gerçəkləşməsi.***

Ən pis zamanda belə, İnsan yaxşı olmalıdır ki, Zamanı dəyişsin.

Dünyanın yaxşı Zamanı olmayıb, amma pis zamanlarda yaxşı adamlar olub, onlar pis zamanları ötüb keçiblər; pis Zamanlarda yaxşı olublar – Hünər elə budur.

***Hünər İnsanın pis Zamanlarda Yaxşı olmasıdır,*** Yaxşılığını qorumasıdır, Zaman naqisliyinə qarşı durmasıdır. Zaman naqisliyi həddindən çıxmasıdır, son nəticədə onu dağıtmasıdır.

***Bu baxımdan, İnsanın Ruhani Hünər İmkanı həmişə var; bunu görmək gərək, bilmək gərək, buna Yetmək gərək.***

***İnsanilik – Mütləqilikdir,*** Zaman Nisbilikdən yaranıb; İnsanın Adam səviyyəsindən yaranıb.

İnsanda İnsanilik İmkanı bütün Zamanlarda Var; Zamandan Artıq olmaq İmkanı, Zamanı dəyişmək İmkanı bütün Zamanlarda Var.

İnsan gərək Zamanla bərabərləşməsin, ona təslim olmasın, Zamandan Artıq olduğunu Təsdiq etsin, İnsanilik İmkanına Yetsin; Zəmanə Adamı olmasın – İnsan olsun.

***İnsanilik – Əzəlilikdir,*** Zaman Ötərilikdən yaranıb;

İnsanda İnsanilik İmkanı bütün Zamanlarda Var;

Zamandan Artıq olmaq İmkanı, Zamanı dəyişmək İmkanı bütün Zamanlarda Var.

***İnsanilik – Əbədilikdir***, Zaman – Keçicilikdən yaranıb;

İnsanda İnsanilik İmkanı bütün Zamanlarda Var;

Zamandan Artıq olmaq İmkanı, Zamanı dəyişmək İmkanı bütün Zamanlarda Var.

***İnsanilik – Sonsuzluqdur***; Zaman – Sonluluqdan yaranıb; İnsanda İnsanilik İmkanı bütün Zamanlarda Var;

Zamandan Artıq olmaq İmkanı, Zamanı dəyişmək İmkanı bütün Zamanlarda Var.

***İnsanilik – Kamillikdir***, Zaman – Qeyri-kamillikdən yaranıb; – İnsanda İnsanilik İmkanı bütün Zamanlarda Var.

Zamandan Artıq olmaq İmkanı, Zamanı dəyişmək İmkanı bütün Zamanlarda Var.

***Zaman Xeyiri – Nisbi Xeyirdir***; İnsan gərək Nisbi Xeyirlə yaşamasın, barışmasın; Mütləq Xeyirlə yaşasın, hünər göstərsin; İnsanilik İmkanına Yetsin.

***Zaman Ədaləti – Nisbi Ədalətdir***; İnsan gərək Nisbi Ədalətlə yaşamasın, barışmasın; Mütləq Ədalətlə yaşasın, hünər göstərsin; İnsanilik İmkanına Yetsin.

***Zaman Həqiqəti – Nisbi Həqiqətdir***; İnsan gərək Nisbi Həqiqətlə yaşamasın, barışmasın; Mütləq Həqiqətlə yaşasın, hünər göstərsin; İnsanilik İmkanına Yetsin.

İnsan gərək Əməllərində, Fikirlərində, Duyğularında Zaman Həddini aşsın, İnsanilik İmkanına Yetsin.

Naqis Zamanı İnsan özü yaradır; bu onun günahıdır, İnsan günahını yumalıdır – Zamana əyilməməlidir – Zamanı əymə-lidir.

***İnsanda İnsanilik Var – bu səbəbdən də onun Zamandan artıq olmaq İmkanı var; bu İmkana Yetmək gərək.***

## 3. İNSAN – ŞƏRAİT

***İnsanı Şəraitin Məhsulu sayırlar.***

Əslində isə Şəraiti Adam yaradır, Şərait Adamın məhsuludur.

Şərait Adam nisbiliyindən yaranıb; İnsan Mütləqilik İmkanına malikdir; bu səbəbdən də Şəraitdən Artıqdır, – İnsanilik İmkanı Şərait İmkanından Artıqdır – ona Yetmək gərək.

***Şəraitə bərabər İnsanilik olmur; bu səbəbdən Şəraitlə bərabərləşmək – İnsanilikdən əksik olmaqdır.***

***Şəraitlə bərabərləşmək – özgələşməkdir əslində.***

Kamil Şərait olmur – kamil İnsan olur; kamil İnsan naqis şəraitdə yaşayır, – Şəraitdən Artıq yaşayır, şəraitin Ziddinə yaşayır.

Kamillik – Şərait Naqisliyinə qarşı çevrilir; kamilliyə yetən şəraitdən artıq olur.

Naqis Şəraitin naqis Adam yetirməsi iddiası – Yalandır.

***Naqis Şəraitə uyğunlaşan, onunla barışan, ona Təslim olan – naqis olur, naqis şəraitdən Artıq olan, Artıq yaşayan, naqis şəraitə qarşı duran – Kamil olur.***

İnsanda Şəraitə uyğunlaşmamaq, onunla barışmamaq, ona qarşı durmaq İmkanı – bütün şəraitlərdə Var; – ***çünki İnsanilik bütün şəraitlərdə Var.***

Heç bir Şərait İnsanilik İmkansızlığı yaratmır, İnsaniliyə Yetmək İmkanı bütün şəraitlərdə Var; bunu İnsan özüylə Şəraitə gətirir; amma Adam gerçəkləşdirə bilmir.

Adam – İnsan ola bilməyəndə – Şəraitlə bərabərləşir; Adamın insan olması üçün – onun Şəraitdən Artıq olması gərəkdir.

***Adam Gücü – Şərait Gücündən əksik olur.***

***İnsan Gücü – Şərait Gücündən artıq olur.***

***Adam Gücü – İnsaniliyə Yetmir.***

***İnsan Gücü – İnsaniliyə Yetir.***

***Şərait Adamı – İnsan ola bilmir.***

***Şərait İnsanı olmur.***

İnsanilik Şəraitə qarşı durur.

***Şərait Mütləq İnam tanımır, Nisbi İnam tanıyır.***

İnsanilik Mütləq İnama yetir; İnsan Şərait İnamıyla barışmır; Mütləq İnama can atır, İnsanilik İnsana Mütləq İnama Yetmək İmkanı yaradır; Adam bu İmkanı gerçəkləşdirə bilmir; nisbi İnamla yaşayır.

İnsanilik İmkanından əksik yaşayır.

***Şərait Mütləq İdrak tanımır, Nisbi İdrak tanıyır.***

İnsanilik Mütləq İdraka yetir; İnsan Şərait İdrakıyla barışmır; Mütləq İdraka can atır, İnsanilik İnsana Mütləq İdraka Yetmək İmkanı yaradır; Adam bu İmkanı gerçəkləşdirə bilmir; – nisbi İdrakla yaşayır.

İnsanilik İmkanından əksik yaşayır.

***Şərait Mütləq Mənəviyyat tanımır, Nisbi Mənəviyyat tanıyır.***

İnsanilik Mütləq Mənəviyyata yetir; İnsan Şərait Mənəviyyatıyla barışmır; Mütləq Mənəviyyata can atır, İnsanilik İnsana Mütləq Mənəviyyata Yetmək İmkanı yaradır; Adam bu İmkanı gerçəkləşdirə bilmir.

İnsanilik İmkanından əksik yaşayır.

***Şərait Mütləq İradə tanımır, Nisbi İradə tanıyır.***

İnsanilik Mütləq İradəyə yetir; İnsan Şərait İradəsiylə barışmır; Mütləq İradəyə can atır, İnsanilik İnsana Mütləq İradəyə Yetmək imkanı yaradır; Adam bu İmkanı gerçəkləşdirə bilmir.

İnsanilik İmkanından əksik yaşayır.

***Şərait – Ötəriliyi ifadə edir.***

İnsanilik İnsanda Əzəliyə Yetmək İmkanı yaradır.

Adam bu İmkanı gerçəkləşdirə bilmir.

***Şərait adamı – Ötəri yaşayır.***

Şərait İnsanı olmur; İnsan Şəraitdən Artıq olur.

***Şərait – Keçiciliyi ifadə edir.***

İnsanilik İnsanda Əbədiyə Yetmək İmkanı yaradır.

Adam bu İmkanı gerçəkləşdirə bilmir.

***Şərait adamı – Keçici yaşayır.***

***Şərait İnsanı olmur; İnsan Şəraitdən Artıq olur.***

***Şərait – Sonlunu ifadə edir.***

İnsanilik İnsanda Sonsuzluğa Yetmək İmkanı yaradır.
Adam bu İmkanı gerçəkləşdirə bilmir.
***Şərait adamı – Sonlu yaşayır.***
***Şərait İnsanı olmur; İnsan Şəraitdən Artıq olur.***
***Şərait – Qeyri-Kamilliyi ifadə edir.***
İnsanilik İnsanda Kamilliyə Yetmək İmkanı yaradır.
Adam bu İmkanı gerçəkləşdirə bilmir.
***Şərait adamı – Qeyri-Kamil yaşayır.***
***Şərait İnsanı olmur, İnsan Şəraitdən Artıq olur.***
***Şərait Xeyiri – Nisbi Xeyirdir.***
İnsanilik İnsanda Mütləq Xeyirə Yetmək İmkanı yaradır.
Adam bu İmkanı gerçəkləşdirə bilmir.
***Şərait adamı – Nisbi Xeyirlə yaşayır.***
***Şərait İnsanı olmur, İnsan Şəraitdən Artıq olur.***
***Şərait Ədaləti – Nisbi Ədalətdir.***
İnsanilik İnsanda Mütləq Ədalətə Yetmək İmkanı yaradır.
Adam bu İmkanı gerçəkləşdirə bilmir.
***Şərait adamı – Nisbi Ədalətlə yaşayır.***
***Şərait İnsanı olmur, İnsan Şəraitdən Artıq olur.***
***Şərait Həqiqəti – Nisbi Həqiqətdir.***
İnsanilik İnsanda Mütləq Həqiqətə Yetmək İmkanı yaradır.
Adam bu İmkanı gerçəkləşdirə bilmir.
***Şərait adamı – Nisbi Həqiqətlə yaşayır.***
***Şərait İnsanı olmur, İnsan Şəraitdən Artıq olur.***
Şəraiti Adam yaradır.
Adam yaratdığına Təslim olur.
Adam İnsan olmayınca, İnsanilik İmkanına Yetməyincə Özü olmur.

***Şərait Adamı – Özünü itirmiş Adamdır; Özünə Yetmək üçün o, Şəraitdən Artıq olmalıdır – İnsan olmalıdır.***

## 4. İNSAN – MÜHİT

***İnsanı Mühitin məhsulu sayırlar – əslində Mühiti Adam yaradır.***

Mühit Adamlıq səviyyəsindən yaranır; bu səbəbdən də İnsan Mühitdən Artıqdır.

***İnsanilik Mütləqilikdir.***

Mütləqilik səviyyəsində Mühit olmur; Nisbilik səviyyəsində Mühit olur; bu səbəbdən də İnsanın Mühitdən artıq olmaq İmkanı Var – Mühitlə bərabərləşməmək, barışmamaq, İnsaniliyə Yetmək İmkanı Var; Ancaq bu imkan gerçəkləşmir, Adam Mühitlə barışır, bərabərləşir; İnsanilik İmkanına Yetmir; Mühitə uyğun yaşayır; Mühitləşir; Mühit Adam naqisliyini yaşadır.

***İnsanilik – Mütləq İnamdır.***

Mütləq İnam səviyyəsində Mühit olmur; nisbi, ötəri, keçici, sonlu, qeyri-kamil İnam səviyyəsində Mühit olur; – İnsanın Mühitdən Artıq olmaq İmkanı Var; Ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq İnama Yetmir, Mühitdən Artıq ola bilmir – İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir – Mühit Adam əksikliyini yaşadır.

Mühit Həddindən, Səddindən çıxmaq üçün Adamın İnsanilik İmkanı Var; ancaq onun həmin İmkanı gerçəkləşdirmək Qüdrəti yoxdur; bu səbəbdən də o, Mühit Həddindən, Səddindən çıxa bilmir; Mühiti dəyişdirmək üçün Adamın İnsanilik İmkanı Var; ancaq Adamın həmin İmkanı gerçəkləşdirmək Qüdrəti olmur; bu səbəbdən də Mühit Adamı özünə ram edir, əsarətə salır; Adama hakim olur.

***İnsanilik – Mütləq İdrakdır.***

Mühit Mütləq İdrak tanımır; Nisbi, Ötəri, Keçici, Sonlu, Qeyri-kamil İdrak tanıyır. İnsanın Mühitdən Artıq olmaq, İnsaniliyə Yetmək İmkanı Var; ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq İdraka Yetmir, Mühitdən Artıq ola bilmir, İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir – Mühit Adam əksikliyini yaşadır.

***İnsanilik – Mütləq Mənəviyyatdır.***

Mühit – Mütləq Mənəviyyat tanımır; Nisbi, Ötəri, Keçici, Sonlu, Qeyri-kamil Mənəviyyat tanıyır. İnsanın Mühitdən Artıq olmaq, İnsaniliyə Yetmək İmkanı Var; ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq Mənəviyyata Yetmir, Mühitdən Artıq ola bilmir, İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir, – Mühit Adam əksikliyini yaşadır.

***İnsanilik – Mütləq İradədir.***

Mühit – Mütləq İradə tanımır; Nisbi, Ötəri, Keçici, Sonlu, Qeyri-kamil İradə tanıyır. İnsanın Mühitdən Artıq olmaq, İnsaniliyə Yetmək İmkanı Var; ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq İradəyə Yetmir, Mühitdən Artıq ola bilmir, İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir – Mühit Adam əksikliyini yaşadır.

***İnsanilik – Mütləq Xeyirdir.***

Mühit – Mütləq Xeyir tanımır; Nisbi, Ötəri, Keçici, Sonlu, Qeyri-kamil Xeyir tanıyır. İnsanın Mühitdən Artıq olmaq, İnsaniliyə Yetmək İmkanı Var; ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq Xeyirə Yetmir, Mühitdən Artıq ola bilmir, İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir – Mühit Adam əksikliyini yaşadır.

***İnsanilik – Mütləq Ədalətdir.***

Mühit – Mütləq Ədalət tanımır; Nisbi, Ötəri, Keçici, Sonlu, Qeyri-kamil Ədalət tanıyır. İnsanın Mühitdən Artıq olmaq, İnsaniliyə Yetmək İmkanı Var; ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq Ədalətə Yetmir, Mühitdən Artıq ola bilmir, İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir – Mühit Adam əksikliyini yaşadır.

***İnsanilik – Mütləq Həqiqətdir.***

Mühit – Mütləq Həqiqət tanımır; Nisbi, Ötəri, Keçici, Sonlu, Qeyri-kamil Həqiqət tanıyır. İnsanın Mühitdən Artıq olmaq, İnsaniliyə Yetmək İmkanı Var; ancaq bu İmkan Gerçəkləşmir;

Adam Mütləq Həqiqətə Yetmir, Mühitdən Artıq ola bilmir, İnsanilik İmkanından əksik yaşayır, Mühitləşir – Mühit Adam əksikliyini yaşadır.

Adam Mühitdə özündən əksik yaşayır – ancaq onun Mühitdən artıq olmaq imkanı Var.

Adamın Adamdan artıq olmaq – İnsan olmaq İmkanı var.

***Adamın İnsanilik İmkanı Var – Özündən Artıq, Mühitdən Artıq.***

## 5. İNSAN – CƏMİYYƏT

İnsanı cəmiyyətin məhsulu sayırlar.

Əslində isə cəmiyyəti Adam yaradır.

Cəmiyyət Adamlıq səviyyəsindən yaranıb – bu səbəbdən də İnsan Cəmiyyətdən artıqdır; onun İnsaniliyə Yetmək İmkanı Var, ancaq bu imkan gerçəkləşmir; Adam İnsaniliyə Yetmir; cəmiyyətə qarşı dura bilmir; onunla bərabərləşir, barışır; cəmiyyət İnsana Hakim olur, onu əsarətə salır.

***Cəmiyyət Ağalıq əsasında qurulub – İnsanilik Ağalığa Ziddir.***

İnsanın Ağalığa qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir; Adam İnsaniliyə Yetmir; Ağalığa qarşı dura bilmir, onunla barışır; ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Nökərlik əsasında qurulub – İnsanilik Nökərliyə Ziddir.***

İnsanın Nökərliyə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir; Adam İnsaniliyə Yetmir; Nökərliyə qarşı dura bilmir, onunla barışır; ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Təbəqələşmə əsasında qurulub – İnsanilik Təbəqələşməyə Ziddir.***

İnsanın Təbəqələşməyə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir; Adam İnsaniliyə Yetmir;

Təbəqələşməyə qarşı dura bilmir, onunla barışır; ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Özgələşmə əsasında qurulub – İnsanı özgələşdirir – İnsanilik Özgələşməyə Ziddir.***

İnsanın Özgələşməyə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir; Adam İnsaniliyə Yetmir; Özgələşməyə qarşı dura bilmir, onunla barışır; ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Nisbilikdən yaranıb.***

Bu səbəbdən də İnsan cəmiyyətdən Artıqdır.

Ancaq Adam İnsanilik İmkanına Yetmir, Nisbiliklə barışır, Nisbiliyə Təslim olur, onu yaşadır.

***Cəmiyyət Ötərilikdən yaranıb.***

Bu səbəbdən də İnsan cəmiyyətdən Artıqdır.

Ancaq Adam İnsanilik İmkanına Yetmir, Ötəriliklə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Keçicilikdən yaranıb.***

Bu səbəbdən də İnsan cəmiyyətdən Artıqdır.

Ancaq Adam İnsanilik İmkanına Yetmir, Keçiciylə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Sonludan yaranıb.***

Bu səbəbdən də İnsan cəmiyyətdən Artıqdır.

Ancaq Adam İnsanilik İmkanına Yetmir, Sonluyla barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Qeyri-Kamildən yaranıb.***

Bu səbəbdən də İnsan cəmiyyətdən Artıqdır.

Ancaq Adam İnsanilik İmkanına Yetmir, Qeyri-Kamillə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət İnamı – Ağalığa xidmət edən İnamdır – əslində İnamsızlıqdır;*** İnsanilik – İnamsızlığa ziddir; bu səbəbdən də İnsanın cəmiyyət İnamına qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam İnamsızlıqla barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət İdrakı – Ağalığa xidmət edən İdrakdır – əslində İdraksızlıqdır;*** İnsanilik – İdraksızlığa ziddir; bu səbəbdən də İnsanın cəmiyyət İdrakına qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam İdraksızlıqla barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Mənəviyyatı – Ağalığa xidmət edən Mənəviyyatdır – əslində Mənəviyyatsızlıqdır***; İnsanilik – Mənəviyyatsızlığa ziddir; bu səbəbdən də İnsanın cəmiyyət Mənəviyyatına qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam Mənəviyyatsızlıqla barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət İradəsi – Ağalığa xidmət edən İradədir – əslində İradəsizlikdir;*** İnsanilik – İradəsizliyə ziddir; bu səbəbdən də İnsanın cəmiyyət İradəsinə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam İradəsizliklə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Xeyiri – Ağalığa xidmət edən Xeyirdir – əslində Şərdir;*** İnsanilik – Şərə qarşıdır; bu səbəbdən də İnsanın cəmiyyət Xeyirinə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam Şərlə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Ədaləti – Ağalığa xidmət edən Ədalətdir – əslində Ədalətsizlikdir***; İnsanilik – Ədalətsizliyə qarşıdır; bu səbəbdən də İnsanın cəmiyyət Ədalətinə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam Ədalətsizliklə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Həqiqəti – Ağalığa xidmət edən Həqiqətdir – əslində Həqiqətsizlikdir***; İnsanilik – Həqiqətsizliyə ziddir; bu səbəbdən də İnsanın cəmiyyət Həqiqətinə qarşı durmaq, onu rədd etmək İmkanı Var, ancaq bu İmkan gerçəkləşmir, Adam Həqiqətsizliklə barışır, ona Təslim olur, onu yaşadır.

***Cəmiyyət Əsarətindən qurtarmaq üçün – İnsaniliyə Yetmək gərək – İnsan olmaq gərək.***

## 6. İNSAN – İNAM

***İnsanilik – İnamçılıqdır əslində.***

İnamsızlıqla barışan Adam – İnsanilikdən əksik yaşayır.

***İnsaniliyə Yetmək – İnama Yetməkdir.***

***Cəfəngiyyata İnam – İnamsızlıqdır.***

Adam – cəfəngiyyata İnanır; İnsanilik İmkanına Yetmir; İnsandan əksik yaşayır.

***İnsanilik İmkanı – İnam İmkanıdır.***

İnsanilik – İnamsızlığa ziddir.

İnsanda cəfəngiyyatla barışmamaq, onu rədd etmək İmkanı Var, adam cəfəngiyyatla barışır, ona təslim olur, onu yaşadır.

***Adam İnsan olmayanda cəfəngiyyatı İnam sayır.***

***İnsanda Dünyaya İnam İmkanı Var***, ancaq Adam Dünyaya İnanmır – Yaradana İnanır – əslində İnamsızlığı İnam sayır.

***İnsanda Həyata İnam İmkanı Var,*** ancaq Adam Həyata İnanmır – Yaradana İnanır – əslində İnamsızlığı İnam sayır.

İnsanda İnsana İnam İmkanı Var, ancaq Adam İnsana İnanmır – Yaradana İnanır – əslində İnamsızlığı İnam sayır.

İnsanda Dünyanın özündən, öz Mənasından, Mahiyyətindən Yaranmasına İnanmaq İmkanı Var, ancaq Adam Dünyanın özündən, öz Mənasından, Mahiyyətindən Yaranmasına İnanmır, Yaradana İnanır – əslində İnamsızlığı İnam sayır.

İnsanda Həyatın özündən, öz Mənasından, Mahiyyətindən Yaranmasına İnanmaq İmkanı Var, ancaq Adam Həyatın özündən, öz Mənasından, Mahiyyətindən Yaranmasına İnanmır, Yaradana İnanır – əslində İnamsızlığı İnam sayır.

İnsanda İnsanın, öz Mənasından, Mahiyyətindən Yaranmasına İnanmaq İmkanı Var, ancaq Adam İnsanın, öz Mənasından, Mahiyyətindən Yaranmasına İnanmır, Yaradana İnanır – əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq İnama İnanmaq İmkanı Var,*** **a**ncaq Adam nisbi İnama İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq İdraka İnanmaq İmkanı Var,*** ancaq Adam nisbi İdraka İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq Mənəviyyata İnanmaq İmkanı Var,*** ancaq Adam nisbi Mənəviyyata İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq İradəyə İnanmaq İmkanı Var,*** ancaq Adam nisbi İradəyə İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq Xeyirə İnanmaq İmkanı Var,*** ancaq Adam nisbi Xeyirə İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq Ədalətə İnanmaq İmkanı Var***, ancaq Adam nisbi Ədalətə İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanın Mütləq Həqiqətə İnanmaq İmkanı Var,*** ancaq Adam nisbi Həqiqətə İnanır; əslində İnamsızlığa İnanır.

***İnsanda Əzəliyə İnanmaq İmkanı Var,*** ancaq Adam Əzəliyə inanmır – Ötəriyə İnanır; əslində İnamsızlığı İnam sayır.

***İnsanda Əbədiliyə İnanmaq İmkanı Var,*** ancaq Adam Əbədiliyə inanmır – Keçiciliyə İnanır; əslində İnamsızlığı İnam sayır.

***İnsanda Sonsuzluğa İnanmaq İmkanı Var,*** ancaq adam Sonsuzluğa inanmır – Sonluluğa İnanır; əslində İnamsızlığı İnam sayır.

***İnsanda Kamilliyə İnanmaq İmkanı Var,*** ancaq adam Kamilliyə inanmır – Qeyri-Kamilliyə İnanır; əslində İnamsızlığı İnam sayır.

***İnamsızlıqdan çıxmaq üçün – İnsaniliyə Yetmək gərək, İnsan olmaq gərək...***

## 7. İNSAN – İDRAK

İnsanilik – İdrakilikdir.

***İnsanda Dünyanın Mahiyyətini, Mənasını dərk etmək İmkanı Var,*** **a**ncaq adam – Dünyanın Mahiyyətinə, Mənasına Yetmir; Təzahürdə, Hadisədə qalır – ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanda Həyatın Mahiyyətini, Mənasını dərk etmək İmkanı Var,*** ancaq adam – Həyatın Mahiyyətinə, Mənasına Yetmir;

Təzahürdə, Hadisədə qalır – ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanda İnsanın Mahiyyətini Mənasını dərk etmək İmkanı Var,*** ancaq adam – İnsanın Mahiyyətinə, Mənasına Yetmir; Təzahürdə, Hadisədə qalır – ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanda Mütləqiliyi dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləqiliyə Yetmir, Nisbilikdə qalır;

***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Əzəliliyi dərk etmək İmkanı Var,*** ancaq adam – Əzəliliyə Yetmir, Ötərilikdə qalır;

***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Əbədiliyi dərk etmək İmkanı Var,*** ancaq adam – Əbədiliyə Yetmir, Keçicilikdə qalır;

***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanda Sonsuzluğu dərk etmək İmkanı Var,*** ancaq adam – Sonsuzluğa Yetmir, Sonluda qalır;

***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Kamilliyi dərk etmək İmkanı Var,*** ancaq adam – Kamilliyə Yetmir, Qeyri-Kamillikdə qalır;

***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Mütləq İnamı dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləq İnama Yetmir, Nisbi İnamda qalır; ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Mütləq Mənəviyyatı dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləq Mənəviyyata Yetmir, Nisbi Mənəviyyatda qalır***; İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Mütləq İradəni dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləq İradəyə Yetmir, Nisbi İradədə qalır; ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Mütləq Xeyiri dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləq Xeyirə Yetmir, Nisbi Xeyirdə qalır; ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Mütləq Ədaləti dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləq Ədalətə Yetmir, Nisbi Ədalətdə qalır; ***İdrakilik İmkanından əksik yaşayır.***

***İnsanın Mütləq Həqiqəti dərk etmək İmkanı Var,*** ancaq adam – Mütləq Həqiqətə Yetmir, Nisbi Həqiqətdə qalır; ***İdrakilik İmkanından əksik yaşayır.***

***Adam İnsanilikdən əksik yaşayır; İnsandan əksik yaşayır; İnsandakı İmkanı görmək gərək – İnsan olmaq gərək.***

## 8. İNSAN – MƏNƏVİYYAT

***İnsanilik – Mənəvilikdir.***

***İnsanın Mütləq Mənəviyyat əsasında Yaşamaq İmkanı Var,*** ancaq adam Mütləq Mənəviyyata Yetmir; Nisbi Mənəviyyatda qalır – Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Vicdançılıq əsasında Yaşamaq İmkanı Var.***

***Adam Hakimiyyətçilik əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Təmənnasızlıq əsasında Yaşamaq İmkanı Var.***

***Adam Təmənna əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Fədakarlıq əsasında Yaşamaq İmkanı Var.***

***Adam Faydalıq əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləq İnam əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbi İnam əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləq İdrak əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbi İdrak əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləq İradə əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbi İradə əsasında Yaşayır;*** Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləqilik əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbilik əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Əzəlilik əsasında Yaşamaq İmkanı Var.***

***Adam Ötərilik əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Əbədilik əsasında Yaşamaq İmkanı Var.***

***Adam Keçicilik əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Sonsuzluq əsasında Yaşamaq İmkanı Var.***

***Adam Sonluluq əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Kamillik əsasında Yaşamaq İmkanı Var.***

***Adam Qeyri-Kamillik əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləq Xeyir əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbi Xeyir əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləq Ədalət əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbi Ədalət əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***İnsanın Mütləq Həqiqət əsasında Yaşamaq İmkanı Var.***

***Adam Nisbi Həqiqət əsasında Yaşayır***; Mənəvilik İmkanından əksik yaşayır.

***Adam İnsanilik İmkanından əksik yaşayır; o, İnsan olmalıdır ki, İnsaniliyə çatsın.***

## 9. İNSAN – İRADƏ

***İnsanilik İradəlikdir.***

***İnsanın Mütləq İradəyə Yetmək İmkanı Var,*** ancaq Adam – Mütləq İradəyə Yetmir; Nisbi İradədə qalır – İradəlik İmkanından əksik yaşayır.

***İnsanın Zamana əyilməmək – Zamanı əymək İmkanı Var,*** ancaq Adam Zamana əyilir, İradəlik İmkanından əksik yaşayır.

***İnsanın Şəraitə əyilməmək – Şəraiti əymək İmkanı Var,*** ancaq Adam Şəraitə əyilir, İradəlik İmkanından əksik yaşayır.

***İnsanın Mühitə əyilməmək – Mühiti əymək İmkanı Var,*** ancaq Adam Mühitə əyilir – İradəlik İmkanından əksik yaşayır.

***İnsanın Cəmiyyətə əyilməmək – Cəmiyyəti əymək İmkanı Var,*** ancaq Adam Cəmiyyətə əyilir – İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləqiliyə Yetmək İradəsi Var***, ancaq Adamın Mütləqiliyə Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Əzəliliyə Yetmək İradəsi Var***; ancaq Adamın Əzəliliyə Yetməyə İradəsi çatmır; – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Əbədiliyə Yetmək İradəsi Var***, ancaq Adamın Əbədiliyə Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Sonsuzluğa Yetmək İradəsi Var;*** ancaq Adamın Sonsuzluğa Yetməyə İradəsi çatmır; – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Kamilliyə Yetmək İradəsi Var***; ancaq Adamın Kamilliyə Yetməyə İradəsi çatmır; – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləq İnama Yetmək İradəsi Var,*** ancaq Adamın Mütləq İnama Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləq İdraka Yetmək İradəsi Var,*** ancaq Adamın Mütləq İdraka Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləq Mənəviyyata Yetmək İradəsi Var***, ancaq Adamın Mütləq Mənəviyyata Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləq Xeyirə Yetmək İradəsi Var,*** ancaq Adamın Mütləq Xeyirə Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləq Ədalətə Yetmək İradəsi Var***, ancaq Adamın Mütləq Ədalətə Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***İnsanda Mütləq Həqiqətə Yetmək İradəsi Var***, ancaq Adamın Mütləq Həqiqətə Yetməyə İradəsi çatmır – Adam İradəlik İmkanından əksik yaşayır.

***Adamda İnsan olmaq İmkanı Var; bunun üçün o, İnsaniliyə çatmalıdır.***

## 10. İNSAN – HƏYAT

***İnsani Həyat Gerçəklikdən Artıqdır; o, Gerçəkliklə İdeallığın Birliyidir; – onda Gerçəkliklə bərabər, İdeallıq da Var.***

***İnsani Həyatda İdeallıq İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında İdeallıq əksikliyi yaranır; Adam İnsani həyatdan əksik yaşayır.

***İnsani Həyatda Mütləqilik İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında Mütləqilik əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Əzəlilik İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında Əzəlilik əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Əbədilik İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında əbədilik əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Sonsuzluq İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında sonsuzluq əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Kamillik İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında Kamillik əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Mütləq Xeyir İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında Xeyir əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Mütləq Ədalət İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında Ədalət əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***İnsani Həyatda Mütləq Həqiqət İmkanı həmişə Var.***

Adam bu İmkana Yetmir; adam həyatında Həqiqət əksikliyi yaranır; ***Adam İnsani həyatdan əksik yaşayır.***

***Adam – gerçəkliklə barışır, bərabərləşir; ondan artıq ola bilmir ki, İnsan olsun.***

## 11. BORC

İnsanın İnsaniliyə Yetmək İmkanı Var.
Ancaq bu İmkan gerçəkləşməyib.
İnsanın İnsaniliyə Yetmək Borcu Var.
***Bu Borc Ödənilməlidir.***

*5 İnam günü, Qar Ayı, 16-cı il. Bakı.*
*(Yanvar, 1995-ci il).*

# HƏQİQƏT İNSANİLİYİ

(İyirmi Yeddinci Müqəddəs Kitab)

## 1. İnsan–Dünya Birliyi

***Həqiqətin Dərki – İnsanla Dünya Birliyinin dərkidir əslində.***

Dünyanı dərk edən – Dünyadakı İnsaniliyi dərk edir; Dünyayla İnsan arasındakı Birliyi dərk edir. İnsanın Dünyalığını, Dünyanın İnsanlığını dərk edir.

***Dünyanın Mahiyyətini dərk etmək – İnsanın Mahiyyətini dərk etməkdir, çünki Dünyanın və İnsanın Mahiyyətləri arasında Birlik Var – yəni Dünyanın Dünyalıq adlı Mahiyyətiylə – İnsanın İnsanlıq adlı Mahiyyəti arasında Birlik Var.***

Dünyanı dərk etmək üçün İnsan Dünyadan Ayrılmalı olur, Dərk edən İnsanla Dərk olunan Dünya arasında Təzad yaranır, – ***elmi dildə buna subyekt–obyekt əlaqələri deyilir.***

Dərk etmədə İnsan Dünyadan ayrılır, özündən kənardakı Dünyanı Qavrayır. ***İnsanla Dünyanın Mahiyyət, Məna Birliyi, Ayrılmazlığı unudulur; İdrakın əsas Məqsədi – Dünyada mövcud olan İnsanilik və İnsanda mövcud olan Dünyalıq nəzərə alınmır.***

***Elmi İdrak həmin Ayrılıq səviyyəsində qalır və beləliklə də İnsanla Dünya arasında; Dərk edənlə Dərk olunan arasında yadlıq yaranır, həmin Yadlığın nəticəsində Elm – yaradıcı olduğu dərəcədə dağıdıcı qüvvə kəsb edir.***

İnsandan ayrılmış Bilik İnsana qarşı çevrilir, Dərk edən və Dərk olunan Təzadında İnsanla Dünya arasında Birlik pozulur; elmi İdrak həmin Birliyin bərpasına can atmır; – bunu Həqiqətə zidd sayır – Həqiqəti İnsanilikdən ayırır.

Əslində isə İdrakın əsas məqsədi – İnsan–Dünya Birliyini dərk etməkdir – çünki Dünyanın Mahiyyətinə Varmaq – elə həmin Birliyi Qavramaqdır.

***Bu baxımdan Elmi İdrak – natam İdrakdır; səthi İdrakdır.***

Dünyanı Dərindən Qavramaq – onun Mütləq Mahiyyətinə çatmaqdır; Dünyanın Mütləq Mahiyyəti İnsaniliklə Təndir; – İnsan – Özündə Mütləq gəzdirəndir; İnsanın İnsanlıq adlı Mütləqiliyiylə Dünyanın Dünyalıq adlı Mahiyyəti arasında

Birlik Var; bu Birlik Dərk olunmur, bu səbəbdən də Elmi İdrak Həqiqətə çatmır; – Dərk edən və Dərk olunan Təzadı son nəticədə onların Birliyiylə əvəz olunmur; – bu İdrakın Yüksək mərhələsi, nəticəsi olmalıydı...

Ancaq Elm bu mərhələyə Yüksəlmir; İnsanla Dünya arasında yaranmış Özgəlik aradan qalxmır.

***Elmi İdrakın arxasında gedən müasir fəlsəfə həmin özgəliyi yaşadır.***

Elmi İdrakdan Yüksək İdrak tanımayan və elmin xidmətçisinə çevrilən bu fəlsəfəsizlik elmdən büt yaradır və elm özgələşməni bütləşdirir.

Beləliklə də Həqiqət əvəzinə – Yarımhəqiqət – mahiyyətcə həqiqətsizlik yaranır. İnsan Dünyadan, Dünya İnsandan ayrılır – yadlaşma – son nəticədə Yağılaşmağa çevrilir, İnsanla Dünya arasında təbii Ahəng pozulur; Birlik – Təzadla əvəz olunur – İnsan – Dünyasızlaşır; Dünya – İnsansızlaşır.

***Dünya Həqiqəti – Dünya Mütləqiliyi deməkdir.***

***İnsan Həqiqəti – İnsan Mütləqiliyi deməkdir.***

***Dünyanın, Həyatın, İnsanın Mahiyyəti Birdir.***

Həqiqət – həmin Birliyin ifadəsidir.

***Bu baxımdan o, İnsaniliyin ifadəsidir.***

Dünyanı dərk etmək – İnsanla Dünyanın Birliyini dərk etməkdir. Bu birliyi dərk etməyincə, İdrak Həqiqətə çata bilməz.

***Həqiqət – Mahiyyətin ifadəsidir.***

Mahiyyətə çatmayan İdrak – Həqiqətə çatmaz.

***İnsanla Dünyanın Birliyi – İnsaniliyin Təsdiqidir.***

***İnsaniliyə çatmayan – Həqiqətə çatmaz.***

## 2. Nisbilik Həqiqətsizliyi – Mütləqilik Həqiqəti

Nisbi Həqiqət olmur.
Nisbilik Həqiqəti olmur. Nisbilik Həqiqətsizliyi olur.
Nisbiliyin öz Mahiyyəti olmur; çünki nisbi Mahiyyət olmur.
Nisbiliyin Mahiyyəti – Mütləqdir; bu səbəbdən onun Həqiqəti – Mütləqilikdir.
Nisbi İnam – Həqiqi İnam deyil, – əslində İnamsızlıqdır – Həqiqətsizlikdir.
Nisbi İnam Həqiqəti – Mütləqə İnamdır.
Mütləqilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir.

Mütləq İnamda – Həqiqət İnsaniliyi Təsdiq olunur. Nisbi İdrak – Həqiqi İdrak deyil, – əslində İdraksızlıqdır – Həqiqətsizlikdir.
Nisbi İdrak Həqiqəti – Mütləq İdrakdır.
Mütləqilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də İdrak Həqiqəti İnsaniliyə xidmət edir.

Mütləq İdrakda – Həqiqət İnsaniliyi Təsdiq olunur.
Nisbi Mənəviyyat – Həqiqi Mənəviyyat deyil, – əslində Mənəviyyatsızlıqdır – Həqiqətsizlikdir.
Nisbi Mənəviyyat Həqiqəti – Mütləq Mənəviyyatdır.
Mütləqilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də Mənəviyyat Həqiqəti İnsaniliyə xidmət edir.
Mütləq Mənəviyyatda – Həqiqət İnsaniliyi Təsdiq olunur.

Nisbi İradə – Həqiqi İradə deyil, – əslində İradəsizlikdir – Həqiqətsizlikdir.
Nisbi İradə Həqiqəti – Mütləq İradədir.
Mütləqilik – İnsaniliklə təndir.
Bu səbəbdən də İradə Həqiqəti İnsaniliyə xidmət edir. Mütləq İradədə – Həqiqət İnsaniliyi təsdiq olunur.

Nisbi Ədalət – Həqiqi Ədalət deyil, – əslində Ədalətsizlikdir – Həqiqətsizlikdir.
Nisbi Ədalət Həqiqəti – Mütləq Ədalətdir.
Mütləqilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də Ədalət Həqiqəti İnsaniliyə xidmət edir.
Mütləq Ədalətdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

Nisbi Xeyir – Həqiqi Xeyir deyil, – əslində Xeyirsizlikdir – Həqiqətsizlikdir.
Nisbi Xeyir Həqiqəti – Mütləq Xeyirdir.
Mütləqilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də Xeyir Həqiqəti İnsaniliyə xidmət edir.
Mütləq Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

Nisbi Həqiqət –Həqiqət deyil; əslində Həqiqətsizlikdir.
Həqiqət – Mütləqdir.
Mütləqilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də Həqiqət İnsaniliyə xidmət edir – Həqiqətdə İnsanilik Təsdiq olunur.

Ötəriliyin Həqiqəti – Əzəlilikdir.
Əzəlilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir.
Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.
Keçiciliyin Həqiqəti – Əbədilikdir.
Əbədilik – İnsaniliklə Təndir.
Bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir.
Əbədilikdə – Həqiqət İnsaniliyi təsdiq olunur.

Sonluluğun Həqiqəti – Sonsuzluqdur.
Sonsuzluq – İnsaniliklə Təndir.
Bu səbəbdən də Sonsuzluq Həqiqəti İnsaniliyə xidmət edir.
Sonsuzluqda – Həqiqət İnsaniliyi Təsdiq olunur.

Qeyri-Kamilliyin Həqiqəti – Kamillikdir.
Kamillik – İnsaniliklə Təndir.

Bu səbəbdən də Kamillik Həqiqəti İnsaniliyə xidmət edir. Kamillikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Həqiqət – Mütləqiliyin ifadəsidir.***

***Mütləqiliyin ifadəsi – İnsaniliyə xidmət edir.***

***Mütləqiliyin ifadəsində Həqiqət İnsaniliyi Təsdiq olunur.***

## 3. Təzahür Həqiqətsizliyi – Mahiyyət Həqiqəti

***Təzahürün öz Həqiqəti Yoxdur,*** onun Həqiqəti –Mahiyyətdir.

***Təzahür – Mahiyyətdən aşağıdır; bu səbəbdən də Həqiqət Təzahürdən Yüksəkdir.***

Dünyanın Mahiyyəti – İnsaniliklə Təndir; bu səbəbdən də Mahiyyət Həqiqəti – İnsaniliyə xidmət edir; Mahiyyətdə – Həqiqət İnsaniliyi təsdiq olunur.

***Həyatın Mahiyyəti İnsaniliklə Təndir; bu səbəbdən də Mahiyyət Həqiqəti – İnsaniliyə xidmət edir; Mahiyyətdə – Həqiqət İnsaniliyi təsdiq olunur.***

Təzahür ***ötəriliyinin*** – Həqiqətsizliyinin Əzəli Mahiyyəti – Həqiqəti – İnsaniliklə Təndir.

Təzahür ***keçiciliyinin*** – Həqiqətsizliyinin Əbədi Mahiyyəti – Həqiqəti – İnsaniliklə Təndir.

Təzahür ***sonluluğunun*** – Həqiqətsizliyinin Sonsuz Mahiyyəti – Həqiqəti – İnsaniliklə Təndir.

Təzahür ***Qeyri-kamilliyinin*** – Həqiqətsizliyinin Kamil Mahiyyəti – Həqiqəti – İnsaniliklə Təndir.

Nisbi İnam Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

Nisbi İdrak Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

Nisbi Mənəviyyat Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

Nisbi İradə Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

Nisbi Ədalət Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

Nisbi Xeyir Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

Nisbi Həqiqət Həqiqətsizliyinin Mütləq Mahiyyəti – Həqiqəti İnsaniliklə Təndir.

***Təzahürdən Yüksək olan Mahiyyətin dərki – Həqiqət İnsaniliyinin Təsdiqidir.***

## 4. Hadisə Həqiqətsizliyi – Məna Həqiqəti

***Hadisənin öz Həqiqəti Yoxdur; – Hadisənin Həqiqəti – Mənadır.***

Hadisə – Mənadan Aşağıdır; bu səbəbdən də Həqiqət Hadisədən Yüksəkdir.

Hadisənin Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Ötəri*** Hadisənin ***Əzəli*** Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Keçici*** Hadisənin ***Əbədi*** Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Sonlu*** Hadisənin ***Sonsuz*** Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Qeyri-kamil*** Hadisənin ***Kamil*** Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbiliyin*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi İnamın*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi İdrakın*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi Mənəviyyatın*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi İradənin*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi Ədalətin*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi Xeyirin*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi Həqiqətin*** Mütləq Mənası – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi İnamın*** öz həqiqəti yoxdur; – onun həqiqəti Mütləq İnamdır. Mütləq İnam – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi İdrakın*** öz həqiqəti yoxdur; – onun həqiqəti – Mütləq İdrakdır. Mütləq İdrak – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi Mənəviyyatın*** öz həqiqəti yoxdur; – onun həqiqəti – Mütləq Mənəviyyatdır; Mütləq Mənəviyyat – İnsaniliklə Təndir; bu səbəbdən də Məna Həqiqəti İnsaniliyə xidmət edir; Mənada Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Nisbi İradənin*** öz həqiqəti yoxdur; – onun həqiqəti – Mütləq İradədir; Mütləq İradə – İnsaniliklə Təndir; bu səbəbdən də

Mәna Hәqiqәti İnsaniliyә xidmәt edir; Mәnada Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***Nisbi Ədalәtin*** öz hәqiqәti yoxdur; – onun hәqiqәti Mütlәq Ədalәtdir; Mütlәq Ədalәt – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Mәna Hәqiqәti İnsaniliyә xidmәt edir; Mәnada Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***Nisbi Xeyirin*** öz hәqiqәti yoxdur; Nisbi Xeyirin hәqiqәti – Mütlәq Xeyirdir; Mütlәq Xeyir – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Mәna Hәqiqәti İnsaniliyә xidmәt edir; – Mәnada Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***Nisbi Hәqiqәtin*** Mәnası – Mütlәq Hәqiqәtdir; Mütlәq Hәqiqәt – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Mәna Hәqiqәti İnsaniliyә xidmәt edir; Mәnada Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***Hadisәdәn Yüksәk olan Mәnanın Dәrki Hәqiqәt İnsaniliyinin Tәsdiqidir.***

## 5. Şәr Hәqiqәtsizliyi – Xeyir Hәqiqәti

***Şәrin öz Hәqiqәti Yoxdur; Şәrin – Hәqiqәti Xeyirdir;*** Xeyir – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Xeyir Hәqiqәti –İnsaniliyә xidmәt edir; – Xeyirdә – Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***İnamsızlıq*** – Şәrdir; İnamsızlığın öz hәqiqәti yoxdur; onun Hәqiqәti – ***İnamdır;*** İnam – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Xeyir Hәqiqәti – İnsaniliyә xidmәt edir; – Xeyirdә – Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***İdraksızlıq*** – Şәrdir; İdraksızlığın öz hәqiqәti yoxdur; onun Hәqiqәti – ***İdrakdır;*** İdrak – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Xeyir Hәqiqәti – İnsaniliyә xidmәt edir; – Xeyirdә – Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***Mәnәviyyatsızlıq*** – Şәrdir; Mәnәviyyatsızlığın öz hәqiqәti yoxdur; onun Hәqiqәti – ***Mәnәviyyatdır;*** Mәnәviyyat – İnsaniliklә Tәndir; bu sәbәbdәn dә Xeyir Hәqiqәti – İnsaniliyә xidmәt edir; – Xeyirdә Hәqiqәt İnsaniliyi Tәsdiq olunur.

***İradəsizlik*** – Şərdir; İradəsizliyin öz həqiqəti yoxdur; onun Həqiqəti – ***İradədir;*** İradə – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; – Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Ədalətsizlik*** – Şərdir; Ədalətsizliyin öz həqiqəti yoxdur; onun Həqiqəti – ***Ədalətdir;*** Ədalət – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Həqiqətsizlik*** – Şərdir; Həqiqətsizliyin öz həqiqəti yoxdur; onun həqiqəti – ***Həqiqətlikdir;*** Həqiqətlik – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; – Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Xeyir Həqiqəti*** – Şəri inkar edir.

***İnam – İnamsızlığı İnkar edir;*** İnamsızlığın İnkarı — İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***İdrak – İdraksızlığı İnkar edir;*** İdraksızlığın İnkarı – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Mənəviyyat – Mənəviyyatsızlığı İnkar edir;*** Mənəviyyatsızlığın İnkarı – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***İradə – İradəsizliyi inkar edir;*** İradəsizliyin İnkarı –İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Ədalət – Ədalətsizliyi inkar edir;*** Ədalətsizliyin İnkarı – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Həqiqət – Həqiqətsizliyi İnkar edir;*** Həqiqətsizliyin İnkarı – İnsaniliklə Təndir; bu səbəbdən də Xeyir Həqiqəti – İnsaniliyə xidmət edir; Xeyirdə – Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Şəri İnkar edən Xeyirin Dərki – Həqiqət İnsaniliyinin Təsdiqidir.***

## 6. Şübhə Həqiqətsizliyi – İnam Həqiqəti

***Şübhənin öz həqiqəti yoxdur;*** Şübhənin Həqiqəti – İnamdır; İnam – İnsaniliklə Təndir; bu səbəbdən də İnam Həqiqəti –İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi təsdiq olunur.

***Mütləqə Şübhənin öz Həqiqəti yoxdur;*** Mütləqə Şübhənin Həqiqəti – Mütləqə İnamdır; ***Mütləqə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi təsdiq olunur.

***Mahiyyətə Şübhənin öz Həqiqəti yoxdur;*** Mahiyyətə Şübhənin Həqiqəti – Mahiyyətə İnamdır; ***Mahiyyətə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Mənaya Şübhənin öz Həqiqəti Yoxdur;*** Mənaya Şübhənin Həqiqəti – Mənaya İnamdır; ***Mənaya İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Əzəliyə Şübhənin öz Həqiqəti Yoxdur;*** Əzəliyə Şübhənin Həqiqəti – Əzəliyə İnamdır; ***Əzəliyə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Əbədiliyə Şübhənin öz Həqiqəti Yoxdur;*** Əbədiliyə Şübhənin Həqiqəti – Əbədiliyə İnamdır; ***Əbədiliyə İnam — İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Sonsuzluğa Şübhənin öz Həqiqəti Yoxdur;*** Sonsuzluğa Şübhənin Həqiqəti – Sonsuzluğa İnamdır; ***Sonsuzluğa İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Kamilliyə Şübhənin öz Həqiqəti Yoxdur;*** Kamilliyə Şübhənin Həqiqəti – Kamilliyə İnamdır; ***Kamilliyə İnam –İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***İdraka Şübhənin öz Həqiqəti Yoxdur;*** İdraka Şübhənin Həqiqəti – İdraka İnamdır; ***İdraka İnam – İnsaniliklə Təndir;***

bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Mənəviyyata Şübhənin öz Həqiqəti Yoxdur*;** Mənəviyyata Şübhənin Həqiqəti – Mənəviyyata İnamdır; ***Mənəviyyata İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***İradəyə Şübhənin öz Həqiqəti Yoxdur*;** İradəyə Şübhənin Həqiqəti – İradəyə İnamdır*;* ***İradəyə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Ədalətə Şübhənin öz Həqiqəti Yoxdur*;** Ədalətə Şübhənin Həqiqəti – Ədalətə İnamdır; ***Ədalətə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Xeyirə Şübhənin öz Həqiqəti Yoxdur*;** Xeyirə Şübhənin Həqiqəti – Xeyirə İnamdır; ***Xeyirə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Həqiqətə Şübhənin öz Həqiqəti Yoxdur*;** Həqiqətə Şübhənin Həqiqəti – Həqiqətə İnamdır; ***Həqiqətə İnam – İnsaniliklə Təndir;*** bu səbəbdən də İnam Həqiqəti İnsaniliyə xidmət edir; – İnamda Həqiqət İnsaniliyi Təsdiq olunur.

***Şübhə İnama qarşıdır – İnam Şübhəni rədd edir.***

## 7. Ötərilik Həqiqətsizliyi – Əzəlilik Həqiqəti

***Ötəriliyin öz Həqiqəti Yoxdur; Ötəriliyin Həqiqəti Əzəlilikdir; Əzəlilik*** – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Ötəri İnamın öz Həqiqəti Yoxdur*;** Ötəri İnamın Həqiqəti – Əzəli İnamdır; Əzəli İnam – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Ötəri İdrakın öz Həqiqəti Yoxdur*;** Ötəri İdrakın Həqiqəti – Əzəli İdrakdır; Əzəli İdrak – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Ötəri Mənəviyyatın öz Həqiqəti Yoxdur*;** Ötəri Mənəviyyatın Həqiqəti – Əzəli Mənəviyyatdır; Əzəli Mənəviyyat – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur*.**

***Ötəri İradənin öz Həqiqəti Yoxdur;*** Ötəri İradənin Həqiqəti – Əzəli İradədir; Əzəli İradə – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Ötəri Ədalətin öz Həqiqəti Yoxdur*;** Ötəri Ədalətin Həqiqəti – Əzəli Ədalətdir; Əzəli Ədalət – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Ötəri Xeyirin öz Həqiqəti Yoxdur*;** Ötəri Xeyirin Həqiqəti – Əzəli Xeyirdir; Əzəli Xeyir – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Ötəri Həqiqətin öz Həqiqəti Yoxdur*;** Ötəri Həqiqətin Həqiqəti – Əzəli Həqiqətdir; Əzəli Həqiqət – İnsaniliklə Təndir; bu səbəbdən də Əzəlilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əzəlilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

Əzəlilik Həqiqəti Ötərilik Həqiqətsizliyini rədd edir.

***Həqiqətsizliyi rədd edən Əzəliliyin dərki – Həqiqət İnsaniliyinin Təsdiqidir.***

## 8. Keçicilik Həqiqətsizliyi – Əbədilik Həqiqəti

***Keçiciliyin öz Həqiqəti Yoxdur*;** Keçiciliyin Həqiqəti – Əbədilikdir; Əbədilik – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici İnamın öz Həqiqəti Yoxdur;*** Keçici İnamın Həqiqəti – Əbədi İnamdır; Əbədi İnam – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici İdrakın öz Həqiqəti Yoxdur;*** Keçici İdrakın Həqiqəti – Əbədi İdrakdır; Əbədi İdrak – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici Mənəviyyatın öz Həqiqəti Yoxdur;*** Keçici Mənəviyyatın Həqiqəti – Əbədi Mənəviyyatdır; Əbədi Mənəviyyat – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici İradənin öz Həqiqəti Yoxdur;*** Keçici İradənin Həqiqəti – Əbədi İradədir; Əbədi İradə – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici Ədalətin öz Həqiqəti Yoxdur;*** Keçici Ədalətin Həqiqəti – Əbədi Ədalətdir; Əbədi Ədalət – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici Xeyirin öz Həqiqəti Yoxdur;*** Keçici Xeyirin Həqiqəti – Əbədi Xeyirdir; Əbədi Xeyir – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

***Keçici Həqiqətin öz Həqiqəti Yoxdur;*** Keçici Həqiqətin Həqiqəti – Əbədi Həqiqətdir; Əbədi Həqiqət – İnsaniliklə Təndir; bu səbəbdən də Əbədilik Həqiqəti İnsaniliyə xidmət edir; ***Əbədilikdə Həqiqət İnsaniliyi Təsdiq olunur.***

Əbədilik Həqiqəti – Keçicilik Həqiqətsizliyini rədd edir.

***Həqiqətsizliyi rədd edən Əbədiliyin dərki – Həqiqət İnsaniliyinin Təsdiqidir.***

## 9. Sonluluq Həqiqətsizliyi – Sonsuzluq Həqiqəti

Hadisə Mənadan əmələ gəlib – Məna Hadisədən əmələ gəlməyib.

Ötəri Əzəlidən əmələ gəlib – Əzəli Ötəridən əmələ gəlməyib.

Keçici Əbədidən əmələ gəlib – Əbədi Keçicidən əmələ gəlməyib.

Sonlu Sonsuzdan əmələ gəlib – Sonsuz Sonludan əmələ gəlməyib.

Qeyri-Kamil Kamildən əmələ gəlib – Kamil Qeyri-Kamildən əmələ gəlməyib.

Nisbi Mütləqdən əmələ gəlib – Mütləq Nisbidən əmələ gəlməyib.

**Həqiqət (113)**

İdrak Mahiyyəti dərk edir və İnsanın qarşısında Gerçəkliyi Mahiyyətə yüksəltmək tələbi qoyur; Həqiqət və İdeal Birliyi yaranır.

**Həqiqət (114)**

Mahiyyəti dərk etmək məqsədi və Gerçəkliyi Mahiyyətə yüksəltmək tələbi – birdir; bu səbəbdən də idealsız Həqiqət olmur.

**Həqiqət (115)**

Dünya – Birdir. İnsan da Dünyada – Birdir – bütün canlılardan fərqlidir.

**Həqiqət (116)**

İdrak – beynin xassəsi deyil – Mənanın xassəsidir...
Beyin – İdrak alətidir.
İdrakın mənbəyi – Mənadır.

**Həqiqət (117)**

İdrak qaydalarını, qanunlarını, prinsiplərini, tələblərini beyin yaratmayıb, Məna yaradıb...

**Həqiqət (118)**

Hissi İdrak (görmə, eşitmə, sezmə, tanıma) Təzahürü qavrayır, ancaq dərk etmir; çünki Təzahürü dərk etmək – əslində Mahiyyəti dərk etməkdir; bu səbəbdən də İdrak əslində Təfəkkürdən başlayır; Təfəkkür – Təzahürün Mahiyyətini – yəni əslində Təzahürü dərk edir; ***İnam İnsanı Mahiyyətə qovuşdurur.***

**İnsan Fitrəti**

İnsan fitri Mütləqçidir.
fitri Mahiyyətçidir.
fitri Mənaçıdır,
fitri Əzəliçidir,
fitri Əbədiçidir,
fitri Sonsuzçudur,
fitri Kamilçidir.

**Həqiqət (119)**

İdeal – Həqiqət tələbidir əslində.

**Həqiqət (120)**

***İdeal*** – Gerçəklikdən artıqdır, bu səbəbdən də Gerçəkliyi artırır; Gerçəklikdən yüksəkdir, bu səbəbdən də Gerçəkliyi

yüksəldir; Gerçəklikdən böyükdür, bu səbəbdən də Gerçəkliyi böyüdür.

### Həqiqət (121)

Din – İdealı Həqiqətə qarşı qoyur – cəfəngləşdirir; bu səbəbdən də Din – İdealsızdır – cəfəng İdeal olmur...

### Həqiqət (122)

Nisbinin Mənası – Mütləq.
Təzahürün Mənası – Mahiyyət.
Ötərinin Mənası – Əzəlilik.
Keçicinin Mənası – Əbədilik.
Sonlunun Mənası – Sonsuzluq.
Qeyri-kamilin Mənası – Kamillik.

### Həqiqət (123)

Həqiqət – Birdir, Fərd – Min.
Fərdi Həqiqət olmur;
Fərdi Həqiqət Ehtirası olur;
Fərdin Həqiqətə Qovuşması olur.

### Həqiqət (124)

Nisbi Həqiqət yoxdur – çünki Nisbini nisbiylə dərk etmək olmaz, – Mütləqlə dərk etmək olar.

Ötəri Həqiqət yoxdur – çünki Ötərini ötəriylə dərk etmək olmaz, – Əzəliylə dərk etmək olar.

Keçici Həqiqət olmur – çünki Keçicini keçiciylə dərk etmək olmaz, – Əbədiylə dərk etmək olar.

Sonlu Həqiqət olmur – çünki Sonlunu Sonluyla dərk etmək olmaz, – Sonsuzla dərk etmək olar.

Qeyri-kamil Həqiqət olmur – çünki Qeyri-kamili Qeyri-kamillə dərk etmək olmaz, – Kamillə dərk etmək olar.

### Həqiqət (125)

Dialektikada Məna (Loqos) – Ziddiyyətlidir, Ziddiyyət – özü Mənadır.

Əslində Ziddiyətli Məna Yoxdur; – Mütləq Məna var; Ziddiyyət Mənası Yoxdur – Bütövlük Mənası var...

### Həqiqət (126)

Ziddiyyətli Dünya var – Ziddiyyətli Həqiqət yoxdur. Ziddiyyəti Ziddiyyətlə dərk etmək olmaz – Ziddiyyəti Bütövlüklə dərk etmək olar.

### Həqiqət (127)

Həqiqət – özü Xeyirdir. Bu səbəbdən Xeyirsiz Həqiqət yoxdur. Yalan – özü Şərdir. Bu səbəbdən Şərsiz Yalan yoxdur.

### Həqiqət (128)

İnsan – Dünyanı dərk edir ki, özünə çatsın,
Həyatı dərk edir ki, özünə çatsın,
İnsanı dərk edir ki, özünə çatsın,
Əzəlini dərk edir ki, özünə çatsın,
Əbədini dərk edir ki, özünə çatsın,
Sonsuzu dərk edir ki, özünə çatsın,
Kamili dərk edir ki, özünə çatsın,
Mütləqi dərk edir ki, özünə çatsın.
İdrak İnsanı özünə çatdırır.

### Həqiqət (129)

İnsan – Dünyanı təkcə Dünyadan faydalanmaq üçün dərk etmir; İnsanilik – Dünyanı dərk etmək Tələbi yaradır – ***Dünyanı dərk etməklə İnsan öz İnsaniliyini Təsdiq edir.***

İnsan – Həyatı təkcə Həyatdan faydalanmaq üçün dərk etmir; İnsanilik – Həyatı dərk etmək Tələbi yaradır – ***Həyatı dərk etməklə İnsan öz İnsaniliyini Təsdiq edir.***

İnsan – İnsanı təkcə İnsandan faydalanmaq üçün dərk etmir; İnsanilik – İnsanı dərk etmək Tələbi yaradır – ***İnsanı dərk etməklə İnsan öz İnsaniliyini Təsdiq edir.***

## Özünüdərketmə (1)

İnsan özündəki Mütləqi dərk edəndə – özünü dərk edir;
özündəki Mahiyyəti dərk edəndə – özünü dərk edir;
özündəki Mənanı dərk edəndə – özünü dərk edir;
özündəki Əzəlini dərk edəndə – özünü dərk edir;
özündəki Əbədini dərk edəndə – özünü dərk edir;
özündəki Sonsuzu dərk edəndə – özünü dərk edir;
özündəki Kamili dərk edəndə – özünü dərk edir;

## Həqiqət (130)

İdrakın Məqsədi – İnsanilikdir.
Mütləqə çatmaq – İnsaniliyə çatmaqdır.
Mahiyyətə çatmaq – İnsaniliyə çatmaqdır.
Əzəliyə çatmaq – İnsaniliyə çatmaqdır.
Əbədiyə çatmaq – İnsaniliyə çatmaqdır.
Sonsuza çatmaq – İnsaniliyə çatmaqdır.
Kamilliyə çatmaq – İnsaniliyə çatmaqdır.

## İdrak Gözü

***Dünyadakı Dünyalığı – İnsandan başqa görən yoxdur.***
Dünyadan Üstün olmadan Dünyalığı görmək olmaz.
Ötəridəki ***Əzəliliyi*** – İnsandan başqa görən yoxdur.
Ötəridən Üstün olmadan əzəlini görmək olmaz.
Keçicidəki ***Əbədiliyi*** – İnsandan başqa görən yoxdur.
Keçicidən Üstün olmadan Əbədiliyi görmək olmaz.
Sonludakı ***Sonsuzluğu*** – İnsandan başqa görən yoxdur.
Sonludan Üstün olmadan Sonsuzluğu görmək olmaz.
Qeyri-kamildəki ***Kamilliyi*** – İnsandan başqa görən yoxdur.
Qeyri-kamildən Üstün olmadan Kamilliyi görmək olmaz.

## Həqiqət (131)

Dünyanı dərk etmək – Dünyadan Üstün olanı dərk etməkdir. İnsanilik – Dünyadan Üstündür.

Bu səbəbdən də ***Dünyanı dərk etmək – əslində İnsaniliyi dərk etməkdir.***

Həyatı dərk etmək – Həyatdan Üstün olanı dərk etməkdir. İnsanilik – Həyatdan Üstündür.

Bu səbəbdən də ***Həyatı dərk etmək – əslində İnsaniliyi dərk etməkdir.***

Adamı dərk etmək – Adamdan Üstün olanı dərk etməkdir. İnsanilik – Adamdan Üstündür.

Bu səbəbdən də ***Adamı dərk etmək – əslində İnsaniliyi dərk etməkdir.***

**Həqiqət (132)**

Dünyanın xaricində sayılan (Transendental) nə varsa – Dünyanın Daxilindədir (immanentdir).

***Yəni Dünyadan Üstün nə varsa – Dünyanın Daxilindədir.***

**Həqiqət (133)**

Milli İdrak – Millətin Mütləqiliyini Təsdiq edir; Kosmopolit İdrak – nisbiliyini.

Milli İdrak – Milləti Mahiyyət sayır; Kosmopolit İdrak – Təzahür.

Milli İdrak – Milləti Məna sayır; Kosmopolit İdrak – Hadisə.

**Həqiqət (134)**

Məntiq – İdrakın xassəsidir.

Məntiq qanunları – İdrak üçün deyil; İdrakın dərki üçündür...

**Həqiqət (135)**

Yenidənqurma Milli İdrakı Kosmopolit idraka tərəf yürütdür-dü əslində.

**Hal (1)**

Özünü tanımadan – Dünyada tanınmağa yüyürmək.

Özünə inanmadan – Dünyanı özünə inandırmağa yüyürmək.

Özünə yaramadan – Dünyadan yarımağa yüyürmək.

**Vəziyyət (1)**

Siyasətdə – Qərb kosmopolitizmi bərqərar olur. Ruhaniyyatda – Ərəb kosmopolitizmi bərqərar olur.

**Əlaqə (2)**

Dünyanı dərk etmək – Mütləqiliyi dərk etməkdir.

Mütləqiliyi dərk etmək – İnsaniliyi dərk etməkdir.

Bu səbəbdən ***Dünyanı dərk etmək – əslində İnsaniliyi dərk etməkdir.***

Həyatı dərk etmək – Mütləqiliyi dərk etməkdir.

Mütləqiliyi dərk etmək – İnsaniliyi dərk etməkdir.

Bu səbəbdən ***Həyatı dərk etmək – əslində İnsaniliyi dərk etməkdir.***

İnsanı dərk etmək – Mütləqiliyi dərk etməkdir.

Mütləqiliyi dərk etmək – İnsaniliyi dərk etməkdir.

Bu səbəbdən ***İnsanı dərk etmək – əslində İnsaniliyi dərk etməkdir.***

**Həqiqət (136)**

Cəfəngiyyat haqqında Həqiqət olmur – Cəfəngiyyata qarşı Həqiqət olur.

Cəfəngiyyat haqqında Elm olmur – Cəfəngiyyata qarşı Elm olur.

Cəfəngiyyat haqqında Fəlsəfə olmur – Cəfəngiyyata qarşı Fəlsəfə olur.

Cəfəngiyyat haqqında İnam olmur – Cəfəngiyyata qarşı İnam olur.

Çünki Cəfəngiyyat – Anti-Həqiqətdir;
– Anti-Elmdir;
– Anti-Fəlsəfədir;
– Anti-İnamdır.

**Həqiqət (137)**

Cəfəngiyyatı dərk etmək – əslində Həqiqəti dərk etməkdir – ***yəni cəfəngiyyatı rədd etməkdir.***

**Həqiqət (138)**

Cəfəngiyyatı yaşadan – Həqiqətsizlikdir.
İdrak – Həqiqəti dərk etməklə – cəfəngiyyatı rədd edir.

**Həqiqət (139)**

Din Fəlsəfəsi – cəfəngiyyat Fəlsəfəsi deməkdir əslində.
Din Elmi – cəfəngiyyat Elmi deməkdir əslində.
Dini İnam – cəfəngiyyata İnam deməkdir.

**Həqiqət (140)**

Dində İnam – İdrakı əvəz edir.
Dərk etmədiyinə İnanırsan.
Əslində isə dərk etdiyinə inanmalısan.

**Həqiqət (141)**

Siyasət – Ruhaniyyata Ziddir.
Siyasət – Gerçəklikdən kənara çıxmır.
Ruhaniyyat – Gerçəkliyə sığmır.

**Həqiqət (142)**

Xeyirlə Faydanın Fərqi – Mütləqlə Nisbinin Fərqi,
– Mahiyyətlə Təzahürün Fərqi,
– Mənayla Hadisənin Fərqi,
– Əzəliylə Ötərinin Fərqi,
– Əbədiylə Keçicinin Fərqi,
– Sonsuzla Sonlunun Fərqi,
– Kamillə Qeyri-Kamilin Fərqi.

**İdrak Xeyiri**

***İdrak – İnsana Mütləqə Yetmək Xeyiri verir,***
Mahiyyətə yetmək Xeyiri verir,

Mənaya yetmək Xeyiri verir,
Əzəliyə yetmək Xeyiri verir,
Əbədiliyə yetmək Xeyiri verir,
Sonsuzluğa yetmək Xeyiri verir,
Kamilliyə yetmək Xeyiri verir.
İdrak İnsana Ruhanilik Xeyiri verir.

**Həqiqət (143)**

Əslində ***Mücərrədçilik*** – Mütləqçilikdir, Mahiyyətçilikdir, Mənaçılıqdır; ***Konkretçilik*** – Nisbiçilikdir, Təzahürçülükdür, Hadisəçilikdir.

**Həqiqət (144)**

Hegel Mahiyyətə yetən Həqiqəti – Təzədən Gerçəkliyə "yüksəldir" və bunun nəticəsində Konkret Həqiqət alınır; əslində isə bu əməliyyatda İdrak yüksəlmir, enir; – yəni Mahiyyət gerçəklik səviyyəsinə əksilir.

**Həqiqət (145)**

Əgər ***Konkret Həqiqət*** Şərait səviyyəsində Həqiqətdirsə, – onda o, ən yoxsul Həqiqətdir – yarımçıq Həqiqətdir, yarım Həqiqətdir.

Əgər Konkret Həqiqət – Mühit səviyyəsində Həqiqətdirsə, – onda o, ən yoxsul Həqiqətdir – yarımçıq Həqiqətdir, yarım Həqiqətdir.

Əgər Konkret Həqiqət – Cəmiyyət səviyyəsində Həqiqətdirsə, – onda o, ən yoxsul Həqiqətdir – yarımçıq Həqiqətdir, yarım Həqiqətdir.

Əgər ***Mücərrəd Həqiqət*** – Mütləq səviyyəsində Həqiqətdirsə, – onda o, ən zəngin Həqiqətdir, Tam Həqiqətdir, Bütöv Həqiqətdir.

Əgər Mücərrəd Həqiqət – Mahiyyət səviyyəsində Həqiqətdirsə, – onda o, ən zəngin Həqiqətdir, Tam Həqiqətdir, Bütöv Həqiqətdir.

Əgər Mücərrəd Həqiqət – Məna səviyyəsində Həqiqətdirsə, – onda o, ən zəngin Həqiqətdir, Tam Həqiqətdir, Bütöv Həqiqətdir.

***İndiki Konkretçilərin Mücərrəd Həqiqətlə döyüşü – İdraki Yoxsulluq ifadəsidir.***

**Həqiqət (146)**

***Təslimçini*** (Opportunisti) – Yer buxovlayır,
***Macəraçını*** (Avantüristi) – Göy buxovlayır,
***Mütləqçi*** – Yeri Göyə Yüksəldir.

**Həqiqət (147)**

Ekzistensializmdə Təzahür Mahiyyətdən yox, Mahiyyət Təzahürdən yaranır – ***Təzahürləşir;***

Hadisə Mənadan yox, Məna Hadisədən yaranır – ***Hadisələşir;***

Ötəri Əzəlidən yox, Əzəli Ötəridən yaranır – ***Ötəriləşir;***

Keçici Əbədidən yox, Əbədi Keçicidən yaranır – ***Keçiciləşir;***

Sonlu Sonsuzdan yox, Sonsuz Sonludan yaranır – ***Sonlulaşır;***

Qeyri-Kamil Kamildən yox, Kamil Qeyri-kamildən yaranır – ***Qeyri-kamilləşir***.

**Ekzistensializmə qarşı**

***Dünyanı cəfəng saymaq – Dünyanı Dünyalıqdan ayırmaqdır.***

Cəfəng Təzahür olur – cəfəng Mahiyyət olmur.
Cəfəng Hadisə olur – cəfəng Məna olmur.
Cəfəng Ötəri olur – cəfəng Əzəli olmur.
Cəfəng Keçici olur – cəfəng Əbədi olmur.
Cəfəng Sonlu olur – cəfəng Sonsuz olmur.
Cəfəng Naqis olur – cəfəng Kamil olmur.

***Ekzistensialistlər Dünyanı Mahiyyətsizləşdirirlər, Mənasızlaşdırırlar, Ötəriləşdirirlər, Keçiciləşdirirlər, Naqisləşdirirlər, Təzahürləşdirirlər, Hadisələşdirirlər.***

**Həqiqət (148)**

Din – əslində İnamsızlıqdır.
İdraka İnanmadığın dərəcədə Allaha inanırsan.

**Həqiqət (149)**

Dünyanın dərk olunmazlığı və Allahın İdraka sığmazlığı – bir ideyadır.

***Aqnostisizm – Dinə gətirib çıxarır.***

**Həqiqət (150)**

***Ekzistensializm*** Bədəsil Mövcudluğu görür, bilir, bildirir; əsl mövcudluğu – İnam, İdrak, Mənəviyyat, İradə Birliyini görmür, bilmir, bildirmir – ***Yalandan ayrıla bilir, ancaq Həqiqətə çatmır.***

**Həqiqət (151)**

İnsan Dünyadan üstündür, Dünyanın Üstündədir, ancaq Dünyaya qarşı deyil, çünki Mütləqə qarşı deyil; Mahiyyətə qarşı deyil; Mənaya qarşı deyil, Əzəliliyə qarşı deyil; Əbədiliyə qarşı deyil; Sonsuzluğa qarşı deyil; Kamilliyə qarşı deyil.

**Həqiqət (151 –a)**

Ekzistensializmdə Dünya İnsana qarşıdır. Əslində Dünyayla İnsan Mütləqlə Birləşirlər, Mahiyyətlə Birləşirlər, Mənayla Birləşirlər, Əzəliliklə Birləşirlər, Əbədiliklə Birləşirlər, Sonsuzluqla Birləşirlər.

**Həqiqət (152)**

Din – Əxlaqı özgələşdirir; İnsandan ayırıb – Allahlaşdırır; ***İtaət Əxlaqı yaranır – Əxlaqsız.***

**Həqiqət (153)**

***Son Fəlsəfələrin çoxu – əslində Dindir.***
***Nitsşeçilikdə*** – İnsan Fövqəlinsan Bəndəsidir.
***Freydçilikdə*** – İnsan Şəhvət Bəndəsidir.
***Marksçılıqda*** – İnsan İqtisadiyyat Bəndəsidir.

**Həqiqət (154)**

İnamda – İnsan dərk etdiyinə inanır,
Dində – dərk etmədiyinə.

**Fərq (5)**

İdrakın Xeyiri – Ruhaniyyat,
İdrakın Faydası – Maddiyyat.

**Həqiqət (155)**

Materializm – Əsassız Dünya Təlimidir.
İdealizm – Dünyasız Əsas Təlimidir.
Mütləqçilik – Əsaslı Dünya Təlimidir.

**Həqiqət (156)**

Din – Bədbəxtlikdən yaranıb.
İnsanlar xoşbəxt olsalar – Dinə ehtiyacları olmaz.

**Həqiqət (157)**

***Materiya*** – Ruhaniyyatdan ayrılmış Maddiyyat.
***İdeya*** – Maddiyyatdan ayrılmış Ruhaniyyat.
***Mütləq*** – Maddiyyatın Ruhani Əsası.

**Həqiqət (158)**

Mahiyyətə bərabər Təzahür olmur. Bu səbəbdən də Mahiyyətə çatmaq üçün İdrak Təzahürü ötür.

Mənaya bərabər Hadisə olmur. Bu səbəbdən də Mənaya çatmaq üçün İdrak Hadisəni ötür.

***Sensualizm*** – Təzahürdə dayanıb Mahiyyətə çatmaq istəyir, Hadisədə dayanıb Mənaya çatmaq istəyir.

***Rasionalizm*** – Təzahürə çatmadan Mahiyyətə çatmaq istəyir; Hadisəyə çatmadan Mənaya çatmaq istəyir.

***Mütləqçi*** – Təzahürə çatır, ancaq onda dayanmır, onu ötür, Mahiyyətə çatır; Hadisəyə çatır, ancaq onda qalmır, onu ötür, Mənaya çatır.

**Fərq (6)**

Formal Məntiq – Ziddiyyətsiz Fikir Tələbi,
Dialektik Məntiq – Ziddiyyətli Fikir Tələbi.

**Əks fəlsəfələr**

***Siyasət Fəlsəfəsi*** – Yalan Həqiqəti.
***Cəmiyyət Fəlsəfəsi*** – Ağalıq Mərifəti.
***Din Fəlsəfəsi*** – Cəfəngiyyat Hikməti.

**Həqiqət (159)**

Təcrübəni Həqiqətin Meyarı saymaq – Təzahürü Mahiyyətin Meyarı saymaqdır,
Hadisəni Mənanın Meyarı saymaqdır,
Nisbini Mütləqin Meyarı saymaqdır,
Ötərini Əzəlinin Meyarı saymaqdır,
Keçicini Əbədinin Meyarı saymaqdır,
Sonlunu Sonsuzun Meyarı saymaqdır,
Qeyri-Kamilliyi Kamilliyin Meyarı saymaqdır,

**Həqiqət (160)**

Beyin – Təbiətdən yaranır, Təbiət – Mahiyyətdən.

**Mərhələlər (2)**

***Adi Şüur*** – Təzahürlə Təmas.
***Elmi Şüur*** – Təzahür Qanunlarının Dərki.
***Fəlsəfi Şüur*** – Mahiyyətin Dərki.
***İnam*** – Mahiyyətə Qovuşma.

**Həqiqət (161)**

İnsanı Həqiqətə bağlayan – İnamdır, Cəfəngiyyata bağlayan – İnamsızlıq.

***İnsan – İnandığı dərəcədə Dərk edir; İnanmadığı dərəcədə Uydurur.***

**Həqiqət (162)**

***Səbəb, Mahiyyət, Məna – Birdir.***
Nisbinin Səbəbi – Mütləqdir.
Təzahürün Səbəbi – Mahiyyətdir.
Hadisənin Səbəbi – Mənadır.
Ötərinin Səbəbi – Əzəlidir.
Keçicinin Səbəbi – Əbədidir.
Sonlunun Səbəbi – Sonsuzdur.
Qeyri-kamilin Səbəbi – Kamildir.
***Dünyanın Səbəbi – Dünyalıqdır.***
***Həyatın Səbəbi – Həyatlıqdır.***
***İnsanın Səbəbi – İnsanlıqdır.***

**Həqiqət (163)**

İdraklı Xəyal – Yaradıcılıq.
İdraksız Xəyal – Yalançılıq.

**Həqiqət (164)**

Allah – İnsanilik baxımından – cəfəngiyyatdır.
Allah – Din Həqiqətidir.
***Allah Həqiqəti – cəfəngiyyatdır.***
Qismət – İnsanilik baxımından – cəfəngiyyatdır.
Qismət – Din Həqiqətidir.
***Qismət Həqiqəti – cəfəngiyyatdır.***
O Dünya – İnsanilik baxımından – cəfəngiyyatdır.
O Dünya – Din Həqiqətidir.
***O Dünya Həqiqəti – cəfəngiyyatdır.***
Cənnət – İnsanilik baxımından – cəfəngiyyatdır.
Cənnət – Din Həqiqətidir.
***Cənnət Həqiqəti – cəfəngiyyatdır.***
Cəhənnəm – İnsanilik baxımından – cəfəngiyyatdır.
Cəhənnəm – Din Həqiqətidir.
***Cəhənnəm Həqiqəti – cəfəngiyyatdır.***

**Həqiqət (165)**

Ağalıq – İnsanilik baxımından – cəfəngiyyatdır.

Ağalıq – cəmiyyət Həqiqətidir.

***Ağalıq Həqiqəti – cəfəngiyyatdır.***

Təbəqəlik – İnsanilik baxımından – cəfəngiyyatdır.

Təbəqəlik – cəmiyyət Həqiqətidir.

***Təbəqəlik Həqiqəti – cəfəngiyyatdır.***

Rəiyyətlik – İnsanilik baxımından – cəfəngiyyatdır.

Rəiyyətlik – cəmiyyət Həqiqətidir.

***Rəiyyətlik Həqiqəti – cəfəngiyyatdır.***

**Həqiqət (166)**

Cəfəngiyyat – İdrakdan ayrılan, İdraksızlaşan, İdraka qarşı duran Xəyaldan yaranıb.

Adam İdrak Yükünü çiynindən atıb – Xəyal havasına uçanda – cəfəngiyyata çatır.

**Həqiqət (167)**

Cəfəngiyyat – Nisbidə yaşayan Mütləqsizlikdir,
– Təzahürdə yaşayan Mahiyyətsizlikdir,
– Hadisədə yaşayan Mənasızlıqdır.

**Fərq (7)**

Alim – Bilikçi.
Filosof – Mənaçı.

**Həqiqət (168)**

Elmin Mənası – Bilik.
Fəlsəfənin Biliyi – Məna.

**Həqiqət (169)**

Bədiiyyat – Mahiyyəti Təzahür vasitəsiylə ifadə edir.

Bu səbəbdən də Bədiiyyatda Təzahür Təxəyyülün gücüylə Mahiyyətə yaxınlaşır – özündən artıq olur.

## Həqiqət (170)

Həqiqət – Mütləqdir, Təcrübə – Nisbi.

Nisbi – Mütləqin ölçüsü ola bilməz – Təcrübə Həqiqətin ölçüsü ola bilməz.

Əksinə, Həqiqət – Təcrübənin ölçüsüdür və bu ölçüdə Təcrübə həmişə əksik görünür.

## Həqiqət (171)

***Gerçəkliyi*** ötmək üçün onu görmək gərək, bilmək gərək.

***Avantürist*** (Macəraçı) – gerçəkliyi görmür, bilmir – bu səbəbdən də Mahiyyətsizliyə yetir.

***Opportunist*** (Təslimçi) – gerçəkliyi Mahiyyətsiz görür, bilir – bu səbəbdən də Mahiyyətsizliyə yetir.

Mütləqçi – Gerçəkliyi Mahiyyətli görür, bilir.

## Həqiqət (172)

Dünyanın tərkibini axtaranlar – Fizikdirlər; Dünyanın Mənasını axtaranlar – Filosofdurlar.

Bu baxımdan Filosof sayılanların çoxu – Filosof deyillər.

## Həqiqət (173)

İdrak – Fitri Mütləqçidir,
– Fitri Mahiyyətçidir,
– Fitri Mənaçıdır,
– Fitri Əzəliçidir,
– Fitri Əbədiçidir,
– Fitri Sonsuzçudur,
– Fitri Kamilçidir.

## Həqiqət (174)

Zorçuluq Mərifətindən danışırlar – Mərifətə Zor gəlirlər.

Varçılıq Mərifətindən danışırlar – Mərifəti satın alırlar.

## Əxlaqlar

***Demokratik Əxlaq*** – Mənfəətli Mərifət – yəni Mərifətsizlik.

***Sosialist Əxlaqı*** – Zorakı Mərifət – yəni Mərifətsizlik.

***Dini Əxlaq*** – Bəndəlik – yəni Mərifətsizlik.
***Ocaq Əxlaqı*** – İnsanlaşma Mərifəti.

**Həqiqət (175)**

Fəlsəfənin Məqsədi – xüsusi İdrak üsulu (Metodu) icad eləmək deyil; – İdrakın buna ehtiyacı yoxdur.

Fəlsəfənin Məqsədi – Mahiyyəti dərk etməkdir; yəni ***Fəlsəfə idrak köməkçisi yox, İdrak zirvəsidir.***

**Həqiqət (176)**

Fəlsəfi nəzəriyyə – Fəlsəfə deyil əslində – Elmdir.
Fəlsəfi İdeologiya – Fəlsəfə deyil əslində – Siyasətdir.
***Fəlsəfə – Mahiyyətçilikdir, Mənaçılıqdır, Həqiqətçilikdir...***

**Həqiqət (177)**

Dində Dünya – Mahiyyətsizləşir, Mənasızlaşır; Təzahürləşir, Nisbiləşir, Ötəriləşir, Keçiciləşir, Sonlulaşır, Naqisləşir – Faniləşir.

**Fərq (8)**

İctimai Qiymət – Mükafat.
Ruhani Qiymət – Xeyir.

**Həqiqət (178)**

Fəlsəfənin Riyaziyyata yaxın olması fikri yanlışdır.
***Mahiyyəti hesablamaq olmaz.***

**Həqiqət (179)**

İdrak – Fitri Həqiqətçidir.
Adam – özünə çatmır, Həqiqətə yetmir.

**Həqiqət (180)**

***İdealizmdə*** – Mahiyyətin ifadəsi (İdeya) Mahiyyətə bərabər sayılır – Mahiyyət özümlüyünü itirir.

***Materializmdə*** – Mahiyyətin Təzahürü (cismanilik) – Mahiyyətə bərabər sayılır – Mahiyyət özümlüyünü itirir.

***Mütləqçilikdə*** – Mahiyyət (Mütləq) – İfadədən (İdeyadan) kənardadır və Təzahürdən (cismanilikdən) Artıqdır; bu səbəbdən də özümlüdür.

**Fərq (9)**

Cəmiyyətçinin Xeyiri – Mənfəət...
Həqiqətçinin Xeyiri – Həqiqət.

**Hesabdan Üstün**

Hesablanan nə varsa – nisbidir.
Mütləqi hesablamaq olmaz.
Hesablanan nə varsa – Təzahürdür.
Mahiyyəti hesablamaq olmaz.
Hesablanan nə varsa – Hadisədir.
Mənanı hesablamaq olmaz.
Hesablanan nə varsa – Ötəridir.
Əzəlini hesablamaq olmaz.
Hesablanan nə varsa – Keçicidir.
Əbədini hesablamaq olmaz.
Hesablanan nə varsa – Sonludur.
Sonsuzu hesablamaq olmaz.
Hesablanan nə varsa – Qeyri-Kamildir.
Kamili hesablamaq olmaz.

**Azadlıq Zərurəti (2)**

***Mütləqilik Zərurəti*** – yəni Nisbidən Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Mahiyyət Zərurəti*** – yəni Təzahürdən Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Məna Zərurəti*** – yəni Hadisədən Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Əzəlilik Zərurəti*** – yəni Ötəridən Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Əbədilik Zərurəti*** – yəni Keçicilikdən Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Sonsuzluq Zərurəti*** – yəni Sonludan Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Kamillik Zərurəti*** – yəni Qeyri-kamillikdən Üstün olmaq Zərurəti – Azadlıqdır.

***Mahiyyətə çatmaq Zərurəti*** – Azadlıqdır.

***Mənaya çatmaq Zərurəti*** – Azadlıqdır.

***Əzəliyə çatmaq Zərurəti*** – Azadlıqdır.

***Əbədiliyə çatmaq Zərurəti*** – Azadlıqdır.

***Sonsuzluğa çatmaq Zərurəti*** – Azadlıqdır.

***Kamilliyə çatmaq Zərurəti*** – Azadlıqdır.

**Həqiqət (181)**

Pulçuluq – Maddiyyatçı Möminliyi.

**Həqiqət (182)**

Kant İdrakaltı Dünya yaradır əslində.

**Həqiqət (183)**

Kantda İdrak Dünyanın Mənasını dərk etmir – Dünyaya Məna bəxş edir – burada İdrak özünü dərk edir əslində.

**Həqiqət (184)**

Kantda İdrak – Dünyanı Mənalandırır, – yəni ona Zərurilik və Ümumilik gətirir; Dünya özü Mənadan – Zərurilikdən və Ümumilikdən məhrum olur, – ***İdrak Dünyanın əksilməsi bahasına Yüksəldilir.***

**Həqiqət (185)**

Kantda İdrak Dünyanın Mənasını əlindən alır, yəni onu Mənalandırdığı dərəcədə Mənasızlandırır.

**Həqiqət (186)**

Kantın "bizim üçün şey" Dünyasını əslində İdrak yaradır. "özü üçün şey" Dünyasını Kant Allaha həvalə eləyib.

**Həqiqət (187)**

Həqiqət – Mahiyyətin dərkidir.
Kantda İdrak özü Mahiyyətdir,
Dərk edən özü Dərk olunandır.
Kantda Həqiqət yoxdur, – ***İdrakın özündən başqa Həqiqəti yoxdur.***

**Həqiqət (188)**

Kant Gerçəklikdən Üstün Həqiqət tanımır.

Kantda İdrak Mahiyyəti əvəz edir – dərk etmə xassəsini itirir: ***Dünyanı quraşdırmaq xassəsi qazanır – süni.***

**Tarixi hadisə**

Qələbəni məğlub edənlər – Qələbəni bayram edirlər.

**Formalçılıq**

Ehkamlaşan İnam.
Bəsitləşən İdrak.
Nümayişləşən Mənəviyyat.
Hakimiyyətləşən İradə.

**Həqiqət (189)**

Bəşər Faşizm üzərində Qələbə çala bildi, ancaq İnsan ola bilmədi, – bu səbəbdən də məğlub oldu.

**Həqiqət (190)**

Fəlsəfəni İdrakşünaslığa çevirmək – onu Dünyadan Təcrid etməkdir. Kantla başlanan bu əməliyyat Fəlsəfəni ardıcıl şəkildə gərəksizləşdirdi və nəticədə yalançı Fəlsəfələr – Siyasət Fəlsəfəsi; İqtisadiyyat Fəlsəfəsi, Elm Fəlsəfəsi meydan sulamağa başladı.

**Həqiqət (191)**

Kantda İdrak əslində özünü dərk edir. Fəlsəfə İdrak haqqında İdraka çevrilir.

**Həqiqət (192)**

Kantda Dünya gerçəkliklə eyniləşdirilir. Bu səbəbdən də Zərurilikdən, Ümumilikdən məhrum olur.

Əislində isə Dünya – gerçəklikdən Üstündür – Mahiyyətlidir, Mənalıdır, Mütləqlidir. Özündən əksik olan Dünya burada İdrak vasitəsiylə tamamlanır: süni Dünya yaranır – ***Quraşdırılmış.***

**Həqiqət (193)**

Kantda İdrak Allaha şərik çıxır: Dünyanın yaranmasında iştirak edir.

**Həqiqət (194)**

Gərək Mənanı Dünyanın özündə görəsən; onu kənardan gətirməyəsən, Dünyaya calamayasan.

Gərək Maddiyyatı Məna saymayasan – Mənaya calamayasan.

***Gərək Dinçi olmayasan, İdealist olmayasan, Materialist olmayasan – Mütləqçi olasan.***

**Həqiqət (195)**

Kantda Zərurilik, Ümumilik – İdrakın predmeti deyil, – Qaydasıdır. Burada İdrak – Qeyri-Zəruri, Qeyri-Ümumi – yəni əslində Mənasız Dünyanı Zəruriləşdirir, Ümumiləşdirir – Mənalandırır.

**Həqiqət (196)**

Kantda İdrak – Həqiqəti dərk etmir – yaradır – ***Həqiqət Dünyasızlaşır, Dünya Həqiqətsizləşir.***

**Həqiqət (197)**

Kantda İdrakilik – əslində Dünyasızlıqdır.

**Həqiqət (198)**

Qələbəni Böyüklər yaratdılar – Balacalar məğlub etdilər.

**Ülviyyət**

Nisbinin Mütləq Göyü var.
Təzahürün Mahiyyət Göyü var.
Hadisənin Məna Göyü var.
Ötərinin Əzəlilik Göyü var.
Keçicinin Əbədilik Göyü var.
Sonlunun Sonsuzluq Göyü var.
Qeyri-Kamilin Kamillik Göyü var.
Dünyanın Dünyalıq Göyü var.
Həyatın Həyatlıq Göyü var.
İnsanın İnsanlıq Göyü var.

**Həqiqət (199)**

Kantda Ağıl deyəni Dünya demir; Ağıl Dünyanı Ağıllandırır, onun üzünü ağardır.

**Həqiqət (200)**

Platonda Dünyanı İdeya yaradır.
Kantda İdeyaları İdrak yaradır...
Platonda Dünya İdeyanın kölgəsidir,
Kantda İdrakın Yetirməsidir.

**Həqiqət (201)**

Dialektikanın Təməli – Nisbilikdir.

Nisbi Təməl – Təməlsizlikdir.

***Dialektikanın Təməli yoxdur.***

Dialektikada Dünya nisbilik üzərində qurulub. Nisbi Təməl – Təməlsizlikdir.

***Dialektik Dünyanın Təməli yoxdur.***

Dialektikada Əxlaq – Nisbilik üzərində qurulub. Nisbi Təməl – Təməlsizlikdir.

***Dialektik Əxlaqın Təməli yoxdur.***

Dialektikada İdrak – Nisbilik üzərində qurulub. Nisbi Təməl – Təməlsizlikdir.

***Dialektik İdrakın Təməli yoxdur.***

**Kapitalizm Eksportu**

Kapitalizmə keç – Kredit al.
Kapitalizmə keçməsən – Kredit almazsan.
Silah Zoru əvəzinə – Kredit Zoru.

**Gözəllik**

Nisbidə Mütləq İşığı.
Təzahürdə Mahiyyət İşığı.
Hadisədə Məna İşığı.
Ötəridə Əzəlilik İşığı.
Keçicidə Əbədilik İşığı.
Sonluda Sonsuzluq İşığı.
Qeyri-kamildə Kamillik İşığı.
Dünyada Dünyalıq İşığı.
Həyatda Həyatlıq İşığı.
Adamda İnsanlıq İşığı.

**Həqiqət (202)**

Təzahürü Dərk etmək – Təzahürün Mahiyyətini Dərk etməkdir.

Kant Təzahürdə Mahiyyət görmür, bu səbəbdən də Təzahür dərk olunmur, həm də sadəcə təsvir olunmur – ***Quraşdırılır.***

**Həqiqət (203)**

"İdrakdan başqa heç nə yoxdur" – iddiası İnsanı Dünyada tək qoyur – ondan bədbinliyə bir addım yol qalır.

Şopenhauer Kantçılığı buna bariz misaldır.

**Həqiqət (204)**

Kantda Dünya hər iki çeşiddə dərk olunmazdır...

Təzahür ("Bizim üçün şey") dərk olunmazdır, çünki əslində o, İdrakın quraşdırdığıdır; İdrak təzahür vasitəsiylə ***özünü*** dərk edir.

Mahiyyət ("özü üçün şey") dərk olunmazdır: İdrak onu dərk etməkdə acizdir.

***Kant rasionalizmi – dərk olunmazlıq rasionalizmidir əslində.***

**Həqiqət (205)**

Dünyaya Mahiyyət bəxş edən Kantçılıq ***İdrakı*** – "Dünyadan kənardakı" Mahiyyəti (Allahı) dərk etməkdə acizliyini etiraf edir və geri çəkilir.

Beləliklə də ***Kantda İdrak öz dərk etmə xassəsindən əl çəkir.***

**Müasir Hal (1)**

Xəyanətə Sədaqət.

**Həqiqət (206)**

Kantda Təzahürlə Mahiyyət arasında uçurum var: İdrak həmin uçurumu keçmir – xalis Təzahürdə qalır və onu Mahiyyətsizləşdirir.

***Kantda Təzahür Mahiyyətini İdrakdan alır – yəni əslində Mahiyyətdən məhrum olur.***

**Həqiqət (207)**

Kantda Mahiyyətdən məhrum olunmuş Təzahür və Təzahürdən məhrum olunmuş Mahiyyət qarşılaşdırılır.

Əslində Mahiyyətsiz Təzahür və Təzahürsüz Mahiyyət yoxdur – bu səbəbdən də ***Kantda Dünya inkar olunur əslində.***

**Həqiqət (208)**

***Kant – İdraklı Şübhəçidir...***

İdrakla Mənalandırılan (öz Mənası olmayan) Dünya – Şübhəli Dünyadır...

**Müasir Gedişat**

Sosializm cəngəlliyindən Kapitalizm cəngəlliyinə.

**Qələbə Bayramı (2)**

Qərb özünün Dünya üzərində Qələbəsini Bayram eləyir.

Rusiya özünün Qələbə üzərində Qələbəsini Bayram eləyir.

**Həqiqət (209)**

Demokratiya – Pul Ağalığı.
Sivilizasiya – Pulgirlik.
Söz Azadlığı – Pulçuluğu qoruyan.
Parlament – Pulçuluq nümayəndəliyi.
Prezident – Pulaltı Başçı.
İnsan Haqqı – Pulaltılıq.

**Həqiqət (210)**

Kantda Dünya İdrakla Tamamlanır – İdrak Dünya həddi olur əslində.

Beləliklə də İdraklaşan Dünya – Məhdudlaşır.

**Müasir Hal (2)**

Sponsorluq – Pul Ağalığının Faydası.

**Həqiqət (211)**

Əxlaqdan Azad olmaq – Həyasızlıq.
Əxlaq Azadlığı – Kamillik.

**Həqiqət (212)**

Kapitalizm – Yırtmaq, Yırtılmaq Azadlığı.

**Həqiqət (213)**

Əksinqilabi dəyişiklikləri İnqilabi dəyişikliklər kimi qələmə verirlər – üzlərinin suyu tökülmüşlər...

**Əlaqə (3)**

Kantda Dünya Mənanı İdrakdan alır, bəs İdrak nədən, kimdən? – Allahdan.

Beləliklə də Şübhəçilik təbii şəkildə Dindarlığa gətirib çıxarır.

**Əməl**

Kapitalizmə qarşı qəti, ardıcıl, ruhani döyüş: – Pulçuluğa, Dinçiliyə, Hakimiyyətçiliyə qarşı.

**Riyakarlıq**

"Allahın qarşısında hamı bərabərdir" – deyən Cəmiyyətdə heç vaxt bərabərlik olmayıb.

Cəmiyyət bərabərsizlik üzərində qurulub əslində.

**Həqiqət (214)**

İdrak Dünyanın Mənasını dərk etmək Qüdrətinə malikdir. ***Onun gücü bundadır.***

İdrakın Dünyanı Mənalandırması fikri xurafatdır: ***o, İdrakın cəfəngləşməsidir – cəfəng İdrakilikdir.***

**Həqiqət (215)**

Cəfəng İdrakilik – İdealizmin labüd inkarından yaranır.

Əgər Dünya İdeyalardan – yəni İdrakdakından əmələ gəlibsə, – İdrak elə Dünyanın Mənasıdır; Dünyanın öz Mənası yoxdur, onun Mənası – İdrakdadır – İdrak Dünyaya Məna bəxş edir; - ***"İdraki cəfəngiyyat" törəyir İdealizmdən.***

Cəfəng cismanilik – Materializmin labüd inkarından yaranır: Əgər Dünyada cismanidən başqa heç nə yoxdursa – Dünya Mənasızdır, cəfəngdir. ***"Cismanilik Cəfəngiyyatı" törəyir Materializmdən.***

Əslində isə Dünya öz Mənasından əmələ gəlib, – Mənalıdır; İdrak Mənanı dərk edir, cismani onun Təzahürüdür.

Bu Həqiqəti Mütləqçilik söyləyir.

**Fərqlər (1)**

***Materializmdə*** İdrak – Dünyanı əks etdirir.

***İdealizmdə*** İdrak – İdeyaları, yəni əslində özünü dərk edir.

***Mütləqçilikdə*** İdrak – Dünyanın Mənasını, Mahiyyətini dərk edir.

**Fərq (10)**

Platonda İdrak İdeyaları (özündəkiləri) dərk edir. Kantda İdrak özünü dərk edir.

**Həqiqət (216)**

Kant Fəlsəfəni İdrak haqqında Elmə çevirdi, Kont – Elm haqqında Elmə. ***Hər ikisində Fəlsəfə əksildi – Universallığını itirdi.***

Qnoseologizmdən (İdrakçılıqdan) Syentizmə (Elmçiliyə) gedən yol hamar olur.

***Fəlsəfə Elmin xidmətçisinə çevrilməyə başladı.***

**Həqiqət (217)**

Fəlsəfəni elmləşdirə-elmləşdirə, dəqiqləşdirə-dəqiqləşdirə özündən elədilər – özünə qarşı çevirdilər.

**Həqiqət (218)**

Kantın xalis Zəkası – əslində Fəlsəfəüstü Zəkadır: Fəlsəfəyə İdrak prinsipləri verən, onu quran, təşkil edən Kant Fəlsəfəüstü Fəlsəfə yaradıb əslində – Elmi; ***Elm Kantda Fəlsəfəni üstələyir.***

**Həqiqət (219)**

Kantda İdrak Həyatdan Üstündür, əslində isə Həyatdan üstün olan idrak deyil – idrakın dərk etdiyi Mənadır; Kantda İdrak Mənayla eyniləşir və bu səbəbdən də idrakın özündən başqa dərk edəsi bir obyekti qalmır.

**Əlaqə (4)**

Kantın "İdrakdan başqa heç nə yoxdur" nəticəsindən Fixtenin "Mən və qeyri-Mən birdir" iddiası və Hegelin "Şüurla varlığın eyniliyi" fikri yaranır.

**Həqiqət (220)**

Kantda İdrak İdraksızlıq ifadəçisidir: Dünyaya inanmadığın dərəcədə İdraka inanmalı olursan.

**Həqiqət (221)**

Mütləqçilikdə İdrak Gerçəkliyi ötür ki, Dünyanın Mənasına çatsın. Kantda İdrak gerçəkliyi ötür ki, özünü dərk etsin.

**Həqiqət (222)**

Kant yalnız bir Dünya tanıyır əslində – İdrak.

***Həmin Dünya özünü dərk edir.***

Kantın transsendental (Həyatüstü) Fəlsəfəsi əslində Dünyadan təcrid olunmuş İdrak Fəlsəfəsidir.

Kantda İdrak özünə qapanıb qalır.

**Həqiqət (223)**

Kantda Xalis Zəka İdrak Prinsiplərinin ifadəsidir: xalis Zəkanın təsdiqi İdrak Prinsiplərinin Təsdiqidir.

***Beləliklə də Kantda İdrak İdrakı dərk edir: – Fəlsəfə İdrak Dairəsindən kənara çıxa bilmir.***

**Fərq (11)**

***İdealizmdə*** İdrak – İdraka aid olanları – İdeyaları dərk edir, ***Materializmdə*** – cismanini dərk edir, ***Mütləqçilikdə*** – İdeyalardan üstün, cismanidən üstün olanı.

**Həqiqət (224)**

Kantda Dünyanı Mənalandıran İdrak – Dünyanın Mənasını dərk edə bilmir. İdrak həddi – Mənaya çatmır; Dünyanın Mənası

İdrakın üzünə bağlı qalır. Beləliklə də Dünyanı Mənalandıran – Dünya Mənasından ayrı düşür.

### Əlaqə (5)

Dünyanı Allahdan asılı elədikləri dərəcədə – Ölkəni Dünyadan asılı eləyirlər, Xalqı Hakimdən asılı eləyirlər.

### Müasir Hal (3)

Veteranların əllərindən Qələbəni aldılar, əvəzində Qələbə Yubileyi medalı payladılar.

### Həqiqət (225)

Rüşvətçiliyin əsası – Mənfəətdir.

Mənfəətə əsaslanan cəmiyyətdə Rüşvət – təbii halıdır.

Mənfəət – Mərifət tanımır.

***Rüşvət – Mənfəətli Mərifətsizlikdir.***

### Həqiqət (226)

Kapitalizmdə çoxrəylilik (Plüralizm) Həqiqəti əvəz edir – hər kəsin öz Həqiqəti var, çünki Həqiqət yoxdur.

Sosializmdə Birrəylik (Monolitizm) Həqiqəti əvəz edir – Rəsmi Həqiqətdən başqa Həqiqət yoxdur – yəni Yalandan başqa Həqiqət yoxdur.

### Həqiqət (227)

Rəqabət – Yadlıq halıdır. Yadlıqdan Yağılıq yaranır.

Rəqabətə əsaslanan cəmiyyət Yadlığı, Yağılığı qoruyur.

### Həqiqət (228)

İntriqa – Sadizm (Başqasının əzabından həzz almaq) Əməlidir.

Siyasət – Sadizm yaradır. Sadizm – Siyasətdən bəhrələnir, siyasətə yarayır.

**Həqiqət (229)**

***Dialektikada*** Həqiqət – gerçəkliyə bərabərdir, ***Metafizikada*** İdeyaya – İdrakiliyə bərabərdir. ***Mütləqçilikdə*** – Dünyanın Mənasına bərabərdir.

Dialektika – Gerçəkçidir.

Metafizika – İdeyaçıdır.

Mütləqçilik – Mənaçıdır.

**Həqiqət (230)**

Stalin həm Dahi idi, həm Qatil, həm Qəhrəman idi, həm Cəllad.

Müharibə dövründə o, Dahi və Qəhrəman idi; bu səbəbdən də Qələbə baş tutdu.

Stalinsiz Qələbə Başsız Bədən deməkdir.

**Həqiqət (231)**

Platonda İdrak Transendentalı – Gerçəklikdən Üstün olanı – İdeyanı dərk edir.

Kantda İdrak – özü Transendentaldır – Dünyanı Quraşdıran, – bu səbəbdən də o özünü dərk edir əslində.

**Həqiqət (232)**

Kantda Həqiqi olan – Zəruri olandır – yəni İdrakidir.

Burada Həqiqəti İdrak yaradır – Həqiqət Dünyasızlaşır, Dünya – Həqiqətsizləşir.

**Həqiqət (233)**

Kantda İdrak – Gerçəklikdən Üstün olanı dərk etmir; o özü Dünyadan Üstündür, – yəni Dünya quraşdırandır.

Kant Fəlsəfəsi İdrakın Dünya quraşdırmaq Prinsiplərini tədqiq edir – Dünyanın Mənasını Tədqiq etmir; belə Mənaya inanmır; çünki Kantda Dünyanı Ağıl Mənalandırır: Mənasız Dünyanın başına Ağılı İdrak qoyur; Dünya İdrakdan asılı olur;

İdrak Dünyanın əlindən tutur; onu yeridir – ***İdrak Mənalandığı dərəcədə Dünya Mənasızlaşır.***

**Müasir hal (4)**

Xarici Siyasət – Kollektiv Qəyyumlar istəyi.
Daxili  Siyasət – Kollektiv Qəyyumlar istəyi.
Mədəni Siyasət – Kollektiv Qəyyumlar istəyi.

**Xaricilәşmә Müstәqilliyi**

Xaricilәşәn İqtisadiyyat.
Xaricilәşәn Siyasәt.
Xaricilәşәn Mәdәniyyәt.
Xaricilәşәn Dövlәt.

**Müasir Hal (5)**

Əl açmaq Əlacsızlığı.

**Həqiqət (234)**

Platonun dərk etdiyi İdeyalar Aləmi – Ağıllı Aləmdir – Ağılsız Aləmi İşıqlandıran.

Kantın dərk etdiyi gerçək Aləm – İdrakla İşıqlanan, Ağıllanan Aləmdir.

Platonda Yüksək Aləm Aşağı Aləmi İşıqlandırır.

Kantda İdrak Dünyanı İşıqlandırır.

***Platonda Dünya Dünyadan asılıdır, Kantda – İdrakdan.***

**Həqiqət (235)**

Fenomenologiya (Hadisəşünaslıq) – İdrakı dərk etmə Fəaliyyətindən ayrı öyrənir. Fəlsəfə – İdrak Anatomiyasına çevrilir – Dünyadan ayrı, Həyatdan ayrı, Bütöv İnsandan ayrı.

**Həqiqət (236)**

Strukturalizm (Quruluşşünaslıq) – Dünyanı ***Biçimdə*** görür; onu Mahiyyətsizləşdirir, Mənasızlaşdırır, Mütləqsizləşdirir.

**Müasir Hal (6)**

Yağışdan sonra Günəş də çıxır, Yağmur da yağır; Yağışdan sonra Günəş çıxmadı, Yağmur yağmadı.

**Həqiqət (237)**

Həqiqət nə Abstraktdır, nə Konkret.

Abstrakt deyil – çünki Mahiyyətin ifadəsidir – Mahiyyət Təzahürdə yaşayır.

Konkret deyil – çünki Şəraitdən, Mühitdən, Zamandan Üstündür.

***Həqiqət – Mütləqdir.***

**Həqiqət (238)**

Hegeldə ***Konkret*** – Təzahürlərin özləri deyil, Vəhdətdir; bu səbəbdən də o, əslində Ümumidir.

Abstrakt – Təzahürlərin bir-birindən ayrılmasıdır; bu səbəbdən də o, əslində Ümumi deyil, Təkcədir.

***Hegeldə Həqiqət konkretdir,*** çünki Abstraksiyadan Ümumiyə Yüksəlir.

Hegeldə Konkret sayılan – Ümumidir; Abstrakt sayılan – Təkcə.

Bu səbəbdən də Hegel "Abstrakt Həqiqət yoxdur – Həqiqət həmişə Konkretdir" deyəndə "Təkcə Həqiqət yoxdur, Həqiqət həmişə Ümumidir" deyir.

Bizdə isə bunun əksinə: "Ümumi Həqiqət yoxdur, Həqiqət həmişə Təkcədir!" – deyə şərh edirlər; Həqiqəti Zaman, Şərait, Mühit, Cəmiyyət həddinə salıblar, yoxsullaşdırıblar.

***Hegeldə Ümumi – Konkretdir, bizdəkilərdə – Abstrakt.***

**Həqiqət (239)**

Ekzistensializm – Humanizmi (İnsançılığı) bədbinlik üstə qurur.

Bədbinlikdə insana ağlamaq olar – İnsanı Təsdiq etmək olmaz.

Bu səbəbdən də Bədbin Humanizm olmur...

***Ekzistensializm İnamsız Humanizmdir: Humanizmə zidd olan İnsansızlıqdır.***

**Həqiqət (240)**

İnsanı sevmək azdır; ona inanmaq gərək ki, onu Təsdiq edəsən.

**Həqiqət (241)**

Qərb 20-ci əsrdə Təzə Rəssamlıq yarada bilmədi – Yarımrəssamlıq yaratdı.

Qərb 20-ci əsrdə Təzə Fəlsəfə yarada bilmədi – Yarımfəlsəfə yaratdı.

***Yarımrəssamlıq – Gözəlliyi itirdi.***

***Yarımfəlsəfə – Mütləqiliyi.***

**Həqiqət (242)**

Ekzistensializmdə Adam cəfəng Dünyaya atılır. Əslində cəfəngiyyatı Adam özüylə Dünyaya gətirir.

İnsaniliyindən əksik olan Adam Dünyasını cəfəngiyyatla doldurur...

***Cəfəng Dünya – Adamlıq Əməlidir əslində – Adam Dünyasıdır.***

**Həqiqət (243)**

Ekzistensializmdə İnsan Dünyaya Mahiyyətsiz gəlir. Təbiidir ki, Təməlsiz İnsanı Dünya istədiyi kimi oynadır...

Dünyaaltı İnsan cəfəngiyyatı yaranır Ekzistensializmdən.

**Həqiqət (244)**

Ekzistensializmdə İnsan Azadlığı – Yiyəsizlik, Yersizlik kimi qiymətləndirilir. Yiyəsiz, Yersiz insan Azadlığa məhkum olunub, onun Azadlıqdan başqa əlacı yoxdur; ***Azadlıq onun bəlasıdır,*** Fəlakətidir; o, Yiyəsizliyində, Yersizliyində Azaddır: bu – Yetim Azadlığıdır əslində.

**Həqiqət (245)**

***Ekzistensializm*** cəfəng Dünyada yaşamağı Mətanət sayır.

Adam Mətanətli olsaydı, özüylə döyüşərdi – İnsan olardı – onda Cəfəng Dünya aradan qalxardı – Həqiqi Dünya yaranardı.

**Həqiqət (246–247)**

***Ekzistensializm*** İnsanın Cəfəngiyyat üzərində qələbəsinə inanmır, həm də onun cəfəngiyyatla döyüşünü ləyaqət sayır, – Beləliklə də İnamsız ləyaqət yaranır – İnamsızlıq ləyaqəti yaranır.

**Həqiqət (248)**

Kantın Kopernik çevrilişində İdrak – Təməlini itirmiş Dünyanın Mərkəzinə çevrilir – Təməlsizlik Mərkəzinə çevrilir.

**Həqiqət (249)**

Fəlsəfi Abstraksiyalar Mahiyyəti ifadə edir, Sosioloji Abstraksiyalar – Mahiyyətsizliyi.

"Mütləq" Abstraksiyasında Dünyanın Mahiyyəti bilinir; "Sinif" Abstraksiyasında İnsanilik itir.

Bu səbəbdən də Sosiologiyanı Fəlsəfə saymaq – Mahiyyətsizliyi Mahiyyət saymaqdır.

**Həqiqət (250)**

Fəlsəfənin Məqsədi – Həqiqəti dərk etməkdir.

Politologiya – Siyasəti, yəni əslində Yalan Əməlini öyrənir.

Politologiyanı Fəlsəfə saymaq – Yalanı Həqiqət saymaqdır.

**Həqiqət (251)**

Keyfiyyətlə Kəmiyyətin Birliyi Dialektik Yalandır. Keyfiyyət həmişə Kəmiyyətdən Artıq olur, Üstün olur, Zəngin olur.

**Həqiqət (252)**

Əksliklərin Vəhdəti – Uydurma İdeyadır.
Əksliklər varsa – Vəhdət yoxdur.

Vəhdət varsa – Əksliklər yoxdur.
Dünyanın Vəhdəti – onun Bütöv Mənasındadır.

**Həqiqət (253)**

Həqiqət – Günəş kimidir: Zaman tanımır, Mühit tanımır, Şərait tanımır, Cəmiyyət tanımır – daim İşıq saçır.

**Həqiqət (254)**

Materializm Həqiqəti Reallıqla (Gerçəkliklə) eyniləşdirir. Əslində isə ***Həqiqət – Reallıqdan Üstündür – Mütləq kimi, Mahiyyət kimi, Məna kimi.***

Materializmin Konkret Həqiqəti – Zamanla, Şəraitlə, Mühitlə məhdudlaşan natam, yarımçıq Həqiqətdir – mahiyyətcə Həqiqətsizlikdir.

Hər dövrün öz gerçəkliyi var, ancaq öz Həqiqəti yoxdur – Həqiqət bütün Dövrlər üçün Birdir, çünki Mütləqdir.

**Həqiqət (255)**

Hər Dövrün öz Əqidələri, İdeyaları, İdealları var, ancaq öz Həqiqəti yoxdur. ***Həqiqət onların hamısından Üstündür, çünki Mütləqdir.***

**Həqiqət (256)**

Rasionalizm (Zəkaçılıq) və İrrasionalizm (Ehtirasçılıq) Təzadı – Uydurma Təzaddır – Fəlsəfə Tarixini parçalayan.

***Mütləqçilik – Ehtiraslı Zəka, Zəkalı Ehtiras Fəlsəfəsidir.***

**Həqiqət (257)**

Hegeldə ***Ümumi xüsusini*** rədd etmir, inkar etmir – özündə daşıyır, yaşadır; ***Ümumi elə Xüsusi olur – Xüsusiliyə ehtiyac qalmır.***

Hegel dialektikasının ən təhlükəli cəhəti bundadır: Ümumi xüsusini əvəz edir; Xüsusi Ümumiyə çevrilir – Ümumilik totallaşır (hərtərəfləşir), Xüsusi – Müxtəlifləşir, Fərdiyyət – əksilir.

### Həqiqət (258)

Hegeldə Xüsusilik – xüsusi hadisə kimi öyrənilmir, ümumi hadisə kimi öyrənilir; – Ümumilik hadisəsi kimi öyrənilir; Hegel Ümuminin xeyrinə xüsusidən keçir – Dialektik ustalıqla, məharətlə Xüsusini yaşada-yaşada öldürür.

### Həqiqət (259)

Dialektiklər Ziddiyyətdən Allah düzəldirlər. Dialektikada Dünyanı Ziddiyyət idarə edir əslində.

Dünya İnsanın gözündən düşür. Ziddiyyətin idarə elədiyi Dünyadan nə gözləyəsən?!

### Həqiqət (260)

Daxili Ziddiyyətdən danışırlar.

Əsılində Ziddiyyət Zahirdədir.

Daxildə Bütövlük var.

***Ziddiyyət – Üzdədir, Bütövlük – Daxildə.***

Dialektika Üzdəkini Daxildəki kimi təqdim edir; ***Səthiliyi Dərinlik kimi qələmə verir.***

Mütləq daxildədir, Nisbi zahirdə.

Mütləq bütövdür, Nisbi ziddiyyətli.

Mahiyyət daxildədir, Təzahür zahirdə.

Mahiyyət bütövdür, Təzahür ziddiyyətli.

Məna daxildədir, Hadisə zahirdə.

Məna bütövdür, Hadisə ziddiyyətli.

Əzəli daxildədir, Ötəri zahirdə.

Əzəli bütövdür, Ötəri ziddiyyətli.

Əbədi daxildədir, Keçici zahirdə.

Əbədi bütövdür, Keçici ziddiyyətli.

Sonsuzluq daxildədir, Sonluluq zahirdə.

Sonsuzluq bütövdür, Sonluluq ziddiyyətli.

Kamillik daxildədir, Qeyri-Kamillik zahirdə.

Kamillik bütövdür, Qeyri-Kamillik ziddiyyətli.

**Həqiqət (261)**

Hegeldə Müxtəliflik ilə Vahidlik, Xüsusilik ilə Ümumilik arasında fərq aradan qalxır; mahiyyətcə Müxtəliflik Vahidliyə, Xüsusilik Ümumiliyə çevrilir. ***Əslində bu – Müxtəlifliyin, Xüsusiliyin aradan qaldırılması deməkdir.***

**Həqiqət (262)**

Hegel Vahidlik naminə Təzadları süni surətdə birləşdirir. Onda Azadlıqla Zərurət eyniləşir: "Azadlıq – dərk olunmuş Zərurət" sayılır. Əslində isə Azadlıq – Zərurətdən üstün olmaqdır.

Mahiyyətcə, Hegel Azadlığı inkar edir; Azadlıq Zərurət növü kimi təqdim olunur.

**Həqiqət (263)**

Hegeldə Həqiqət – Təzadlar Birliyini ifadə edir. Nəticədə Azadlıq aradan qaldırılır; təzadlı hadisələr biri digərinə çevrilir.

**Həqiqət (264)**

Hakimlər üçün Azərbaycan yoxdur – Dünya var; Dünyanın cüzi hissəsi olan ölkə var və bu cüzi ölkədə onların böyük Hökmranlığı olmalıdır.

**Həqiqət (265)**

***Hegel – eklektikdir (qarışıqdır)*** əslində – o, həm dialektikdir, həm metafizik; həm idealistdir, həm realist; həm Mütləqçidir, həm Gerçəkçi.

Dialektika Hegelin Mütləqçiliyinə mane oldu, Mütləqçilik Dialektikasına; ***Hegel bütöv təlim yarada bilmədi,*** – Dialektik Mütləqçi, Mütləqçi Dialektik oldu.

**Həqiqət (266)**

Dialektika dahisi sayılan Hegeldə inkişaf nisbidir – İrəliyə gediş – Geriyə qayıdışla nəticələnir – ***Dairəvilik Qaydası əsasında Dəyişilir gerçəklik.***

Mütləqçi olmaq istəyən Hegel burada Yoxluq Fəlsəfəsindən uzaqlaşmağa çalışır; Dəyişkənlik hərcayiliyindən ayrılır; – Metafizikləşir, həm də Təliminin Müəyyənliyinə zərər gətirir; Eklektikaya (Qarışıqlığa) calanır.

**Həqiqət (267)**

Kantda İdraklaşan Gerçəklik Hegeldə – İdrakidir – Ziddiyyətləri Barışdırandır, Təzadları Birləşdirəndir... Kantçılıq – İdrak Fəlsəfəsi sayıldığı dərəcədə Hegelçilik – Gerçəklik Fəlsəfəsi sayılmalıdır.

**Həqiqət (268)**

İdrak sarsılanda – Din yaranır.
İdrak Dini sarsıdanda – İnam yaranır.

**Vəziyyət (2)**

İqtisadi Amillər camaatın başına dolu kimi yağır.

**Həqiqət (269)**

Dünyanın Zənginliyi – Mütləqdir.
Mütləqə çatmaq – Zənginliyə çatmaqdır.
Təzahürün Zənginliyi – Mahiyyətdir.
Mahiyyətə çatmaq – Zənginliyə çatmaqdır.
Hadisənin Zənginliyi – Mənadır.
Mənaya çatmaq – Zənginliyə çatmaqdır.
Ötərinin Zənginliyi – Əzəlilikdir.
Əzəliliyə çatmaq – Zənginliyə çatmaqdır.
Keçicinin Zənginliyi – Əbədilikdir.
Əbədiliyə çatmaq – Zənginliyə çatmaqdır.
Sonlunun Zənginliyi – Sonsuzluqdur.
Sonsuzluğa çatmaq – Zənginliyə çatmaqdır.
Qeyri-Kamilin Zənginliyi – Kamillikdir.
Kamilliyə çatmaq – Zənginliyə çatmaqdır.

***İdrakın Həyatı Yoxsullatmasından danışırlar, əslində İdrak Zənginliyi dərk edir.***

**Mərhələlər (3)**

Poeziya – Mütləqiliyin vəsfi.
Fəlsəfə – Mütləqin dərki.
İnam – Mütləqləşmə.

**Həqiqət (270)**

Ruhun köçürülməsi iddiasında Bəşərin Vahidliyi, İnsaniliyin Əbədiliyi Həqiqəti öz cəfəng ifadəsini tapıb: Burada Həqiqət cəfəngləşib; cəfəngiyyat Həqiqəti Yalanlaşdırıb.

**Müasir Portret**

Təbiətcə Qorxaq və Yaltaqdır.

Ayrı-ayrı anlarda Cəsarətli və Vüqarlı görünür. Həmin anları qabarda bilir, şişirdə bilir, nümayiş etdirə bilir və camaat onu Cəsarətli və Vüqarlı sayır.

**Həqiqət (271)**

Bəsit Şüur Səbəblə Nəticə arasındakı məsafəni qısaldır. Əslində isə Səbəblə Nəticə arasında Məsafə –

Mütləqlə Nisbi arasında Məsafə qədərdir,
Mahiyyətlə Təzahür arasında Məsafə qədərdir;
Mənayla Hadisə arasında Məsafə qədərdir;
Əzəliylə Ötəri arasında Məsafə qədərdir;
Əbədiylə Keçici arasında Məsafə qədərdir;
Sonsuzla Sonlu arasında Məsafə qədərdir;
Kamillə Qeyri-Kamil arasında Məsafə qədərdir.

**Fərqlər (2)**

***Opportunist*** (Təslimçi) – Gerçəkliyi doğruldur.
***Avantürist*** (Macəraçı) – Gerçəkliyi rədd edir.

***Mütləqçi*** – Gerçəkliyi Mənasız saymır – Mənadan aşağı sayır; ona Məna baxımından yanaşır.

**Fərq (12)**

Müdrikin ayağı – İdrak,
Naşının İdrakı – ayağı.

**Həqiqət (272)**

Siyasət yüksək düşüncə tələb eləmir, yüyrək düşüncə tələb eləyir.

Yüksək düşüncə yüyrək olmur – Möhkəm olur.

**Həqiqət (273)**

Feyerbaxda Din insanın Mahiyyətini mənimsəyir. Əslində isə o, İnsanın Mahiyyətini inkar edir: bəndənin – qulun Mahiyyəti olmaz.

**Həqiqət (274)**

İnsanın Mahiyyətini Cəmiyyətdə görmək – Ağalığı Mahiyyətə mindirməkdir; Nökərliyi Mahiyyətə mindirməkdir; Təbəqələşməni Mahiyyətə mindirməkdir; Özgələşməni Mahiyyətə mindirməkdir – İnsanı Mahiyyətdən məhrum etməkdir.

**Həqiqət (275)**

İctimai qanunları təkcə Hadisələr yox, həm də Hallar yaradıb.

Cəzaçılıq həm də intiqamçılıqdır – Cəmiyyətin Adamlardan aldığı intiqamdır.

**Həqiqət (276)**

İctimai Qanunlar Adamları Cəmiyyətdən qorumurlar, Cəmiyyəti Adamlardan qoruyurlar.

**Vəziyyət (3)**

İqtidar bir-biriylə oynayır; xarici ölkələrlə oynayır, camaatla oynayır və unudur ki, onun özünü oynadırlar.

**Həqiqət (277)**

Anarxistlər təkcə Dövləti inkar etmirdilər, Qaydanı, Qanunu, İntizamı da inkar edirdilər.

Əslində Dövləti yalnız Qaydalarla, Qanunlarla, İntizamla əvəz etmək olar.

Qaydasızlıq, Qanunsuzluq, İntizamsızlıq təzədən Dövlətə ehtiyac yaradardı, onu bərqərar edərdi.

**Həqiqət (278)**

Ocaq – Qanunları, Qaydaları, İntizamı inkar eləmir; İctimai Qanunları – İnsani Qanunlarla; İctimai Qaydaları – İnsani Qaydalarla; İctimai İntizamı – İnsani İntizamla əvəz etmək istəyir.

**Həqiqət (279)**

Biz Cəmiyyəti Təcridçiliklə əvəz etmək istəyində deyilik, biz onu Xəlqi Birliklə əvəz etmək istəyirik – yəni Ağalığı, Nökərliyi, Təbəqəliyi, Özgələşməni rədd edirik; İnsanilik əsasında yaranan Birlik istəyirik.

**Həqiqət (280)**

Ağalıq – Ədalətsizlikdir. Cəmiyyət – Ağalıq üzərində qurulub. Deməli, Cəmiyyət özü Ədalətsizlikdir.

Nökərlik – Ədalətsizlikdir. Cəmiyyət – Nökərlik üzərində qurulub. Deməli, Cəmiyyət özü Ədalətsizlikdir.

Təbəqəlik – Ədalətsizlikdir. Cəmiyyət – Təbəqəlik üzərində qurulub. Deməli, Cəmiyyət özü Ədalətsizlikdir.

Özgələşmə – Ədalətsizlikdir. Cəmiyyət – Özgələşmə üzərində qurulub. Deməli, Cəmiyyət özü Ədalətsizlikdir.

**Həqiqət (281)**

Cəmiyyət – qurulmayıb, quraşdırılıb, bu səbəbdən də onu daim dəyişmək lazım gəlir.

**Fərq (13)**

Dünya Standartlarına cavab verən iqtisadiyyat – Tərəqqi; Dünya Standartlarına cavab verən Mədəniyyət – Tənəzzül.

**Həqiqət (282)**

***Materializmdə*** Zəka – Duyğuları nizamlayır, ***İdealizmdə*** rədd edir, ***Mütləqçilikdə*** – ötür.

**Həqiqət (283)**

Cismani Mütləq olmur – bu səbəbdən də Materializm əslində Mütləq tanımır.

Cismani Mahiyyət olmur – bu səbəbdən də Materializm əslində Mahiyyət tanımır.

Cismani Məna olmur – bu səbəbdən də Materializm əslində Məna tanımır.

Cismani Əzəlilik olmur – bu səbəbdən də Materializm əslində Əzəlilik tanımır.

Cismani Əbədilik olmur – bu səbəbdən də Materializm əslində Əbədilik tanımır.

Cismani Sonsuzluq olmur – bu səbəbdən də Materializm əslində Sonsuzluq tanımır.

Cismani Kamillik olmur – bu səbəbdən də Materializm əslində Kamillik tanımır.

**Həqiqət (284)**

Materializm – mahiyyətcə Dialektikdir, çünki cismani – dəyişkəndir, ziddiyyətlidir.

İdealizm – mahiyyətcə Metafizikdir, çünki İdeya dəyişməzdir, bütövdür.

Bu səbəbdən də Dialektika Marks Materializminə yaradı. Hegel İdealizminə yaramadı.

**Mütləqilik Çeşidləri**

İnam – Mütləqləşən Aqibət.

Fəlsəfə – Mütləqləşən İdrak.

Poeziya – Mütləqləşən Söz.
Musiqi – Mütləqləşən Səs.
Rəssamlıq – Mütləqləşən Rəng.

**Mütləqiliyin ifadəsi**

İnsan özünü yarada bilir. Bu ondakı Mütləqiliyin ifadəsidir.
İnsan Mütləqi dərk edir. Bu ondakı Mütləqin ifadəsidir.
İnsan Mütləqə qovuşur. Bu ondakı Mütləqin ifadəsidir.

**Həqiqət (285)**

"Dünya Mütləqdən yaranıb" o deməkdir ki, Dünya öz Mütləqiliyindən yaranıb, – Allah tərəfindən yaradılmayıb; ***Dünyanı Dünya özü yaradıb; özgə yaratmayıb.***

**Həqiqət (286)**

İnsanın özünüyaratma imkanı gerçəkləşməyib – bu səbəbdən də o, İnsani Dünya yarada bilməyib.

**Həqiqət (287)**

İnsan – özünü yaratmaq əvəzinə özünə Yaradan yaratdı, ona tabe oldu; özünə inanmaq əvəzinə Yalana inandı; özünə yaramaq əvəzinə, Yalana yaradı...
Özünə Yalan yaratdı və onu Həqiqət saydı – Yalana tapındı.

**Hal (2)**

Allahsız Dünya görmürlər – Yalansız Həqiqət bilmirlər.

**Həqiqət (288)**

Dünya – cismani gözdə görünür, idraki gözdə dərk olunur.
Cismani göz – Təzahürü görür; İdraki göz – Mahiyyəti.

**Həqiqət (289)**

İnsan Dünyadan üstündür, Dünyanın üstündədir, ancaq Dünyaya qarşı deyil.

İnsanı Dünyayla Mütləq birləşdirir, Mahiyyət birləşdirir, Məna birləşdirir. İnsanla Dünyanın Mütləqi birdir, Mahiyyəti birdir, Mənası birdir.

**Həqiqət (290)**

Nökər – özünə malik olmayan.
Ağa – özgəyə malik olan.

**Həqiqət (291)**

Təbiətin İnsaniləşməsi – Təbiətlə İnsanın birliyini təsdiq edir; Təbiətin İnsaniliyini aşkarlayır. Burada fantaziya Təbiəti uydurmur, onun Mənasına Yetir; İdraka xidmət edir, Təbiətin dərk edilməsinə yarayır.

Çayın mahnı oxuması – onun uydurması deyil, İnsanla tənliyidir; – ***Təbiət haradasa İnsandır – onun da öz Mahnısı var.***

Çay hərfi mənada mahnı oxumur, ancaq mahiyyətcə oxuyur,– onun sularında İnsanilik mahiyyəti axır.

**Hallar**

Birinə nökərlik eləyir ki, birinə Ağalıq eləsin. Birinə Ağalıq eləyir ki, birinə Nökərlik eləsin.

**Dindarlıq**

Adamlar özlərinə sahib olmadıqları dərəcədə Dünyaya sahib axtarırlar.

**Həqiqət (292)**

Din – Qorxudan yaranır, İnam – Cəsarətdən.

**Həqiqət (293)**

Adamlar "Təbiətin Ruhu" deyəndə Təbiətin Mənasını nəzərdə tutmurdular, Ağalığını nəzərdə tuturdular.

Daşın Daş Ağalığı vardı, Ağacın Ağac Ağalığı, Göyün Göy Ağalığı...

Həmin Ağalıqlar birləşib Allah Ağalığını yaradırdı.

**Həqiqət (294)**

“Hər kəsin öz Həqiqəti var” sözünün bir Mənası var: – Həqiqət yoxdur.

Həqiqət çoxluğu əslində Həqiqət yoxluğudur.

**Həqiqət (295)**

İnsana özündən başqa heç bir qüvvə kömək durmayıb. Ancaq o, həmişə özündən kənardakı Qüvvələrdən kömək diləyir...

İnsan həmişə aldanıb, özünü aldadıb.

**Həqiqət (296)**

Həm Din, həm Cəmiyyət – Ağalığa itaətə əsaslanır. Bu baxımdan Din – Cəmiyyətçidir, Cəmiyyət – Dinçi.

**Həqiqət (297)**

İnsan əvvəl Təbiətdən özünə Ağa yaratdı, sonra Təbiətə Ağalıq elədi. Hər ikisində o, Təbiətlə yadlaşdı, yağılaşdı.

**Günah (1)**

Adam Allah yaratdı ki, Özünü yaratmasın.

**Hal (3)**

Mənfəət – əksər hallarda Mərifət bahasına qazanılır.

**Həqiqət (298)**

***Din*** – Mənasızlığı gerçəklikdən uzaqlaşdırır, sirləşdirir, sehrləşdirir; yalançı Müqəddəslik yaradır – Mənasız, Mahiyyətsiz.

***İnam*** – Gerçəkliyin sirli, sehrli Mənasına yüksəlir, həqiqi Müqəddəslik yaradır – Mənalı, Mahiyyətli.

**Həqiqət (299)**

Bəşər Dinə inanır, Pula inanır, Hakimiyyətə inanır – deməli, özünə inanmır və bu inamsızlığı İnam sayır.

**Həqiqət (300)**

Din – Müqəddəsləşən yalançılıqdır.

Adam Həqiqətdən yarımayanda – Yalana inanır. Din həmin haldan yaranıb, həmin halı yaşadır; Yalançılıq əməlidir, Yalançı Amaldır, Yalana inamdır – inamsızlıqdır.

**Fərq (14)**

***Din*** – İnsanı əsarətə salan cəfəngiyyat Azadlığıdır.

***İnam*** – İnsanı əsarətdən qurtaran Həqiqət Azadlığıdır.

**Həqiqət (301)**

Cəmiyyət ***Vicdan*** adlı Gücə arxalanmır – Vucdansızlıq adlı gücsüzlüyə arxalanır; ***Təmənnasızlıq*** adlı Gücə arxalanmır – Təmənna adlı gücsüzlüyə arxalanır; ***Fədakarlıq*** adlı Gücə arxalanmır – Xudbinlik adlı gücsüzlüyə arxalanır.

Cəmiyyəti gücsüzlük yaşadır, bu səbəbdən də o, Gücə qarşıdır.

**Həqiqət (302)**

Nisbi Varlıq olmur – Mütləq Varlıq olur.
Mütləq Yoxluq olmur – Nisbi Yoxluq olur.

**Həqiqət (303)**

Yaşamağın Mənası – İnsaniliyə Yetməkdir.
***İnsandan Dünyada İnsanilik qalır.***

**Həqiqət (304)**

"Yaşamaq üçün Döyüş"ə həsr olunan Həyat – məqsədsizdir; Yaşamaq – Yaşamağın məqsədi ola bilməz.

Məqsədsiz Həyat – Mənasız Həyatdır.

Kapitalizm Həyatı Məqsədsizləşdirir, Mənasızlaşdırır.

**Özünüdərketmə (2)**

Özündəki İnsaniliyi dərk etmə özündəki İnsaniliyə çatmaq Tələbini dərk etmə; özündəki İnsaniliyə çatmaq Əməlini dərk etmə.

**Həqiqət (305)**

Cəmiyyətin Gücü – Gücsüzlükdədir.

İnsanilik azaldıqca – Cəmiyyətin gücü artır. İnsanilik artdıqca Cəmiyyətin gücü azalır.

**Günah (2)**

İdrak duyğusuzlaşanda – duyğulara Din hakim olur; Həqiqət Duyğusuzlaşanda – duyğulara Cəfəngiyyat hakim olur.

**Yaranış**

***Varlıq*** – Yoxluqdan yaranmayıb, Yoxluq – Varlıqdan yaranıb.

***Həyat*** – Ölümdən yaranmayıb, Ölüm Həyatdan yaranıb.

***Məna*** – Hadisədən yaranmayıb, Hadisə Mənadan yaranıb.

***Əzəli*** – Ötəridən yaranmayıb, Ötəri – Əzəlidən yaranıb.

***Əbədi*** – Keçicidən yaranmayıb, Keçici – Əbədidən yaranıb.

***Kamil*** – Qeyri-Kamildən yaranmayıb, Qeyri-Kamil – Kamildən yaranıb.

**Hal (4)**

Din – adamları Yoxluq qaranlığına qərq edir.
İnam – adamları Varlıq işığına çıxarır.
Din – Yoxluğa inanır, inandırır.
İnam – Varlığa inanır, inandırır...

**Ləyaqətli Bilməzlik**

Müdrik – naşılıq bilmir.
Sadiq – xainlik bilmir.
Qorxmaz – qorxaqlıq bilmir.
Mərd – Namərdlik bilmir.

**Fərq (15)**

***Din Peyğəmbərliyi*** – Cəfəngiyyat Ehtizazı.
***İnam Peyğəmbərliyi*** – Həqiqət Vəhyi.

**Həqiqət (306)**

Naqis Adamda Ruh bədənə tabe olur;
Kamil İnsanda – bədən Ruha.

**Həqiqət (307)**

Bədəndən keçmək – Kamillik deyil, zəiflikdir.
Bədəndən keçməmək, onu Ruha tabe etmək – Kamillikdir.

**Həqiqət (308)**

Din – Xəyal əsarətidir, İnam – İdrak azadlığı.
Din – Xülya qaranlığıdır, İnam – ümid işığı.

**Həqiqət (309)**

Dini Adamlıq yaşadır, İnamı – İnsanlıq.

**Həqiqət (310)**

Din – Həqiqətsizlik fəlakətindən yaranıb, İnam – Həqiqət səadətindən.

**Həqiqət (311)**

Dində Dünyanı Allah yaradıb, İnamda – özü.

Dində Dünya yoxdan yaranıb, İnamda – Vardan.

Dində Dünyanı Allah idarə eləyir, İnamda – Dünyadakı Mütləq.

Dində o Dünya var və əslində bu Dünya yoxdur; İnamda bu Dünya var, o Dünya – yoxdur.

Dində Qismət hökm sürür, İnamda – Mahiyyət.

Din – İtaət üstə qurulub,
İnam – Vüqar üstə.
Din – bəndə yaradır,
İnam – İnsan.

**Həqiqət (312)**

İnsan ictimai varlıq olsaydı – Ağalıq insani sayılardı, Nökərlik İnsani sayılardı, Təbəqələşmə İnsani sayılardı, Özgələşmə İnsani sayılardı.

Ağalıq İnsani sayılmır, Nökərlik İnsani sayılmır, Təbəqələşmə İnsani sayılmır, Özgələşmə İnsani sayılmır.

Bu səbəbdən də insan – ictimai varlıq deyil, əslində ***qeyri-ictimai*** – Ruhani varlıqdır.

**Həqiqət (313)**

***Cəmiyyət*** – insanın özünü yaratmaq imkanına ziddir; o, insandan rəiyyət yaradır.

***Din*** – insanın özünü yaratmaq imkanına ziddir; o, insandan bəndə yaradır.

**Həqiqət (314)**

Ruhani Varlıq – ictimai varlıq ola bilməz. Çünki ***İnam*** – Ağalıq tanımır, Nökərlik tanımır, Təbəqələşmə tanımır, Özgələşmə tanımır; çünki ***İdrak*** – Ağalıq tanımır, Nökərlik tanımır, Təbəqələşmə tanımır, Özgələşmə tanımır; çünki ***Mənəviyyat*** – Ağalıq tanımır, Nökərlik tanımır, Təbəqələşmə tanımır, Özgələşmə tanımır; çünki ***İradə*** – Ağalıq tanımır, Nökərlik tanımır, Təbəqələşmə tanımır, Özgələşmə tanımır.

**Həqiqət (315)**

Cəmiyyəti Xəlqi Birliklə eyniləşdirirlər.

Əslində isə Xəlqi Birlik – mahiyyətcə Cəmiyyətə qarşıdır, – çünki Ağalığa qarşıdır, Nökərliyə qarşıdır, Təbəqələşməyə qarşıdır, Özgələşməyə qarşıdır.

**Həqiqət (316)**

Bütün Xalq Hakimiyyətləri – Xalq üzərində hakimiyyətlər olur əslində.

**Həqiqət (317)**

Xalq Hakimiyyəti anlayışı – siyasi uydurmadır.

Xalq kimin üzərində hakimdir? – Özünün?

**Həqiqət (318)**

***Ağalıq aradan qalxanda*** – Xəlqi Birlik yaranacaq.
***Nökərlik aradan qalxanda*** – Xəlqi Birlik yaranacaq.
***Təbəqələşmə aradan qalxanda*** – Xəlqi Birlik yaranacaq.
***Özgələşmə aradan qalxanda*** – Xəlqi Birlik yaranacaq.
***Cəmiyyət aradan qalxanda*** – Xəlqi Birlik yaranacaq.

**Həqiqət (319)**

Sosializm – Ağalığı yaşatdı, Nökərliyi yaşatdı, Təbəqəliyi yaşatdı, Özgəliyi yaşatdı. ***Bu səbəbdən də yaşamadı.***

Kapitalizm – Ağalığı yaşadır, Nökərliyi yaşadır, Təbəqəliyi yaşadır, Özgəliyi yaşadır. ***Bu səbəbdən də yaşamayacaq.***

**Həqiqət (320)**

İdrak – ***Həqiqəti*** yaratmır – Həqiqət İdrakı yaradır – özünə çatdırır.

İdrak – ***Mahiyyəti*** yaratmır – Mahiyyət İdrakı yaradır – özünə çatdırır.

İdrak – ***Mənanı*** yaratmır – Məna İdrakı yaradır – özünə çatdırır.

İdrak – ***Əzəlini*** yaratmır – Əzəli İdrakı yaradır – özünə çatdırır.

İdrak – ***Əbədini*** yaratmır – Əbədi İdrakı yaradır – özünə çatdırır.

İdrak – ***Sonsuzu*** yaratmır – Sonsuz İdrakı yaradır – özünə çatdırır.

İdrak – ***Kamilliyi*** yaratmır – Kamillik İdrakı yaradır – özünə çatdırır.

**Həqiqət (321)**

İnsan İnsaniliyə zidd olan Cəmiyyətdə yaşayır, bu səbəbdən də Cəmiyyətə zidd olur.

İnsaniliyə zidd olmayan Ağalıq olmur.

Ağalığa zidd olmayan İnsan olmur.

İnsaniliyə zidd olmayan Nökərlik olmur.
Nökərliyə zidd olmayan İnsan olmur.
İnsaniliyə zidd olmayan Təbəqəlik olmur.
Təbəqəliyə zidd olmayan İnsan olmur.
İnsaniliyə zidd olmayan Özgələşmə olmur.
Özgələşməyə zidd olmayan İnsan olmur.

Cəmiyyəti seçən – İnsanilikdən keçir, İnsaniliyi seçən – cəmiyyətdən.

***"Cəmiyyət – İnsan birliyi" – İnsanilikdən keçənlərin uydurmasıdır.***

**Çeşidlər (1)**

***Həyat adamı*** – Nisbiçi, Təzahürçü, Hadisəçi, Ötəriçi, Keçiciçi, Sonluçu, Qeyri-Kamilçi.

***Cəmiyyət adamı*** – Ağaçı, Nökərçi, Təbəqəçi, Özgəçi.

İnam İnsanı – Mütləqçi, Mahiyyətçi, Mənaçı, Əzəliçi, Əbədiçi, Sonsuzçu, Kamilçi.

**Həqiqət (322)**

Din – İnsanı alçaldır ki, Allahı yüksəltsin.
İnam – İnsanı yüksəldir ki, Mütləqə çatsın.

**Həqiqət (323)**

Din – cəfəngiyyat həvəsindən yaranıb,
İnam – Həqiqət ehtirasından.

**Həqiqət (324)**

İnsan: ***Cəmiyyət yüksəkliyində*** – alçalır.
***Ağalıq yüksəkliyində*** – alçalır.
***Nökərlik yüksəkliyində*** – alçalır.
***Təbəqəlik yüksəkliyində*** – alçalır.
***Özgəlik yüksəkliyində*** – alçalır.
İnsan: ***İnama*** – yüksəlir,
***İdraka*** – yüksəlir,

***Mənəviyyata*** – yüksəlir,
***İradəyə*** yüksəlir.

Cəmiyyət – İnsaniliyə qarşıdır, bu səbəbdən də İnsan – Cəmiyyətə qarşıdır.

**Həqiqət (325)**

Elm – hələlik İnsandan kənardakı Dünyanı dərk edib; Natam Dünyanı dərk edib, – indi o, İnsanlı Dünyanı – bütöv Dünyanı dərk etməlidir; Dünyadakı İnsaniliyi, İnsandakı Dünyalığı dərk etməlidir; onda Mistika aradan qalxar.

Dünyanı İnsandan ayıranda – Dünya mistikləşir, İnsan mistikləşir.

**Həqiqət (326)**

Cəmiyyət İnamı – Ağalıq İnamı, Nökərlik İnamı, Təbəqəlik İnamı, Özgələşmə İnamı – İnamsızlıq.

Cəmiyyət İdrakı – Ağalıq İdrakı, Nökərlik İdrakı, Təbəqəlik İdrakı, Özgələşmə İdrakı – İdraksızlıq.

Cəmiyyət Mənəviyyatı – Ağalıq Mənəviyyatı, Nökərlik Mənəviyyatı, Təbəqəlik Mənəviyyatı, Özgələşmə Mənəviyyatı – Mənəviyyatsızlıq.

Cəmiyyət İradəsi – Ağalıq İradəsi, Nökərlik İradəsi, Təbəqəlik İradəsi, Özgələşmə İradəsi – İradəsizlik.

**Həqiqət (327)**

Fədakarlıq – özünə çatmaqdır. Bu səbəbdən də o, Bayramdır.

**Həqiqət (328)**

Dinin əydiyi Bəşəri İnam Düzəltməlidir.

**Həqiqət (329)**

Yeni İnsan Əsərlər yarada bilir, – Yeni Dünya yarada bilmir, çünki özünü yarada bilmir.

**Həqiqət (330)**

Dünyanın Mahiyyətində – İnsanilik var; onu dərk etmədən Dünyanı dərk etmək olmaz.

İnsanın Mahiyyətində – Dünyəvilik var; onu dərk etmədən İnsanı dərk etmək olmaz.

Elm Dünya–İnsan Birliyini dərk etməsə – Həqiqətə çatmaz.

***Elmi qanunların İnsanilik tərəfi var – öyrənilməli.***

İnsan Dünyadan üstün olsa da, Dünyadan ayrı deyil. İnsan Təbiətə bənzəyir, Təbiət – İnsana.

Bu Həqiqəti Elm dərk etməyib hələ. Bədiiyyat onu nişan verib.

Elm – İnamlaşmalıdır, İnsanlaşmalıdır ki, Dünyanın Mahiyyətinə çatsın.

**Həqiqət (331)**

Gözələ gül demək azdır. Gözəlin – Güllüyünü, Gülün – Gözəlliyini dərk etmək gərək.

Botanikaya ***insanşünaslıq*** müdaxilə etməlidir, İnsanşünaslığa – ***Botanika...***

**Müasir Hal (7)**

***Din*** – Siyasi Yalanı Müqəddəsləşdirir.
***Siyasət*** – Dini Yalanı Rəsmiləşdirir.

**Həqiqət (332)**

Ekzistensializm – yarımçıq humanizmdir, yarım humanizmdir.

O, cəmiyyətin insanı alçaltdığını görür, insanın Cəmiyyətdən üstünlüyünü görmür.

**Həqiqət (333)**

Ekzistensializmdə İnsan – Cəmiyyətə qarşı dura bilmir – çünki Mahiyyətsizdir.

**Cəfəngiyyatçılıq**

Dini İnam – cəfəngiyyatçılıq.
Dini İdrak – cəfəngiyyatçılıq.
Dini Mənəviyyat – cəfəngiyyatçılıq.
Dini İradə – cəfəngiyyatçılıq.

**Həqiqət (334)**

***İnam Sirri, Sehri inkar eləmir.***

Dünyanın Dünyalıq adlı Sirri var, Sehri var. Həyatın Həyatlıq adlı Sirri var, Sehri var. İnsanın İnsanlıq adlı Sirri var, Sehri var.

Ötərinin Əzəlilik adlı Sirri var, Sehri var. Keçicinin Əbədilik adlı Sirri var, Sehri var. Sonlunun Sonsuzluq adlı Sirri var, Sehri var. Qeyri-kamilin Kamillik adlı Sirri var, Sehri var.

***İnam Cəfəngiyyat Sirrini, Sehrini rədd edir.***

**Həqiqət (335)**

İnsanın Dünyalığı – İnsanilikdir.
Dünyanın İnsaniliyi – Dünyalıqdır.
İnsanın Dünyalığı – Dünyadan artıqdır.
Dünyanın İnsaniliyi – İnsandan artıqdır.

**Həqiqət (336)**

İnsandan Təcrid olunmuş Dünya – İnsaniliyini itirir.
Dünyadan Təcrid olunmuş İnsan – Dünyalığını itirir.

**Həqiqət (337)**

***Mahiyyət*** – Təzahürə bərabər olsaydı, Təzahür Mahiyyətsizləşərdi, – çünki Ötəri Mahiyyət olmur; Keçici Mahiyyət olmur; Sonlu Mahiyyət olmur; Qeyri-kamil Mahiyyət olmur.

***Məna*** – Hadisəyə bərabər olsaydı, Hadisə Mənasızlaşardı, – çünki Ötəri Məna olmur; Keçici Məna olmur; Sonlu Məna olmur; Qeyri-kamil Məna olmur.

***Mahiyyət*** Təzahürdən artıqdır, – çünki Mütləqdir, Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.

***Məna*** Hadisədən artıqdır, – çünki Mütləqdir, Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.

**Həqiqət (338)**

Ekzistensial fərd – Cəmiyyəti ötə bilmir; Cəmiyyət həddində qalır; bu səbəbdən də özünə çatmır.

Ekzistensial fərd – Cəmiyyətə qarşıdır, ancaq Cəmiyyətdən üstün deyil; bu səbəbdən də Cəmiyyətə yarayır, Cəmiyyəti yaşadır.

**Həqiqət (339)**

Ekzistensializmdə insani həyat imkanı gerçəkləşmir, çünki insan – İnsaniliyə yetmir; Ekzistensializm İnsandakı Mütləqiliyi görmür, bu səbəbdən də İnsanı gerçəkliyə pərçimləyir; Gerçəkliyə lənətlər yağdıran İnsan – Gerçəkliyə qapılıb qalır; İnsanın Gerçəkliyə yadlığı aşkarlanır, Gerçəklikdən üstünlüyü aşkarlanmır.

**Həqiqət (340)**

Ekzistensializm İnsanın halına acıyır, fəlakətinə ağlayır; ancaq dərdinə dərman tapmır; çünki İnsanilik tanımır: Ekzistensializmdə İnsan öz halından artıq deyil, fəlakətindən artıq deyil.

**Həqiqət (341)**

Ekzistensializmdə İnsan – uçuruma düşür, çabalayır, fəryad qoparır, haray salır, – uçurumdan çıxa bilmir, – çünki Mahiyyətsizdir.

**Həqiqət (342)**

Ekzistensializmdə İnsan Cəfəngiyyatla cəfəng mübarizə aparır. Cəfəngiyyat üzərində qələbəyə inanmadan mübarizə aparır; Mübarizə naminə mübarizə aparır; Mənasızlıq əleyhinə mənasız mübarizə aparır; ***Hünər Mənadan aralı düşür.***

**Həqiqət (343)**

Ekzistensializm insanı fərdiliyini saxlamağa çağırır... Hansı qüdrətlə İnsan buna nail ola bilər?

***Ekzistensializm əslində İnam Qüdrəti tanımır, İdrak Qüdrəti tanımır, Mənəviyyat Qüdrəti tanımır, İradə Qüdrəti tanımır.***

Bu səbəbdən də Ekzistensial çağırış Şüarçılıqdan kənara çıxmır.

**Həqiqət (344)**

Ekzistensializm İnsanı zülmətə salır, zülmətdə saxlayır; onu işıqlı sayır; ancaq həmin İşıq Zülmətə çatmır, Zülməti yarmır; İnsan öz İşığıyla Zülmətdə qalır – İşıq özü Zülmətə qərq olur.

**Həqiqət (345)**

Ekzistensializm Cəmiyyətin İnsaniliyinə inanmır. O, həm də İnsanın Cəmiyyətdən üstünlüyünə inanmır.

Ekzistensializmə görə, İnsan qeyri-İnsani cəmiyyətdə yaşamalıdır; – yəni İnsanilik qeyri-insani cəmiyyəti aradan qaldırmır. Bu, qeyri-insanilikdir əslində.

**Həqiqət (346)**

Adam – Dünyanın üstünə çıxır, dayana bilmir – başı fırlanır – Dünyanın dibinə düşür.

**Həqiqət (347)**

Ekzistensializmdə əsl həyat (ekzistensiya) – daxildən zəngin həyatdır, konkret həyatdır, fərdi həyatdır, bənzərsiz həyatdır.

***Daxilən zəngin həyat*** – qeyri-insani cəmiyyəti aradan qaldırmalıdır.

***Konkret həyat*** – qeyri-insani cəmiyyəti aradan qaldırmalıdır.

***Fərdi həyat*** – qeyri-insani cəmiyyəti aradan qaldırmalıdır.

Bənzərsiz həyat – qeyri-insani cəmiyyəti aradan qaldırmalıdır.

Ekzistensializm əsl həyatı cəmiyyətdə yaşadır; bu səbəbdən də ***əsl həyat – yaşamır***.

**Həqiqət (348)**

Mədəniyyət – İctimai hadisə deyil, Ruhani hadisədir. Cəmiyyət onu özünə tabe edir: – Mədəniyyət üzərində cəmiyyət Ağalığı bərqərar olur; Mədəniyyət Nökərləşir, Təbəqələşir, Özgələşir.

**Həqiqət (349)**

Cinayət – Cəmiyyətin davamıdır.

Qanuni Ağalıq – qeyri-qanuni Ağalıq yaradır; qanuni Nökərlik qeyri-qanuni Nökərlik yaradır; Qanuni Təbəqəlik – qeyri-qanuni Təbəqəlik yaradır; Qanuni Özgəlik – qeyri-qanuni Özgəlik yaradır.

**Parlament (1)**

Ağalığa seçdirənlər yığnağı.

**Demokratik Seçkilər**

Seçdirilmə fəndi nümayişi.

**Həqiqət (350)**

Ədalətli Cəmiyyət olmur – çünki Ədalətli Ağalıq olmur; Ədalətli Nökərlik olmur; Ədalətli Təbəqəlik olmur; Ədalətli Özgələşmə olmur.

***Cəmiyyət – Ədalətsizlik deməkdir əslində.***

**Demokratiya**

Xalqçıların Xalq üzərində Ağalığı.

**Günah (3)**

Din – Cəfəngiyyat günahına batıb,
– Qismət günahına batıb,
– Cənnət günahına batıb,
– Cəhənnəm günahına batıb,
– İtaət günahına batıb.
Əslində Din – özü elə Günahdır.

**Həqiqət (351)**

***Din – Peyğəmbərliyi yaradıcılıqdan məhrum edir.***

Dini Peyğəmbərlərin öz Sözləri yoxdur, onlar Allahın Sözünü camaata çatdırırlar.

**Həqiqət (352)**

Bütün hakimiyyətlər – əslində Allah hakimliyidir. Birində onu Xəlifə təmsil eləyir, o birində Şah, digərində Prezident; Hətta ateist hakimlər belə Allah təmsilçiləridir: – onların Allahı – İdeologiyadır.

***Din – mahiyyətcə Hakimiyyətçidir; Hakimiyyət – mahiyyətcə Dinçidir.***

**Həqiqət (353)**

Dinə qayıtdılar – Məğlubiyyətə çatdılar.
Pulçuluğa qayıtdılar – Məğlubiyyətə çatdılar.
Siyasətçiliyə qayıtdılar – Məğlubiyyətə çatdılar.

**Həqiqət (354)**

Cəmiyyət – ***Birlik*** tanımır, ***cəmlik*** tanıyır;

Çünki Yadlar ***Birliyi*** olmur, Yadlar ***Cəmi*** olur; çünki ***Ağalıq*** – Birlik yaratmır, cəmlik yaradır; çünki ***Nökərlik*** – Birlik yaratmır, cəmlik yaradır; çünki ***Təbəqəlik*** – Birlik yaratmır, cəmlik yaradır; çünki ***Özgələşmə*** – Birlik yaratmır, cəmlik yaradır.

**Həqiqət (355)**

***Din*** – Mütləqiliyi Dünyadan ayırır, onu xüsusi, ilahi varlıq sayır, – Dünyaya qarşı qoyur. ***Beləliklə də iki Dünya yaranır: – İlahi Dünya, Gerçək Dünya.***

***İnam*** – Mütləqiliyi Dünyayla eyniləşdirmir, həm də Dünyadan ayırmır; Dünyaya qarşı qoymur; Mütləqiliklə Dünyanın Birliyini təsdiq edir; – Dünyadan artıq olanın Dünyalığını təsdiq edir. İnam – Bir Dünya tanıyır: – Mütləqiliyin Təzahürü olan gerçək Dünya.

Dünya nisbidir, ancaq onun Mahiyyəti Mütləqdir.
Mahiyyətlə Təzahür Birdir; deməli, Dünya Birdir.

**Həqiqət (356)**

Nisbi Dünyanın Mahiyyətə malik olması adi təsəvvürə sığmır; ancaq bu bir həqiqətdir; Nisbilərdən ibarət olan Dünya – nisbidir, ancaq Mahiyyətli Dünya – Mütləqilikdən xali deyil – çünki Nisbi Mahiyyət olmur...

**İdrak İnamçılığı**

Ziddiyyətli Dünyanın Bütövlüyünə çatmaq.
Nisbili Dünyanın Mütləqiliyinə çatmaq.
Hadisəli Dünyanın Mənasına çatmaq.
Ötərili Dünyanın Əzəliliyinə çatmaq.
Keçicili Dünyanın Əbədiliyinə çatmaq.
Sonlu Dünyanın Sonsuzluğuna çatmaq.
Qeyri-Kamil Dünyanın Kamilliyinə çatmaq.

**Vəziyyət (4)**

İndiki siyasətdə Azərbaycan Dünyaya tapşırılır. Dünya isə ağzını açıb ölkə gözləyir ki, udsun.

**Həqiqət (357)**

Cəmiyyəti Adamlıq yaradır. İctimai qanunlar cəmiyyəti Adamdan qoruyur.

**Həqiqət (358)**

Rüşvət – qeyri-rəsmi pulçuluq.

**Həqiqət (359)**

Sosializm – açıq cəmiyyətçilikdir; Kapitalizm – gizli cəmiyyətçilik.

Sosializm – qəti və sərt totalitarizmdir; Kapitalizm – qeyri-müəyyən və yumşaq totalitarizm.

## Həqiqət (360)

***İnsaniliyin olsa,*** – ən qeyri-insani zamanda İnsani yaşayarsan.

***İnamın olsa,*** – ən İnamsız zamanda İnamlı yaşayarsan.

***İdrakın olsa,*** – ən İdraksız zamanda İdraklı yaşayarsan.

***Mənəviyyatın olsa,*** – ən Mənəviyyatsız zamanda Mənəviyyatlı yaşayarsan.

***İradən olsa,*** – ən İradəsiz zamanda İradəli yaşayarsan.

***İnsaniliyin olsa,*** – ən qeyri-insani zamanda öz İnsani Dünyanı yaradarsan.

***İnamın olsa,*** – ən İnamsız zamanda öz İnamlı Dünyanı yaradarsan.

***İdrakın olsa,*** – ən İdraksız zamanda öz İdraklı Dünyanı yaradarsan.

***Mənəviyyatın olsa,*** – ən Mənəviyyatsız zamanda öz Mənəviyyatlı Dünyanı yaradarsan.

***İradən olsa,*** – ən İradəsiz zamanda öz İradəli Dünyanı yaradarsan.

***İnsaniliyin olsa,*** – qeyri-insani zəmanəyə üstün gələrsən.

***İnamın olsa,*** – İnamsız zəmanəyə üstün gələrsən.

***İdrakın olsa,*** – İdraksız zəmanəyə üstün gələrsən.

***Mənəviyyatın olsa,*** – Mənəviyyatsız zəmanəyə üstün gələrsən.

***İradən olsa,*** – İradəsiz zəmanəyə üstün gələrsən.

## Həqiqət (361)

***Xəlqi Cəmiyyət nə deməkdir?***

Xəlqi Ağalıq?
Xəlqi Nökərlik?
Xəlqi Təbəqəlik?
Xəlqi Özgələşmə?

Xəlqi Cəmiyyət – Ağalıq uydurmasıdır,
– Nökərlik uydurmasıdır,
– Təbəqəlik uydurmasıdır,
– Özgələşmə uydurmasıdır.

## Həqiqət (362)

Ekzistensializm cəfəngiyyata qarşı cəfəngiyyatı qoyur; yəni cəfəng Dünyaya qarşı cəfəng mübarizəni bu səbəbdən də cəfəngiyyatdan çıxa bilmir; əslində cəfəngiyyata qarşı Həqiqəti qoymaq gərək: Dinə qarşı – İnamı, Cəmiyyətə qarşı – Birliyi, Maddiyyata qarşı – Ruhaniyyatı...

## Həqiqət (363)

Özünü Yaşamaq Fəlsəfəsi elan edən Ekzistensializm əslində Yaşamamaq Fəlsəfəsidir...

Ekzistensializmdə İnsan öz həyatında bircə şeyə – Heçliyə nail olur.

Ölüm ayağında o, Heçliyi dərk edir...

Ekzistensializm Yaşamağı Yaşamamaq kimi təqdim edir əslində...

Burada Yaşamağın nəticəsi – Yaşamamaq, Heç olmaq, Puç olmaqdır.

***Əslində isə Yaşamaq – İnsaniliyə yetmək yoludur.***
***Ölüm – Yolçuları aparır, Yolu apara bilmir.***
***Yol qalır, Təzə Yolçular Yolu davam etdirirlər.***
***Yaşamaq – İnsanilik Yolçuluğudur.***

## Həqiqət (364)

Berdyayev – Fərdi Cəmiyyətin əlindən alıb Allaha tapşırır.
Əslində Allah – özü Cəmiyyətdir...
Bəndələşmə – Rəiyyətləşmədir.

## Həqiqət (365)

Ekzistensializmdə İnsan Dünyaya atılıb – çıxa bilmir.
Əslində isə İnsan Dünyanın üzərinə qalxıb – dayana bilmir.

## Gözləmələr

Din – Dünyanın ölümünü gözləyir (Apokalipsis).
İnam – Dünyanın Yaşamasını gözləyir (İnsanlaşma Tələbi).

**Həqiqət (366)**

Ümumiləşdirilmiş, xüsusiləşdirilmiş, fərdsizləşdirilmiş, müxtəlifsizləşdirilmiş Dünya yaradırlar Qabaqcıllar.

***Qabaqcıl Dünyasızlıq Yaradırlar.***

**Həqiqət (367)**

Kapitalizmdə xüsusi Mülkiyyət var, – ancaq xüsusi Həyat yoxdur; Kapitalizmdə Həyat hədsiz dərəcədə ümumiləşdirilmiş, ictimailəşdirilmiş, standartlaşdırılmış haldadır...

Kapitalizmdə Fərd Cəmiyyətdən hədsiz dərəcədə asılıdır: onun qanunlarından, müəssisələrindən, siyasi oyunlarından, təsirindən, təzyiqindən...

Kapitalizm – rəqabət azadlığı, yadlıq azadlığı, varidatçılıq, maddiyyatçılıq azadlığı, siyasətçilik azadlığı yaradır ki, bu əslində əsarətdir.

Kapitalizm – mahir yalançıdır; özünü uydura bilir, uydurmasını yaya bilir, gözləri yuma bilir, qulaqları batıra bilir.

Kapitalizm – Fərdçilik biçimində görünən cəmiyyətçilikdir. O, bəşərin Adamlıq səviyyəsinə uyğundur; bəşərin İnsanlıq səviyyəsində o, Yer üzündən silinəcəkdir.

**Həqiqət (368)**

Din – İnsanı Allahın yanında gözü kölgəli eləyir ki, itaətdə saxlasın.

**Həqiqət (369)**

Hegeldə Ümumi həm də Xüsusidir.

Bu, Xüsusinin inkarı deməkdir əslində.

Ümumi – Xüsusilərin Birliyidir. Cəmiyyət həmin Birlikdən uzaqdır. Cəmiyyət Ümumiliyi – Xüsusiliyə qarşıdır.

Hegel öz Məntiqində cəmiyyətçi kimi çıxış edir; bu səbəbdən də Xüsusiliyi rədd edir əslində.

***Hegelin Dialektikasında Xüsusi Ümumiliyə qurban verilir.***

**Həqiqət (370)**

Berdyayev Xüsusini (Fərdi) Ümumidən (Cəmiyyətdən) Allahın köməyiylə qoruyur. Lakin əslində Allah özü Xüsusini (Fərdi) udan (Bəndələşdirən) Ümumidir.

Bu səbəbdən də Berdyayev irrasionalizmi (qeyri-əqliyyətçiliyi) Hegel rasionalizmindən (əqliyyətçiliyindən) o qədər də fərqlənmir.

**Həqiqət (371)**

İdealistlər ***Vəhdəti*** həm də ***Müxtəliflik*** sayırlar.

Bununla da onlar Müxtəlifliyi inkar edirlər əslində.

Vəhdət – Müxtəliflik Birliyidir: Cəmiyyət həmin Birlikdən məhrumdur; mahiyyətcə Müxtəlifliyə qarşıdır.

***Cəmiyyət – Müxtəlifliyi udan Ümumilikdir.***

İdealizmin Vəhdət ideyası – Cəmiyyətçilikdir; İdealizm – Cəmiyyətdə olanı təsdiq edir, ifadə edir.

**Həqiqət (372)**

20-ci əsr Müxtəlifliyə qarşı oldu, bu səbəbdən də Birlik yarada bilmədi.

**Həqiqət (373)**

Mütləq – Nisbinin daxilində.
Nisbi – Mütləqin zahirində.
Mahiyyət – Təzahürün daxilində.
Təzahür – Mahiyyətin zahirində.
Məna – Hadisənin daxilində.
Hadisə – Mənanın zahirində.
Əzəlilik – Ötərinin daxilində.
Ötəri – Əzəlinin zahirində.
Əbədilik – Keçicinin daxilində.
Keçici – Əbədinin zahirində.
Sonsuzluq – Sonlunun daxilində.
Sonlu – Sonsuzluğun zahirində.
Kamillik – Qeyri-kamilin daxilində.
Qeyri-kamillik – Kamilliyin zahirində.

## Həqiqət (374)

***Mütləq*** – Ümumidir; ancaq Nisbiləri rədd etmir, əvəz etmir; Nisbilərdən artıqdır, kənarda deyil – ***Nisbilərin daxilindədir,*** onların Birliyidir.

***Mahiyyət*** – Ümumidir; ancaq Təzahürləri rədd etmir, əvəz etmir; Təzahürlərdən artıqdır, kənarda deyil; – ***Təzahürlərin daxilindədir*** – onların Birliyidir.

***Məna*** – Ümumidir; ancaq Hadisələri rədd etmir, əvəz etmir; Hadisələrdən artıqdır, kənarda deyil; – ***Hadisələrin daxilindədir*** – onların Birliyidir.

***Əzəli*** – Ümumidir; ancaq Ötəriləri rədd etmir, əvəz etmir; Ötərilərdən artıqdır, kənarda deyil – ***Ötərilərin daxilindədir*** – onların Birliyidir.

***Əbədi*** – Ümumidir; ancaq Keçiciləri rədd etmir, əvəz etmir; Keçicilərdən artıqdır, kənarda deyil; ***Keçicilərin daxilindədir*** – onların Birliyidir.

***Sonsuzluq*** – Ümumidir; ancaq Sonluları rədd etmir, əvəz etmir; Sonlulardan artıqdır, kənarda deyil; – ***Sonluların daxilindədir*** – onların Birliyidir.

***Kamillik*** – Ümumidir; ancaq Qeyri-kamilləri rədd etmir, əvəz etmir; Qeyri-kamillərdən artıqdır, kənarda deyil – ***Qeyri-kamillərin daxilindədir*** – onların Birliyidir.

## Həqiqət (375)

Dünyada Dünyadan başqa ***Özümlüyündən*** yaranan yoxdur. Bu səbəbdən də Dünyanı tanımayıblar, bilməyiblər; ona Yaradan axtarıblar, Allah tapıblar...

## Özümlük

***Dünyadan üstün olan*** – Dünyanın özündədir.

***Təzahürdən üstün olan*** Mahiyyət – Təzahürün özündədir.

***Hadisədən üstün olan Məna*** – Hadisənin özündədir.

***Ötərinin*** Mahiyyəti Əzəlidir; Əzəlilik – Ötərinin özündədir.

***Keçicinin*** Mahiyyəti – Əbədidir; Əbədilik – Keçicinin özündədir.

***Sonlunun*** Mahiyyəti – Sonsuzluqdur; Sonsuzluq – Sonlunun özündədir.

***Qeyri-kamilin*** Mahiyyəti – Kamillikdir; Kamillik – Qeyri-kamilin özündədir.

Dünya özündən yaranıb, özümlüyünü yaşadır.

### Həqiqət (376)

***Dünya*** daxildən Dünyalaşır.
Təzahür daxildən Mahiyyətləşir.
Hadisə daxildən Mənalaşır.
Ötəri daxildən Əzəliləşir.
Keçici daxildən Əbədiləşir.
Sonlu daxildən Sonsuzlaşır.
Qeyri-kamil daxildən Kamilləşir.

### Həqiqət (377)

Dünya qurulmayıb – əks təqdirdə o da başqa qurulanlar kimi Dağılardı.

Dünya Yaradılmayıb – əks təqdirdə o da başqa yaradılanlar kimi məhv olardı.

Dünya Özümlüyündən Yaranıb, bu səbəbdən də Dağılmır, məhv olmur.

Dünyadakılar Dünyadan Yaranıb, Dünya özümlüyündən – bu səbəbdən də Dünyadakılar Dağılır, məhv olur, Dünya Dağılmır, məhv olmur.

### Həqiqət (378)

Allahı Mütləq saymaq – Dünyanın Mütləqiliyini inkar etməkdir...

Dünyanı əksiltmədən – Allahı yüksəltmək olmaz.

### Həqiqət (379)

Allahı – İnamsızlıq yaradıb.
İnsan ***Dünyaya inanmadığı*** dərəcədə Allaha inanıb;
***Həyata inanmadığı*** dərəcədə Allaha inanıb;
***İnsana inanmadığı*** dərəcədə Allaha inanıb.
***Dünyanı Yaradanı – İnamsızlıq yaradıb.***

### Həqiqət (380)

Marksda Ruhaniyyatı Maddiyyat idarə eləyir, Freyddə Şüuru – İnstinkt.

Hər ikisində Yüksəyi Aşağı idarə eləyir; – Aşağı Yuxarılaşır, Yuxarı Aşağılaşır.

### Həqiqət (381)

İnsan Həqiqətdən əlini üzəndə – cəfəngiyyata bel bağlayır.

### Həqiqət (382)

Berdyayevdə Dünyanı dərk etmək – Dünyada yaşamaqla (Ekzistensiallıqla) bağlanır. Yəni Dünyanı Ağılçı yox, Bütöv Şəxsiyyət dərk edir...

Ancaq Dünyanı dərk edən – Gerçəklikdən üstün yaşamalıdır; çünki Gerçəkliyi ötmədən Mənaya çatmaq – Dünyanı dərk etmək olmaz.

Bu səbəbdən də hər cür yaşayışla Dünyanı dərk etmək olmaz, yalnız İnsanilik səviyyəsində yaşayışla – Dünyanı dərk etmək olar.

***Deməli, Dərketmə İnsani Kamillik tələb edir.***

### Həqiqət (383)

***Marks – cəmiyyətçidir.***

İstehsallaşan – İqtisadi İnsan – cəmiyyətsiz yaşaya bilməz.

Freyd – cəmiyyətçidir.

Şəhvətləşən – libidoyla (seksual ehtirasla) bərabərləşən insan – cəmiyyətlə buxovlanmasa, tam heyvanlaşar.

***İnsanı əksildən bütün nəzəriyyəçilər – cəmiyyətçidirlər.***

***İnsanı əksiltməsən – cəmiyyəti yüksəltməzsən.***

## Həqiqət (384)

***Cəmiyyət*** insanları sinifləşdirmədən, əşyalaşdırmadan, yadlaşdırmadan yaşaya bilməz.

İnsan sinifləşməsə, əşyalaşmasa, yadlaşmasa, cəmiyyətə məğlub olar.

Zahiri həyata qarşı – daxili həyat, Cəmiyyətləşməyə qarşı – İnsanlaşma.

Ruhani Amal Yolu budur.

## Həqiqət (385)

***Marksçılıq*** – dindir əslində.

Marksın Allahı – İstehsalatdır – İnsan aqibətinə hakim olan, onu idarə edən, müəyyən edən.

Freydçilik – dindir əslində.

Freydin Allahı – Şəhvətdir – İnsan aqibətinə hakim olan, onu idarə edən, müəyyən edən...

***Hər ikisinin Allahı – Yerdədir; bu səbəbdən də İnsanın Yerdə yeri yoxdur.***

## Həqiqət (386)

Var olan – təkcə gözlə görünən deyil, həm də idrakla görünəndir.

Nisbi – gözlə görünür, Mütləq – İdrakla.

Təzahür – gözlə görünür, Mahiyyət – İdrakla.

Hadisə – gözlə görünür, Məna – İdrakla.

Ötəri – gözlə görünür, Əzəli – İdrakla.

Keçici – gözlə görünür, Əbədi – İdrakla.

Sonlu – gözlə görünür, Sonsuz – İdrakla.

Qeyri-kamil – gözlə görünür, Kamil – İdrakla.

***Varlıq – gözlə görünənlə İdrakla görünənin Birliyidir.***

**Həqiqət (387)**

Fəlsəfi abstraksiyalarla döyüş – əslində Mənayla döyüşdür; Mahiyyətlə döyüşdür; Mənasızlıq döyüşüdür, Mahiyyətsizlik döyüşüdür...

**Əlaqə (6)**

Konkretlik – Ümuminin təzahürü,
Ümumi – Konkretliyin Mahiyyəti.

**Həqiqət (388)**

Ümumi – Hadisədən təcrid olan deyil, – Hadisənin Mahiyyətini ifadə edəndir.

Bu səbəbdən də abstraksiya (təcridlik) anlayışı – yanlış anlayışdır, ümumini əksildən anlayışdır.

***Fəlsəfi abstraksiyalar yoxdur – Fəlsəfi Ümumilər var – Təzahürün Mənasına çatan.***

**Həqiqət (389)**

Allah nə gözlə görünür, nə idrakla, – Allah idraksızlıqla görünür.

**Əlaqə (7)**

Konkret – təzahürün həddi.
Ümumi – Mahiyyətin hədsizliyi.

**Həqiqət (390)**

Cəmiyyət Ümumilik yaratmır; – cəmlik yaradır.

Cəmlikdə – Mahiyyət yoxdur, Məna yoxdur.

***Cəmiyyət – Mahiyyətsizlik yaradır, Mənasızlıq yaradır.***

**Həqiqət (391)**

Konkretlik – varlığın zaman həddi, mühit həddi, şərait həddi, cəmiyyət həddi.

Hədd səviyyəsində varlıq,
Hədd səviyyəsində hədsizlik.

**Həqiqət (392)**

Konkret Həqiqət yoxdur; Həqiqət həmişə ümumidir.

Çünki Zaman həddində Həqiqət olmur, Mühit həddində Həqiqət olmur, Şərait həddində Həqiqət olmur, Cəmiyyət həddində Həqiqət olmur,

Həqiqət – Mahiyyət hədsizliyidir, Məna hədsizliyidir.

**Əlaqə (8)**

Fəlsəfə – İnamın əlifbası.
İnam – Fəlsəfənin canı.

**Boşluq Həngaməsi**

Demokratlar siyasi boşluq yaratdılar ki, özləri də həmin boşluğu doldursunlar; ancaq boş oldular: – boşluğu boşluqla doldurdular. Bir azdan həmin boşluğa kənardan baxmalı olacaqlar.

**Din Təməlçiliyi**

Müqəddəsləşən Ağalıq.
Müqəddəsləşən Nökərlik.
Müqəddəsləşən Təbəqəlik.
Müqəddəsləşən Özgəlik.
Cəfəngiyyatlaşan Müqəddəslik.

**Həqiqət (393)**

Dövlətin ən həqiqi tərifi – "Dövlət – mənəm".
14-cü Lüdovik.

**Parlament (2)**

Prezidentaltı hakimiyyət. Hökumətaltı hakimiyyət.

**Həqiqət (394)**

Şah hakimiyyəti olur.
Çar hakimiyyəti olur.
Xəlifə hakimiyyəti olur.

Papa hakimiyyəti olur.
Prezident hakimiyyəti olur.
Baş nazir hakimiyyəti olur.
***Xalq hakimiyyəti olmur.***
***Xalq üzərində hakimiyyət olur.***
***Xalq hakimiyyəti – hakimlərin uydurmasıdır.***

**Həqiqət (395)**

***Ağıl*** – Təzahürə çatır, ***Zəka*** – Mahiyyətə.
***Ağıl*** – Hadisəyə çatır, ***Zəka*** – Mənaya.
***Ağıl*** – Nisbiyə çatır, ***Zəka*** – Mütləqə.
***Ağıl*** – Ötəriyə çatır, ***Zəka*** – Əzəliyə.
***Ağıl*** – Keçiciyə çatır, ***Zəka*** – Əbədiyə.
***Ağıl*** – Sonluya çatır, ***Zəka*** – Sonsuza.
***Ağıl*** – Qeyri-kamilə çatır, ***Zəka*** – Kamilə.
***Ağıl*** – təsvir eləyir, ***Zəka*** – dərk edir.

**Həqiqət (396)**

Ağıl – Ziddiyyətə çatır, Zəka – Bütövə.

Bu səbəbdən də Dialektika Ağıl əməlidir, Metafizika – Zəka əməli.

**Həqiqət (397)**

Hegel – Ağılı təhlillə eyniləşdirir və beləliklə də Ağıl sadəcə Zəka vasitəsinə, hissəsinə çevrilir.

Əslində Ağılda analiz də var, sintez də, refleksiya da var – idraki nəticə...

***Zəkanı Ağıldan Ruhani qüdrət ayırır.***

Zəka – Mütləqçidir, Ağıl – Nisbiçi;
Zəka – Mahiyyətçidir, Ağıl – Təzahürçü;
Ağıl – Hadisəçidir, Zəka – Mənaçı;
***Ağıl – natam Zəkadır, Zəka – bütöv Ağıldır.***

**Həqiqət (398)**

Zəkanı hissiyyata qarşı qoymaq – Zəkanı söndürməkdir; hissiyyatı Zəkaya qarşı qoymaq – hissiyyatı azdırmaqdır.

**Həqiqət (399)**

Mütləq rasionalizm (Zəkaçılıq) – sönük zəka təlimi olardı.

Mütləq sensualizm (Hissiyyatçılıq) – azmış hissi təlim olardı.

Xoşbəxtlikdən mütləq rasionalizm elan edilsə də, əslində olmayıb; mütləq sensualizm elan edilsə də, əslində olmayıb; Zəka hissizliyə qapılmayıb, Hiss Zəkasızlığa qapılmayıb.

**Hal (5)**

İdrakın məqsədi Mənanı dərk etməkdir.

***Din – Dünyanı Mənasızlaşdırır – İdrakı gərəksiz edir.***

**Həqiqət (400)**

Məntiq qanunları – idrakın təbiətindədir.
Onları izhar etməsən də – onlara riayət edirsən.

**Həqiqət (401)**

Hegeldə Dünyanın əsasını Zəka təşkil edir. Hegel Dünyada Zəkadan fərqli Məna, Mahiyyət görmür.

Əslində isə Zəka Mənanın, Mahiyyətin özü deyil – onları dərk edəndir.

***Hegeldə dərk olunanla dərk edən eyniləşir.***

***Dünya – Zəkalaşır, Zəka – Dünyalaşır.***

**Həqiqət (402)**

Hegelin Mütləqi – Zəkadır...
Hegeldə Dünya – Mütləqləşmir; Zəka – Mütləqləşir.
Hegel Mütləqçi deyil – əslində – Zəkaçıdır.
Bu baxımdan o, Kanta yaxındır.

**Həqiqət (403)**

***Hegelin Allahı – Zəkadır...***

***Hegelin Dünyası – Zəkadır.***

Bu səbəbdən də Hegeldə Allahla Dünya arasında elə bir fərq yoxdur.

Bu, Dinə zidd iddiadır.

***Hegelin Allahı – Dinə qarşıdır.***
***Hegelin Allahı dünyəvi Allahdır.***

**Həqiqət (404)**

Gerçəkliyə uyğunlaşmaq – qətiyyətsizlikdir, qüdrətsizlikdir.

Qətiyyətsiz iradə olmur, qüdrətsiz iradə olmur.

***Bu səbəbdən də Gerçəkliyə uyğunlaşmaq – İradəsizlikdir.***

Gerçəkliyə uyğunlaşanlar – Cəmiyyətə yarayırlar, Ağalığa yarayırlar, Nökərliyə yarayırlar, Təbəqəliyə yarayırlar, Özgələşməyə yarayırlar.

***İradəli Ağa olmur – İradəsiz Nökər olur.***

***Ağalıq – Nökər İradəsizliyi üzərində qurulur.***

Ağa – İradəli görünür; əslində o, İradəsizlər üzərində İradəlidir; İradəsizliyin yaratdığı İradədir.

Rəiyyətləşmə – İradəsizləşmə deməkdir.

Cəmiyyət – Adamları İradəsizləşdirir ki, özünə tabe etsin.

**Əlaqə (9)**

İradə azadlığı – Gerçəklikdən üstün olmaq qətiyyəti və qüdrəti;
***Gerçəklik Nisbiliyindən*** üstün olmaq qətiyyəti və qüdrəti;
***Gerçəklik Ötəriliyindən*** üstün olmaq qətiyyəti və qüdrəti;
***Gerçəklik Keçiciliyindən*** üstün olmaq qətiyyəti və qüdrəti;
***Gerçəklik Sonluluğundan*** üstün olmaq qətiyyəti və qüdrəti;
***Gerçəklik Qeyri-kamilliyindən*** üstün olmaq qətiyyəti və qüdrəti.
***Qəti istək qüdrətli əməl tələb edir...***
***Hər ikisinin birləşməsindən – İradə azadlığı yaranır.***

**Əlaqə (10)**

İdraksız İradə – əslində İradəsizlikdir, – çünki İdraksız qətiyyət – insanilik qətiyyətsizliyidir; İdraksız qüdrət – İnsanilik qüdrətsizliyidir...

İradəsiz İdrak – əslində İdraksızlıqdır, – çünki Qətiyyətsiz İdrak – Həqiqətə çata bilməz; qüdrətsiz İdrak – Həqiqətə çata bilməz.

***İradə – İdraklı qətiyyət, İdraklı qüdrət deməkdir.***
***İdrak – İradəli dərketmə deməkdir əslində.***

**Çeşidlər (2)**

***İnam İradəsi*** – İnama çatmaq qətiyyəti və qüdrəti.

***İdrak İradəsi*** – İdraka çatmaq qətiyyəti və qüdrəti.

***Mənəviyyat İradəsi*** – Mənəviyyata çatmaq qətiyyəti və qüdrəti.

***Ədalət İradəsi*** – Ədalətə çatmaq qətiyyəti və qüdrəti.

***Kamillik İradəsi*** – Kamilliyə çatmaq qətiyyəti və qüdrəti.

**Həqiqət (405)**

Müstəbid İradəsi – İradəsizlikdir; – Müstəbidin öz müstəbidliyi üzərində yüksəlmək qətiyyəti və qüdrəti yoxdur.

**Həqiqət (406)**

İradəsizlik – istək qətiyyətsizliyi və qüdrətsizliyidir.

**İlahiyyat Elmi**

İdraklı Din quraşdırırlar.
İdraklı cəfəngiyyat olmur.
Cəfəng İdrak olmur.

**Həqiqət (407)**

Dünyaya uyğunlaşmaq – güc deyil, gücsüzlükdür əslində.

Darvinçilər, Spenserçilər – bu gücsüzlüyü güc kimi təqdim edirlər.

Onların fəlsəfəsində güclülər gücsüzlərə qələbə çalırlar.

Dünyaya uyğunlaşan vicdan olmur, – vicdandan yüksək mənəvi güc də yoxdur. İnsanı İnsan eləyən elə vicdandır; – uyğunlaşma carçılarına görə, vicdan – gücsüzlükdür.

Vicdansızlıq gücü təbliğ edirlər uyğunlaşçılar. Əgər cəmiyyətdə vicdansızlar vicdanlılar üzərində qələbə çalırlarsa, bu – şiddətli gücsüzlükdür – İnsaniliyə zidd; bu gücsüzlük aradan qaldırılmayınca İnsani cəmiyyətdən danışmaq olmaz.

***Bu gücsüzlüyün aradan qaldırılması möhtəşəm İnsanilik gücü tələb edir.***

**Həqiqət (408)**

Din Peyğəmbərləri Vəhyi yaşamayıblar, oynayıblar.

**Fərq (16)**

Coşğunluq – daxili işıq. Həşir – zahiri parıltı.

**Fərq (17)**

Ölüm təkcə dünyadakıları yox, həm də Dünyanın özünü öldürə bilsəydi – Dünyanı puç saymaq olardı.

***Ölüm Dünyanı öldürə bilmir, bu səbəbdən də onu puç saymaq – yalandır.***

**Fərq (18)**

Ütülənmiş fikirlər – gizlənmiş fikirlər.
Nizamlanmış fikirlər – aşkarlanmış fikirlər.

**Həqiqət (409)**

***Elmin bir çox sahələrində*** Zəka tələb olunmur, – hafizə tələb olunur, ağıl tələb olunur, səy tələb olunur, səbr tələb olunur.

(Zəka ən çox riyaziyyatda və nəzəri fizikada tələb olunur).

***Fəlsəfə*** – bilavasitə, tam, hərtərəfli (total) zəkaçılıqdır.

***İnam*** – zəkaçılığın ən yüksək səviyyəsi olan vəhyçilikdir.

***Elm – gerçəkliyi təsvir etmək və gerçəklikdən istifadə etmək vasitəsidir.***

Dünyanın Mahiyyətinə yetməkdə, Mənasına çatmaqda – Elm acizdir; bunun üçün hafizə, ağıl, səy, səbr kifayət deyil – möhtəşəm Zəkaçılıq – fəlsəfəçilik tələb olunur.

Bu səbəbdən də müasir elmçilikdə geniş yayılmış fəlsəfəni elmləşdirmək meyli – əslində idrakı Mahiyyətdən, Mənadan ayırmaq deməkdir; İdraki qətiyyətsizlik və qüdrətsizlik yönüdür.

Ona qarşı dayanmadan fəlsəfi tərəqqiyə çatmaq olmaz.

**Həqiqət (410)**

Vəhyi Dinlə eyniləşdirmək – naşılıqdır.

Din – Vəhyi tanımır əslində, çünki Həqiqət tanımır.

Cəfəngiyyat, yalan, uydurma üçün Vəhy gərək deyil, xülya gərəkdir.

**Həqiqət (411)**

Vəhy (intuisiya) – zəkasızlıq deyil – zəkanın xüsusi, şiddətli, sürətli anı, halıdır; Həqiqətin biryolluq, birdəfəlik və həmişəlik dərk olunmasıdır; gərgin idrak əməlinin nəticəsi, yekunu, bəhrəsidir.

**Həqiqət (412)**

Dindarlıq – təkcə avamlıq deyil, – təcavüzkar, yırtıcı avamlıqdır; Ağalığa can atan avamlıqdır.

**Həqiqət (413)**

İnsan – İnam vasitəsiylə özünü yaradır –
İnamlı İnsan yaranır.
İnsan – İdrak vasitəsiylə özünü yaradır –
İdraklı İnsan yaranır.
İnsan – Mənəviyyat vasitəsiylə özünü yaradır –
Mənəviyyatlı İnsan yaranır.
İnsan – İradə vasitəsiylə özünü yaradır –
İradəli İnsan yaranır...

**Fərq (19)**

Möhtəşəmlik – daxili İşıq.
Təmtəraq – zahiri parıltı.

**Həqiqət (414)**

***Şüurun duyğu səviyyəsi var.***
Duyğunun qeyri-şüurluq səviyyəsi yoxdur.
İnstinkt – qeyri-şüurluqdur, – bu səbəbdən də duyğu deyil.
***İnstinkt duyğu olmadığı dərəcədə – İnsan heyvan deyil.***

## Həqiqət (415)

***Şüurun qeyri-şüurlu əsasından danışırlar.***

Əslində isə qeyri-şüurlu bilinən nə varsa – şüurun təzahürüdür.

İnsanla heyvan arasında təzadı görməmək – naşılıqdır.

Heyvan – heyvanlıq əsasında yaşayır, İnsan – İnsanlıq əsasında.

***İnsandakı Heyvanlığın səbəbi – İnsanın öz əsasından ayrılmasıdır, ona yad olması, yağı olmasıdır.***

## İnsan Mütləqiliyi

İnsanın: Mütləqə yetmək Mütləqiliyi var,
Mahiyyətə yetmək Mahiyyətliyi var,
Mənaya yetmək Mənalığı var,
Əzəliyə yetmək Əzəliliyi var,
Əbədiyə yetmək Əbədiliyi var,
Sonsuza yetmək Sonsuzluğu var,
Kamilə yetmək Kamilliyi var.

## İdrak Mütləqiliyi

İdrakda: Mütləqi dərk etmək Mütləqiliyi var,
Mahiyyəti dərk etmək Mahiyyətliyi var,
Mənanı dərk etmək Mənalığı var,
Əzəlini dərk etmək Əzəliliyi var,
Əbədini dərk etmək Əbədiliyi var,
Sonsuzu dərk etmək Sonsuzluğu var,
Kamili dərk etmək Kamilliyi var,

## Həqiqət (416)

İnsan ***Duyğu*** vasitəsiylə Gerçəkliyi ***tanıyır,***

***Ağıl*** vasitəsiylə Gerçəkliyi ***təsvir edir,***

***Zəka*** vasitəsiylə Gerçəkliyin ***Mənasına çatır,***

İnam (Ehtiraslı İdrak, İdraklı Ehtiras) vasitəsiylə ***Mənaya qovuşur.***

### Həqiqət (417)

Kapitalizm azadlığı – yırtıcılıq azadlığı.
Demokratiya – yırtıcılığı qoruyur.

### Həqiqət (418)

Maddi Tərəqqi – Kapitalizmi yaşadır,
Mənəvi Tərəqqi – onu öldürməlidir.

### Həqiqət (419)

Kapitalizmin təməli – yırtıcılıqdır.

Bu səbəbdən də o, mahiyyətcə əsl tərəqqiyə – yəni İnsaniliyə ziddir.

***Yırtıcılıq aradan qalxsa – Kapitalizm ölər.***

### Həqiqət (420)

Marksın kommunizmi – cəfəngiyyatdır.
Marksın antikapitalizmi – Həqiqətdir.

### Həqiqət (421)

***Yaşamaq uğrunda döyüş*** – vəhşilik ifadəsidir.

Tərifi göyə qaldırılan kapitalizm həmin vəhşilik əsasında yaranıb və yaşayır.

***Yaşamaq uğrunda döyüş – İnsanilik uğrunda döyüşlə əvəz olunmalıdır...***

Bunun nəticəsində kapitalizm vəhşiliyi aradan qalxar; bəşər vəhşilik dairəsindən çıxar – özünə yetər.

### Həqiqət (422)

Həm kapitalizm, həm sosializm adamları bioloji varlıq dairəsinə pərçimləyir.

***Kapitalizm – yırtıcılığı yaşadır, sosialzim – sürülüyü.***

**Həqiqət (423)**

Freydçilər İnsanı fitri xəstə (nevrotik) sayırlar.

Əslində İnsanı xəstələndirən – Dindir, cəmiyyətdir, siyasətdir.

***Din*** – Həkim rolunda çıxış edən xəstəlikdir; xəstəliyi xəstəlik vasitəsiylə sağaltmaq cəfəngiyyatıdır; xəstəliyi yaşatmaq mənbəyidir.

***Cəmiyyət*** – Həkim rolunda çıxış edən xəstəlikdir – Ağalıq xəstəliyidir, Nökərlik xəstəliyidir, Təbəqəlik xəstəliyidir, Özgələşmə xəstəliyidir; xəstəliyi xəstəlik vasitəsiylə sağaltmaq cəfəngiyyatıdır, xəstəliyi yaşatmaq mənbəyidir.

***Siyasət*** – Həkim rolunda çıxış edən xəstəlikdir – əxlaqsızlıq, yalançılıq xəstəliyidir; xəstəliyi xəstəliklə sağaltmaq cəfəngiyyatıdır, xəstəliyi yaşatmaq mənbəyidir.

**Həqiqət (424)**

Terminçilikdə – şöhrətçilik var; xüsusi dildə yazmaq, danışmaq – fərqlənmək istəyi...

Termin dili – əslində Təbəqə dilidir – Elmin kübarlaşmasından xəbər verən – İdraka zidd.

**Həqiqət (425)**

Biçimçilik (Formalçılıq) – Mahiyyətsizlik biçimidir.

**Həqiqət (426)**

İndikilərə – ***Mütləq*** ağır gəlir – Nisbiyə tapınırlar;
***Mahiyyət*** ağır gəlir – Təzahürə tapınırlar;
***Məna*** ağır gəlir – Hadisəyə tapınırlar;
***Əzəli*** ağır gəlir – Ötəriyə tapınırlar;
***Əbədi*** ağır gəlir – Keçiciyə tapınırlar;
***Sonsuz*** ağır gəlir – Sonluya tapınırlar;
***Kamil*** ağır gəlir – Qeyri–kamilə tapınırlar...
***İndikilər yüngüllüyə tapınırlar – yarayırlar.***

## Həqiqət (427)

***Nisbinin əsası Mütləqdir***. Nisbinin əsası nisbi olsaydı, Nisbi – Əsassız olardı.

***Nisbini Əsaslı edən Mütləqdir.***

***Təzahürün Əsası – Mahiyyətdir.***

Təzahürün əsası Təzahür olsaydı, Təzahür Əsassız olardı.

***Təzahürü Əsaslı edən – Mahiyyətdir.***

***Hadisənin Əsası – Mənadır.*** Hadisənin Əsası Hadisə olsaydı, Hadisə Əsassız olardı. Hadisəni Əsaslı edən – Mənadır.

***Ötərinin Əsası – Əzəlilikdir.*** Ötərinin Əsası Ötəri olsaydı, Ötəri Əsassız olardı.

Ötərini Əsaslı edən Əzəlilikdir.

***Keçicinin Əsası – Əbədilikdir.*** Keçicinin Əsası Keçici olsaydı, Keçici Əsassız olardı.

Keçicini Əsaslı edən Əbədilikdir.

***Sonlunun Əsası – Sonsuzluqdur.*** Sonlunun Əsası Sonlu olsaydı, Sonlu Əsassız olardı.

Sonlunu Əsaslı edən – Sonsuzluqdur.

***Qeyri-kamilin Əsası – Kamillikdir.*** Qeyri-Kamilin Əsası Qeyri-kamil olsaydı, Qeyri-kamil Əsassız olardı.

Qeyri-kamili Əsaslı edən – Kamillikdir.

## Yalan Çeşidləri

Cəmiyyət yalanı – Hakimiyyət zəruriliyi.

Din yalanı – Allah zəruriliyi.

Siyasət yalanı – yalan zəruriliyi.

## Həqiqət Ölçüsü

Materialist ölçü:

Mütləqi Nisbiylə ölçmək.
Mahiyyəti Təzahürlə ölçmək.
Mənanı Hadisəylə ölçmək.

Əzəlini Ötəriylə ölçmək.
Əbədini Keçiciylə ölçmək.
Sonsuzu Sonluyla ölçmək.
Kamili Qeyri-Kamillə ölçmək.

**İdealist ölçü:**

Mütləqi Mütləqin ifadəsiylə ölçmək.
Mahiyyəti Mahiyyətin ifadəsiylə ölçmək.
Mənanı Mənanın ifadəsiylə ölçmək.
Əzəlini Əzəlinin ifadəsiylə ölçmək.
Əbədini Əbədinin ifadəsiylə ölçmək.
Sonsuzu Sonsuzun ifadəsiylə ölçmək.
Kamili Kamilin ifadəsiylə ölçmək.

**Mütləqçi ölçüsü:**

Mütləqi Mütləqiliklə ölçmək.
Mahiyyəti Mahiyyətliklə ölçmək.
Mənanı Mənalıqla ölçmək.
Əzəlini Əzəliliklə ölçmək.
Əbədini Əbədiliklə ölçmək.
Sonsuzu Sonsuzluqla ölçmək.
Kamili Kamilliklə ölçmək.

## Həqiqət (428)

Yalana möhtac olan Bəşər – həqiqi Bəşər deyil – o, İnsanlığa yetməyib.

## Nikbinlik

***Nisbilərlə*** dolan Dünyanın Mütləqiliyinə bax ki, – Nisbiləşmir.

Təzahürlərlə dolan Dünyanın Mahiyyətinə bax ki, – Təzahürləşmir.

Hadisələrlə dolan Dünyanın Mənasına bax ki, – Hadisələşmir.

Ötərilərlə dolan Dünyanın Əzəliliyinə bax ki, – Ötəriləşmir.

Keçicilərlə dolan Dünyanın Əbədiliyinə bax ki, – Keçiciləşmir.

Qeyri-kamillərlə dolan Dünyanın Kamilliyinə bax ki, – Qeyri-kamilləşmir.

**Elmi Fəlsəfə**

Təzahürləşmiş Mahiyyət.
Hadisələşmiş Məna.
Nisbiləşmiş Mütləq.
Ötəriləşmiş Əzəlilik.
Keçiciləşmiş Əbədiyyət.
Sonlulaşmış Sonsuzluq.
Qeyri-kamilləşmiş Kamillik.

Fəlsəfəsizləşmiş Fəlsəfə.

**Həqiqət (429)**

***Elm*** – Gerçəkliyin ağıllı, düzgün, sistemli təsviri.
***Elmçilik – ağıllı təsvirçilik.***

**Həqiqət (430)**

Gerçəkliyin əsası – Mahiyyət.
Elmin əsası – Fəlsəfə.
Fəlsəfəni elmləşdirmək – elmi əsasdan məhrum etməkdir.

**Həqiqət (431)**

Pozitivizmin Metafizikaya qarşı döyüşü – Gerçəkçilərin Mahiyyətçilərə qarşı döyüşüdür əslində.

**Həqiqət (432)**

Uca Yalan olmur.
Alçaq Həqiqət olmur.
Yalan – Alçaqlıqdır.
Həqiqət – Ucalıqdır.

**Həqiqət (433)**

Elm gerçəkliyin qanunlarını dərk edir; Mənasını, Mahiyyətini dərk etmir; əslində bu, gerçəkliyin dərki yox, təsviridir.

**Həqiqət (434)**

Həqiqət – Təcrübədən üstündür, Təcrübə – Nisbini ifadə eləyir, Həqiqət – Mütləqi; Təcrübə – Təzahürü ifadə eləyir, Həqiqət – Mahiyyəti; Təcrübə – Hadisəni ifadə eləyir, Həqiqət – Mənanı; Təcrübə – Ötərini ifadə eləyir, Həqiqət – Əzəlini; Təcrübə – Keçicini ifadə eləyir, Həqiqət – Əbədini; Təcrübə – Sonlunu ifadə eləyir, Həqiqət – Sonsuzu; Təcrübə – Qeyri-Kamili ifadə eləyir, Həqiqət – Kamili.

***Təcrübəni Həqiqətin ölçüsü saymaq – Nisbini Mütləqin ölçüsü saymaq Yalanıdır.***

**Həqiqət (435)**

Konkret Hadisə olur, Konkret Məna olmur. Məna həmişə Ümumidir.

Konkret Təzahür olur, Konkret Mahiyyət olmur. ***Mahiyyət həmişə Ümumidir.***

Konkret Fikir olur, Konkret Həqiqət olmur. ***Həqiqət – həmişə ümumidir.***

**Həqiqət (436)**

Din (Xristianlıq) – tarixdən çıxmağın əlacını Bəşərin ölümündə (Apokalipsisdə) görür.

***Bəşər ölməlidir ki, dirilsin.***

Əslində isə tarixdən çıxmağın yolu – Bəşərin yaşamasıdır.

***Bəşər yaşamalıdır ki, ölməsin.***

**Həqiqət (437)**

***Doğru fikirlər çoxdur – Həqiqətlər azdır.***

Nisbi çoxdur – Mütləq azdır.
Təzahür çoxdur – Mahiyyət azdır.
Hadisə çoxdur – Məna azdır.

Ötəri çoxdur – Əzəli azdır.
Keçici çoxdur – Əbədi azdır.
Sonlu çoxdur – Sonsuz azdır.
Qeyri-kamil çoxdur – Kamil azdır.

**Həqiqət (438)**

Həqiqəti hədsiz dərəcədə adiləşdirirlər: –
***Mütləqilikdən*** salırlar,
***Mahiyyətdən*** salırlar,
***Mənadan*** salırlar,
***Əzəlilikdən*** salırlar,
***Əbədilikdən*** salırlar,
***Kamillikdən*** salırlar,
***Həqiqətsizləşdirirlər.***

**Həqiqət (439)**

Əgər hər Dövrün öz Həqiqəti varsa, deməli, Həqiqət yoxdur.

Əgər hər Şəraitin öz Həqiqəti varsa, deməli, Həqiqət yoxdur.

Əgər hər Mühitin öz Həqiqəti varsa, deməli, Həqiqət yoxdur.

Əgər hər Cəmiyyətin öz Həqiqəti varsa, deməli, Həqiqət yoxdur.

***Həqiqət Yoxluğu yaradırlar Konkretçilər.***

**Həqiqət (440)**

Fikrin gerçəkliyə uyğun gəlməsini Həqiqət saymaq – səhvdir.

Çünki Gerçəklik nisbidir – nisbi Həqiqət olmur; Həqiqət həmişə Mütləqdir.

Çünki Gerçəklik – keçicidir; keçici Həqiqət olmur; Həqiqət həmişə Əbədidir.

Çünki Gerçəklik ötəridir; ötəri Həqiqət olmur; Həqiqət həmişə Əzəlidir.

Çünki Gerçəklik sonludur; sonlu Həqiqət olmur; Həqiqət həmişə Sonsuzdur.

Çünki Gerçəklik qeyri-kamildir; qeyri-kamil Həqiqət olmur; Həqiqət həmişə Kamildir.

Hər doğru olanı Həqiqət saymaq olmaz.

Həqiqət Mütləqin Doğru ifadəsidir;
Mahiyyətin Doğru ifadəsidir;
Mənanın Doğru ifadəsidir;
Əzəliliyin Doğru ifadəsidir;
Əbədiliyin Doğru ifadəsidir;
Sonsuzluğun Doğru ifadəsidir;
Kamilliyin Doğru ifadəsidir;

Həqiqətdə Doğruluq – Mütləqdir;
Mahiyyətlidir,
Mənalıdır,
Əzəlidir,
Əbədidir,
Sonsuzdur,
Kamildir.

## Həqiqət (441)

Bəşər tarixi – ***Adamlıq Tarixi olub*** – yəni Nisbi İnam, Nisbi İdrak, Nisbi Mənəviyyat, Nisbi iradə tarixi olub.

***Bəşər Adamlıq tarixindən artıq ola bilməyib, üstün ola bilməyib – İnsanlığa çatmayıb.***

Bəşər tarixi – Cəmiyyət tarixi olub – yəni Ağalıq, Nökərlik, Təbəqəlik, Özgəlik tarixi olub.

Bəşər – Cəmiyyət tarixindən artıq ola bilməyib, üstün ola bilməyib – Birliyə çatmayıb.

Bəşər tarixi – Din tarixi olub – Yaradan tarixi olub, Qismət tarixi olub, Cənnət tarixi olub, Cəhənnəm tarixi olub, Cəfəngiyyat tarixi olub.

***Bəşər – Din tarixindən artıq ola bilməyib, üstün ola bilməyib – İnama çatmayıb.***

Tarixdə dahilər, qəhrəmanlar, müdriklər olub, ancaq Dahi tarix, Qəhrəman tarix, Müdrik tarix olmayıb; Tarix öz səviyyəsində qalıb – özündən artıq, üstün ola bilməyib.

Tarix həddindən çıxmaq gərək – İnsanlıq ənginliyinə, Birlik ənginliyinə, İnam ənginliyinə, tarixdən artıq olmaq, üstün olmaq ənginliyinə yüksəlmək gərək.

**Tarixi Təcrübə**

Bəşərin dünəni olub – bugünü dünəni təkrar edib – sabahı olmayıb.

**Həqiqət (442)**

***Həqiqət – ülviyyətdir:***
İdrakın – ***Mütləqə*** yetməsidir,
***Mahiyyətə*** yetməsidir,
***Mənaya*** yetməsidir,
***Əzəliyə*** yetməsidir,
***Əbədiyə*** yetməsidir,
***Sonsuza*** yetməsidir,
***Kamilliyə*** yetməsidir.

***Həqiqət – İdrak ülviliyidir.***

**Həqiqət Çeşidləri**

İnam Həqiqəti – ***Mütləq.***
İdrak Həqiqəti – ***Həqiqət.***
Mənəviyyat Həqiqəti – ***Vicdan.***
İradə Həqiqəti – ***Yenilməzlik.***

**Həqiqət (443)**

Hegeldə Azadlıq – dərk olunmuş Zərurətdir; – bu, Azadlığı Zərurətə bərabər saymaqdır; əslində inkar etməkdir.

***Hegeldə Azadlıq Zərurətdə itir.***

**Həqiqət (444)**

***Azadlıq*** Mütləqilik, ***Zərurət*** – Nisbilik.
***Azadlıq*** – Mahiyyət, ***Zərurət*** – Təzahür.
***Azadlıq*** – Məna, ***Zərurət*** – Hadisə.
***Azadlıq*** – Əzəlilik, ***Zərurət*** – Ötərilik.
***Azadlıq*** – Əbədilik, ***Zərurət*** – Keçicilik.
***Azadlıq*** – Sonsuzluq, ***Zərurət*** – Sonlu.
***Azadlıq*** – Kamillik, ***Zərurət*** – Qeyri-kamillik.
***Azadlıq*** – Zərurətin Mahiyyəti.
***Zərurət*** – Azadlığın Təzahürü.

**Həqiqət (445)**

Tarixi öyrənmək – Tarixi ötmək üçündür; ondan artıq olmaq, üstün olmaq üçündür.

Bəşər tarixi öyrənə-öyrənə tarixdə qalıb, hətta bəzən o, tarixdən geri də qalıb.

Bəşər tarix dağını aşa bilməyib, onun ətəklərində yaşayıb.

Bəşər öz tarixindən artıq ola bilməyib, üstün ola bilməyib, bu səbəbdən də özünə çatmayıb.

**Həqiqət (446)**

Əgər Dünyada Mütləq yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Mütləqin Dərkidir.

Əgər Dünyada Mahiyyət yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Mahiyyətin Dərkidir.

Əgər Dünyada Məna yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Mənanın Dərkidir.

Əgər Dünyada Əzəlilik yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Əzəliliyin Dərkidir.

Əgər Dünyada Əbədilik yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Əbədiliyin Dərkidir.

Əgər Dünyada Sonsuzluq yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Sonsuzluğun Dərkidir.

Əgər Dünyada Kamillik yoxsa, Həqiqət də yoxdur. Çünki Həqiqət – Kamilliyin Dərkidir.

**Həqiqət (447)**

Dünyanın dərk olmazlığı yalanı – Dünyanın Mənasızlığı yalanına əsaslanır.

Əgər Məna varsa – o, dərk olunmalıdır.

İdrak – Mənanı dərk etmək üçündür.

***Əgər Məna yoxsa, İdrak – Mənasızdır.***

Dünyanın dərk olmazlığı yalanını – İdrakın Mənasızlığı yalanı yaradır.

**Həqiqət (448)**

***Elmi Qanunlar olur, qaydalar olur;*** – Mənalar olmur; Elmi Həqiqət – şərti anlayışdır.

***Fəlsəfi Mənalar olur*** – bu səbəbdən də Fəlsəfi Həqiqətlər olur.

***İnam*** – İnsanın Həqiqətə qovuşmasıdır – bu səbəbdən də Həqiqətçilikdir.

**Həqiqət (449)**

Dində İdrak Həqiqətə çatmır;
Həqiqəti Allah izhar edir.
***Din İdraksız Həqiqət icad eləyir.***

**Həqiqət (450)**

Din – Allah Həqiqətlərini dərkolunmaz sayır...
Dərkolunmazlıq etiqadı yaradır.

Dərkolunmazlıq – Həqiqətin ölçüsünə çevrilir. “Dərk etmədiyimə inanıram!” təlqini yaranır; Cəfəngiyyat Həqiqəti əvəz eləyir...

***İdraka inanmadığın dərəcədə Dinə inanırsan – İdraka inamsızlığa inanırsan – İdraksızlığa inanırsan.***

**Həqiqət (451)**

Din öz yalanlarına İdraksız İnam təlqin eləyir; İnamı İdraka qarşı qoyur, İdraksız etiqad yaradır; İdraksızlıq etiqadı yaradır.

**Həqiqət (452)**

Din – Həqiqət tanımır.
Çünki İdraksız Həqiqət olmur.
***Din – Həqiqətsizlik etiqadıdır əslində.***

**Həqiqət (453)**

Din – İdraksızlıq İnamıdır, İdraka İnanmamaq İnamıdır.

**Həqiqət (454)**

Din – cəfəngiyyata inamdır.
İdrak – cəfəngiyyata inanmır.
***Bu səbəbdən də Din – müqəddəsləşdirilmiş idraksızlıqdır.***

**Həqiqət (455)**

Ehkam – köhnəlmiş Həqiqət deyil – Həqiqət heç vaxt köhnəlmir.
***Ehkam – aşkarlanmış yalandır.***

**Həqiqət (456)**

***Göz*** – Dünyada Dünyadakıları görür.
***İdrak*** – Dünyadakı Dünyalığı görür.
***İnam*** – Dünyadakı Dünyalığa qovuşur.

**Həqiqət (457)**

***Mütləqçilikdə*** – Təzahürün Mahiyyəti dərk olunur – İdrak Həqiqətə yetir.

***Mütləqçilikdə*** – Hadisənin Mənası dərk olunur – İdrak Həqiqətə yetir.

***Mütləqçilik Dünyası – Mahiyyətli Təzahür, Mənalı Hadisə Dünyası olur.***

**Həqiqət (458)**

İdealizmdə Mahiyyət Təzahürü rədd eləyir – ***Təzahürsüz Mahiyyət yaranır – Həqiqətə zidd...***

İdealizmdə Məna Hadisəni rədd eləyir – ***Hadisəsiz Məna yaranır – Həqiqətə zidd.***

***İdealizm Dünyası – Təzahürsüz, Hadisəsiz Dünya olur əslində.***

**Həqiqət (459)**

Materializmdə Mahiyyət Təzahürləşir: nisbiləşir, ötəriləşir, keçiciləşir, sonlulaşır, qeyri-kamilləşir.

Bu, əslində Təzahürün Mahiyyətləşməsinə gətirib çıxarır.

Materializmdə Məna – Hadisələşir: nisbiləşir, ötəriləşir, keçiciləşir, sonlulaşır, qeyri-kamilləşir.

***Bu, əslində Hadisənin Mənasızlaşmasına gətirib çıxarır.***

***Materialist Dünya Mahiyyətsiz və Mənasız Dünya olur əslində.***

**Həqiqət (460)**

Gerçəklik Nisbidir – Gerçəkliyin Mahiyyəti Mütləq; Həqiqət – Mahiyyətin dərkidir; bu səbəbdən də Mütləqdir.

***Nisbi Gerçəkliyin Həqiqəti Mütləqdir.***

Gerçəklik Ötəridir – Gerçəkliyin Mahiyyəti Əzəli.
Həqiqət – Mahiyyətin dərkidir; bu səbəbdən də Əzəlidir.
***Ötəri Gerçəkliyin Həqiqəti Əzəlidir.***
Gerçəklik Keçicidir – Gerçəkliyin Mahiyyəti Əbədi.
Həqiqət – Mahiyyətin dərkidir; bu səbəbdən də Əbədidir.
***Keçici Gerçəkliyin Həqiqəti Əbədidir.***
Gerçəklik Sonludur – Gerçəkliyin Mahiyyəti Sonsuz.
Həqiqət – Mahiyyətin dərkidir; bu səbəbdən də Sonsuzdur.
***Sonlu Gerçəkliyin Həqiqəti Sonsuzdur.***
Gerçəklik Qeyri-kamildir – Gerçəkliyin Mahiyyəti Kamil.
Həqiqət – Mahiyyətin dərkidir; bu səbəbdən də Kamildir.
***Qeyri-kamil Gerçəkliyin Həqiqəti Kamildir.***

## Həqiqət (461)

Dialektika – Ziddiyyət Fəlsəfəsidir.
Ziddiyyətli Həqiqət olmur.
Bu səbəbdən də – ***Dialektik Həqiqət – Yalandır.***

Dialektika – Dəyişkənlik Fəlsəfəsidir.
Dəyişkən Həqiqət olmur.
Bu səbəbdən də – ***Dialektik Həqiqət – Yalandır.***

Dialektika – Nisbilik Fəlsəfəsidir.
Nisbi Həqiqət olmur.
Bu səbəbdən də – ***Dialektik Həqiqət – Yalandır.***

## Həqiqət (462)

Ruhani Cəmiyyət – İctimai Azadlıqdır;
Xalqın – Ağalıqdan Azad olması,
– Nökərlikdən Azad olması,
– Təbəqəlikdən Azad olması,
– Özgəlikdən Azad olması, –
Xəlqi Birliyə çatmasıdır.

**Həqiqət (463)**

***İnsanilik – İnsan Azadlığıdır...***

***İnsan*** – İnsaniliyə çatanda Azad olur,
– İnama çatanda Azad olur,
– İdraka çatanda Azad olur,
– Mənəviyyata çatanda Azad olur,
– İradəyə çatanda Azad olur.

**Həqiqət (464)**

***Həqiqət*** – İdrak Azadlığıdır; –
yəni İdrakın Mütləqə çatmaq Azadlığıdır.
Nisbidə qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

***Həqiqət*** – İnsanın Mahiyyətə çatmaq Azadlığıdır.
Təzahürdə qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

***Həqiqət* –** İdrakın Mənaya çatmaq Azadlığıdır.
Təzahürdə qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

***Həqiqət*** – İdrakın Əzəliyə çatmaq Azadlığıdır.
Ötəridə qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

***Həqiqət*** – İdrakın Əbədiyə çatmaq Azadlığıdır.
Keçicidə qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

***Həqiqət*** – İdrakın Sonsuzluğa çatmaq Azadlığıdır.
Sonluda qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

***Həqiqət*** – İdrakın Kamilliyə çatmaq Azadlığıdır.
Qeyri-kamildə qalan İdrak – Azadlığa çatmır, Həqiqətə çatmır.

**Həqiqət (465)**

***Hulliverlik – Faciəvilikdir.***

Hulliver faciəvi qəhrəmandır. Onu Şekspir yaratmalıydı, Svift yaratdı və Hulliverdən satirik surət əmələ gəlmədi; ***hamı Hulliverə acıdı, heç kəs ona gülmədi.***

**Həqiqət (466)**

***Hamleti*** – gerçəklik yaratdı və məhv etdi.

***Din Kixot*** – gerçəkliyini özü yaratdı və gülünc oldu.

***Heç biri gerçəklikdən üstün ola bilmədi – Mahiyyətə çata bilmədi; hər ikisi gerçəklikdə azdı və məhv oldu.***

**Həqiqət (467)**

Filosofların çoxu Həqiqəti – İdeyanın gerçəkliyə uyğun gəlməsi sayır...

Əslində isə Həqiqət – İdrakın Mahiyyətə yüksəlməsidir.
Gerçəkliyə uyğun gəlmək – Nisbiliyə uyğun gəlməkdir.

Gerçəkliyə uyğun gəlmək – Təzahürə uyğun gəlməkdir.
***Həqiqət – Mahiyyətin Mahiyyətli ifadəsidir.***

Gerçəkliyə uyğun gəlmək – Hadisəyə uyğun gəlməkdir.
***Həqiqət – Mənanın Mənalı ifadəsidir.***

Gerçəkliyə uyğun gəlmək – Ötəriyə uyğun gəlməkdir.
***Həqiqət – Əzəlinin Əzəli ifadəsidir.***

Gerçəkliyə uyğun gəlmək – Keçiciyə uyğun gəlməkdir.
***Həqiqət – Əbədinin Əbədi ifadəsidir.***

Gerçəkliyə uyğun gəlmək – Sonluya uyğun gəlməkdir.
***Həqiqət – Sonsuzluğun Sonsuz ifadəsidir.***

Gerçəkliyə uyğun gəlmək – Qeyri-kamilliyə uyğun gəlməkdir.
***Həqiqət – Kamilliyin Kamil ifadəsidir.***

**Həqiqət (468)**

Praqmatiklər "Faydalı olan – Həqiqətdir" deyirlər.

Bu, əslində "Yalan olan – Həqiqətdir" deməkdir. Çünki Adamlar Yalandan faydalandıqları dərəcədə Həqiqətdən faydalanmayıblar.

***Yalan – Fayda üsulu olub Adamlıqda.***

**Həqiqət (469)**

İnam – Ruhani Azadlıqdır: –
***Ruhun*** – Mütləqə qovuşmasıdır,
– Mahiyyətə qovuşmasıdır,
– Mənaya qovuşmasıdır,
– Əzəliyə qovuşmasıdır,
– Əbədiyə qovuşmasıdır,
– Sonsuzluğa qovuşmasıdır,
– Kamilliyə qovuşmasıdır.

**Həqiqət (470)**

Həqiqət gerçəkliyi zənginləşdirir, dərinləşdirir; onu Mahiyyətə çatdırır.

**Həqiqət (471)**

***Həqiqət – gerçəkliyin güzgüsü deyil – Göyüdür.***

Həqiqət – gerçəkliyin Məna Göyüdür, Mahiyyət Göyüdür, Əzəlilik Göyüdür, Əbədilik Göyüdür, Sonsuzluq Göyüdür, Kamillik Göyüdür.

**Həqiqət (472)**

***Elm*** – Təzahürşünaslıq.
***Fəlsəfə*** – Mahiyyətşünaslıq.
***Elm*** – Hadisəşünaslıq.
***Fəlsəfə*** – Mənaşünaslıq.

**Həqiqət (473)**

***Həqiqət – gerçəkliyin üzündə deyil – üzərindədir.***
– Nisbiliyində deyil – Mütləqliyindədir,
– Təzahüründə deyil – Mahiyyətindədir,
– Hadisəsində deyil– Mənasındadır.
***Həqiqət – Gerçəkliyin özündən üstünlüyünü ifadə eləyir.***

**Həqiqət (474)**

Həqiqət olanı – yəni gerçəklikdən Üstün olanı dərk edir;
– Təzahürdən üstün olanı dərk edir;
– Hadisədən üstün olanı dərk edir;
– Nisbidən üstün olanı dərk edir; –
Bu səbəbdən də Gerçəklikdən üstün olur.

**Müdriklik**

Mənaya çatmaq – Mənalı yaşamaq, Mənalı yaşatmaq.

**Həqiqət (475)**

Yalan – gerçəkliyi uydurur, Həqiqət – gerçəkliyi Mənaya yüksəldir.

**Həqiqət (476)**

***Gerçəklik*** – Mahiyyətdən aşağıdır, özünü Mahiyyətə bərabər saymaq üçün o, özünü uydurur.

***Beləliklə də Yalan yaranır – Gerçəklik Yalan yaradır.***

Hadisə – Mənadan aşağıdır, özünü Mənaya bərabər saymaq üçün o, özünü uydurur.

***Beləliklə də Yalan yaranır – Hadisə Yalan yaradır.***

Ötəri – Əzəlidən aşağıdır, özünü Əzəliyə bərabər saymaq üçün o, özünü uydurur.

***Beləliklə də Yalan yaranır – Ötəri Yalan yaradır.***

Keçici – Əbədidən aşağıdır, özünü Əbədiyə bərabər saymaq üçün o, özünü uydurur.

***Beləliklə də Yalan yaranır – Keçici Yalan yaradır.***

Sonlu – Sonsuzdan aşağıdır, özünü Sonsuza bərabər saymaq üçün o, özünü uydurur.

***Beləliklə də Yalan yaranır – Sonlu Yalan yaradır.***

Qeyri-kamil – Kamildən aşağıdır, özünü Kamilə bərabər saymaq üçün o, özünü uydurur.

***Beləliklə də Yalan yaranır – Qeyri-kamil Yalan yaradır.***

**Həqiqət (477)**

Dünyanın Mənası var, ancaq Dünyanın Fikri yoxdur.
***İnsanın Fikri var ki, Dünyanın Mənasını dərk etsin. Hegeldə Mənayla Fikir eyniləşir.***

**Həqiqət (478)**

B.Rasseldə Həqiqət – İnamı doğruldur.
Əslində isə Həqiqət – İnamı yaradır.
***İnam – Aqibətə çevrilmiş Həqiqətdir...***
Həqiqət – Mütləqin ifadəsidir.
Mütləqə qovuşan İnsan – Həqiqətlə Birləşir.
İnam – Həqiqətin nəticəsi, İdrakın zirvəsi kimi yaranır.
Həqiqət – İnamın xidmətçisi deyil, gözətçisi deyil – əsasıdır.

**Həqiqət (479)**

Nitsşe Adamdakı canavara vuruldu, Marks – sürülüyə.
Heç biri İnsandakı İnsaniliyi görmədi.
Nəticədə Adamdakı canavarlıq artdı, sürülük artdı.

**Həqiqət (480)**

Kainatın İnsan tərəfindən tamamlanmasına ehtiyac yoxdur.
Kainat – Tam və Bitkindir.
***İnsan Kainat–Bəşər Birliyini dərk etməli və yaşatmalıdır. O məhv olsa, Bəşər də məhv olacaq.***

**Həqiqət (481)**

***Hegeldə Dünya – Təfəkkürləşir.***
Bu, Təfəkkürü yaratmır – əksildir.
Dünyanın təfəkkürü varsa – onu dərk eləmək üçün İdrak gərək deyil.
İdrakın əsas məqsədi – Fikri dərk etmək yox, Fikir vasitəsiylə Dünyanı dərk etməkdir.
Hegelin Fikirli Dünyasına – İdrak gərək deyil – çünki Dünya özü elə Fikirdir.

***Fikirə çevrilmiş Dünya öz Dünyalığını – Fikirdən fərqli olmasını, müstəqilliyini itirir və onu dərk etməyə ehtiyac qalmır.***

***Beləliklə, Təfəkkürə yüksələn Dünya – əksilir.***

**Həqiqət (482)**

Kor-koranə İnamı, yəni İdraksız İnamı – İnam sayırlar.

Əslində isə kor-koranə İnam – İnamsızlıqdır; – ***çünki İdraksızlıq – İnamsızlıqdır;*** yəni Mütləqsizlikdir, Mahiyyətsizlikdir, Mənasızlıqdır.

**Həqiqət (483)**

Vardan yaranan Dünya – özündən yaranan Dünya.
Yoxdan yaranan Dünya – Allahın yaratdığı Dünya.
Din Allah xatirinə Dünyanı özümlükdən məhrum edir.

**Həqiqət (484)**

B.Rassel – İnamı İdrakdan qabaq hadisə sayır.

Əslində isə İnam – İdrakın başlanğıcı, davamı və nəticəsidir.

**Həqiqət (485)**

Pozitivizm – Gerçəkliklə İdrak arasında məsafəni qısaldır; bu səbəbdən də Gerçəklik Mahiyyətdən uzaq düşür.

**Həqiqət (486)**

***Pozitivizm*** – sırf gerçəklik fəlsəfəsi – yəni əslində Mütləqsiz, Mahiyyətsiz, Mənasız fəlsəfə yaratmaq istədi – ***Fəlsəfəsizlik yaratdı.***

***Həyatçılar*** – sırf Həyat fəlsəfəsi – yəni əslində Mütləqsiz, Mahiyyətsiz, Mənasız fəlsəfə yaratmaq istədilər – ***Fəlsəfəsizlik yaratdılar.***

***Marksizm*** – sırf cəmiyyət fəlsəfəsi – yəni əslində Mütləqsiz, Mahiyyətsiz, Mənasız fəlsəfə yaratmaq istədi – ***Fəlsəfəsizlik yaratdı.***

***Praqmatizm*** – sırf faydalıq fəlsəfəsi – yəni əslində Mütləqsiz, Mahiyyətsiz, Mənasız fəlsəfə yaratmaq istədi – ***Fəlsəfəsizlik yaratdı.***

Əsri Fəlsəfəsizliklə doldurdular fəlsəfəçilər – onu Fəlsəfəsiz qoydular.

**Həqiqət (487)**

Cəfəngiyyata İnam – İnamsızlıqdır.

Cəfəng İnam – İnamsızlıqdır.

***Bu səbəbdən də Din – İnamsızlıqdır əslində.***

Həm cəfəngiyyata, həm Həqiqətə inanmaq olmaz.

Həqiqətə inanan – cəfəngiyyata inanmaz.

Cəfəngiyyata inanan – Həqiqətə inanmaz.

Din – cəfəngiyyata inanır, bu səbəbdən də inamsızlıqdır əslində.

**Həqiqət (488)**

Dünya – Mənalıdır, Təfəkkürlü deyil.

Məna – dərk olunandır, Təfəkkür – dərk edən.

***Təfəkkür – Mənanın dərkidir – özü deyil.***

***İnsanla Dünya arasında Məna birliyi var; İdrak – Dünya eyniliyi yoxdur.***

**Həqiqət (489)**

***İdrak – Gerçəkliyə uyğunlaşsaydı,*** – Həqiqətsizləşərdi – yəni onu Mahiyyətdən məhrum edərdi.

***İdrak*** – Hadisəyə uyğunlaşsaydı, – Hadisəni Həqiqətsizləşdirərdi, – yəni onu Mənadan məhrum edərdi.

***İdrak*** – Ötəriyə uyğunlaşsaydı – Ötərini Həqiqətsizləşdirərdi, – yəni onu Əzəlilikdən məhrum edərdi.

***İdrak*** – Keçiciyə uyğunlaşsaydı, – Keçicini Həqiqətsizləşdirərdi, – yəni onu Əbədilikdən məhrum edərdi.

***İdrak*** – Sonluya uyğunlaşsaydı, – Sonlunu Həqiqətsizləşdirərdi, – yəni onu Sonsuzluqdan məhrum edərdi.

***İdrak*** – Qeyri-kamilə uyğunlaşsaydı, – Qeyri-kamili Həqiqətsizləşdirərdi, – yəni onu Kamillikdən məhrum edərdi.

***İdrak*** – Gerçəkliyə uyğunlaşmır, Gerçəkliyi ötür və bu səbəbdən də Həqiqətə çatır.

**Həqiqət (490)**

Heraklitin Loqosu (Qanunauyğunluğu) dəyişkəndir, ziddiyyətlidir.

Dəyişkən, ziddiyyətli – Mahiyyət olmur.

**Həqiqət (491)**

Məna – İdrakda dərk olunan Dünyalıq...

**Həqiqət (492)**

Hegeldə fikirçilik son nəticədə fikirsizliyə gətirib çıxarır.

**Həqiqət (493)**

Politologiya – Elm deyil, ideologiyadır, yəni siyasət ideologiyasıdır – Siyasəti təbliğ eləyən, təlqin eləyən.

O, Elmvarı biçimdə siyasət təbliğatçısıdır.

**Həqiqət (494)**

Sosiologiya cəmiyyətə cəmiyyətin gözüylə baxır – İnsaniliyin gözüylə baxmır.

Bu səbəbdən də o, əslində cəmiyyətə bəraət qazandırır.

***Sosiologiya – Həqiqətə xidmət etmir; Siyasətə xidmət edir.***

**Həqiqət (495)**

Pozitivizm – İdrakı Gerçəkliyə pərçimləyir; onu Mahiyyətdən, Mənadan ayrı salır.

Mahiyyətdən, Mənadan ayrı düşmüş İdrakı – yeni fəlsəfə kimi təqdim edir.

**Həqiqət (496)**

***Həqiqət*** – Mütləqin ifadəsidir.
Mütləqə inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Mütləqə inanmırlar.***

***Həqiqət*** – Mahiyyətin ifadəsidir.
Mahiyyətə inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Mahiyyətə inanmırlar.***

***Həqiqət*** – Mənanın ifadəsidir.
Mənaya inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Mənaya inanmırlar.***

***Həqiqət*** – Əzəlinin ifadəsidir.
Əzəliyə inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Əzəliyə inanmırlar.***

***Həqiqət*** – Əbədinin ifadəsidir.
Əbədiyə inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Əbədiyə inanmırlar.***

***Həqiqət*** – Sonsuzluğun ifadəsidir.
Sonsuzluğa inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Sonsuzluğa inanmırlar.***

***Həqiqət*** – Kamilliyin ifadəsidir.
Kamilliyə inanmayanın Həqiqəti yoxdur.
***Həqiqətsizlik ucundan Kamilliyə inanmırlar.***

**Həqiqət (497)**

Maddi Mədəniyyət yaranıb.
Ruhani Mədəniyyət yaranmayıb.
İnam Mədəniyyəti yaranmayıb.
İdrak Mədəniyyəti yaranmayıb.
Mənəviyyat Mədəniyyəti yaranmayıb.
İradə Mədəniyyəti yaranmayıb.

***Adamlıq aşkarlanıb, İnsanlıq aşkarlanmayıb.***

**Həqiqət (498)**

İnsanı Bəndə saymaqdan böyük Şübhəçilik yoxdur.

**Həqiqət (499)**

İnsanın Məqsədi Təbiət yaratmaq deyil (Vernadskinin, Şardenin noosferası), – özünü təzədən yaratmaqdır.

İnsanın Məqsədi – İnsanlaşmaqdır.

Təbiətə İnsani münasibət – Təbiət üzərində Ağalıqdan imtina – İnsanlaşma nəticəsində yarana bilər.

***Noosfera yaradıcılığı əslində Təkmilləşən Ağalıqdır, – o, ekoloji fəlakəti aradan qaldırmır, elmləşdirir.***

**Həqiqət (500)**

Dava – Dinc Həyatın güzgüsüdür.
Dinc Həyatda olanlar Davanın güzgüsündə görünür.

***Dinc Həyatda Davakarlıq olmasaydı – Dava olmazdı.***

**Həqiqət (501)**

Gerçəkliyi ötmək – Gerçəkliyi rədd etmək deyil, onu Mahiyyətinə çatdırmaqdır.

Gerçəklikdə qalmaq – Gerçəkliyi təsdiq etmək deyil – onu Mahiyyətindən ayrı salmaqdır.

## Həqiqət (502)

***Bilik – İdrak gerçəkliyidir.***

Həyat gerçəkliyini ötən İdrak həm də öz gerçəkliyini ötür, ötməlidir.

***İdrak – Biliyi ötməsə – ölər.***

Bilik ona görə daim təzələnir ki, İdrak Biliyi ötür.

İdrak Bilikdə qalsa, dayansa – yaşamaz.

İdrak Biliyi ötməsə – Bilik təzələnməz.

***Bilik – təzələnməsə – ölər.***

## "Noosferaçılığa" Qarşı (1)

Allaha İnam yalanından imtina edən İnsan – Allahlıq eləmək – təzə Kainat yaratmaq eşqinə düşməz.

## Həqiqət (503)

Şəri sarsıda bilməyən Mədəniyyət yaranıb.

Ədalətsizliyi sarsıda bilməyən Mədəniyyət yaranıb, Yalanı sarsıda bilməyən Mədəniyyət yaranıb.

Şərin sarsıda biləcəyi Mədəniyyət yaranıb.

Ədalətsizliyin sarsıda biləcəyi Mədəniyyət yaranıb, Yalanın sarsda biləcəyi Mədəniyyət yaranıb.

Adamlıq üstə qurulan Mədəniyyət yaranıb.

## Həqiqət (504)

***İctimai Həyat – Əxlaqsızlıq üstə qurulur.***

***Dinçilik –*** Əxlaqsızlıqdır.

***Pulçuluq*** – Əxlaqsızlıqdır.

***Siyasətçilik*** – Əxlaqsızlıqdır.

***Hakimiyyətçilik*** – Əxlaqsızlıqdır.

***Ağalıq*** – Əxlaqsızlıqdır.

***Nökərlik*** – Əxlaqsızlıqdır.

***Təbəqəlik*** – Əxlaqsızlıqdır.

***Özgəlik*** – Əxlaqsızlıqdır.

**Həqiqət (505)**

İnsanın Təbiət üzərində Ağalığını artırmaq yox, İnsan–Təbiət Birliyinə nail olmaq gərək.

***Təbiətə İnsani münasibət gərək.***
***İnsanlaşmaq gərək ki, Təbiət ölməsin.***

**Həqiqət (506)**

***Adamı İnsan edə bilməyən Mədəniyyət yaranıb.***

Daxilə nüfuz edə bilməyən, müdaxilə edə bilməyən; zahirdə qalan, daim zahirləşən, səthiləşən Mədəniyyət – özündə dəhşətli, fəlakətli Mədəniyyətsizlik, vəhşilik gəzdirən; qəddarlıq, cəlladlıq, həqarət gəzdirən; Bəzəkləşən, biçimləşən, köpükləşən, daim artan, çoxalan; – Artdıqca, çoxaldıqca Mahiyyətsizləşən, Mənasızlaşan nisbi Mədəniyyət.

Mədəniyyət İnsan yaratmadı: Gərək Adam İnsanlaşsın – Mədəniyyəti ötsün; İnsaniliyini təsdiq etsin: – İnsanlaşsın, İdraklaşsın, Mənəviyyatlaşsın, İradələşsin.

**Həqiqət (507)**

Bugünün əsasında yaranan Sabah – Sabah olmayacaq, Bugün olacaq.

***Bugünə yaxın Sabah olmayacaq, Bugündən uzaq Sabah olacaq.***

Sabah öz əsasında yaranacaq.

***Ocaq – Əsaslı Sabah yaradıcılığıdır.***

**Həqiqət (508)**

Bugün – Dünənçilikdir.
***Dünənçiliyin Sabahı yoxdur.***

**Həqiqət (509)**

Pulçuluq, Siyasətçilik, Dinçilik üstə qurulan cəmiyyətin Ruhani əsası yoxdur.

Ruhani əsasdan məhrum olan cəmiyyət yaşayır və inkişaf edirsə, bu – yalançı Yaşayış və yalançı İnkişafdır.

**Həqiqət (510)**

Bugün Sabaha keçid deyil – Dünənə dönüşdür.
Dünənə Dönüşün – Sabahı yoxdur.

**Həqiqət (511)**

***Dünya standartına uyğun yaşamaq – Dünyanı standartlaşdırmaqdır...***

Standart Dünya yaradıcılığı tüğyan eləyir.

Yaradıcılığa zidd Dünya yaradırlar – Dünyaçılar; ***Standarta qapanırlar, qapılırlar; Standart yaradıcılıq yaradırlar.***

**Həqiqət (512)**

Ədalətli Dövlət – Dövlət Yalanıdır.
Ədalətli Zor olmur.
***Dövlət – Qanunlaşmış Zorçuluqdur.***

**Həqiqət (513)**

Əxlaqlı Siyasət – Siyasət Yalanıdır.
***Siyasət – Cəmiyyətə yarayan əxlaqsızlıq vasitəsidir əslində.***

**Həqiqət (514)**

Millətlər özlərinə qayıtmırlar – Dünya standartlarına qatılırlar.

**Həqiqət (515)**

İnsanı İnsanilikdən məhrum etmək vasitəsiylə möhkəmlətmək olmaz – əzmək olar.

**Həqiqət (516)**

Tərəqqi möhtəşəmliyi İnsanı möhkəmlətmədi – əzdi; çünki Nisbi oldu – Mütləq olmadı; Təzahür oldu – Mahiyyət olmadı; Hadisə oldu – Məna olmadı; Ötəri oldu – Əzəli olmadı; Keçici

oldu – Əbədi olmadı; Sonlu oldu – Sonsuz olmadı; Qeyri-kamil oldu – Kamil olmadı.

**Həqiqət (517)**

***Müasir Tərəqqi*** – İnsanı Gerçəkliyə pərçimlədi; onu Mahiyyətindən ayrı saldı, onda Mahiyyətinə həsrət yaratdı.

***Müasir Tərəqqi*** – İnsanı Nisbiliyə pərçimlədi; onu Mütləqiliyindən ayrı saldı, onda Mütləqiliyinə həsrət yaratdı.

***Müasir Tərəqqi*** – İnsanı Ötəriliyə pərçimlədi; onu Əzəliliyindən ayrı saldı, onda Əzəliliyinə həsrət yaratdı.

***Müasir Tərəqqi*** – İnsanı Keçiciliyə pərçimlədi; onu Keçiciliyindən ayrı saldı, onda Əbədiliyinə həsrət yaratdı.

***Müasir Tərəqqi*** – İnsanı Sonluya pərçimlədi; onu Sonsuzluqdan ayrı saldı, onda Sonsuzluğuna həsrət yaratdı.

***Müasir Tərəqqi*** – İnsanı Qeyri-kamilliyə pərçimlədi; onu Kamilliyindən ayrı saldı, onda Kamilliyə həsrət yaratdı.

***İnsanı yüksəltməli olan hadisə – İnsanı İnsaniliyə həsrət qoydu...***

**Həqiqət (518)**

***Köhnə Zaman*** – İnsanın Göydəki Allahdan asılılığı.
***Yeni Zaman*** – İnsanın Yerdəki Allahlardan asılılığı...

**Həqiqət (519)**

Bugünün davamı olan Sabah – Sabahkı Bugün – artıq var.

Bugündən fərqli olan Sabah – Bugün İnam üstə, İdrak üstə, Mənəviyyat üstə, İradə üstə yaradılır.
Ocaq – Sabah yaradıcılığıdır.

**Həqiqət (520)**

Kapitalizm zəngin istismar mədəniyyəti yaradıb və onu bütün mədəniyyətsiz ölkələrə yayır, mədəniyyətsizləri – mədəniyyətləşdirir.

**Həqiqət (521)**

Adamın Təbiət üzərində Ağalığa ağlı çatdı, həmin Ağalıqdan imtina etməyə İdrakı çatmadı.

**Tərəqqi Çeşidləri**

İnam Tərəqqisi – Mütləqçilik.
İdrak Tərəqqisi – Həqiqətçilik.
Mənəviyyat Tərəqqisi – Vicdançılıq.
İradə Tərəqqisi – Yenilməzlik.

**Həqiqət (522)**

Nə qədər Müharibə var – İnsanın Həyat haqqından danışmaq riyakarlıqdır.

Nə qədər Kapitalizm, Sosializm var – İnsanın Mülkiyyət haqqından danışmaq riyakarlıqdır.

Nə qədər Din var – İnsanın Vicdan haqqından danışmaq – riyakarlıqdır.

***İnsan haqları – əslində riyakarlıq haqlarıdır.***

**Həqiqət (523)**

***Pulçuluq tərbiyəsi*** – Əxlaqsızlıq tərbiyəsidir əslində – çünki Pulçuluq – Əxlaqa ziddir.

Dinçilik tərbiyəsi – Əxlaqsızlıq tərbiyəsidir əslində – çünki Dinçilik – Əxlaqa ziddir.

Hakimiyyətçilik tərbiyəsi – Əxlaqsızlıq tərbiyəsidir əslində – çünki Hakimiyyətçilik – Əxlaqa ziddir.

Cəmiyyətçilik tərbiyəsi – Əxlaqsızlıq tərbiyəsidir əslində – çünki Cəmiyyətçilik – Əxlaqa ziddir; yəni Ağalıq – Əxlaqa ziddir; Nökərlik – Əxlaqa ziddir; Təbəqəlik – Əxlaqa ziddir; Özgəlik – Əxlaqa ziddir.

**Həqiqət (524)**

***Din*** yaşayırsa – hansı İdrak Tərəqqisindən danışmaq olar?

Pulçuluq yaşayırsa – hansı Mənəviyyat Tərəqqisindən danışmaq olar?

Hakimiyyətçilik yaşayırsa – hansı Ədalət Tərəqqisindən danışmaq olar?

**Həqiqət (525)**

Zahiri – Daxilinin təzahürüdür. Zahirini Daxilinin əsası sayırlar – Əsassız yaşayırlar.

Nisbi – Mütləqin təzahürüdür. Nisbini Mütləqin əsası sayırlar – Əsassız yaşayırlar.

Hadisə – Mənanın təzahürüdür. Hadisəni Mənanın əsası sayırlar – Əsassız yaşayırlar.

Ötəri – Əzəlinin təzahürüdür. Ötərini Əzəlinin əsası sayırlar – Əsassız yaşayırlar.

Keçici Əbədinin təzahürüdür. Keçicini Əbədinin əsası sayırlar – Əsassız yaşayırlar.

Sonlu Sonsuzun təzahürüdür. Sonlunu Sonsuzun əsası sayırlar – Əsassız yaşayırlar.

Qeyri-Kamil Kamilliyin təzahürüdür. Qeyri-kamili Kamilliyin əsası sayırlar – Əsassız yaşayırlar.

**Həqiqət (526)**

***Nitsşenin Fövqəlinsanı*** əslində Azadlıqdan məhrumdur: o, Bioloji Yırtıcılığın, Heyvaniliyin icraçısıdır; Nitsşeçilik – Bioloji Fatalizm (Qismətçilik) Fəlsəfəsidir: ***Yırtıcı Yırtıcılığa*** bağlıdır; Zooloji həyatdan (heyvanatdan) asılıdır, onun təcəssümü və məcmuudur, ona tabedir...

***Yırtıcı Azadlığı – əslində Yırtıcılıq Əsarətidir – Fövqəlinsana hakim olan.***

**Həqiqət (527)**

Nitsşenin Xristianlıqla döyüşü – Xristianlığın xeyrinə oldu.

Nitsşe – Xristianlığı Mərhəmət dini saymaqla idealizə elədi; ***əslində Xristianlıq – köləlik dinidir.***

**Həqiqət (528)**

Nitsşenin Mərhəmətlə Döyüşü – Donkixotluqdur.
Bəşər həyatında Mərhəmət həmişə kasad olur.
***Nitsşe olmayanla döyüşür əslində.***

**Həqiqət (529)**

Müstəqilliyi Kapitalizm yolunda görürlər.
Əslində Kapitalizm ölməsə – Müstəqillik yaşamaz...

**Həqiqət (530)**

Həyatı Mədəniyyətə qarşı qoymaq – Həyatı İnsansızlaşdırmaqdır.

Mədəniyyəti Həyata qarşı qoymaq – Mədəniyyəti Həyatsızlaşdırmaqdır.

**Həqiqət (531)**

Orteqa-i-Qasset – Həyatı İdmanlaşdırmaq yoluyla Bayramlaşdırmaq istəyirdi.

Həyat çoxdan idmanlaşıb – ancaq Bayramlaşmayıb, əslində Matəmləşib.

**Həqiqət (532)**

Vitalistlər (Həyatçılar) oyunu idealizə edirlər; bunu fərəh və ehtiras timsalı sayırlar. Əslində isə oyun (o cümlədən idman) – nümayiş əməlidir: oyun fərəhi – nümayiş ehtirasıdır.

***Nümayiş fərəhi – səthi fərəhdir; nümayiş ehtirası – səthi ehtirasdır.***

***Həyatı mütləqləşdirmək istəyən həyatçılar – onu səthiləşdirirlər əslində.***

**Həqiqət (533)**

Vitalistlərin (Həyatçıların) Mədəniyyətdən Həyata atılmaları onların Göydən Yerə atılmaları kimi bir şeydir.

***Yaxşı ki, hələ sağ qalıblar.***

**Həqiqət (534)**

İnsanın Dünya üzərində öz təzə Dünyasını yaratmaq iddiası (Teyyar de Şarden) – təhlükəli xülyadır.

İnsan təzə Dünya yarada bilməz; köhnə Dünyanı dağıda bilər.

***İnsan özünü yaratdığı dərəcədə Dünyaya gərək olur.***

**Həqiqət (535)**

***İnsani Birliyin qarşısında*** ictimai Birlik dayanıb – yəni Ağalıq, Nökərlik, Təbəqə, Özgələşmə üstündə qurulan Birlik dayanıb – ***yəni əslində Yadlıq, Yağılıq dayanıb.***

**Həqiqət (536)**

Şardendə İdrakilik İctimailiyə bərabərdir.

Əslində isə cəmiyyət İdrakdan yaranmayıb – Ağalaşma, Nökərləşmə, Təbəqələşmə, Özgələşmə instinktindən yaranıb.

İdrakiliyi ictimailəşdirmək – onu əksiltməkdir və əslində ictimailiyi artırmaqdır...

İdraklı cəmiyyət olmayıb.

**Həqiqət (537)**

İdrak – İnsanlar arasında İdraklı münasibət tələb eləyir...

***İnsanlar arasında İdraklı münasibət yaradan cəmiyyət olmayıb.***

**Həqiqət (538)**

Dünyanın İnsan tərəfindən təzədən yaradılmasına ehtiyac yoxdur. O, möhkəm təməl üstə – Əzəli, Əbədi, Sonsuz, Kamil Dünyalıq üstə qurulub.

***İnsan öz Dünyasını qura bilmir; öz dərdinə qala bilmir – çünki İnsanlaşa bilmir.***

**Həqiqət (539)**

İnsaniliyi cismanilik üstə dərk etmək: Ruhaniliyi cismaniliklə eyniləşdirmək – yəni əslində onu inkar eləməkdir.

**Həqiqət (540)**

İnsan Təbiəti mənimsəyir, ondan faydalanır, həm də onu duyur, dərk edir, onunla birgə yaşayır.

Təbiət İnsanın yaşamaq mənbəyidir, həm də Doğmasıdır.

Təbiət həm İnsan maddiyyatında, həm də Ruhunda yaşayır.

***İnsan Təbiətlə birdir, ancaq ona münasibətində ikilidir.***

**Həqiqət (541)**

İnsan Təbiətdəki İnsaniliyi görür, bilir, bəsləyir, vəsf eləyir...

İnsan Təbiətdən artıq Təbiət yaratmır, çünki Təbiətin Mahiyyətində İnsanilik var; – İnsan həmin Mahiyyəti dərk edir, ona bağlanır, onunla bir olur.

***Təbiət yaratmaq – İnsan işi deyil, Təbiət işidir.***

Bu səbəbdən də Noosfera (təzə dairə, təzə Təbiət) ideyası – İnsan–Təbiət münasibətinin Mahiyyətindən uzaqdır: İnsan Təbiətin Ağası deyil, Yaradıcısı deyil – İfadəçisidir.

**Həqiqət (542)**

İnsanın xilasını Kosmosda görmək – təzə dindarlıqdır – Kosmosdan təzə Allah düzəltməkdir.

**Həqiqət (543)**

***Bəşərin xilasını*** İnsanın təzə Kainat (Noosfera) yaratmasında görmək (Vernadski–Şarden) səthi və zərərli xülyadır.

***Bəşərin xilası*** İnsanın təzələnməsidir – özünü təzədən yaratmasıdır.

**Həqiqət (544)**

Bəşər – İnsan cəmi.

Bəşərilik – İnsan Mahiyyəti.

Bəşər – Bəşəriliyə çatmayınca – Bəşəri Birlik yaranmayacaq.

**Həqiqət (545)**

Xudbinliyi – cəmiyyətçiliklə əvəz eləmək – Fərdi xudbinliyi İctimai xudbinliklə əvəz eləməkdir.

**Həqiqət (546)**

Cəmiyyətə ən çox zəiflər, mənəvi zəlillər uyğunlaşır.

Güclülər – ya cəmiyyəti dəyişdirir, ya da cəmiyyət tərəfindən məhv edilir.

***Yaşamaq üçün döyüşdə zəiflər, mənəvi zəlillər qalib gəlirlər...***

**Həqiqət (547)**

Yırtıcılıq – zəiflikdir, mənəvi zəlillikdir.

Bu səbəbdən də yırtıcı qələbəsi – insani məğlubiyyətdir.

**Həqiqət (548)**

Kainatın İnsaniliyi – Kainatın özündədir.

Kainat – özgələşdikcə – "İnsanlaşdıqca" – insaniliyini itirir; insana qarşı yadlaşır, yağılaşır.

**Həqiqət (549)**

İnsan Kainatdan ayrılmayıb – özündən ayrılıb – insanlar bir-birindən ayrılıblar.

İnsanın dərdi – Kainat dərdi deyil – İnsan dərdidir.

***Elə Kainatı dərdə salan da – İnsandır.***

**Həqiqət (550)**

İnsan Kainatda özünü Tənha saymır – cəmiyyətdə özünü tənha sayır.

İnsanın Məqsədi – Kainatdan üstün Kainat yaratmaq deyil – cəmiyyətdən üstün Birlik yaratmaqdır.

**Həqiqət (551)**

Aristotel – İnsanın ictimailiyini – cəmiyyətçiliyini – onun sözlər vasitəsiylə Xeyiri və Şəri, Ədaləti və Ədalətsizliyi ifadə etməsində görür.

Əslində cəmiyyət əksər hallarda Xeyirə və Ədalətə qarşı olub, Şəri Xeyir əvəzi, Ədalətsizliyi Ədalət əvəzi kimi təqdim edib.

Bu səbəbdən də Aristotelin dəlili İnsanın cəmiyyətçiliyini yox – cəmiyyətdən üstünlüyünü təsdiq edir.

**Həqiqət (552)**

Ümumbəşəri sərvət adı altında ***Kapitalizm sərvətlərini*** vəsf edirlər.

İqtisadi Azadlıq adı altında ***Yırtıcı Rəqabəti*** vəsf edirlər.

Siyasət Azadlığı adı altında ***Siyasi Oyunbazlığı*** vəsf edirlər.

Vicdan Azadlığı adı altında ***Dini cəfəngiyyatı*** vəsf edirlər.

**Noosferaçılığa qarşı (2)**

Özünü dəyişdirmədən, özünə çatmadan Kainatı dəyişdirəcək, təzə Kainat yaradacaq İnsanın İdrakına inanmırsan.

**Həqiqət (553)**

"Noosferaçılar" Adamı dəyişməyə ehtiyac duymurlar, Adamdan Fövqəlinsanlıq umurlar; özünə gün ağlaya bilməyənin Kainata gün ağlayacağına inanırlar.

**Nəticə**

Dünya münasibətləri genişləndikcə – İnsani münasibətlər daralır; siyasi əlaqələr zənginləşdikcə, İnsani əlaqələr səthiləşir.

***Dünya hamılaşdıqca yadlaşır.***

Adam Dünyanın bu başından batıb o başından çıxır və hardan batıb çıxdığını bilmir.

Xüsusilik, fərdilik, bənzərsizlik azaldıqca – genişlənən, ümumiləşən Dünya – İnsana dar gəlir.

***Həyat – zahiriləşir.***

Qapısını insanın üzünə tay-tay açan Dünya – İnsana boş görünür. İnsan itirilmiş Dünyasını axtarır, tapa bilmir.

**Həqiqət (554)**

Kainatın şüurlaşması – fövqəlşəxsiyyətləşməsi ideyası (Şardenin Omeqa nəzəriyyəsi) – onun özgələşməsi deməkdir.

Bu, əslində qələbə yox, məğlubiyyət olardı, xilas yox, fəlakət olardı.

***İnsan kainatsız qalardı və məhv olardı.***

**Həqiqət (555)**

İndiki Dünyəvi Birliklər (İnteqrasiyalar) Dünya üzərində Ağalıq üçündür.

***Dünyəvi Birliklər olmasa – Dünya Ağaların əlindən çıxar...***

**Həqiqət (556)**

Bəşər daim yeriyir, bəzən yüyürür – Sabaha çatmır.

**Həqiqət (557)**

***Cəmiyyət*** – Ağalığın Təsdiqidir.
***Xeyir*** – Ağalığa qarşıdır, – Cəmiyyətə qarşıdır.

***Cəmiyyət*** – Nökərliyin Təsdiqidir.
***Xeyir*** – Nökərliyə qarşıdır, – Cəmiyyətə qarşıdır.

***Cəmiyyət*** – Təbəqəliyin Təsdiqidir.
***Xeyir*** – Təbəqəliyə qarşıdır, – Cəmiyyətə qarşıdır.

***Cəmiyyət*** – Özgələşmənin Təsdiqidir.
***Xeyir*** – Özgələşməyə qarşıdır, – Cəmiyyətə qarşıdır.

**Həqiqət (558)**

Kosmik Antropologizm (Kainatın İnsanlaşması nəzəriyyəsi) – İnsanı Kainatsız qoymaqdır əslində.

**Həqiqət (559)**

İnsanlaşan Kainatda – İnsana yer qalmaz.

**Tarixi gedişat**

Ağalıq – aradan qalxmadı – mədəniləşdi – Mədəni Ağalıq yarandı; – yəni Ağalıq Mədəniyyətsizliyi yaşadı.

Nökərlik – aradan qalxmadı – mədəniləşdi – Mədəni Nökərlik yarandı – yəni Nökərlik Mədəniyyətsizliyi yaşadı.

Təbəqəlik – aradan qalxmadı – mədəniləşdi; mədəni Təbəqəlik Mədəniyyətsizliyi yaşadı.

***Mədəniyyət – Mədəniyyətsizliyə yaradı.***

**Həqiqət (560)**

İnsan – Kosmos (Kainat) Birliyini eynilik birliyi kimi yox, fərqlilər birliyi kimi anlamaq gərək!
İnsan – Maddiyyatdan fərqlidir, həm də Kainatla Birdir.
Fərq İnsanı Kainatdan ayırmır.

Dünyanı dərk etmək – Dünyayla İnsanın Birliyini dərk etmək olur.

İdrak adlanan ruhani xassə – İnsanla Kainat Birliyinə xidmət edir.

**Həqiqət (561)**

Kapitalizm – Adamı Var vasitəsiylə cəmiyyətləşdirir – xudbinləşdirir.

Sosializm – Adamı Zor vasitəsiylə cəmiyyətləşdirir – xudbinləşdirir.

**Həqiqət (562)**

Dövlətsizliyi Vəhşilik sayanlar – Dövlət vəhşiliyini unudurlar.

**Noosferaçılığa qarşı (3)**

İnsanı maddiyyatdan üstün halda görə bilmirlər; bu səbəbdən də Kainatın İdraklaşmasına – son nəticədə Fövqəl-şəxsiyyətə çevrilməsinə inanırlar...

Əgər İnsan Kainatdırsa, elə Kainat da İnsandır – Fövqəl İnsana çevrilən.

Məhdud müddəadan – Fövqəlgeniş nəticə alınır.

**Həqiqət (563)**

Bəşəriyyət müxtəlif fərdlər, xalqlar, ölkələr Birliyidir.

Birliyi yaradan – Müxtəliflikdir əslində – ***Müxtəliflik ölsə, Birlik də ölər.***

**Həqiqət (564)**

Cəmiyyətçilərə görə, Bəşəriyyət birgə yaranıb – sonradan fərdlərə ayrılıb.

Bütün Bəşəriyyət kollektiv şəkildə nəhəng bir Anadan doğulub – Bəşəriyyətin kollektiv doğuluşu olub.

İnsan ictimai varlıqdır – kollektiv varlıqdır.

Belə olduqda Fərd – bəşəri əskiklikdir, qeyri-təbiilikdir, naqislikdir.

Aristoteldən başlayıb – Marksa qədər davam edən cəmiyyətçilik Fərdiliyə qarşıdır – əslində.

**Həqiqət (565)**

Bəşəri Birliyi Kosmos Birliyinin nəticəsi saymaq – Ruhaniliyi Maddiyyatla eyniləşdirməkdir, – yəni İnsanı cismaniliyə bərabər saymaqdır.

**Həqiqət (566)**

***İnam Birliyi*** – Fərdiyyət Zənginliyi tələb eləyir.
***Adam Cəmi*** – Fərdiyyətdən imtina tələb eləyir.
***Bəşər Birlik yarada bilməyib – Cəmiyyət yaradıb.***

**Həqiqət (567)**

Kainatın Ruhu yoxdur – İnsanın Ruhu var – Kainatı duyan.

***Kainatın İnsaniliyi – İnsandadır.***

**“Noosferaçılığa” qarşı (4)**

Kainatı dərk etmək – Kainatı nizamlamaq deyil, ondakı nizamı aşkarlamaqdır.

Kainatın öz nizamı var, onun İdrak tərəfindən nizamlanmağa ehtiyacı yoxdur.

***İdrak – İnsan həyatını nizamlamalıdır, onu İnsaniliyə çatdırmalıdır.***

**Həqiqət (568)**

Vətənsevərlik – cəmiyyətsevərlik deyil.

Siyasətçilər yalandan onları birləşdirirlər və həmin yalanı camaata təlqin eləyirlər.

Ağalığı sevən Vətənsevərlik yoxdur.

Nökərliyi sevən Vətənsevərlik yoxdur.

Təbəqəliyi sevən Vətənsevərlik yoxdur.

Özgələşməni sevən Vətənsevərlik yoxdur.

***İnsan Doğma Vətəndə və Yad cəmiyyətdə yaşayır.***

**Həqiqət (569)**

Kapitalizmdə xüsusi mülkiyyət var – xüsusi həyat yoxdur. Həyat orada başdan-ayağa cəmiyyətləşib.

**Həqiqət (570)**

İnsanı Kosmosa (Kainata) bağlayan onun Kosmosluğu yox – İnsanlığıdır.

İnsan İnsanlaşdıqca – Kosmosdan fərqləndikcə Kosmosa daha çox bağlanır.

**Həqiqət (571)**

İnsan – Fərdiyyətdə xudbinləşmir, cəmiyyətdə – xudbinləşir.

İnsan – Fərdiyyətdə zənginləşir, cəmiyyətdə – yoxsullaşır.

**Həqiqət (572)**

"Dövlət – Xalq üçündür" şüarı "Ağa – Nökər üçündür" yalanını ifadə edir.

**"Noosferaçılığa qarşı" (5)**

Zidd etdiyi Kainata İdrak gətirən Bəşəriyyət – qəsb etdiyi ölkəyə Azadlıq gətirən Ağaya bənzəyərdi.

**Həqiqət (573)**

İnsanı Kainat Ağası saymaq – Kainatı cəmiyyətləşdirməkdir.

**Həqiqət (574)**

Kainatı İnsandan asılı eləmək – İnsanı böyütmür – Ağalandırır.

**Həqiqət (575)**

Özündən çox Kainata gərək olan İnsan – heç Kainata da gərək deyil.

**Həqiqət (576)**

Kainatı İnsanlaşdıran Adam – gərək əvvəl özünü İnsanlaşdırsın – Yırtıcılığından ayrılsın ki, Kainatı məhv eləməsin.

**Həqiqət (577)**

Nüvə Silahı – Adam davakarlığının ölçüsüdür. Adam davakarlığı nüvə silahı qədər qorxuncdur.

**Həqiqət (578)**

Düşünən Kainat yoxdur – düşünən İnsan var – Kainat haqqında düşünən, özü haqqında düşünən.

**Həqiqət (579)**

İnsanın Kainatı idarə etməsi iddiası – ictimai Ağalığın kosmik Ağalığa çevrilməsi ehtimalıdır.

Ancaq Kainat – Ağalığı qəbul etməz; bu, bəşərə ağır başa gələr – bəşər Kainatı itirər.

**Həqiqət (580)**

Kainat nizamı – Azadlıq nizamıdır, Əsarət nizamı deyil.

Adam Ağalığı həmin nizamı pozar, Kainatı məhv edər, özü də məhv olar.

**Həqiqət (581)**

Elmi yolla "genlərin idarə olunması" – dəyişdirilməsi yoluyla təzə insan yaratmaq Ümumbəşəri genosiddir əslində.

Fizikanın Dağıdıcı Fəallığı Bəşəriyyətə ağır başa gəldi.

Biologiyanın Dağıdıcı Fəallığı Bəşəriyyətə daha ağır başa gələ bilər.

**Həqiqət (582)**

Bəşəriyyətin başının üstünü həm də Elm təhlükəsi alıb indi.

**Həqiqət (583)**

Noosferaçılıq – dindir, çünki cəfəngiyyata inamdır.

**Həqiqət (584)**

İnsanın təzə Kainat yaratmasına inam əslində nikbinlik deyil – bədbinlikdir – Kainat özümlüyünün inkarıdır; Kainat Təməlsizliyinin təsdiqidir.

***Kainata inanmayan nikbinlik – bədbinlikdir.***

**Həqiqət (585)**

İnsanın Kainat üzərində hakimliyi – Kainatı İnsanla doğmalaşdırmır, əksinə, yadlaşdırır, çünki hakimlik elə yadlıq deməkdir, yağılıq deməkdir.

**Həqiqət (586)**

Həqiqətçi – Gerçəkliyi ötüb, Mənaya çatır.
Xülyaçı – Mənadan keçib, Mənasızlığa çatır.

**Həqiqət (587)**

İnsan – Kainatın Allahı deyil, özünün Allahıdır.
Kainatın Allahı – Kainatın özüdür.

**Həqiqət (588)**

***Qərb*** – Allahı inkar etmədən – Dünyanı Allahın əlinsən aldı və Qərbləşdirdi.

***Şərq*** – Allaha tapındı və Dünyadan əl çəkdi; ***Dünya Qərbə qaldı; Şərqin yalnız adı qaldı.***

**Həqiqət (589)**

Qərbdə Din var olduğu dərəcədə yoxdur.

***O, Dünyasızlaşdırılıb***; bu səbəbdən də İctimai Əxlaqla qaynayıb-qarışıb; Ağalıq, Nökərlik, Təbəqələşmə, Əxlaqına təndir; ***cəmiyyətaltılaşıb.***

İslam Təməlçiləri – hakimiyyətə can atırlar... Dini cəmiyyət qurmaq istəyirlər; Bəndəlik cəmiyyəti – təzə quldarlıq cəmiyyəti uğrunda qan tökürlər, Pulçuluq Ağalığını Dinçilik Ağalığıyla əvəz etmək istəyirlər.

**Həqiqət (590)**

Dinə qayıdış – Etiqad boşluğunu doldurmur.
Çünki Din – özü elə boşluqdur.

**Həqiqət (591)**

Qərb Allahdan ingilis kraliçası düzəltdi, onu formallaşdırdı; Dünyaya sahib oldu, əslində elə Allahın özünə də sahib oldu.

İndiki İslamçılar Allahdan Dünya hakimi düzəltmək istəyirlər; Qərbin dünyəvi fəallığına qarşı dini fəallıq göstərirlər; ***– Mahiyyətcə fəalsızlıq göstərirlər.***

**Həqiqət (592)**

Yalançı Həqiqətlərə inanmayıb – Dinə qayıtdılar. Əsl Həqiqətlərə inanıb – Dindən ayrıldılar.

**Həqiqət (593)**

***Dinçilik*** tüğyan eləyəcək və öz Tüğyanında boğulacaq.
***Pulçuluq*** tüğyan eləyəcək və öz Tüğyanında boğulacaq.
***Siyasətçilik*** tüğyan eləyəcək və öz Tüğyanında boğulacaq.
***İnam – yaşayacaq.***
***Ruhçuluq – yaşayacaq.***
***Həqiqətçilik – yaşayacaq.***

**Həqiqət (594)**

Skeptisizm (Şübhəçilik) – Şübhəyə inamdır.
Skeptikin Allahı Şübhədir.
***Skeptik – Şübhə dindarıdır.***

**Həqiqət (595)**

Allahsızlaşmaq – Dünyasızlaşmaq deyil, əslində Dünyalaşmaqdır, – yəni Dünyanı Dünyanın özündə görmək, bilmək, duymaqdır.

**Həqiqət (596)**

Din – cəfəngiyyat zülmü.

**Həqiqət (597)**

K.Yaspersə görə, Dünyanın Allahsızlaşması – Dünyanı İnsanın gözündən salır.

***Əslində isə o, Dünyanı İnsanın gözündə yüksəldir – öz işığıyla işıqlanan Dünya – özgə işığıyla işıqlanan Dünyadan artıqdır.***

**Həqiqət (598)**

Əvvəllər Təbiət İnsan üzərində Ağalıq edib.

İnsan həmin Ağalıqdan qurtarmasaydı – məhv olardı.

İndi İnsan Təbiət üzərində Ağalıq edir...

***Həmin Ağalıq qurtarmasa, Təbiət məhv olardı – Təbiətlə birgə İnsan da məhv olar.***

**Həqiqət (599)**

Sonsuzlaşan Texniki Tərəqqi – Kainata son qoya bilər.

**Həqiqət (600)**

İnsan İnsan üzərində Ağalığından əl çəkməlidir.

İnsan Təbiət üzərində Ağalığından əl çəkməlidir.

***Yoxsa o, özündən əl çəkməli olacaq.***

**Həqiqət (601)**

Texniki Tərəqqi İnsanın Təbiətə təzyiqini gücləndirdi, ancaq Kainatda yerini möhkəmləndirmədi: – möhkəm Ağalıq olmur əslində.

**Həqiqət (602)**

Dindarlıq vasitəsiylə Dünyəvi Dövlət qururlar indikilər.

**Həqiqət (603)**

Müasir siyasi lisanda dünyəvi münasibətlər – Qərbaltı münasibət deməkdir... əslində.

## Həqiqət (604)

Şərq Dünyadan qaçdığı dərəcədə – Qərb Dünyanı özünə ram elədi.

Şərq Dünyanı Qərbə verdi əslində.

## Həqiqət (605)

Müasir siyasi lisanda – Vahid Bəşəriyyət – Qərbaltı Bəşəriyyət deməkdir...

## Həqiqət (606)

K.Yaspers Qərbin Şərqdən üstünlüyünü üç cəhətdə görür:

1) Zəkaçılıq – Texniklik.

2) Özümlük – Subyektivlik.

3) Gerçəklik.

Bunların hər üçü mahiyyətcə Ağalıq keyfiyyəti oldu.

Texniklik İnsanın Təbiət üzərində Ağalığına xidmət etdi.

Özümlük – Subyektivlik İnsanın İnsan üzərində Ağalığına xidmət etdi.

Gerçəklik – hər iki Ağalığın həyata keçirilməsinə xidmət etdi.

Nəticədə Qərb Şərq üzərində Ağalıq üstünlüyünü əldə etdi.

## Həqiqət (607)

İnsan milyon ildir ki, yaşayır – ancaq İnsan kimi hələ yaşamayıb.

## Həqiqət (608)

İnsan İnamda ifadə olunan İnsanilikdən yaranıb.

İdrakda ifadə olunan İnsanilikdən yaranıb.

Mənəviyyatda ifadə olunan İnsanilikdən yaranıb.

İradədə ifadə olunan İnsanilikdən yaranıb.

## Həqiqət (609)

Nüvə silahını Bəşərin Adamlıq səviyyəsi yaratdı.

Bəşərin İnsanlıq səviyyəsi onu məhv etməlidir.

**Həqiqət (610–611)**

İnsanı İstehsal Alətləri Yaratmadı – İstehsal Alətlərini İnsan Yaratdı.

İnsanı Din yaratmadı – Dini İnsan Yaratdı.

İnsanı Tarix Yaratmadı – Tarixi İnsan Yaratdı.

İnsanı İnsanilik Yaratdı.

**Həqiqət (612)**

Kainatın İdraklaşması əsatirində – Kainat İnsanı Yüksəltmir – əvəz edir.

**Həqiqət (613)**

İdrak Adam Davakarlığını aradan qaldırmadı, onunla birləşdi və nüvə silahı yaratdı.

**Həqiqət (614)**

Kainatın İdrakı – İnsandır.

Kainatın İdraklaşması – onun İnamsızlaşması olardı əslində.

**Həqiqət (615)**

Texniki Tərəqqi – İnsana maddi güc verir, Mənəvi Qüdrət vermir.

**Vəziyyət (5)**

***Kommunist məktəblərdə*** külli miqdarda antikommunist yetişirmiş.

***Ateist məktəblərdə*** külli miqdarda Dinçi yetişirmiş.

Zorçu məktəblərdə külli miqdarda Varçı yetişirmiş.

**Həqiqət (616)**

Bəşərin taleyi texniki tərəqqidən yox, Ruhani tərəqqidən asılıdır.

***Adam İnsanlaşmasa – məhv olacaq.***

**Vəziyyət (6)**

***Dinçilik qaranlığından*** Xalqa işıqlı gələcək vəd edirlər.

***Pulçuluq qaranlığından*** Xalqa işıqlı gələcək vəd edirlər.
***Özgəçilik qaranlığından*** Xalqa işıqlı gələcək vəd edirlər.

**Həqiqət (617)**

Texniki Tərəqqi Ağalığı aradan qaldırmadı – Maşınlaşmış Ağalıq yarandı.

Texniki Tərəqqi Nökərliyi aradan qaldırmadı – Maşınlaşmış Nökərlik yarandı.

Texniki Tərəqqi Təbəqəliyi aradan qaldırmadı – Maşınlaşmış Təbəqəlik yarandı.

Texniki Tərəqqi Özgələşməni aradan qaldırmadı – Maşınlaşmış Özgələşmə yarandı.

***Texniki Tərəqqi Cəmiyyətə yaradı – İnsana yaramadı.***

**Həqiqət (618)**

Cəmiyyət gündən-günə Maşınlaşır.
İnsan – Maşınlaşmaq istəmir.
Cəmiyyət İnsanı Maşınlaşdırmaq istəyir.

**Həqiqət (619)**

Texniki Tərəqqinin Mahiyyəti – Maşınlaşmadır.

***Maşınlaşan İnam olmur,*** bu səbəbdən də Texniki Tərəqqi İnama yaramır.

***Maşınlaşan İdrak olmur,*** bu səbəbdən də Texniki Tərəqqi İdraka yaramır.

***Maşınlaşan Mənəviyyat olmur,*** bu səbəbdən də Texniki Tərəqqi Mənəviyyata yaramır.

***Maşınlaşan İradə olmur,*** bu səbəbdən də Texniki Tərəqqi İradəyə yaramır.

Maşınlaşan İnsanilik olmur, bu səbəbdən də Texniki Tərəqqi İnsaniliyə yaramır.

**Allahçılıq**

Ağasız yaşaya bilməyənlər – Dünyanın Ağasını da axtarıb tapdılar.

**Həqiqət (620)**

Kapitalizmdə istehsalatın təməli – puldur.

Əməkçi pulla satılıb alınır.

***İstehsalatı yaradan onu satın alan pulçuya xidmət edir.***

Bu qəddar ədalətsizlik çoxdan ölməliydi, ancaq yaşayır, çünki adam insan ola bilmir.

**Həqiqət (621)**

Din – Müqəddəsliyi – Allahçılıq.
İnam Müqəddəsliyi – İnsançılıq.

**Həqiqət (622)**

Bəşər Maşınlaşdıqca – Cansızlaşır...

**Həqiqət (623)**

Texniki Tərəqqi – İnsanın Təbiət üzərində Ağalığını sona çatdırmalıdır: əks təqdirdə Təbiət və Təbiətlə birgə Bəşər sona çata bilər.

**Həqiqət (624)**

Adam Vüqarı – Ağalığa yetmək.
İnsan Vüqarı – Ağalığı rədd etmək.

**Həqiqət (625)**

Maşınlaşmış Dünya – Dünyasızlaşmış İnsan, İnsansızlaşmış Dünya deməkdir əslində.

**Həqiqət (626)**

İnsanın Kainat üzərində Ağalığı artdıqca – Kainatın Tənhalığı da artır; – Ağanın Dostu olmaz.

**Həqiqət (627)**

İnsandakı Yırtıcılıq ölməsə – Təbiət öləcək – Bəşər öləcək.

**Həqiqət (628)**

İnsan İnsana zülm etdiyi dərəcədə Təbiətə zülm edir...; ***mahiyyətcə özümlüyünə zülm edir...***

**Həqiqət (629)**

İnsan – İnsan istismarından əl çəkməlidir. İnsan – Təbiət istismarından əl çəkməlidir.

***İnsan – istismarsız yaşaya bilsə – yaşayacaq.***

**Həqiqət (630)**

Öz "Mənliyini" tanıyan İnsan – Təbiətin "Özümlüyünü" də tanısa – yaşayacaq.

**Həqiqət (631)**

Texniki Tərəqqi təzə Ağalıq – istehsalat Ağalığı yaradır; istehsalat Həyata hakim olur; Həyat – istehsalatlaşır; İnsan – istehsalatdan hədsiz dərəcədə asılı olur; əməkçi – istehsalat alətinə çevrilir.

İstehsalatçılıq genişləndikcə – insançılıq daralır; maddiyyat artdıqca – Ruhaniyyat azalır.

***Maddi zənginlik – Ruhani yoxsulluq bahasına başa gəlir.***

**Həqiqət (632)**

Maddiyyatçılıq İnsanı İnsaniliyindən ayırır.
Maddiyyat az qala İnamı əvəz eləyir;
İdrakı əvəz eləyir;
Mənəviyyatı əvəz eləyir;
İradəni əvəz eləyir.
Maddiləşən İnam yaranır,
Maddiləşən İdrak yaranır,
Maddiləşən Mənəviyyat yaranır,
Maddiləşən İradə yaranır,

**Həqiqət (633)**

Bəşər – İnsan yaşayışına, aqibətinə, ləyaqətinə zidd olan maddi yoxsulluqdan çıxmalıdır.

***Bəşər – Ruhani yoxsulluq yaradan maddi zənginlikdən imtina etməyi bacarmalıdır.***

**Həqiqət (634)**

***Bəşər Kapitalizmə qapılıb qalıb. Kapitalizmdən imtina edə bilməyən bəşəriyyətin Sabahı yoxdur.***

**Həqiqət (635)**

Kapitalizm – yırtıcı xüsusilik.
Sosializm – zorçu ümumilik.
Ruhani cəmiyyət – xüsusilik və ümumilik birliyi – yırtıcılığa yad, zorçuluğa yad.

**Həqiqət (636)**

Kapitalizm – Var azadlığı.
Sosializm – Zor azadlığı.

**Həqiqət (637)**

Kapitalizm – könüllü zor.
Sosializm – məcburi zor.

**Həqiqət (638)**

İstehsalatçılıqda istehsalat əməkçinin əlindən alınıb pulçuya verilir; pul istehsalatı idarə eləyir; Pulçu Əməkçiyə sahib olur.

**Həqiqət (639)**

Cəmiyyət – İnsanı Mənliyindən təcrid edib ***mücərrədləşdirir.***
İnam – İnsanı ümumi ***İnsaniliyinə çatdırır.***

**Həqiqət (640)**

Kapitalizm Ədalətsizlik üstə zəngin istehsalat qura bildi:
– Mahiyyətcə bu, zəngin ədalətsizlikdir.

**Həqiqət (641)**

Özünü yarada bilməyən Adamın – Allahdan başqa kimi var?!

**Həqiqət (642)**

Heyvan – Heyvanlığında qalıb – yaşaya bilər.
İnsan – Adamlıqda qalıb – yaşaya bilməz.

**Həqiqət (643)**

Adam – ədalət əsasında yaşamır – yoxsa kapitalizm yaşamazdı.

**Həqiqət (644)**

Bugünkü dərdlərin heç birini bugünkü dərmanlarla sağaltmaq olmaz.

Onları yalnız Sabahkı dərmanlarla sağaltmaq olar.

**Həqiqət (645)**

Cəfəngiyyata inanmamaq – Həqiqətçilikdir.
Həqiqətə inanmamaq – Şübhəçilikdir.
***Həqiqətçi – Şübhəçi olmur;***
***Şübhəçi – Həqiqətçi olmur.***

**Həqiqət (646)**

Adamın milyon yaşı var, amma hələ böyüməyib – böyüyüb İnsan olmayıb.

**Həqiqət (647)**

Kapitalizmdə ömür sondan başlayır.

**Şərdən Xeyir Götürmək**

Naşıdan naşılıq öyrənmə – Müdriklik öyrən.
Xaindən xainlik öyrənmə – Sədaqət öyrən.
Qorxaqdan qorxaqlıq öyrənmə – Cəsarət öyrən.

Naqisdən naqislik öyrənmə – Xalislik öyrən.
Namərddən namərdlik öyrənmə – Mərdlik öyrən.
Əyridən əyrilik öyrənmə – Düzgünlük öyrən.
Yalançıdan yalançılıq öyrənmə – Doğruluq öyrən.
***Şərdən Şər öyrənmə – Xeyir öyrən,***
***Onda Şəri məğlub edərsən.***

**Həqiqət (648)**

İnsanla İnsan arasında İnsani münasibət yaranmalıdır.
İnsanla Təbiət arasında İnsani münasibət yaranmalıdır.

**Həqiqət (649)**

İnsanların bir-biriylə münasibətləri yüngülləşdikcə həyatları ağırlaşır; – yüngül münasibətlər insanların çiyninə ağır yük kimi düşür.

**Həqiqət (650)**

Dünya materialistlərlə dolub.
Maddiyyatlaşmış Dünyaya idealistlər gərək:
***Mahiyyətçilər, Mənaçılar, Ruhçular.***

**Həqiqət (651)**

Cəmiyyətə İnamçı gərək deyil, İnsançı gərək deyil – İcraçı gərəkdir.

Cəmiyyətdə icraçı icraçıya bərabərdir. İcradan kənarda o, yoxdur.

**Həqiqət (652)**

İnsanlar bir-biriylə yad olanda – ***Hamılaşırlar.***
İnsanlar bir-birinə yaxın olanda – ***Xalqlaşırlar.***

**İntihar Artımı**

Bu zəngin həyatdan keçənlərin sayı artır.
Bu cəfəng zənginliklərdən qaçanların sayı artır.
Bu zəngin yoxsulluqlardan qaçanların sayı artır.

**Həqiqət (653)**

Cəfəngiyyat – mütləq mənasızlıq.
Həqiqət – Mütləq Məna.

**Həqiqət (654)**

***Kapitalizm*** – cəmiyyətləşən xüsusilik.
***Sosializm*** – cəmiyyətləşən ümimilik.

**Həqiqət (655)**

Bəsit Məna olmur.
Bəsit Mənasızlıq olur.
***Kapitalizm zəngin bəsitlikdir – Mənasızlıqdır.***

**Həqiqət (656)**

Standart Həyat – donmuş Həyatdır.
Kapitalizmi yaşadan – Standartlıqdır.
O, belə möhkəm donmasaydı – çoxdan əriyərdi.

**Həqiqət (657)**

Var üçün yaşamaq – cəfəngiyyatdır.
Zor üçün yaşamaq – cəfəngiyyatdır.
***Cəmiyyətlər cəfəngiyyat üstə qurulublar əslində.***

**Həqiqət (658)**

Cəfəngiyyat sehri olmur – təlqini olur.
Cəfəngiyyat sirri olmur – yalanı olur.
Cəfəng sehr olmur, cəfəng sirr olmur...

**Həqiqət (659)**

Harada ki Məna var, – orada Sehr var, Sirr var.
Harada ki Məna yoxdur, – orada Sehr yoxdur, Sirr yoxdur.
Pulçuluqda Sehr yoxdur, Sirr yoxdur – çünki Məna yoxdur.
Ruhçuluqda Sehr var, Sirr var – çünki Məna var.

**Vəziyyət (7)**

İslama hamilik eləyən iqtidar – İslamdan hamilik gözləyir.

**Vəziyyət (8)**

Azərbaycanı islamlaşdıra-islamlaşdıra – İranlaşdırırlar müstəqilçilər.

**Günün halı**

Şaxsey-Vaxsey sədaları altında – geniş addımlarla – dünyəvi dövlətə doğru yeriş...

**Vəziyyət (9)**

Sinələrinə zəncir döşəyənlər – başlarına döşəməlidirlər əslində.

**Həqiqət (660)**

Kapitalizmin azad insanı – gerçəklik dustağıdır əslində.

**Həqiqət (661)**

"Vaxt – puldur!" – o deməkdir ki, vaxt satılır.

**Həqiqət (662)**

Əslində İnsan – gerçəklikdən üstün olduğu dərəcədə – Azaddır.

**Həqiqət (663)**

Mənasızlaşan Dünyada – Gerçəklik İnsanın ömrünü əlindən alır; insan gerçəklik axarına qatılır, onda itir, yox olur.

İnsan fəal görünür; əslində isə bu, onun fəallığı deyil – gerçəkliyin fəallığıdır. O, gerçəkliyi idarə etmir, gerçəklik onu idarə edir, – hökmlü görünür, əslində gerçəkliyin hökmünü yerinə yetirir; – ***gerçəkləşdikcə – özümsüzləşir.***

**Həqiqət (664)**

Nitsşenin fövqəlinsanı insan deyil, canavardır əslində.

İnsan özündəki canavarla – fövqəlinsanla döyüşməli, onu məhv etməlidir.

**Həqiqət (665)**

Ruhsuzlaşan Dünyanı xüsusi Təbəqə – idarəçilər (bürokratiya) idarə eləyir: İdarəçilikdə İnsan – fəaliyyətlə bərabərləşir.

İdarəçi fəaliyyəti idarə eləyir; İnsanı fəaliyyət sayır; İnsana fəaliyyət aləti kimi baxır; onu İnsanilikdən təcrid edir...

***Ruhsuzlaşan Dünyada idarəçilər alətləşən adamları idarə edirlər.***

**Həqiqət (666)**

Mənasızlaşan Dünyada boş fəallıq yaranır; – hamı hərəkətdə, fəaliyyətdə... Ancaq bu hərəkətdən, fəaliyyətdən Məna yaranmır; bu hərəkət, fəaliyyət – Mənadan yaranmır; bu hərəkətin, fəaliyyətin Mənası olmur...

**Həqiqət (667)**

Sünilik – adətləşən yalan...

**Həqiqət (668)**

Mənasızlaşan Dünyada həyat zahiriləşir, zahiri daxili boşluğu doldurur; biçim məzmunu əvəz eləyir.

Fikir oyunlaşır, Duyğu oyunlaşır, əməl oyunlaşır; Adam – oyuncaqlaşır.

**Həqiqət (669)**

Həyat oyunlaşanda – Adam oyuncaqlaşır.

**Həqiqət (670)**

Bəşər eyniləşə-eyniləşə – özgələşir; fərdiləşə-fərdiləşə – birləşir.

**Həqiqət (671)**

Mənasızlaşan Dünyanın qəhrəmanları – Gerçəkliyi ötən, Gerçəklikdən üstün olan İnsanlar yox, Gerçəkliyə uyuşan, uyğunlaşan Adamlardır – yəni Mənasızlaşan Dünya – Qəhrəmansız Dünyadır; Burada nailiyyət – hünərə ziddir; o, çox vaxt ***məharətli hünərsizlikdən*** yaranır.

### Həqiqət (672)

İdarəçi İnsana İnsan kimi baxsa, – onu idarə edə bilməz.

İnsanı idarə etmək olmaz.

İdarəçi İnsana fəaliyyət aləti kimi baxır, bu səbəbdən də onu idarə edir;

O, Aləti idarə edir əslində.

### Həqiqət (673)

Mənasızlaşan Dünyada adam mənliyini soyunub Gerçəkliyin dalğalarına atılır.

***Atılır ki, bir daha oradan çıxmasın.***

### Həqiqət (674)

Mənasızlaşan Dünyada Xeyir – faydalıq səviyyəsindədir; Cəsarət – Təhlükəyə qədərdir; Məharət – heyrətsizdir; İdrak – Həqiqətsizdir; Sədaqət – Xəyanətə zidd deyil; Həya – Həyasızlığa zidd deyil; Ləyaqət – ləyaqətsizliyə zidd deyil...

***Mənasızlaşan Dünyada Varlıq – Yoxluğa zidd deyil.***

### Həqiqət (675)

Mənasızlaşan Dünyada Gerçəklik ömrü sürüyür.

***Ömür sürmək – əslində ömrün sürünməsi olur.***

### Həqiqət (676)

Gerçəkliyin nə Ağası, nə də Əsiri olmaq gərək.

***Gerçəkliyin Mənaçısı olmaq gərək.***

### Həqiqət (677)

Mənasızlaşan Dünyada – Qarın Ruhu yeyir.

### Həqiqət (678)

Adam – Varidat naminə “Mənindən” keçdi – yoxsul qaldı.

**Həqiqət (679)**

Sünilik – Səthilik deməkdir əslində.
***Süni həyat – Səthi həyatdır.***

**Həqiqət (680)**

Həyat – Səthiləşdikcə süniləşir.

**Həqiqət (681)**

Adamın oyuncaqlıq tarixi – onun Oyun tarixindən başlayır əslində.

**Həqiqət (682)**

Maddiyyatçılıq, şöhrətçilik, hakimiyyətçilik – Həyatın Mənasızlığını aradan qaldırmır; ən yaxşı halda onu gizlədir; mənasızlıq – zahiri fəalçılıq həşirində bəzən unudulur, ancaq yox olmur, yaşayır; ***Mənadan ayrılan ömür – bir daha Mənaya qayıtmır;*** Maddiyyat, Şöhrət, Hakimiyyət Mənanı əvəz etmir.

**Həqiqət (683)**

Mənasızlaşan Dünyada Adam ***Pulçuluq*** gerçəkliyinə atılır ki, bir daha oradan çıxmasın; ***Dinçilik*** gerçəkliyinə atılır ki, bir daha oradan çıxmasın; ***Özümsüzlük*** gerçəkliyinə atılır ki, bir daha oradan çıxmasın.

**Həqiqət (684)**

Həyatın Mənası – Həyatın üzündə deyil – dərinliyindədir. Səthi Həyat İnsanı Mənadan ayırır...

**Təhlükələr**

Maddi yoxsulluq – cismani ölüm təhlükəsi.
Mənəvi yoxsulluq – Ruhani ölüm təhlükəsi.

**Rəmzlər**

Qərb yırtıcılığının rəmzi – Nitsşeçilik.
Qərb istehsalçılığının Rəmzi – Marksçılıq.
Qərb seksualçılığının rəmzi – Freydçilik.

**Həqiqət (685)**

Dünyada Mənliksiz Adamlar dolanır – zəngin yoxsullar – zəngin yoxsulluq yaranır, – yoxsul zənginlik yaranır.

**Həqiqət (686)**

Bəşər Ağacının kökü – Məna.
Bəşər Ağacını Mənasından ayırırlar – qurudurlar.

**Həqiqət (687)**

Fərdiyyət – İnsani zənginlikdir.
Mənasızlaşan Həyat – İnsanı fərdiyyətsizləşdirir – yoxsullaşdırır.
***Müasir zənginlik – yoxsulluqdur əslində.***

**Həqiqət (688)**

Əvəz olunmaz Adam yoxdur.
Əvəz olunan İnsan yoxdur.

**Həqiqət (689)**

Mənasızlaşan Həyatı Adam özü yaradır; ancaq həmin Həyat Adama hakim olur.

Mənasızlaşan Həyat – Adam Mənasızlığından yaranıb; – Adam yaratdığına tabe olub, onun havasıyla oynayıb, onunla bir olub.

**Həqiqət (690)**

Mənasızlaşan Həyatda İnsan öz İnsaniliyindən ayrı düşür;
İnamından ayrı düşür;
İdrakından ayrı düşür;
Mənəviyyatından ayrı düşür;
İradəsindən ayrı düşür.

Mənasızlaşan Həyata hakim olan İnam – İnamsızlıqdır;
İdrak – İdraksızlıqdır;
Mənəviyyat – Mənəviyyatsızlıqdır;
İradə – İradəsizlikdir.

Mənasızlaşan Həyatda İnsan – özgə kimi yaşayır, – özümlüyündən ayrı yaşayır.

**Həqiqət (691)**

Filosofların çoxu İnsanı ikili təsəvvür eləyirlər; onda Ruhla Bədən arasında, Xeyirlə Şər arasında Təzad görürlər. Əslində isə bu təzadlar İnsanın Mahiyyətinə aid deyil, Mahiyyətlə Təzahür arasında münasibətlərə aiddir; ***İnsanın Mahiyyəti təzadlı deyil – bütövdür, İkili deyil – vahiddir.***

**Həqiqət (692)**

Aristoteldə səadət – Xeyirxahlıqdır.

Əslində Xeyirxahlıq – səadəti tam ifadə eləmir; o, səadətin bir cəhətini, xassəsini, keyfiyyətini ifadə eləyir.

***Səadət – bütöv İnsanilikdir, – yəni İnam, İdrak, Mənəviyyat, İradə birliyidir.***

**Həqiqət (693)**

Adamlığın yaratdığı Dünyada Adam Dünyasız qaldı.

**Həqiqət (694)**

İstehsalat Dünyası yarandı.
Siyasət Dünyası yarandı.
Xurafat Dünyası yarandı.
İnsaniyyət Dünyası yaranmadı.

***Bu səbəbdən də bu geniş Dünyada – İnsan Dünyasızdır.***

**Həqiqət (695)**

Kütlə – Xalqın fərdsizlik, fərqsizlik halı.

**Həqiqət (696)**

Mənasızlaşan Dünya – hədsiz dərəcədə həşirlidir...

***Həşir – Mənasızlıq bağırtısıdır – qulaqları batıran.***

***Həşir vasitəsilə Həqiqətsizlik Dünyaya meydan oxuyur.***

**Həqiqət (697)**

Kütləvilik – müasir əyanlığa xidmət edir.
Müasir əyanlar – Ağalıqlarını kütləvilik üzərində qururlar.
Kütləvilik – müasir Ağaların silahıdır...
***Kütlə Ağalığı – müasir rəiyyətçilikdir.***

**Həqiqət (698)**

İnsan nə Mələkdir, nə də Heyvan.
Çünki Mələk yoxdur; Heyvan da İdraksızdır.

**Həqiqət (699)**

Mənasızlaşmış Dünyada Ağalar kütlə adından, kütlənin əliylə, iradəsiylə – kütlə üzərində Ağalıq eləyirlər, kütləni öz ağalıqlarına qoşurlar; kütlədə Ağalıq xülyası yaradırlar, kütləni xülya Ağalığına qərq edirlər.

**Həqiqət (700)**

Mənasızlaşan Dünyada – Təzahür Mahiyyəti əvəz edir; Mahiyyət – Təzahürləşir; Nisbi – Mütləqi əvəz edir; Mütləq – Nisbiləşir; Ötəri Əzəlini əvəz edir; Əzəli – Ötəriləşir; Sonlu – Sonsuzu əvəz edir – Sonsuz Sonlulaşır; Qeyri-kamil Kamili əvəz edir – Kamillik – Qeyri-kamilləşir.

**Həqiqət (701)**

Xalq hakimiyyəti – Xalq üzərində hakimiyyət formasıdır.
Xalq hakimi – Xalq Ağasıdır.
***Xalq – bütün seçkilərdə – Ağalığı seçir; bütün seçdiklərində Ağalığı seçir...***

**Həqiqət (702)**

Mənasızlaşan Dünyada özünütəsdiq – özünüinkara çevrilir; burada Mahiyyət yox, Mahiyyətsizlik təsdiq olunur; İnam yox, İnamsızlıq təsdiq olunur; İdrak yox, İdraksızlıq təsdiq olunur; Mənəviyyat yox, Mənəviyyatsızlıq təsdiq olunur; İradə yox, İradəsizlik təsdiq olunur.

**Həqiqət (703)**

Kütlə Ağalığı – yoxdur, Kütləvilik Ağalığı var...
Kütlənin üzərində kütləvilik Ağalığı var.

**Həqiqət (704)**

Mənasızlaşan Dünyada heç kəs özünə məxsus deyil və hamı bir-birinə özgədir.

Mənliksiz Mən və özgə Doğmalıq halı yaranır. ***Həyat – yalanlaşır.***

**Həqiqət (705)**

İnsanı – İdraklı heyvan saymaq – cəfəngiyyatdır. Əgər İnsan idraklıdırsa, deməli o, heyvan deyil.

Əgər İnsan idraklı heyvandırsa, onda heyvan – İdraksız İnsandır.

İdraklı Heyvan olmur.
İdraksız İnsan olmur.

**Həqiqət (706)**

Spinoza və başqaları İnsan təbiətini idealizə edirlər; İnsanın öz təbiətinə uyğun yaşamasını təqdir edirlər; əslində isə insan öz təbiətinə uyğun yox, öz Mahiyyətinə uyğun yaşamalıdır, çünki insan təbiəti kamil deyil, onda naqislik var; insan təbiətindəki naqisliklə döyüşməlidir; onları daxilindən silməlidir; yalnız bu vaxt o, insan kimi yaşaya bilər; – İnsaniliyə çata bilər.

**Həqiqət (707)**

Fərdlərdən Xalq yaratmırlar – Xalqdan kütlə yaradırlar.

**Həqiqət (708)**

Səadət – Fərəhin ömrə sahib olmasıdır.

Ən böyük fərəh – İnsaniliyə yetməkdir; – yəni İnam, İdrak, Mənəviyyat, İradə birliyinə çatmaqdır.

Bu səbəbdən də ***Səadət – İnsanilikdir.***

**Həqiqət (709)**

Cəmiyyətdən üstün olmadan İnsan özünə sahib ola bilməz.

Cəmiyyət üzərində İnam üstünlüyünə malik olmadan İnsan özünə sahib ola bilməz.

Cəmiyyət üzərində İdrak üstünlüyünə malik olmadan İnsan özünə sahib ola bilməz.

Cəmiyyət üzərində Mənəviyyat üstünlüyünə malik olmadan İnsan özünə sahib ola bilməz.

Cəmiyyət üzərində İradə üstünlüyünə malik olmadan İnsan özünə sahib ola bilməz.

**Həqiqət (710)**

İnsanı Ruhani Varlıq saymaq – onun cismaniliyini inkar etmək deyil, izah etməkdir: ***İnsanda cismani – Ruhdaşıyandır.***

**Həqiqət (711)**

Bir çox filosoflarda Təbiilik Ruhaniyyata qarşı qoyulur.

Əslində Ruhaniyyat Təbiətdən üstün olan İnsaniliyin – Təbii halıdır...

**Həqiqət (712)**

İnsaniliyə çatan – azaddır.
İnama çatan – azaddır.
İdraka çatan – azaddır.
Mənəviyyata çatan – azaddır.
İradəyə çatan – azaddır.

**Həqiqət (713)**

Götenin “Yalnız bütün bəşər – İnsandır” fikri səthi fikirdir.

İnsan – İnsaniliyin ifadəsidir.

***İnsanilik – bəşərdən üstündür.***

Yalnız İnama yetən – İnsandır. Bəşər İnama yetməyib – ona doğru Yol gedir.

Yalnız İdraka yetən – İnsandır. Bəşər İdraka yetməyib – ona doğru Yol gedir.

Yalnız Mənəviyyata yetən – İnsandır. Bəşər Mənəviyyata yetməyib – ona doğru Yol gedir.

Yalnız İradəyə yetən – İnsandır. Bəşər İradəyə yetməyib – ona doğru Yol gedir.

***İnsan – Fərddən üstündür, Xalqdan üstündür, Bəşərdən üstündür; olanlardan üstündür – Olmalıdır.***

**Həqiqət (714)**

Heyvanı Təbiət yaradıb; İnsan Təbiətdən yaranıb və özü özünü yaradıb.

**Həqiqət (715)**

İnsan Heyvandan təkcə İdrakla fərqlənmir; bütöv İnsaniliyiylə fərqlənir; İnsan yalnız İdrakçı deyil, həm də İnamçıdır, Mənəviyyatçıdır, İradəçidir, Xeyirçidir, Ədalətçidir, Həqiqətçidir.

***İnsan Heyvandan İnsaniliyiylə fərqlənir.***

**Həqiqət (716)**

İnsanı Əmək yaratmadı – yaşatdı.
İnsaniliyin yaratdığını – Əmək yaşatdı.

**Həqiqət (717)**

Azadlıq gerçəklikdən yüksəkdir – gerçəkliyi yüksəldir.

**Həqiqət (718)**

Ən böyük tənhalıq – İnsanın özündən ayrılmasıdır. Cəmiyyət İnsanı özündən ayırır, onu tənha qoyur.

**Həqiqət (719)**

İnsanı ictimai heyvan saymaq – cəfəngiyyatdır.
İnsani cəmiyyət olmayıb.

**Həqiqət (720)**

Paskal İnsanı Düşünən Qamış adlandırır.
Qamış – düşünməz.

İnsan – Qamış deyil.
Qamışın – Qamışlığı var, İnsanın – İnsanlığı.
Qamışlıqda İnsanlıq yoxdur, İnsanlıqda – Qamışlıq.

**Həqiqət (721)**

Düşünmək üçün düşünmək – İdraksızlıqdır.
İnsanlaşmaq üçün düşünmək – İdrakilikdir.

**Həqiqət (722)**

İnsan – Düşünmək üçün yaranıb – deyirlər.

İnsan İnsaniliyə çatmaq üçün yaranıb – həmin məqsəd üçün düşünür.

İnama çatmaq üçün düşünür.
Mənəviyyata çatmaq üçün düşünür.
İradəyə çatmaq üçün düşünür.
***İnsan – düşünür ki, İnsan olsun.***

**Həqiqət (723)**

İdrak – İnsanın gücüdür.

İnsanın böyüklüyü – həmin güc vasitəsiylə İnsaniliyə çatmaqdır.

***Mənəviyyatsız İdrakda böyüklük yoxdur.***

**Həqiqət (724)**

Adamların işdən-gücdən başlarını qaldırıb düşünməyə vaxtları olmur.

İş-güc adamları düşünməkdən ayırır;

Vaxt düşünməzliyi yaranır.

**Həqiqət (725)**

Feyerbaxda Din – İnsanın Mahiyyətini mənimsəyir.

Əslində isə Din – İnsanın Mahiyyətini inkar edir; – ***Dində İnsan Mahiyyətsizdir; Bədənin Mahiyyəti olmaz – olmayanı mənimsəmək olmaz.***

**Həqiqət (726)**

İnsan – birgə yaşamasaydı – ölərdi.

İnsan – birgə yaşadı və cəmiyyətləşdi: Ağalaşdı, Nökərləşdi, Təbəqələşdi, Özgələşdi...

***Birgə yaşayışdan cəmiyyət yadlığı, yağılığı yarandı.***

**Həqiqət (727)**

İnsanda həm Başqalaşma tələbi, həm də Özgələşmə ehtirası yaşayır.

Başqalaşma – Dostluq, Birlik yaradır; Özgələşmə – Ağalıq, Yağılıq.

***Başqalaşma – İnsani münasibətlər yaradır, Özgələşmə – İctimai münasibətlər.***

**Həqiqət (728)**

Adamların işdən-gücdən gözlərini açıb özlərinə baxmağa vaxtları olmur.

***Adamlar özlərini görmədən, bilmədən yaşayırlar əslində.***

**Həqiqət (729)**

İnsan yüksəkliyi – İnsanilikdir.
İdrak bizi İnsaniliyə yüksəldir.

**Həqiqət (730)**

Heç bir cəmiyyətdə İnsan azad ola bilməz.
Çünki ***Ağasız*** cəmiyyət yoxdur,
***Nökərsiz*** cəmiyyət yoxdur,
***Təbəqəsiz*** cəmiyyət yoxdur,
***Özgəliksiz*** cəmiyyət yoxdur.

**Həqiqət (731)**

Bəşərləşən İnsan var – İnsanlaşan bəşər yoxdur.

**Həqiqət (732)**

***Cəmiyyətdə birgəlik yarandı – Birlik yaranmadı.***

Çünki Adam cəmiyyətə öz Ağalığını, Nökərliyini, Təbəqəliyini, Özgəliyini gətirdi.

***Birgə Özgələr cəmi yarandı – özgə cəmiyyət yarandı.***

**Həqiqət (733)**

İnsan özünü İnam üstə yaradır – İnamlı İnsan olur.

İnsan özünü İdrak üstə yaradır – İdraklı İnsan olur.

İnsan özünü Mənəviyyat üstə yaradır – Mənəviyyatlı İnsan olur.

İnsan özünü İradə üstə yaradır – İradəli İnsan olur.

Yəni İnsanın özünü yaratması – onun

İnama çatmasıdır,
İdraka çatmasıdır,
Mənəviyyata çatmasıdır,
İradəyə çatmasıdır.

İnsan özünü yaratmasa, özümlüyünə çatmaz, özünə sahib olmaz.

**Həqiqət (734)**

İnsanın Mənası – İnsanilikdir.

İnsan – İnsanilik tələbindən yaranıb.

Dünyaya İnsanilik gərək olub – İnamçılıq, İdrakçılıq, Mənəviyyatçılıq, İradəçilik, Ədalətçilik, Həqiqətçilik.

İnsan ömrünün Mənası – İnsaniliyə çatmaqdır – İnama, İdraka, Mənəviyyata, İradəyə, Xeyirə, Ədalətə, Həqiqətə yetməkdir.

**Həqiqət (735)**

Feyerbaxa görə, İnsan həm “Məndir”, həm “Sən”.

Əslində isə əgər Sən “Mənlik” halı, xassəsi, cəhəti, keyfiyyəti deyilsə – o, Özgəlik törədəndir.

Bu səbəbdən də “”Mənlik” birdir, “Sən” həmin birliyə daxil olur, onun üzvi hissəsi olur, ona qovuşur, onunla Bir olur – “Mənləşir”.

**Həqiqət (736)**

Dünyanın məqsədi – Dünyalıq.
Həyatın məqsədi – Həyatlıq.
İnsanın məqsədi – İnsanilik.

**Həqiqət (737)**

Ömür – İnsan olmaq vasitəsidir.

**Həqiqət (738)**

Feyerbaxda İnsan – Mahiyyətini dərk etmiş varlıq kimi təqdim olunur.

Əslində isə İnsan – Mahiyyəti Mahiyyətə çatmaq üçün dərk edir.

Dərk etmə burada vasitədir – məqsəd Mahiyyətə çatmaqdır – İnamlaşmaqdır, İdraklaşmaqdır, Mənəviyyatlaşmaqdır, İradələşməkdir, Xeyirləşməkdir, Ədalətləşməkdir, Həqiqətləşməkdir.

Mahiyyəti dərk edən – Mahiyyətin Təzahüründən artıq olduğunu dərk etmiş olur.

İnsan Həyatda öz Mahiyyətinə bərabər olmur – o, Mahiyyətinə yüksəlməli olur.

İnsan Mahiyyəti dərk edir ki, Mahiyyətə yüksəlsin.

***İnsan – Mahiyyətə Yüksələn Varlıqdır.***

**Həqiqət (739)**

Feyerbaxda İnsan olmaq nisbətən asandır; çünki bu, İnsanın Mahiyyətindən doğur.

Əslində isə İnsan olmaq çətindir, çünki Mahiyyətlə Təzahür arasında fərq böyükdür, İnsan Təzahürü ötüb – Mahiyyətə yetməlidir. ***Bu – çətin işdir.***

**Həqiqət (740)**

Materialistlər arasında ən böyük idealist Feyerbax – İnsanın Ruhani Mahiyyətini görür, ancaq Mahiyyətlə Təzahürün fərqini görmür; bu səbəbdən də Təzahürün Mahiyyətləşməsi əvəzinə, Mahiyyətin Təzahürləşməsinə nail olur.

**Həqiqət (741)**

Məna və Məqsəd – Birdir.
İnsanın Mənası – İnsanilik.
İnsanın Məqsədi – İnsanilik.

Mənasız Məqsədlər Dünyası yaranıb – əslində Məqsədsizlər Dünyası:

Pulçuluq Məqsədsizliyi,
Dinçilik Məqsədsizliyi,
Siyasətçilik Məqsədsizliyi,
Ədalətsizlik Məqsədsizliyi,
Xeyirsizlik Məqsədsizliyi,
Həqiqətsizlik Məqsədsizliyi,
İnamsızlıq Məqsədsizliyi,
İdraksızlıq Məqsədsizliyi,
Mənəviyyatsızlıq Məqsədsizliyi,
İradəsizlik Məqsədsizliyi,

Mənasızlaşan Dünyada – Məqsədsizlik Məqsədi əvəz edir.

**Həqiqət (742)**

Adamda Adamlıqdan artıq olan İnsan var.

Din Adamdan artıq olanı Allah sayır. Əslində isə Adamdan artıq olan – İnsan özüdür.

İnsandakı Transendentallıq (Hədsizlik) – İnsanilikdir.

Dünyadakı Transendentallıq – Dünyalıqdır.

Həyatdakı Transendentallıq – Həyatlıqdır.

**Həqiqət (743)**

İnsanın "Məni" – Mahiyyətindədir.
İnamsızın "Məni" yoxdur.
İdraksızın "Məni" yoxdur.
Mənəviyyatsızın "Məni" yoxdur.
İradəsizin "Məni" yoxdur.
Xeyirsizin "Məni" yoxdur.
Ədalətsizin "Məni" yoxdur.
Həqiqətsizin "Məni" yoxdur.
***Mahiyyətsiz – "Mən"sizdir.***

**Həqiqət (744)**

İnsan İnsaniliyə çatmasa – özü olmaz.
İnsaniliyə çatmaq üçün o, Gerçəkliyi ötməlidir.
***Gerçəkliyi ötməsə – İnsan İnsan olmaz.***

**Həqiqət (745)**

Dünyanın Mənası – Azaddır.
Din Dünyanın Azadlığını əlindən alır – Dünyanı Mənasızlaşdırır.
Həyatın Mənası – Azaddır.
Din Həyatın Azadlığını əlindən alır – Həyatı Mənasızlaşdırır.
İnsanın Mənası – Azaddır.
Din İnsanın Azadlığını əlindən alır – İnsanı Mənasızlaşdırır.

**Həqiqət (746)**

Sartrda İnsanın gerçəkliyi ötməsi (Gerçəklikdən kənara çıxması) – Gerçəkliyin inkarı kimi şərh edilir.

Əslində İnsan Gerçəkliyi ötməklə onun Mahiyyətinə, Mənasına çatır – yəni onu təsdiq edir.

**Həqiqət (747)**

Bir Adamda bir çox "Mənlik" olmur əslində – bir çox "Mənliksiz" olur.

"Mənlik" – birdir; o, olmayanda çoxlu Mənliksizlər yaranır.

**Həqiqət (748)**

***Nikbinliyin əsası – Mütləqilik.***

Əgər Dünyanın Mənası Mütləqdirsə – Nikbinliyin əsası var.

Əgər Həyatın Mənası Mütləqdirsə – Nikbinliyin əsası var.

Əgər İnsanın Mənası Mütləqdirsə – Nikbinliyin əsası var.

**Həqiqət (749)**

Gerçəklikdə Məna yox, Heçlik tapanın bədbinliyi təbiidir, ancaq Mənanı tapmamaq – Mənanın yoxluğu deyil.

Mənanı tapmaq gərək; bədbinliyi yox etmək gərək.

**Həqiqət (750)**

Gerçəkliyi ötən İnsan Gerçəklikdə heçlik yox – Məna dərk edir.

Sartr İnsanı Gerçəkliyin üzərinə qaldırmır; Gerçəklikdən aşağı salır, – Heçliyə yuvarlayır.

**Həqiqət (751)**

İnsandakı Canavarlıq – İnsanın Mahiyyətinə ziddir. Bu səbəbdən də İnsan canavarlığını aradan qaldıra bilər.

İnsandakı İlanlıq – İnsanın Mahiyyətinə ziddir. Bu səbəbdən də İnsan ilanlığını aradan qaldıra bilər.

İnsandakı Tülkülük – İnsanın Mahiyyətinə ziddir. Bu səbəbdən də İnsan tülkülüyünü aradan qaldıra bilər.

**Həqiqət (752)**

Sartrda Azadlıq – İnsanın Gerçəklikdə heçlik dərk etməsidir.

Əslində Azadlıq – İnsanın Gerçəklikdə Məna dərk etməsidir...

Sartrda Azadlıq – İnsanı Dünyadan eləyir.

***Əslində Azadlıq İnsanı Dünyalı etməlidir.***

**Həqiqət (753)**

Marksizm bir tərəfdən Dövlətin anti-İnsaniliyini – istismar aləti olduğunu təsdiq edir, digər tərəfdən İnsanın cəmiyyətçiliyini iddia edir.

Əslində isə Dövlət – Cəmiyyətin əsas atributudur – xassəsi, keyfiyyəti, cəhətidir.

***Beləliklə də Marksizm əslində İnsanın anti-İnsaniliyini təsdiq etmiş olur.***

**Həqiqət (754)**

Əgər İnsan Mahiyyətcə cəmiyyətçidirsə, onda cəmiyyət – İnsançı olmalıydı: – Ağaçı olmamalıydı, Nökərçi olmamalıydı, Təbəqəçi olmamalıydı, Özgəçi olmamalıydı.

***İnsanı cəmiyyətçi saymaq – onu Mahiyyətindən, İnsaniliyindən ayırmaqdır...***

**Həqiqət (755)**

Dövləti – İnsanilik yaratmadı – Ağalıq yaratdı, Nökərlik yaratdı, Təbəqəlik yaratdı, Özgəlik yaratdı; Dövlət – Ağalığı yaşatdı, Nökərliyi yaşatdı, Təbəqəliyi yaşatdı, Özgəliyi yaşatdı.

**Həqiqət (756)**

Xristianlıq, bir tərəfdən, İnsanlar arasında Məhəbbəti car çəkir, digər tərəfdən, cəmiyyətə qarşı çıxmır (Xristosa – Xristosunkunu, Kesara – Kesarınkını; Hakimə – Hakiminkini vermək prinsipi)...

Beləliklə də o, əslində İnsanlara Ağalıq məhəbbəti, Nökərlik Məhəbbəti, Təbəqəlik Məhəbbəti, Özgəlik Məhəbbəti təklif edir...

**Həqiqət (757)**

***Masonçuluq*** – Dünya üzərində Hakimiyyətə can atan Xristianlıqdır...

O, bir növ ***Dünyaya qarşı mənəvi xaç yürüşüdür.***

**Həqiqət (758)**

İndi Dünyaya qarşı iki Dini yürüş var: İslam fundamentalizmi yürüşü; Xristian Masonçuluğu yürüşü.

Hər ikisi Dünyanı təzədən yaratmaq adı altında Dünyanı dağıtmaq istəyir.

Hər ikisi Zorçudur: biri cismani Zorçu, o biri – Mənəvi zorçu.

**Həqiqət (759)**

Xeyir – İnam əməlidir, İdrak əməlidir, Mənəviyyat, İradə əməlidir – Gerçəkliyi Mahiyyətə, Mənaya yüksəltmək əməlidir.

**Həqiqət (760)**

Mücərrəd Xeyir yoxdur, yəni İnsandan təcrid olunmuş Xeyir yoxdur, ümumi Xeyir var – ***İnsanlara*** şamil edilən Xeyir var.

***Ümumi*** Xeyir var – Gerçəklikdən artıq olan – Mahiyyəti, Mənanı ifadə edən, Gerçəkliyi Mahiyyətə, Mənaya yüksəldən.

***Ümumini mücərrəd saymaq – Mahiyyəti, Mənanı gerçəklikdən təcrid etməkdir.***

**Həqiqət (761)**

İnsanı əzəli günahkar sayan Din onu gözükölgəli eləyir ki, itaətdə saxlasın.

***Din İnsanı öz gözündən salır ki, ona hakim olsun.***

**Həqiqət (762)**

Mücərrəd – Ümumi deyil, Predmetsizdir.
***Mücərrədin – Predmeti yoxdur.***
İnsanilik – Mücərrəd deyil, Ümumidir.
***Allah – Ümumi deyil, Mücərrəddir.***

**Həqiqət (763)**

Konkret Hadisə olur – Konkret Məna olmur, Məna həmişə Ümumidir.

***Konkretləşən Məna artıq Məna olmur – Hadisə olur...***

Ümumidən qaçmaq – Mənadan qaçmaqdır.

***Konkretliyə səcdə – əslində Mənasızlığa səcdədir.***

**Həqiqət (764)**

İnsanda Adamlıq da var, İnsanilik də.
Adamlıqda naqislik var, İnsanilikdə naqislik yoxdur.
İnsan İnsaniliyə çatanda naqislikdən azad olur...
Adam kamilləşib – İnsan olur.

**Həqiqət (765)**

***Konkret*** Xeyir deyəndə Nisbi Xeyiri nəzərdə tuturlar;
Keçici Xeyiri nəzərdə tuturlar;
Zaman Xeyirini nəzərdə tuturlar;
Şərait Xeyirini nəzərdə tuturlar;
Mühit Xeyirini nəzərdə tuturlar;
Cəmiyyət Xeyirini nəzərdə tuturlar;
yəni Mahiyyətcə Xeyirsizliyi nəzərdə tuturlar;
Konkretlik – Əksiklik mənasında işlənilir.
***Konkretçilər – Xeyiri əksildirlər.***

**Həqiqət (766)**

Dünyada heç bir canlı Təzahürdən Mahiyyətə, Hadisədən Mənaya yüksələ bilmir.

İnsan Təzahürdən Mahiyyətə, Hadisədən Mənaya yüksələ bilir.

***Bu səbəbdən də Dünyadakı canlıların Mənası Dünyalıqdır; İnsanın Mənası – İnsanlıq.***

**Həqiqət (767)**

İnsanın Göyü – Mahiyyətdir, Mənadır.
Din İnsanın Göyünü əlindən alır, İnsanı Göysüz qoyur...

**Həqiqət (768)**

Bəşərin bir ölümü var – İnsaniliyin ölümü.
Bəşərin bir ölümsüzlüyü var – İnsaniliyin ölümsüzlüyü.

**Həqiqət (769)**

Cəmiyyət – İnamsızdır, ancaq İnam ölməyib – İnsanilikdə yaşayır.

Cəmiyyət – İdraksızdır, ancaq İdrak ölməyib – İnsanilikdə yaşayır.

Cəmiyyət – Mənəviyyatsızdır, ancaq Mənəviyyat ölməyib – İnsanilikdə yaşayır.

Cəmiyyət – İradəsizdir, ancaq İradə ölməyib – İnsanilikdə yaşayır.

Cəmiyyət – Xeyirsizdir, ancaq Xeyir ölməyib – İnsanilikdə yaşayır.

Cəmiyyət – Ədalətsizdir, ancaq Ədalət ölməyib – İnsanilikdə yaşayır.

Cəmiyyət – Həqiqətsizdir, ancaq Həqiqət ölməyib – İnsanilikdə yaşayır.

**Həqiqət (770)**

İnsan ölür; İnsanilik yaşayır, – İnsan İnsanilikdə yaşayır.

**Həqiqət (771)**

İnsanda İnsanilikdən başqa nə varsa – ölür.

**Həqiqət (772)**

O Dünyaya İnam – bu Dünyaya İnamsızlıq ifadə eləyir.

O Dünya əslində bu Dünyanı əvəz edir, onu Mahiyyətsizləşdirir, Mənasızlaşdırır.

Bu Dünyanın öldürdüyü İnsanı o Dünya dirildir; bu əslində bu Dünyanın mahiyyətcə öldürülməsi deməkdir.

**Həqiqət (773)**

Ruhun ölməzliyi – ölənin dirilməsidir əslində.
Ruh Dində bədəndən ayrılmış İnsandır...
O, bədəndən kənarda əbədi yaşayır...
Bu cəfəngiyyata inanmayanın Allahı yoxdur.

**Həqiqət (774)**

Ruh – cənnətdə kefini, Cəhənnəmdə cəzasını çəkmək üçün Təzədən bədənləşməlidir...

Cəfəngiyyat Dünyasında belə şeylər mümkündür.

**Həqiqət (775)**

Din xüsusi cəfəngiyyat Dünyası yaradır. Onu gözlə görmək olmaz, İdrakla görmək olmaz – ***xülyayla görmək olar.***

**Həqiqət (776)**

Ekzistensializmdə bir tərəfdən Dünya – cəfəngdir, digər tərəfdən İnsan ondan əl çəkmək istəmir; İnsan cəfəng Dünyadan getməkdən qorxur...

Ekzistensializmdə İnsan – cəfəngiyyata bağlanır əslində.

**Həqiqət (777)**

Dostoyevskiyə görə Allah ölüb – İnsan yetim qalıb.

Əslində isə Allah ölsəydi, İnsan yetim qalmazdı.

***Allah ölməyib – bu səbəbdən də İnsan yetimdir.***

**Həqiqət (778)**

***Şopenhauerdə*** xoşbəxtliyin öz əsası yoxdur – onun əsası – bədbəxtlikdir; xoşbəxtlik – bədbəxtliyin aradan qaldırılmasıdır; bədbəxtlik olmasa, xoşbəxtlik olmaz.

***Əslində:*** bədbəxtlik – xoşbəxtliyin yoxluğudur.

Xoşbəxtlik var olmasa, onun yoxluğu olmaz.

Var olan xoşbəxtlik yox olanda – bədbəxtlik yaranır.

Var olmayan – yox olmaz.

Var olmayanın yoxluğu olmaz.

Yoxluğun təməli – Varlıqdır.

***Bədbəxtliyin təməli – Xoşbəxtlikdir.***

**Həqiqət (779)**

Yoxluqdan yaranan Varlıq – cəfəngiyyatdır.
Varlıqdan yaranan Yoxluq – var,
Yoxluqdan yaranan Varlıq – yoxdur.
***Yox olan nə varsa – əvvəl var olub.***
***Var olan – əvvəl yox olmayıb.***

**Həqiqət (780)**

Əslində "Varlıq – Yoxluq" problemi yoxdur;
yalnız Varlıq problemi var.

Yoxluq – Varın yox olmasıdır; Vardan kənarda yoxdur.

***Mahiyyətcə Yoxluq – yoxdur, çünki özümlüyü olmayan – yoxdur.***

"Varlıq – Yoxluq" problemi yoxdur – yalnız Varlıq problemi var, çünki Yoxluq Varlığı yox edə bilmir.

***Varlıq daim yaşayır və Yoxluğu yaşadır.***
***Yoxluğun öz yaşayışı yoxdur.***

**Həqiqət (781)**

***Var olan – Yox olur...***
Yoxluq Var olanı Yox eləyir.
Yoxluğun öz varlığı yoxdur.
***Var olanı Yox etməkdə Varlıq yoxdur...***

"Dünya – Yoxluqdur" deyənlər – Varlığı Yoxluq kimi qiymətləndirirlər.

Bu, əslində "Həqiqət – yalandır" demək kimi bir şeydir.

**Həqiqət (782)**

Ölüm – Var olanı Yox edə bilir; ancaq Varlıqdan Yoxluq yarada bilmir.

**Həqiqət (783)**

Yoxluqçular Yoxdan Var yaratmaq istəyirlər – Allahlıq etmək istəyirlər.

**Həqiqət (784)**

Şopenhauerdə İnsan – xudbinlik timsalıdır. Əslində isə xudbinlik İnsaniliyə ziddir, çünki Vicdançılığa, Fədakarlığa yaddır.

İnsan – İnsaniliyə çatmayanda onun xudbinliyinin həddi olmur; yəni əslində ***xudbinlik – İnsanilik əvəzidir; İnsan İnsan olmayanda xudbin olur; İnsan olmayınca xudbin olacaq.***

**Həqiqət (785)**

Şopenhauer tipli filosoflar İnsanı gerçəklik səviyyəsində, adamlıq halında – Mahiyyətdən, Mənadan ayrı vəziyyətdə görürlər. Bu səbəbdən də İnsan onlara cılız görünür.

Əslində onlar İnsana, İnsaniliyə yüksələ bilmirlər; öz aşağı səviyyələrindən İnsanı qiymətləndirirlər.

İnsanı dərk etmək üçün gərək Mahiyyətə yüksələsən, Mənaya yüksələsən – İnsaniliyə çatasan.

**Həqiqət (786)**

Şopenhauer İnsanın xilasını – Həyatilik iradəsinin inkarında, yəni həyata marağın sönməsində görür.

Bu, İflasdan pis Xilasdır əslində.

Xilas həyata marağın sönməsində yox, Həyatın Mənasına marağın artmasındadır; İnsanın Mənaya, Mahiyyətə çatmasındadır; Həyata Məna, Mahiyyət yüksəkliyindən baxmasındadır.

**Həqiqət (787)**

Şopenhauer ***intiharı*** – Həyatdan imtina saymır, bu səbəbdən də inkar edir.

Şopenhauerə görə, intihar edən – bütöv Həyatdan imtina eləmir, yalnız onun əzablarından imtina eləyir; ***o, Həyatı qəbul elədiyindən rədd edir.***

Əslində isə intihar çox vaxt Həyatı görməmək, bilməmək əksikliyindən yaranır; ondakı Mənaya, Mahiyyətə yad olmaqdan yaranır.

***İntihar çox vaxt Bilməzlik faciəsidir.***

**Həqiqət (788)**

Dövlət Hamının Hamıyla döyüşünü (T.Hobbs) aradan qaldırmadı – qanunlaşdırdı...

**Həqiqət (789)**

Buddanın duyğuları söndürməklə mütləq sakitliyə yetmək (nirvana) xilası – dirilmək üçün ölməkdir əslində.

***Duyğuları söndürmək yox – İnsaniliyə yetirmək gərək...***

**Həqiqət (790)**

Dünyanı Mahiyyətindən ayrılıb – inkar etmək asandır.
Dünyanı Mahiyyətindən ayırıb – dərk etmək olmaz.
***Dünyanı dərk etmədən inkar etmək olmaz.***
***Dünyanı dərk edib – inkar etmək olmaz.***

**Həqiqət (791)**

***Sufilər*** Dünyanı tərk etməmişdilər – cəmiyyəti tərk etmişdilər. Cəmiyyəti Dünya sayanlar – Sufiləri "Dünyasız" adlandırdılar.

**Həqiqət (792)**

Kantda tarix – bəşərin vətəndaş birliyinin yaranması məqsədinə xidmət eləyir.

Bu, tarixi idealizə etməkdir...

***Tarix – İnsanlıq əməli deyil, Adamlıq əməlidir.***

Adamlıqda İdrakilik də var, qeyri-idrakilik də; İnsanilik də var, heyvanilik də; Ədalət də var, ədalətsizlik də...

Bu səbəbdən də Tarixdə İnsani məqsəd axtarmaq – onu süni surətdə İnsanlaşdırmaqdır.

***Tarix – heç vaxt İnsanlaşdırma mənbəyi olmayıb, həmişə Adamlıq meydanı olub.***

**Həqiqət (793)**

***Platona görə,*** Dövləti filosoflar idarə etməlidirlər.
Bu, fəlsəfəni əksiltmək, Dövləti uydurmaqdır.

***Dövlət – Siyasət alətidir. Siyasət*** yalana əsaslanır; o, rəsmiləşmiş yalançılıq və oyunçuluqdur.

***Fəlsəfə – Həqiqətçilikdir.***

Dövləti idarə edən filosof Həqiqətçiliyindən əl çəkməlidir – yəni əslində Fəlsəfədən əl çəkməlidir.

Həqiqətçilik oyunçuluğa ziddir – ***Həqiqətlə oynamaq olmaz!***

## Həqiqət (794)

Fəlsəfə – Dövlətçilik deyil – İnsançılıqdır, İnamçılıqdır.

## Həqiqət (795)

Şəxsiyyət üç keyfiyyətlə səciyyələnir:

***Özümlük, Müstəqillik, Özünüidarə.***

***Özümlük*** – yəni "Mənlik", bənzərsizlik, hamıdan fərqli olmaq.

***Müstəqillik*** – heç kimdən, heç bir özgədən asılı olmamaq.

***Özünüidarə*** – özünə, öz idrakına, hisslərinə, hərəkətlərinə sahib olmaq.

Bu üç keyfiyyətin birliyindən Şəxsiyyət yaranır.

***Cəmiyyət*** – özümlüyə, bənzərsizliyə ziddir; ona özümsüz hamılaşan, mücərrədləşən rəiyyət lazımdır.

***Cəmiyyət*** – müstəqilliyə ziddir; ona cəmiyyətdən asılı olan rəiyyət lazımdır.

***Cəmiyyət*** – özünüidarəyə ziddir; o, fərd üzərində ağalıq etmək, fərdin iradəsinə sahib olmaq əzmindədir.

Şəxsiyyət – Cəmiyyət birliyi – əfsanədir...

Cəmiyyətdən üstün olmadan – Şəxsiyyət olmaq olmaz.

Cəmiyyətdən üstün olmaq – hünər istəyir.

Bu səbəbdən də Şəxsiyyətsizlik tüğyanı baş alıb gedir.

***Cəmiyyət Şəxsiyyətsizlər yaratmaqda qoçaqdır.***

**Həqiqət (796)**

Təbəqəliyi sürülükdən ayrılmaq sayanlar da var.

Əslində isə Təbəqəlik özü – sürülükdür: – fərqlənənlər, seçilənlər, rəsmiləşənlər sürüsüdür.

Təbəqəlik – xüsusi sürülükdür – cəmiyyətləşən, dövlətləşən sürülükdür...

**Həqiqət (797)**

Hegelin "Zəkanın bicliyi" ideyasında böyüklərin şəxsi istəkləri, ehtirasları, niyyətləri son nəticədə Ümumi, Tarixi məqsədlərə xidmət edir.

"Tarixi Zəka" – Şəxsiyyətləri aldadır, onları özünə xidmət etməyə vadar edir.

Burada Hegel – Tarixi Şəxsiyyətləri Tarixin alətinə çevirir; Şəxsiyyətlərdə Şəxslik – yəni Özümlük, Müstəqillik qalmır; Şəxsiyyət Tarixə qərq olur; Tarix Şəxsiyyəti qəhr edir.

**Həqiqət (798)**

Hegelin qorxduğu, ehtiyat etdiyi bir varlıq var – Gerçəklik.

O, onunla ehtiyatlı dolanır; balacalığını üzünə vurmur; onun səviyyəsinə enir, onu daim qoruyur; artırır, uydurur.

Hegel Gerçəkliyi Hegel Mütləqçiliyini çox vaxt üstələyir; Gerçəkliyin artırılması hesabına – Mütləqilik əksilir.

**Həqiqət (799)**

Hegelin Tarixə və Tarixi Şəxsiyyətlərə aludə olması – onun nisbi Mütləqçiliyini göstərir, çünki Tarix və Tarixi Şəxsiyyətlər Mütləqilikdən uzaqdırlar...

Nisbilərdən Mütləq uydurmaq – Mütləqçi əməli deyil, nisbiçi əməlidir.

Hegeldə "Mütləq" sözü çox işlənir, ancaq əslində Mütləqilik yox dərəcəsindədir.

**Həqiqət (800)**

Hegeldə Tarix – Azadlıq Yoludur.

***Əslində Tarix – İnsanın Cəmiyyətdən asılılığı yoludur.***

Tarixin hər mərhələsində bu asılılıq bir cür olur; heç bir mərhələdə o yox olmur, daim yaşayır; ***mahiyyətcə Adam eyni yolu daim getməli olur.***

**Həqiqət (801)**

Nə qədər ki ***Ağalıq var,*** – İnsanlar arasında mədəni əlaqələrdən danışmaq olmaz.

Nə qədər ki ***Nökərlik var,*** – İnsanlar arasında mədəni əlaqələrdən danışmaq olmaz.

Nə qədər ki ***Təbəqəlik var,*** – İnsanlar arasında mədəni əlaqələrdən danışmaq olmaz.

Nə qədər ki ***Özgələşmə var,*** – İnsanlar arasında mədəni əlaqələrdən danışmaq olmaz.

Mədəniyyətin neçə min illik tarixi var, ancaq Mədəni Münasibətin tarixi hələ başlamayıb.

**Həqiqət (802)**

***Dostoyevskidə*** Tərəqqi – bir Körpənin göz yaşına layiq deyil.

***Hegeldə*** Tərəqqiçi – Böyük Şəxsiyyət – bəzən günahsız çiçəyi tapdamalı olur.

***Əslində*** bir Tərəqqi var – İnsanilik Tərəqqisi; ona zidd olan nə varsa, Tərəqqi deyil.

Tarixi tərəqqilər içində əsl Tərəqqi yox dərəcəsindədir.

Hegelin Tərəqqi kimi təqdir etdiyi – Tərəqqi deyil...

***Dostoyevskinin Körpə göz yaşına qıymaması – Tərəqqidir.***

**Həqiqət (803)**

J.J.Russo mədəniyyəti – cəmiyyətə xidmətdə günahlandırır. Əslində bu, cəmiyyətin mədəniyyəti öz Mahiyyətindən ayıra bilməsinə dəlalət edir.

Mədəniyyətin Mahiyyətində cəmiyyətə xidmət etmək zərurəti yoxdur.

***Cəmiyyət Mədəniyyəti Mahiyyətsizləşdirə bilir.***

## Həqiqət (804)

***Nitsşeçilər*** – Mədəniyyəti İnsandakı Canavarlığı əksiltməkdə günahlandırırlar.

***Freydçilər*** – Mədəniyyəti İnsandakı Şəhvətçiliyi (Seksuallığı) əksiltməkdə günahlandırırlar.

***Əslində*** Nitsşeçilər Mədəniyyəti olduğundan yüksək qiymətləndirirlər: ***Mədəniyyət canavarlığı söndürə bilməyib.***

Əslində Freydçilər Mədəniyyəti olduğundan yüksək qiymətləndirirlər: ***Mədəniyyət Şəhvaniliyə ciddi ziyan vurmayıb***; Şəhvətçilik tüğyan eləyir...

***Nitsşeçilərə Canavarlıq gücü gərəkdir, Freydçilərə – Şəhvətçilik azadlığı.***

## Həqiqət (805)

Ağalığın inkarı olan Mədəniyyətlə Ağalığın təsdiqi olan Cəmiyyət arasında əzəli ziddiyyət yaranır.

Nökərliyin inkarı olan Mədəniyyətlə Nökərliyin təsdiqi olan Cəmiyyət arasında əzəli ziddiyyət yaranır.

Təbəqəliyin inkarı olan Mədəniyyətlə Təbəqəliyin təsdiqi olan Cəmiyyət arasında əzəli ziddiyyət yaranır.

Özgəliyin inkarı olan Mədəniyyətlə Özgəliyin təsdiqi olan Cəmiyyət arasında əzəli ziddiyyət yaranır.

## Həqiqət (806)

***Mədəniyyətin Məqsədi – İnsaniliyin təsdiqidir.***

***Cəmiyyət Mədəniyyətə hakim olmağa can atır.***

Bu səbəbdən də Mədəniyyətlə Cəmiyyət arasında əzəli ziddiyyət yaranır.

***Cəmiyyət Mədəniyyətə tam hakim ola bilmir.***

***Mədəniyyət – Cəmiyyət hakimiyyətindən tam azad ola bilmir.***

**Həqiqət (807)**

Azad cəmiyyət yoxdur – Azad İnsan var – cəmiyyəti azad edən.

**Həqiqət (808)**

Tarix – Ağalıq yerişi, yürüşü, döyüşü.
– Nökərlik yerişi, yürüşü, döyüşü.
– Təbəqəlik yerişi, yürüşü, döyüşü.
– Özgələşmə yerişi, yürüşü, döyüşü.

**Həqiqət (809)**

Azadlıq – İnsanilikdir.

Adam – İnsan olanda Azad olur... – İnamlı olanda Azad olur – İnamsızlıqdan Azad olur;

İdraklı olanda Azad olur – İdraksızlıqdan Azad olur;

Mənəviyyatlı olanda Azad olur – Mənəviyyatsızlıqdan Azad olur;

İradəli olanda Azad olur – İradəsizlikdən Azad olur;

İnam əsarəti olmur – İnamsızlıq əsarəti olur.
İdrak əsarəti olmur – İdraksızlıq əsarəti olur.
Mənəviyyat əsarəti olmur – Mənəviyyatsızlıq əsarəti olur.
İradə əsarəti olmur – İradəsizlik əsarəti olur.

İnsanı – özü azad eləyir;
– özü İnama çatdırır;
– özü İdraka çatdırır;
– özü Mənəviyyata çatdırır;
– özü İradəyə çatdırır.

***Azadlıq – Özümlükdür.***

İnsanı azad edən cəmiyyət olmur.
İnsanı azad edən mühit olmur.
İnsanı azad edən şərait olmur.
İnsanı azad edən zaman olmur.

***Azad Adam olmur – Azad İnsan olur...***

**Həqiqət (810)**

***İnsanın*** Mütləqilik adlı zəruri Azadlığı var;
Mahiyyət adlı zəruri azadlığı var;
Məna adlı zəruri azadlığı var;
Əzəlilik adlı zəruri azadlığı var;
Əbədilik adlı zəruri azadlığı var;
Sonsuzluq adlı zəruri azadlığı var;
Kamillik adlı zəruri azadlığı var;

**Həqiqət (811)**

Azadlıq – zəruridir.
Zəruri – azaddır.

**Həqiqət (812)**

***Əslində bir Zərurət var – Azadlıq.***

***Qalan nə varsa, qeyri-zəruridir.***

Qeyri-Zərurini zəruri sayırlar və Azadlığı ona bağlayırlar: Azadlıq – dərk olunan zərurətdir – deyirlər...

***Azadlıq – yeganə Zərurətdir demək lazımdır.***

**Həqiqət (813)**

Tarix – Adam əməlidir, Adamlıq halıdır; onu ötmək gərək.

**Həqiqət (814)**

Tarix Fəlsəfəsi – Din səviyyəsindədir.
***Tarixi qanunauyğunluqlar – Tarixi Allahlardır.***
***Tarixi zərurət – Tarixi Qismətdir əslində.***

**Həqiqət (815)**

Tarix Adamlıqdan yaranıb və Tarix İnsan yaratmayıb.

***İnsanı İnsan özü yaradır; Tarixdən üstün olan İnsanilik yaradır.***

**Həqiqət (816)**

Tarixdə İdrakilik axtaranlar – Tarixdən İnsan düzəldirlər. Tarix İnsan kimi düşünür, qarşısına məqsəd qoyur, onu həyata keçirir.

Tarixi antropomorfizm (insanlaşdırma) yaradırlar Tarix Fəlsəfəçiləri.

**Həqiqət (817)**

İnsan özündə Mütləqilik gəzdirən, bu səbəbdən də Şəraitdən, Mühitdən, Cəmiyyətdən üstün olan, Mütləqiliyə can atan və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır.

**Həqiqət (818)**

İnsani Dünya yaratmaq istəyirsənsə – İnsan ol.

**Həqiqət (819)**

***Elm*** – bilik yoludur – İnsaniliyə kömək olan.

***Fəlsəfə*** – Mahiyyət yoludur – insanı İnsaniliyə çatdıran.

***İnam*** – İnsanın İnsaniliyə qovuşmasıdır.

***Bədiiyyat*** – İnsaniliyin vəsfidir.

***Din*** – cəfəngiyyatın Mütləqləşməsi yolsuzluğudur.

**Həqiqət (820)**

Şpenqler sivilizasiyanı – Mədəniyyətin standartlaşması halı və bu səbəbdən də sonu sayır.

Standartlaşmanın son olması fikri – düzgün fikirdir. Ancaq sivilizasiya bir çox cəhətdən həm də anti-Mədəniyyətdir – özündə güclü anti-Mədəniyyət imkanı yaşadır.

***Mədəniyyət*** – İnsanilik Yolu kimi yaranmışdı. ***Sivilizasiya*** İnsanilikdən ayrılma Yolu kimi inkişaf edir.

**Həqiqət (821)**

İnsaniliyə çatmaq üçün İnsanın gerçəklik imkanını ötmək gərək – Mahiyyət imkanına, Məna imkanına yetmək gərək.

İnsaniliyə çatmaq üçün İnsanın İnsanilik imkanına yetmək gərək.

**Həqiqət (822)**

İstəyirsən ki, Dünya dəyişsin – özünü dəyişdir.

**Həqiqət (823)**

İnsan azadlığı – insanilikdir.
İnsan İnsanilikdə azadlığa çatır;
Mütləqilikdə azadlığa çatır;
Mahiyyətdə azadlığa çatır;
Mənada azadlığa çatır;
Əzəlilikdə azadlığa çatır;
Əbədilikdə azadlığa çatır;
Sonsuzluqda azadlığa çatır;
Kamillikdə azadlığa çatır;
İnamda azadlığa çatır;
İdrakda azadlığa çatır;
Mənəviyyatda azadlığa çatır;
İradədə azadlığa çatır;

Azad İnsan – kamil İnsandır – ictimai əsarəti aradan qaldıran.

***İnsanilaşən İnsan İctimailəşən İnsana üstün gələndə – Dünya İnsaniləşəcək.***

**Həqiqət (824)**

Azad İnsan yaranmayınca – Azad Həyat yaranmayacaq.

Azad Həyatı Azad İnsan yaradır.

Azad İnsansız Azad Həyat yaranmır.

Azad Həyat – azad İnsan yaradıcılığıdır...

Heç bir Həyat – Azad İnsan yaratmır, çünki Azad Həyatı var edən – Azad İnsandır.

**Həqiqət (825)**

İnsani Dünyada yaşamaq istəyirsənsə – İnsanlaş.

## Həqiqət (826)
### *İnsanilәşmәk – Hünәr istәyir.*

Qeyri-İnsani Şəraitdə, Mühitdə, Cəmiyyətdə İnsanilәşirsәn; Şəraitə, Mühitə, Cəmiyyətə zidd olaraq İnsanilәşirsәn və qeyri-İnsani Şəraiti, Mühiti, Cəmiyyəti aradan qaldırırsan.

İnsani Şərait, Mühit, Cəmiyyət olmur; İnsanı İnsanlaşdıran Şərait, Mühit, Cəmiyyət olmur; İnsanı İnsan özü İnsanlaşdırır; Şəraiti, Mühiti, Cəmiyyəti İnsanilәşәn İnsan dəyişdirir.

## Həqiqət (827)
### *İdeal – Mütləqilik tələbidir;*

– Mahiyyət tələbidir;
– Məna tələbidir;
– Əzəlilik tələbidir;
– Əbədilik tələbidir;
– Sonsuzluq tələbidir;
– Kamillik tələbidir;
– İnam tələbidir;
– İdrak tələbidir;
– Mənəviyyat tələbidir;
– İradə tələbidir.

İdealsız Dünya – Nisbiləşən Dünyadır;
– Mahiyyətsizləşən Dünyadır;
– Mənasızlaşan Dünyadır;
– Ötəriləşən Dünyadır;
– Keçiciləşən Dünyadır;
– Sonlulaşan Dünyadır;
– Qeyri-kamilləşən Dünyadır;
– İnamsızlaşan Dünyadır;
– İdraksızlaşan Dünyadır;
– Mənəviyyatsızlaşan Dünyadır;
– İradəsizləşən Dünyadır;
– Dünyasızlaşan Dünyadır.

**Həqiqət (828)**

Özünüdərketmə – İnsanın öz gerçəkliyindən üstün olmasıdır – onu ötməsdir.

***Bu səbəbdən də o, – yüksəlişdir; –***

İnsanın – İnsaniliyə yüksəlməsidir,
– Mütləqiliyə yüksəlməsidir,
– Mahiyyətə yüksəlməsidir,
– Əzəliyə yüksəlməsidir,
– Əbədiyə yüksəlməsidir,
– Sonsuza yüksəlməsidir,
– Kamilliyə yüksəlməsidir,
– İnama yüksəlməsidir,
– İdraka yüksəlməsidir,
– Mənəviyyata yüksəlməsidir,
– İradəyə yüksəlməsidir,

Özünüdərketmə – Özünükəşfetmədir

**Həqiqət (829)**

Bəşəriyyətin İnsanlaşma dövrü başlanmalıdır.

Bəşər İnsanlaşmağa qadir olduğu dərəcədə yaşayacaq.

**Həqiqət (830)**

Bəşər Tarixi indiyə qədər Adam Tarixi olub, bu səbəbdən də İnsaniliyə yaramayıb.

Bəşər Tarixi İnsan tarixi olmalıdır ki, İnsaniliyə yarasın.

## “**İnsanilik**” Kitabının içərisi


Fərq (1–19)[*] (1; 2–4[**]; 3–83; 4–86; 5–154; 6–158; 7–167; 8–177; 9–180; 10–215; 11–223; 12–271; 13–281; 14-300; 15-305; 16, 17, 18-408; 19-413)

Əlaqə (1–10) (1; 2–135; 3–213; 4–219; 5–224; 6–387; 7–389; 8–392; 9,10–404)

Dünya ölməzliyi (1)

Həqiqət (1–830)

Tükənməzlik (1) (1–2)

Azadlıq Zərurəti (1–2) (1–3; 2–180)

Ziddiyyətdən Yaranan (1) (1–9)

Qələbə Bayramı (1–2) (1–9; 2–208)

Təzə Şeyx Nəsrullahlar (1) (1–9)

Görmələr (1) (1–34)

Birlik (1) (1–38)

Xassələr (1) (1–39)

Doğmalıq (1) (1–48)

Ruhani Tələb (1) (1–50)

Azadlıqlar (1) (1–50)

Zaman Halı (1) (1–72)

Mərhələlər (1–3) (1–76; 2–160; 3–269)

Həqiqət Fərəhi (1) (1–77)

Dialektik Hal (1) (1–100)

İnsan Fitrəti (1) (1–118)

Özünüdərketmə (1–2) (1–129; 2–304)

İdrak Gözü (1) (1–130)


---

[*] Birinci mötərizənin içi – Kitabda həmin başlıq altında getmiş yazıların sayını göstərir.

[**] Tire (–) işarəsindən soldakı rəqəm “Fərq” adlı başlığın sıra nömrəsini, sağdakı rəqəm onun hansı saylı “Həqiqət”dən sonra olduğunu göstərir. “Həqiqət” adı daşımayan başlıqların hamısı üçün bu prinsip gözlənilmişdir.

Hal (1–5) (1–135; 2–287; 3–297; 4–305; 5–399)
Vəziyyət (1–9) (1–135; 2–268; 3–276; 4–356; 5–615; 6–616; 7,8,9–659)
İdrak Xeyiri (1) (1–142)
Ekzistensializmə qarşı (1) (1–147)
Əks Fəlsəfələr (1) (1–159)
Əxlaqlar (1) (1–174)
Hesabdan Üstün (1) (1–180)
Tarixi hadisə (1) (1–188)
Formalçılıq (1) (1–188)
Ülviyyət (1) (198)
Kapitalizm Eksportu (1) (1–201)
Gözəllik (1) (1–201)
Müasir Hal (1–7) (1–205; 2–210; 3–224; 4–233; 5–233; 6–236; 7–331)
Müasir gedişat (1) (1–208)
Əməl (1) (1–213)
Riyakarlıq (1) (1–213)
Fərqlər (1–2) (1–215; 2–271)
Xariciləşmə müstəqilliyi (1) (1–233)
Müasir Portret (1) (1–270)
Müstəqillik Çeşidləri (1) (1–284)
Müstəqilliyin ifadəsi (1) (1–284)
Hallar (1) (1–291)
Dindarlıq (1) (1–291)
Günah (1–3) (1–297; 2–305; 3–350)
Yaranış (1) (1–305)
Ləyaqətli Bilməzlik (1) (1–305)
Çeşidlər (1–2) (1–321; 2–404)
Cəfəngiyyatçılıq (1) (1–133)
Parlament (1–2) (1–349; 2–393)
Demokratik Seçkilər (1) (1–349)
Demokratiya (1) (1–350)
İdrak İnamçılığı (1) (1–356)

Gözləmələr (1) (1–365)
Özümlük (1) (1–376)
Boşluq Həngaməsi (1) (1–392)
Din Təməlçiliyi (1) (1–392)
İlahiyyat Elmi (1) (1–406)
İnsan Müstəqilliyi (1) (1–415)
İdrak Müstəqilliyi (1) (1–415)
Yalan Çeşidləri (1) (1–427)
Həqiqət Ölçüsü (1) (1–427)
Nikbinlik (1) (428)
Elmi Fəlsəfə (1) (1–428)
Tarixi Təcrübə (1) (1–441)
Həqiqət Çeşidləri (1) (1–442)
Müdriklik (1) (1–474)
“Noosferaçılığa” qarşı (1–5) (1–502; 2–552; 3–562; 4–567; 5–572)
Tərəqqi Çeşidləri (1) (1–521)
Nəticə (1) (1–553)
Tarixi Gedişat (1) (1–559)
Allahçılıq (1) (1–619)
Şərdən Xeyir götürmək (1) (1–647)
İntihar artımı (1) (1–652)
Günün Halı (1) (1–659)
Təhlükələr (1) (1–684)
Rəmzlər (1) (1–684)

# İÇƏRİSİ


**İnsanlaşmaq**.....................................................................5

**Adamlıq – İnsanlıq**..........................................................7

**Adamdan – İnsana**.........................................................19

**İnsana Yaramaq**.............................................................33
1. Cəmiyyəti Qoruyan...................................... 35
2. İnsanilik Əvəzsizliyi.................................... 36
3. Xəstəlik – Sağlamlıq.................................... 37
4. İnsani Qanunlar............................................ 39

**Özümlük – Özgəlik**........................................................40

**Dünənçilik – Sabahçılıq** ...............................................127
1. Dünənçilik – Qədimlik.................................129
2. Adam Dünənçiliyi........................................129
3. Cəmiyyət Dünənçiliyi..................................130
4. Din Dünənçiliyi...........................................131
5. Sabahçılıq Əməli.........................................132
6. İnsan Sabahçılığı.........................................132
7. Xalqçılıq Sabahçılığı...................................132
8. İnam Sabahçılığı.........................................133
9. İnsanlaşma gərəkliyi...................................133
10. Sehr, Sirr, Müqəddəslik Özümlüyü............133
11. Müdriklik Hünəri........................................134
12. Mənlik.........................................................135
13. Sabahsızlıqdan çıxmaq................................136
14. Mənəviyyat Göylüyü..................................137

**İnsanilikdən Yaranan**..................................................138

**Müqəddəslik**...............................................................145
1. Mahiyyətə Yetmək ....................................................147
2. Ali Həyat Müqəddəsliyi ...........................................147
3. İnam Müqəddəsliyi ..................................................149

4. İnsan Müqəddəsliyi ....................................................150
5. Yurd Müqəddəsliyi .....................................................151
6. Yalançı Müqəddəsliklər ..............................................152

**İnsanilik İmkanı**...............................................................155
1. İnsanilik – Mütləqilik...................................................157
2. İnsan – Zaman...............................................................158
3. İnsan – Şərait.................................................................161
4. İnsan – Mühit..................................................................164
5. İnsan – Cəmiyyət...........................................................166
6. İnsan – İnam ...................................................................169
7. İnsan – İdrak ...................................................................170
8. İnsan – Mənəviyyat........................................................172
9. İnsan – İradə....................................................................174
10. İnsan – Həyat................................................................175
11. Borc................................................................................176

**Həqiqət İnsaniliyi**.............................................................177
1. İnsan–Dünya Birliyi......................................................179
2. Nisbilik Həqiqətsizliyi – Mütləqilik Həqiqəti...............181
3. Təzahür Həqiqətsizliyi – Mahiyyət Həqiqəti................183
4. Hadisə Həqiqətsizliyi – Məna Həqiqəti........................184
5. Şər Həqiqətsizliyi – Xeyir Həqiqəti.............................186
6. Şübhə Həqiqətsizliyi – İnam Həqiqəti..........................188
7. Ötərilik Həqiqətsizliyi – Əzəlilik Həqiqəti...................189
8. Keçicilik Həqiqətsizliyi – Əbədilik Həqiqəti................190
9. Sonluluq Həqiqətsizliyi – Sonsuzluq Həqiqəti.............192
10. Qeyri-kamillik Həqiqətsizliyi – Kamillik Həqiqəti......193
11. Cəmiyyət Həqiqətsizliyi – İnsanilik Həqiqəti..............194
12. Zaman Həqiqətsizliyi – İnsanilik Həqiqəti...................195
13. Ölüm Həqiqətsizliyi – Həyat Həqiqəti..........................199
14. Həqiqət  Xeyiri..............................................................200

**İnsanilik**.............................................................................201

Fərq (1–19)* (1; 2–4**; 3–83; 4–86; 5–154; 6–158; 7–167; 8–177; 9–180; 10–215; 11–223; 12–271; 13–281; 14-300; 15-305; 16, 17, 18-408; 19-413)
Əlaqə (1–10) (1; 2–135; 3–213; 4–219; 5–224; 6–387; 7–389; 8–392; 9,10–404)
Dünya ölməzliyi (1)
Həqiqət (1–830)
Tükənməzlik (1) (1–2)
Azadlıq Zərurəti (1–2) (1–3; 2–180)
Ziddiyyətdən Yaranan (1) (1–9)
Qələbə Bayramı (1–2) (1–9; 2–208)
Təzə Şeyx Nəsrullahlar (1) (1–9)
Görmələr (1) (1–34)
Birlik (1) (1–38)
Xassələr (1) (1–39)
Doğmalıq (1) (1–48)
Ruhani Tələb (1) (1–50)
Azadlıqlar (1) (1–50)
Zaman Halı (1) (1–72)
Mərhələlər (1–3) (1–76; 2–160; 3–269)
Həqiqət Fərəhi (1) (1–77)
Dialektik Hal (1) (1–100)
İnsan Fitrəti (1) (1–118)
Özünüdərketmə (1–2) (1–129; 2–304)
İdrak Gözü (1) (1–130)
Hal (1–5) (1–135; 2–287; 3–297; 4–305; 5–399)

---

* Birinci mötərizənin içi – Kitabda həmin başlıq altında getmiş yazıların sayını göstərir.

** Tire (–) işarəsindən soldakı rəqəm "Fərq" adlı başlığın sıra nömrəsini, sağdakı rəqəm onun hansı saylı "Həqiqət"dən sonra olduğunu göstərir. "Həqiqət" adı daşımayan başlıqların hamısı üçün bu prinsip gözlənilmişdir.

Vəziyyət (1–9) (1–135; 2–268; 3–276; 4–356; 5–615; 6–616; 7,8,9–659)
İdrak Xeyiri (1) (1–142)
Ekzistensializmə qarşı (1) (1–147)
Əks Fəlsəfələr (1) (1–159)
Əxlaqlar (1) (1–174)
Hesabdan Üstün (1) (1–180)
Tarixi hadisə (1) (1–188)
Formalçılıq (1) (1–188)
Ülviyyət (1) (198)
Kapitalizm Eksportu (1) (1–201)
Gözəllik (1) (1–201)
Müasir Hal (1–7) (1–205; 2–210; 3–224; 4–233; 5–233; 6–236; 7–331)
Müasir gedişat (1) (1–208)
Əməl (1) (1–213)
Riyakarlıq (1) (1–213)
Fərqlər (1–2) (1–215; 2–271)
Xariciləşmə müstəqilliyi (1) (1–233)
Müasir Portret (1) (1–270)
Müstəqillik Çeşidləri (1) (1–284)
Müstəqilliyin ifadəsi (1) (1–284)
Hallar (1) (1–291)
Dindarlıq (1) (1–291)
Günah (1–3) (1–297; 2–305; 3–350)
Yaranış (1) (1–305)
Ləyaqətli Bilməzlik (1) (1–305)
Çeşidlər (1–2) (1–321; 2–404)
Cəfəngiyyatçılıq (1) (1–133)
Parlament (1–2) (1–349; 2–393)
Demokratik Seçkilər (1) (1–349)
Demokratiya (1) (1–350)
İdrak İnamçılığı (1) (1–356)
Gözləmələr (1) (1–365)

Özümlük (1) (1–376)
Boşluq Həngaməsi (1) (1–392)
Din Təməlçiliyi (1) (1–392)
İlahiyyat Elmi (1) (1–406)
İnsan Müstəqilliyi (1) (1–415)
İdrak Müstəqilliyi (1) (1–415)
Yalan Çeşidləri (1) (1–427)
Həqiqət Ölçüsü (1) (1–427)
Nikbinlik (1) (428)
Elmi Fəlsəfə (1) (1–428)
Tarixi Təcrübə (1) (1–441)
Həqiqət Çeşidləri (1) (1–442)
Müdriklik (1) (1–474)
“Noosferaçılığa” qarşı (1–5) (1–502; 2–552; 3–562; 4–567; 5–572)
Tərəqqi Çeşidləri (1) (1–521)
Nəticə (1) (1–553)
Tarixi Gedişat (1) (1–559)
Allahçılıq (1) (1–619)
Şərdən Xeyir götürmək (1) (1–647)
İntihar artımı (1) (1–652)
Günün Halı (1) (1–659)
Təhlükələr (1) (1–684)
Rəmzlər (1) (1–684)

[illegible], [illegible], [illegible]
[illegible] ([illegible]) [illegible]!

# [illegible]

## ([illegible])

[illegible] ([illegible]) [illegible] — [illegible] ([illegible]) [illegible] 30-[illegible] ([illegible] 2008-2009-[illegible]) [illegible], [illegible] "[illegible] ([illegible])" [illegible]. "[illegible]" [illegible] 43 [illegible] 7 [illegible].

[illegible]; [illegible], [illegible], [illegible], [illegible], [illegible], [illegible]. [illegible]. [illegible], [illegible], [illegible], [illegible].

[illegible] ([illegible]) — [illegible] — [illegible]; [illegible] ([illegible]) — "[illegible] ([illegible]) [illegible]" [illegible], [illegible], [illegible]-[illegible]. [illegible], [illegible], [illegible], [illegible].

[illegible], [illegible], [illegible]. [illegible].

[illegible]!
[illegible]!

[illegible]
*[illegible]*

*8 [illegible], 30-[illegible]. [illegible].*

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
Asif Ataya (İnam Ataya) Ali Səcdəylə!

# MÜTLƏQƏ İNAM RUHANİYYATI

## (Qutsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008-2009-ili) Asif Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi, tapındığı hissəni "On Qutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. Asif Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Qutsal Bitiq) – hazırkı Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır; Yan Bitiqlər (Əlavə Cildlər) – "Qutsal (Müqəddəs) İrs"ə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmirlər, çünki Onluq Mütləqə İnam Dünyabaxışının Cövhərini və Meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısı ilə ifadə edirlər. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Kutsal İrsi sayılır, ancaq Onluğa daxil edilmir.

İrsin yiyəsi, qoruyucusu, sorumlusu Asif Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***

*8 Köçəri Ayı, 30-il. Atakənd.*

Türkün (İlk) Ruhaniyyat Ocağı –
Asif Atanın (İnam Atanın)
Mütləqə İnam Ocağı

ASİF ATA
(Əfəndiyev Asif Qasım oğlu)
On Qutsal Bitiq'in
Yeddinci Bitiqi: Yetməli Olduğunuz
(Türk dilində)

Atakənd
30-il